**AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**“BAKI QIZLAR UNİVERSİTETİ” MMC**

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *SCİENTİFİC WORKS*

**“Elmi əsərlər” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 06 yanvar 2010-cu il tarixdə qeydiyyata alınmış (№10/M-4850) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir:**
**Filologiya, pedaqogika, psixologiya elmləri.**

*(jurnal ildə 4 dəfə nəşr olunur)*

**Cild 26 №1 2026 (65)**
**Vol. 26 №1 2026 (65)**
**Том 26 №1 2026 (65)**

**BAKI - 2026**

**Təsisçi**
*Bakı Qızlar Universiteti*

**Baş redaktor**
*pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov*

**Baş redaktor müavini**
*pedaqogika elmləri doktoru, professor Akif Abbasov*

**Məsul katib**
*Aygün Yaşar qızı Cəfərova*

**REDAKSİYA HEYƏTİ**

*filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov*
*filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı*
*pedaqogika elmləri doktoru, professor Lyudmila Verbitskaya (Rusiya)*
*filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli*
*fizika-riyaziyyat elmləri doktoru, professor Aqil Xanməmmədov*
*pedaqogika elmləri doktoru, professor Zbiqnev Kvetsinskiy (Polşa)*
*tarix elmləri doktoru, professor Tarix Dostiyev*
*tarix elmləri doktoru, professor Nərgiz Quliyeva*
*tarix elmləri doktoru, professor Anar İsgəndərov*
*tarix elmləri doktoru, professor Aytən Can (Türkiyə)*
*idarəetmə üzrə fəlsəfə doktoru, professor Jukova (Zhukova) İrina Vitalyevna (Ukrayna)*
*fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev*
*pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılov*
*pedaqogika elmləri doktoru, professor Anastasiya Vançova (Slovakiya)*
*pedaqogika elmləri doktoru, professor Nikolay Dmitriyeviç Nikandrov (Rusiya)*
*pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov*
*filologiya elmləri doktoru, professor İsmayıl Kazımov*
*pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədov*
*filologiya elmləri doktoru, professor Nizami Məmmədov*
*filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı*
*pedaqogika elmləri doktoru, professor Aygül Bulatbayeva (Qazaxıstan)*
*psixologiya elmləri doktoru, professor Ramiz Əliyev*

**Bakı Qızlar Universiteti Elmi Şurasının 18 fevral 2026-cı il tarixli iclasının (protokol №6) qərarı ilə nəşr edilir.**

***UOT 371***

## ÇAĞDAŞ POEZİYAMIZIM SAYILIB-SEÇİLƏN NÜMAYƏNDƏSİ

**Akif Nurağa oğlu Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
**ORCİD:** 0000-0002-9210-7141
**E-mail:** a.abbasov@arti.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.02

***Açar sözlər:*** *poeziya, müasir poeziya, müasir poeziyamızın nümayəndəsi, şairə, Mahirə Nağı qızının şeirləri*
***Ключевые слова:*** *поэзия, современная поэзия, представитель современной поэзии, поэтесса, стихи Махиры Наги гизи.*
***Keywords:*** *poetry, contemporary poetry, contemporary poet, poetess, poems by Mahira Nagigizi*

Mahirə Nağıqızı tanınmış alim olmaqla yanaşı istedadlı şairdir, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Gözəl şeirləri vardır. Qələmindən neçə-neçə şeir kitabı çıxmışdır. Diqqət yetirək: "Mənim anam" (2006), "Su at dalımca, ana" (2006), "Ana sevgisindən doğan nəğmələr" (2008), "Yaşadacaq anam məni" (2009), "Ana kəndim Xalxalım" (2010), "Ömrün çıraqdır sənin" (2010), Sözün hikməti" (2012), "Analı dünyam" (2015), "Haqqa çağıran səs" (2015), "Dilimiz – varlığımızdır" (2021), "Salam Olsun (vətənpərvərlik şeirləri)" (2021) və s.

Azərbaycan bəstəkarları tərəfindən Mahirə xanımın sözlərinə 30-dan artıq mahnı bəstələnmiş, aşıqların ifasında 70 mahnı səslənmişdir. Bəzi mahnıları diqqətə çatdıraq: Sevinc Mansurovanın bəstəsində "Azərbaycan" və "Layla çal, yatım ana; (hər iki mahnının ifa edir Gülüstan Əliyeva), "Ata Heydər, oğul İlham", Arif Səlimovun bəstəsində "Ay ana", "Ana", "Balam" (mahnıların ifası: Gülyanaq Məmmədova); Tahir Mahiroğlunun bəstəsində "Ata" (ifa: Eldəniz Məmmədov); Tahir Əkbərin bəstəsində "Qısqanıram (ifa: Bəyimxanım Vəliyeva) və s.

Mahirə Nağıqızınn şeirləri mövzu müxtəlifliyi, mövzu rəgarəngliyi, məzmun dolğunluğu baxımdan diqqəti cəlb edir. İlk növbədə qeyd etməliyik ki, o, vətənpərvər şairdir. Əsərlərində milli ruhun təbliği, milli özünüdərkə xidmət özünəməxsus yer tutur. Vətən sevgisini, onun bütövlüyünü, toxunulmazlığını, müstəqilliyini, azadlığını dönə-dönə vurğulayaraq doğma yurdu vəsf edir. Torpaqlarımızın işğal altında olduğundan yana-yana danışır, lakin inanır ki, gec-tez tutulmuş ərazilərimizə sahib olacağıq. Erməni faşist işğalçılarına qarşı sonsuz nifrətlə mübarizəmizdən, müharibəmizdən söz açır, erməni ordusunu 44 gün ərzində darmadağın etməyimizi, zabit və əsgərlərimizin fədakarlığını, şəhidlərimizin, qazilərimizin böyük hünərini parlaq boyalarla işıqlandırılır. "Salam olsun" şeirini yada salaq:

Rəzil oldu bizi qüvvə saymayanlar,
Qanda batdı qan içməkdən doymayanlar.
Bu milləti yıxılmağa qoymayanlar,
Dünyada hər anınıza salam olsun!

Bu tarixi qələbədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rolu xüsusi vurğulanır, Vətən müharibəsində ölkəmizə dəstək duran Rəcəb Tayyib Ərdoğan böyük məhəbbətlə yad edilir:

Adı qalar zaman-zaman Sər doğanın,
İzi qalmaz hər olanın, hər doğanın.
İlham, sənin, Rəcəb Təyyub Ərdoğanın,
Həmişə var canınıza salam olsun!
Əldə silah, fədakarlıqla, hünərlə döyüşənlər,

Vətənin azadlığı, ərazi bütövlüyü, müstəqilliyi uğrunda müharibə meydanında həlak olanlar da unudulmur:

Şəhidlərim, haqqınız var çiynimizdə,
Kəfən geydik, qalacaqdır əynimizdə,
Çıxmayacaq, yaşayacaq eynimizdə,
Tökülən al qanınıza salam olsun!

Azərbaycanımız yüz illər, min illər ərzində Vətənimizin müstəqilliyi, azadlığı uğrunda yüz minlərlə oğlunu, qızını itirmişdir. İkinci dünya müharibəsində cəbhəyə 600 mindən çox azərbaycanlı yola düşmüş, onların yarısı geri qayıtmamış, həlak olmuşdur. Birinci və ikinci Qarabağ müharibələrində nə qədər şəhid vermişik. Bir də 20 yanvar şəhidləri vardır. SSRİ rəhbərliyi öz vətəndaşlarının üzərinə tanklar yeritmiş, dinc sakinləri avtomat güllələrinə tuş etmişdir. Söhbət 1990-cı il yanvar qırğınından gedir. Mahirə xanımım “Şəhidlər” şeri sovet ordusunun xalqımıza tutduğu divanı yada salır:

Doğulub düşmənə daş atmaq üçün,
Ürəyi qorxudan boşaltmaq üçün.
Ölərlər vətəni yaşatmaq üçün,
Hər qəlbdə bir qala tikər şəhidlər.

Vətən Mahirə xanımın ən çox sevdiyi və yüksək dəyər verdiyi mövzulardandır. Əslində burada bir qəribəlik də yoxdur. Bütün şairlər ilk növbədə ana adlandırdığımız Vətəni tərənnüm edən şeir yazmışlar. Biz hamımız Vətəni, doğma diyarı sevirik. Bunu hərəmiz fərqli şəkildə mənalandırırıq. Birimiz şeirlərilə, digəri nəsr əsəri ilə, başqası memarlıq işi ilə, kimisi onun müdafiəsinə atılmaqla, qeyriləri Azərbaycanı dünya miqyasında tanıtmaqla. Mahirə Nağıqızı da həm özünün Vətənə məhəbbəti, həm də “Qar havası var” və başqa şeirləri ilə öz mövqeyini bildirir. Diqqət yetirək:

Haraya getsəm də, Vətən, ay Vətən,
Könlümdə ruhunun var, havası var.
Ayrılıqdı bilməm, xiffətdi – bilməm,
Sənsiz hər tərəfdə qar havası var.
Köksündə dondurmaz ayazı qışın
İstisi bəsimdi bircə qarışın.

Qürbətdə küləyin, yağan yağışın,
Səsində bir ahu-zar havası var.

Mahirə xanım – anadır. Ananın insan həyatında nə demək olduğunu çox gözəl bilir və ailədə analıq vəzifələrini uğurla, yüksək səviyyədə yerinə yetirir. Şeirlərinin bir çoxunu analara, xüsusən özünün dünyalar qədər bağlandığı sevimli anasına həsr etmişdir.

Mahirə xanım 2020-ci ildə işıq üzü görmüş "Onun daş nağılı" (411 səh.) kitabına ana ilə bağlı üç şeir daxil etmişdir. Qəribə burasındadır ki, hər üç şeirini "Anama" adlandırmışdır. Əslində burada qəribəlik də yoxdur. Bu şeirlər şairin anaya, anasına böyük, dərin məhəbbətinin timsalı kimi meydana gəlmişdir.

Şairin Anaya həsr etdiyi şeirlər arasında "Saçların balladası") şeri səmimiliyi, təbiiliyi ilə diqqəti cəlb edir. Mahirə xanım ana qayğısının, ana nəvazişinin, ana sevgisinin hamımıza tanış olan aşağıdakı notları ilə bir daha bizi tanış edir:

Hər dəfə başımı dizinin üstə –
Çəkərdi, saçımı oxşardı anam.
Bir onu, bir də ki, qulac saçıma
Dəyən nəfəsini unudammıram.

"Anama" adlanan digər şeirdə ana nikbin əhval-ruhiyyədədir. Həmişə belə olub, onu heç kim bu həyatdan gileyli görməyib:

Bir nəfər görmədi, səni bir nəfər,
Həyatdan gileyli, bəxtdən narazı.

Analar zəhmətə qatlaşan olurlar. Evin bütün ağırlıqları onların üzərinə düşür. Evdə görüləsi iş-güc çoxdur. Şeirin qəhrəmanı da hər şeyi çatdırır. Buna səhər ertə yuxudan oyanmaq, işə başlamaqla, özü də kiminsə şirin yuxusuna haram qatmamaqla nail olur.

Yadımdan çıxmaz ki, hər səhər erkən,
Elə gəzinərdin evdə yavaşdan.
Nə cür çatdırırdın, deyə bilmərəm,
O boyda işləri durub o başdan…

Şair çox düşünüb-daşınır, dağı Arana, Aranı dağa aparır. Fəqət dünyada anadan qiymətli heç nə tapa bilmir. Bunu yəqin etdikdən sonra qələmə sarılır:

Ay ana, bilirəm bu kainatda,
Qiymətli nə varsa oyun-oyuncaq
Hər şeyin qiyməti olur həyatda,
Sənin qiymətini tapmadım ancaq.

Qadınları, anaları qorumaq lazımdır. Ana böyük qüvvə, müqəddəs varlıq, evin dirəyi, övladın gözünün bəbəyidir. Uşaqların həyatında hər iki valideyn əhəmiyyətlidir. Fəqət ananın xüsusi rolu vardır. Təsadüfi deyilməyib ki, "Uşaq atadan yox, anadan yetim qalar". Hətta ana,

qadın həyatdan köçəndə kişilərin özləri yetim qalırlar. Musa Yaqub demişkən "Qadınsız yaşamaq, ürəyinin dərdini həyat yoldaşıyla bölüşə bilməmək əzabdır!"

Mahirə xanım şeirlərinin birində ananın fikir çəkdiyini, narahat olduğunu, hətta göz yaşı tökdüyünü görüb qayğılanır. Bu onu varından yox edir. Anaya təsəlli verməyə, onun dərdini, kədərini yüngülləşdirməyə çalışır:

Yenə qəlbim göynətməsin qəlbini,
Ağ saçını suya sərib ağlama.
Kim böləcək bölünməyən dərdini,
Fəqan çəkib qərib-qərib ağlama.

İstəyir ki, anaya özünü ələ alsın, qayğılanmasın, göz yaşı tökməsin. Axı göz yaşı təsəlli ola bilər, dərdi, kədəri bir azca, azacıq yüngülləşdirə bilər, fəqət "bölünməyən dərdini heç kim bölə bilməyəcək" ("Kim böləcək bölünməyən dərdini"). Əbədi heç nə olmur, gələn – gedir, dolan – boşalır, olan – olmur. Hər şey də, şeirdə deyildiyi kimi, "gəldi-gedərdir". Diqqət yetirək:

Ah eləmə, ahu-zarın hədərdi,
Bu dünyada hər şey gəldi-gedərdi,
Göz yaşımnan göyətmişəm bu dərdi,
Təsəlli ver, durub-durub ağlama.

Mahirə Nağıqızının qadına, anaya xüsusi dəyər verməsi təbiidir. Professor T. Novruzovun aşağıdakı fikrini mən də təsdiqləyirəm: "Mahirə Nağıqızının poeziyasının baş obrazı ANAdır".

Mahirə xanımın bədii yaradıcılığının bir istiqamətini də Azərbyacanımızın adlı-sanlı insanlarına, məşhur elm adamlarına ünvanlanmış şeirləri təşkil edir. Bu baxımdan professor Həsən Mirzəyevə həsr etdiyi şeir səciyyəvidir:

El oğluydu, el adamı, – dedilər,
Tək qoymayıb bir adamı, – dedilər.
Ata, qardaş, əmi, dayı, – dedilər,
Dağda, düzdə Həsən Mirzə yaşayır.

Şeirdən göründüyü kimi, Həsən Mirzəyev təkcə adlı-sanlı alim, millət vəkili olmaqla öz fəaliyyətini məhdudlaşdırmayıb, el oğlu, el adamı olub, camaatın xeyrinə, şərinə yarayıb. Belələri həyatda həqiqi şəxsiyyət statusu alırlar.

Məhəbbət əbədi ehtiyacdır. Nazim Hikmətin dediyi kimi, "İnsanın ən böyük kəşfi məhəbbətdir". Elə şair tapılmaz ki, eşq, sevgi, məhəbbətə aid şeirləri olmasın. Hətta bəzi məşhurlar məhəbbət şeirləri ilə yaradıcılığa başlamışlar. Bu mənada Mahirə xanımın şeirləirini arayıb-axtardım, görüm ki, onun məhəbbətə aid hansı şeiri var. Tapdım. Yalnız birini – "Sənsiz" şeirini diqqət mərkəzinə gətirmək istəyirəm. Onun da bir bəndini:

Bu səhra dünyamın yuxularının,
Hər gecə gəzdiyi ormanı sənsən.
Yaralı qəlbimin, xəstə canımın,
Yeganə davası, dərmanı sənsən.

Eşq ilə dikələn dərd – sarayıymış,
Başqa cür deyilən hay- harayıymış.
Sənsiz yaşadığım gün – haramıymış,
Ömrümün-günümün hər anı sənsən.

Mahirə xanımdan ötrü məhəbbət ümiddir, imandır, inam və nəhayət, həyatdır. Eşqə mübtəla olan şəxs əxlaqını saflaşdırır, mənəviyyatını zənginləşdirir, pak, kindən-küdurətdən azad olar.

"Sənsiz" şeirindən göründüyü kimi, şair eşqi "yaralı qəlbin, xəstə canın davası-dərmanı" adlandırır. Aşiqi "ömrümün-günümün hər anı" hesab edir. Uğurlu bənzətmələrdir. Mahirə xanımın şairləri arasında bir şeri ("Köhnədi") xüsusilə məni valeh etdi. Mənalandırma son dərəcə gözəldir. Yalnız iki bəndini nümunə gətirirəm:

Zaman gedər, zaman gələr,
Dünyanın çarxı köhnədi.
Buluddan yağış ələnər,
Aparan arxı köhnədi.
Danış, dərdin mənə gəlsin,
Təki sənin üzün gülsün.
Taxda çıxan hardan bilsin,
Çıxdığı taxtı köhnədi.

Münasibət bildirək: Yağış yağır. Hamının ürəyincədir ki, yağış olsun, əkin-biçin suvarıla bişin. Suyu arx aparır, arx isə köhnədir, yağış suyunu ünvana çatdıra bilmir ("Buluddan yağış ələnər, Aparan arxı köhnədi").

Həyatda hamı, hər bir şəxs bir vəzifə sahibi olmaq istəyir. Amma o vəzifəni necə yerinə yetirəcək? Tapşırılan işin öhdəsindən gələ biləcəkmi? Bir çoxlarının həsrətində olduğu vəzifə nə qədər arzuolunan, möhtəşəm olsa da, neçə-neçə insanı yola salıb. Odur ki, vəzifə alan şəxs düşünüb-daşınmalıdır: o, vəzifə taxtından düşəndə necə düşəcək? ("Taxda çıxan hardan bilsin, Çıxdığı taxtı köhnədi").

Qeyd etdiyimiz kimi, Mahirə Nağıqızının bədii yaradıcılığı əhatəlidir. Biz bu yaradıcılıqdan bəzi nümunələri diqqət mərkəzinə gətirə bildik. Təbii ki, bütün şeirlərinii üzərində dayanmaq mümkünsüzdür.

Bu yazını bitirərək bir daha vurğulayırıq: Mahirə Nağıqızı çağdaş poeziyamızın sayılıb-seçilən nümayəndələrindənidir! Qoy bundan sonra da belə olsun!

Mahirə xanımın şeirləri sevilə-sevilə oxunur! Şair sevilirsə, deməк, o, əbədilik qazanıb.

Əbədilik qazanan şairlər var olsunlar!!! Mahirə xanıma uğurlar diləyirik!

**Problemin aktuallığı.** Elmlər doktoru, professor Mahirə Nağıqızının şeirlərinin təhlili aparılır.

**Problemin yeniliyi.** Alimin poeziya aləmindəki uğurları diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat**

1.Abbasov, A.N. Çağdaş poeziyamızın sayılıb-seçilən nümayəndəsi. https://yazarlaraz.wordpress.com/2023/07/26/cagdas-poeziyamizim-sayilib-secilen-numayendesi/

2. Mahirə Nağı qızı. Şeirlər. https://yazarlar.az/2022/08/27/mahir%C9%99-nagiqizi-seirl%C9%99r/

**A.N.Abbasov**

**Çağdaş poeziyamızım sayılıb-seçilən nümayəndəsi**
**Xülasə**

Mahirə xanım Azərbaycan Dövlət Pedaqoji Universitetin beynəlxalq əlaqələr üzrə prorektorudur, Prezident təqaüdçüsüdür. Filologiya elmləri sahəsində səriştəli tədqiqatçıdır. Fəlsəfə doktoru elmi dərəcə almaq üçün "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda (2012); elmlər doktoru elmi dərəcə almaq üçün isə "XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el sairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" mövzusunda (2017) dissertasiyalar müdafiə etmişdir.

**А.Н.Аббасов**

**Известная предствительница нашей современной поезии**
**Резюме**

Махира Ханум — проректор по международным отношениям Азербайджанского государственного педагогического университета, стипендиат президента. Компетентный исследователь в области филологических наук. Защитила диссертации на соискание степени доктора философии по теме «Филологические вопросы в творчестве Гасана Мирзаева» (2012 г.) и на соискание степени доктора наук по теме «Языковые и стилистические особенности творчества ашугов и народных музыкантов XIX-XX веков в Западном Азербайджане (Дералайазский район)» (2017 г.).

**A.N.Abbasov**

**A famous representatıve of our contemporary poetry**
**Summary**

Mahira Khanum is the Vice-Rector for International Relations at the Azerbaijan State Pedagogical University and a recipient of the Presidential Scholarship. She is a competent researcher in the field of philological sciences. She defended her dissertation for a PhD on "Philological Issues in the Works of Hasan Mirzayev" (2012) and her dissertation for a Doctor of Science on "Linguistic and Stylistic Features of the Works of Ashughs and Folk Musicians of the 19th and 20th Centuries in Western Azerbaijan (Deralayaz District)" (2017).

**Redaksiyaya daxil olub:** 10.03.2026

***UOT 37.01***

# PROFESSOR MAHİRƏ HÜSEYNOVANIN ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ASPETKƏRİ: MİSSİYANIN SOSİAL-PEDAQOJ KOQNİTİV KREATİVLƏRİ

**Həsən Bayram oğlu Bayramov**
*Bakı Qızlar Universitetinin Pedaqogika kafedrasının müdiri, pedaqogika elmləri* doktoru
**ORCİD:** 0000-0003-2415-0284
**E-mail:** bayramov.hasan@mail.ru
**Sara Məhəmmədtağı qızı Bayramova**
*Bakı Qızlar Universitetinin dosenti*
**E-mail:** bayramovasara@bqu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.03

***Açar sözlər:*** *dilçilik tədqiqatları, filoloji elmi irs, Azərbaycançılıq ideologiyası, vətəndaşlıq mövqeyi, qadın hərəkatı*
***Ключевые слова:*** *лингвистические исследования, филологическое научное наследие, идеология азербайджанизма, гражданская позиция, женское движение*
***Key words:*** *linguistic research, philological scientific heritage, ideology of Azerbaijaniism, civic position, women's movement*

Cəmiyyətdə Mahirə Hüseynova respublikamızın tanınmış elmi və ictimai simalarından olmaqla, intellektual, insani, ictimai proseslərə açıq, fəal vətəndaş mövqeyi ilə müasir Azərbaycan, eləcə də ümumtürk filologiyası və ictimai-humanitar fikrinə imzasını atmış ziyalı, çoxsaxəli elmi-pedaqoji və ictimai fəaliyyətində aşağıdakı istiqamətləri ilə seçilir:

- Onun dilçilik sahəsindəki tədqiqatları, xüsusilə Türkologiya Azərbaycan dialektologiyası, Müasir Azərbaycan dili, Azərbaycan dilinin üslubiyyatı ilə bağlı əsərləri ciddi filoloji elmi ədəbiyyatlardandır. Dilçiliyin bu və ya digər istiqamətləri ilə oturuşmuş klassik elmi sistemləşmənin şərtində ənənəvi elmi ədəbiyyatlarla bərabər müstəqillik dövrünün yeni yanaşma üslubuna istinadən nəzəri və tarixi elmi külliyata nəzəri filologiyanın yeni isimlərini ictimaiyyətə peşəkar dilçi olaraq təqdim edə bilməsidir. Müstəqillik dövrü elmi linqivistik plyedanın yaş fərqlərinə baxmayaraq onun mərhəm elmi qənaətləri ilə püxtələşmiş elmi icma səviyyəsinə yüksəlmişdir. Bu yaxınlarda Cənab Prezidentin baş elmi məbədimizin 80 illik yubileyindəki proqram xarakterli çıxışında ana dilimizin statusu ilə bağlı qənaətləri elmi-filoloji ictimaiyyətin marağına səbəb olmuşdur. Görkəmli dilçi alim professor Mahirə Hüseynova onun toxunduğu çoxsahəli məsələləri pedaqoji məcraya yönəldərək “İlham Əliyevin ana dilindən açıq dərsi” formatında orijinal yanaşması gündəmə çevrilmişdir. Haqlı olaraq deyir ki, ana dili təkcə ünsiyyət vasitəsi deyil, həm də milli mənsubiyyətdir, mənəvi varlığın əsas daşıyıcısıdır. Xüsusilə onun bayatılarında dil ana kimi müqəddəs, vətən kimi doğma, xalq kimi əziz bir dəyər kimi təqdim olunur. Mahirə Nağı qızının dil lakonikliyi sintaktik qəlblərin obrazlaşdırma üsullarından biridir. Bu üsul daxilində mükəmməl leksik boyalar poetik təfəkkürün gücü ilə şairin daxili məzmununa simmetrik bədii mükəmməliyinə çökür. (Zaur. Ustac. Olaylar: 2025 17-23 oktyabr N:36, s.19-21).

Müasir filoloji camiyənin istedadlarından olan Sərxan Yavərin ifadəsi ilə desək, “onun” elmi mətndə mürəkkəb sintaktik konstruksiyalar nümayiş etdirməsi onun bir neçə məntiqi əlaqəni eyni anda idarəetmə qabiliyyətini, elmi təfəkkürün dərinliyini və sistemliyini göstərir. Mahirə Hüseynovanın arqumentləri necə əlaqələndirməsi hansı keçidlərdən istifadə etməsi və fikirlərini hansı ardıcıllıqla inkişaf etdirməsi onun elmi üslubunun və orijinallığının əsas göstəricisidir.

— Bədii əsərlərində, professor Mahirə Hüseynovadan Mahirə Nağı qızına keçidin harmoniyası elmi hikmətlə bədii düşüncənin sintezinin yeni poetik-haqqa çağıranlara salam olsun müraciəti ilə Anadan-Vətənə, oradan dövlətə, sonra da vətəndaşlığa yüksəlməklə professor Ağarəhim Rəhimovun fəlsəfi essesində deyildiyi kimi “Qüdrətdən doğan nura yüksələn insani dərki ehtiva edən” - əbədiyyətə çağırışı özündə birləşdirən insanlıq simfoniyasıdır. Ağarəhim həmin əsərində yazır. “İnsan yaranmışların alisidir. Onun tarix yaşadığı cəmiyyət və gələcək nəsillər qarşısında öz borcu, öz məsuliyyəti var. O, verəcəyi borcun yerini, məqamını əvvəlcədən dərk etməlidir. Əqidəmcə hər bir bəşər övladı var-dövlət toplamaqla, altunlar yığmaqla qala bilməz. Əslində onun buna mənəvi haqqı da yoxdur. Əgər imkanım varsa ehtiyacı olanlara dayaq durmuramsa, bir kimsəsizi sevindirməyi bacarmıramsa, qəbahətlərdən daim özümü kənarlaşdırıramsa, mən könlümün mülkünü bəzəyən, orada zəngin sərvətlər toplayan, ətir saçan gül çələngləri qoya bilərəmmi?! İnanmıram... İnsanın ən böyük amalı, həyat eşqi, yaşamağa olan məhəbbəti qəlblərə sevic, fərəh gətirən əməllərinin üzərindən keçir... Nə fərqi var, o dünya, ya bu dünya. Haqqı, ədaləti itirəndə vicdan əzabı çəkirsən. Rahatlığın əlindən alınır. Vicdanın səsi eşidilməyəndə, ya batanda elə bu fani dünyada əzəmətini itirir”. S.55-56 (Ağarəhim Rəhimov. “Qüdrətdən doğan nur”, B.2005. s.55-56 (cəm: 397) Mahirə elmi üslubda sadə amma o qədər də yüksək fəlsəfi əxlaqi qənaətləri ilə süslənmiş poeziyası kövrək qadın ruhunun ifadəsi olaraq qalmış ictimai-poetik çağırışların yüksək ruhu baxımından vətənpərvərlik poeziyasıdır, özündə ciddi hədəfləri ehtiva edən fəal vətəndaş poeziyasıdır.

- Professor Mahirə Hüseynovanın Ümummilli lider Heydər Əliyevin unikal natiqlik nitq mədəniyyəti kontekstində apardığı araşdırmaları, xüsusilə “Ulu Öndərin natiqlik məharəti”, “Missiya”, “Baxış bucağı”, “Heydər Əliyev və strateji azərbaycançılıq” nəhayət, Heydər Əliyev və Azərbaycan dilinin inkişaf strategiyası” adlı əsərləri klassik tədqiqatlar olaraq elmi ictimaiyyətin diqqətindədir.

Əliyevşünaslıqla bağlı aparılan çoxsaylı tədqiqatlardan üstün cəhəti ondandır ki, onların əksərində publisistika və pafos hakim olduğu halda, professor Mahirə Hüseynovanın əsərlərində ciddi elmi mühakimələri, nəzəri əsaslandırmaları, xüsusilə əvvəlki və sonrakı hakimiyyətləri dövrünün ideoloji paralelləri ilə Heydər Əliyevin müstəqil dövlətçilik kursunun şəxsiyyətindən fitri qabiliyyətindən və zəngin həyat təcrübəsindən qaynaqlanan titanik fəaliyyətinin geniş mənzərəsini yarada bilməsi baxımından elmi politoloji kreativləri ilə seçilməsidir. Onun “Baxış bucağı: Heydər Əliyev və strateji azərbaycançılıq” əsəri ictimai-humanitar tutumu ilə çox məşhurdur. Bu əsər Ulu Öndərin Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu, dil və ədəbiyyat, təhsil, mədəniyyət sahəsində həyata keçirdiyi islahatlar, azərbaycançılıq ideologiyasının təşəkkülü və formalaşması uğrunda mübarizəsini təkzibedilməz dəlillərlə oxuculara çatdırılır. Bu haqda deyilir: Heydər Əliyevin zəngin siyasi həyatı daim zəfərlərlə müşayiət olunan əsil qazilik məktəbidir. Onun böyük dühası, siyasi idarəçilik istedadı, dövlətçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələdliyi və siyasi fəaliyyəti boyu

bu prinsiplərə istinad etməsi fenomenal şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə qərarlarının doğruluğunu təmin edən, qələbələrini şərtləndirən amillərdən idi. Ümummilli lider bu təməl prinsiplər içərisində Azərbaycançılığa xüsusi önəm verirdi. Azərbaycançılıq Heydər Əliyevin milli dövlətçilik düşüncəsində milli-siyasi həmrəyliyi, vətəndaş sülhünü, Azərbaycanda yaşayan xalqların monolit birliyini, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, vahid coğrafi-siyasi məkanda bütün vətəndaşların hüquq və azadlıqlarının təminatını, mütərəqqi tarixi ənənələri və müasir siyasi gerçəkliyi, vahid, bölünməz Vətən anlayışını, dövlət-vətəndaş münasibətlərini özündə ehtiva edən ideologiya kimi dərk edilirdi. Özünün bilavasitə müəllifliyi ilə yaradılan müstəqil Azərbaycanın ilk Konstitusiyasında, “Dövlət dili haqqında” Qanunda və digər tarixi əhəmiyyət daşıyan sənədlərin və qərarların qəbulunda dahi şəxsiyyətin bu taleyüklü məsələyə necə həssaslıqla yanaşması və onun tarixi uzaqgörənliyi kitabda zəngin faktik materiallarla şərh edilir”.

Respublikada filoloji-pedaqoji elmi istiqamətlər üzrə elmi işlərin dəyərləndirilməsi prosesinə rəhbərliyi də heç bir təmənna güdmədən ləyaqətlə yerinə yetirdiyi fəal vətəndaş simasını tamamlayan üstün xarakterik keyfiyyətlərindəndir. Onun şəxsiyyət və ziyalı meyarına əsaslanan intellektual simasını yüksək səviyyəsi, bir azda qabarıq desək yəni, elmi obyektivliyi və kristal insani keyfiyyətləri özünəməxsus “əyari-asis testi” bir az da obrazlı şəkildə desək yəni aristokratlığı tamamlayır.

Professor Mahirə Hüseynova görkəmli elm, ictimai-siyasi xadim, məşhur 91-lər siyasi təşəbbüsünün fəal üzvlərindən olan Əməkdar elm xadimi, Milli Məclisin sabiq üzvü Həsən Mirzə ocağından dərs götürmək baxımından da örnək ailəni təmsil edir. Bu ailə-ocağı intellektual-mənəvi əhatə dairəsi ilə bərabər, daha çox ictimai mövqeyi, dövlətçiliyə sədaqətli və keyfiyyətli xidmətləri ilə seçilən xüsusi ailədir. Onların başlıca xidməti üslubu etimad göstərilən, yüksək dövlət vəzifələrində prinsipiallığı, cəmiyyətə açıqlığı və etibarlığı ilə rəsmi ailə imicini təmin etməsidir. Tapşırılan yüksək xidməti etimadi aldıqları ailə tərbiyəsinin nəticəsi olaraq unutmayan, rəsmi tapşırığı mədi-mərdanə həll edən, bəzilərindən fərqli olaraq şəxsi nəfisini ictimai tapşırığdan çox-çox aşağıda tutan vətənpərvər ailədir. Bütün bunlar ailənin sevimlisi olan professor Mahirə Hüseynovanın da şəxsiyyətini tamamlayan çoxsaylı keyfiyyətləru içərisində mühüm yer tutur.

— Mahirə xanımın şəxsiyyətini tamamlayan mühüm keyfiyyətlərindən biri də müasir mərhələdə ölkəmizin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın liderliyində geniş vüsət almış və cəmiyyətin bütün təbəqələrini əhatə edən Respublika qadın Hərəkatının ən fəal simalarından olmasıdır. O, respublika Qadın Hərəkatında əsas göstərilən başlıca prinsipi gözü hansısa ölkədə, qurumda, şəxsiyyətdə yox dövlətdə, vətəndə olmağa üstünlük verərək təmsil olunduğu 91-lər hərəkatından bəhs edərək, demişdir: 91-lər onlar artıq dillərdə əzbər olublar. Mən 91-lərin hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm. Bu gün də onların hamısına-həyatda olmayanlara Allahdan rəhmət diləyir, yaşayanlara da bir daha sonsuz hörmət və ehtiramımı bildirirəm... Onların gördükləri işlər, xidmətlər bizim partiyanın və hər bir şəxsin o cümlədən mənim qəlbimdə əbədi yaşayacaqdır”. Onların müraciəti bütün Azərbaycan xalqının istəyinin ifadəsi idi. Azərbaycan qadını ailə ocağının dəyəri olaraq təmsil etməklə, XXI əsrin qlobal çağırışları kontekstində cəmiyyətimizin qarşısında duran başlıca vəzifələrin həllində fəal və ləyaqətli qadın ziyalı nümunəsi göstərməsidir.

— Həyatımın ən məhsuldar dövrünə qədəm qoyan professor Mahirə Hüseynovanın yeni

tipli vətəndaşlıq mövqeyini təmsil edən bir mühüm keyfiyyəti də ölkə Prezidenti, Müzəffər Ali Baş komandan cənab İlham Əliyevin çox ciddi strateji hədəflərə hesablanmış Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü kimi onun təşkilatlanmasında və hüquqlarının respublika və beynəlxalq miqyasda tanıdılmasında göstərdiyi vətənpərvər təşkilatçılıq keyfiyyətidir.

— İcmanın İdarə Heyətinin üzvü, ən nümunəvi rayon icmaları olam Keşkənd və Paşalı İcmalarının rəhbər-koordinatoru kimi göstərdiyi fədakarlığı da xüsusi qeyd edilməlidir. Onun bilavasitə rəhbərliyi ilə Bakıda, Naxçıvanda, Qubada, Qaxda və başqa şəhər və rayonlarda həyata keçirilən festivalların, konfransların, müsabiqələrin yüksək təşkilatçılıq səviyyəsinin təmin edilməsidir. Bu, ata-baba ocağına Qayıdış Konsepsiyasında ifadə edilmiş məqamə indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin daim etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdit kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən, hüquqi baxımdan məcburi olan, müvafiq verifikasiya və zəmanət mexanizmini ehtiva edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir. Bu məqsədlə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhtəliyi kimi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsində də təsbit olunmasına çalışacaq

**ANA DİLİM**

Bu dünyanın yaşı qədər tarixin var,
Sonu qədər, başı qədər tarixin var,
Dağı qədər, daşı qədər tarixin var,
Ha baş vursam, bitməz qatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!

Ucsuz Qıpçaq çöllərindən havalandın,
Qədim Oğuz ellərindən havalandın,
Qopuzumun tellərindən havalandın,
Sənlə atdım qaramatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!

Yurd yaratdın, xalqıma ev-eşik oldun,
Laylalarla ruhumuza beşik oldun
Dünyamızın sərhədinə keşik oldun,
Millət etdin el-elatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!

Nizaminin hikmətini sən yaratdın,
Nəsiminin qüdrətini sən yaratdın,
Füzulinin fitrətini sən yaratdin,
Hikmət dolu söz büsatı, ana dilim.
Dədəm-babam amanatı, ana dilim!

Yasaların kəmfürsətə ox olacaq,
Yadlar səndə əriyəcək, yox olacaq:
"Azərbaycan", "Heydər baba" çox olacaq,
Onlar övlad hesabatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!

**Problemin aktuallığı.** Müasir dövrdə milli-mənəvi dəyərlərin qorunması, ana dilinin inkişaf strategiyasının elmi əsaslarla işlənməsi və ictimai-humanitar fikrin yeni mərhələdə istiqamətləndirilməsi xüsusi aktuallıq kəsb edir. Qloballaşma şəraitində dil, kimlik və dövlətçilik məsələlərinin vəhdətdə araşdırılması həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət daşıyır. Filoloji tədqiqatların ictimai-siyasi proseslərlə əlaqələndirilməsi, vətəndaşlıq mövqeyi ilə elmi yanaşmanın sintezi çağdaş elmi düşüncənin prioritet istiqamətlərindəndir. Eyni zamanda, azərbaycançılıq ideologiyasının elmi-nəzəri təhlili və onun dövlətçilik kontekstində şərhi cəmiyyətin ideoloji bütövlüyünün möhkəmləndirilməsinə xidmət edir. Qərbi Azərbaycana qayıdış məsələsinin hüquqi, tarixi və siyasi aspektdən gündəmə gətirilməsi isə beynəlxalq münasibətlər sistemində milli maraqların müdafiəsi baxımından xüsusi aktuallıq daşıyır.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi dilçilik, ədəbiyyatşünaslıq və politoloji düşüncənin vahid konseptual çərçivədə təhlil olunmasında ifadə edilir. Ana dilinin yalnız kommunikativ vasitə deyil, milli-mənəvi identikliyin əsas daşıyıcısı kimi təqdim edilməsi yeni metodoloji yanaşma ilə əsaslandırılır. Elmi üslubla bədii düşüncənin sintezinin sistemli şəkildə araşdırılması filoloji diskursda fərqli baxış bucağı formalaşdırır. Dövlətçilik ideyalarının və azərbaycançılıq məfkurəsinin elmi-nəzəri əsaslarla təhlili ideoloji paralellər kontekstində yeni interpretasiya imkanları yaradır. Bununla yanaşı, qayıdış konsepsiyasının ictimai-siyasi və hüquqi aspektlərinin elmi arqumentlərlə təqdim olunması mövcud tədqiqatlardan fərqlənən sistemli yanaşmanı ortaya qoyur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri ali məktəblərdə filologiya, dilçilik və ictimai elmlər üzrə tədris prosesində istifadə oluna bilər. Ana dilinin təbliği və nitq mədəniyyətinin inkişafı istiqamətində metodik vəsaitlərin hazırlanmasında nəzəri baza rolunu oynaya bilər. Dövlətçilik və vətəndaşlıq mövqeyinin formalaşdırılması ilə bağlı maarifləndirici proqramların hazırlanmasında tətbiq imkanlarına malikdir. Qərbi Azərbaycana qayıdış ideyasının hüquqi və beynəlxalq müstəvidə əsaslandırılması istiqamətində aparılan fəaliyyətlər üçün elmi arqument bazası yaradır. Eyni zamanda, ictimai-humanitar sahədə aparılan tədqiqatların istiqamətləndirilməsi və elmi işlərin qiymətləndirilməsi prosesində praktik metodoloji çərçivə kimi istifadə edilə bilər.

## Ədəbiyyat

1. Ağarəhim Rəhimov. Qüdrətdən doğan nur. Bakı, 2005. 397 s.
2. Mahirə Hüseynova. Baxış bucağı: Heydər Əliyev və strateji azərbaycançılıq. Bakı-2003. 180 s.
3. M. Hüseynova, S. Sadıqova. Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası. Bakı, Elm, 2023 – 372 s.
4. M. Hüseynova. Ulu öndərimizin natiqlik məharəti. Bakı: Avropa, 2009.

5. Sevinc. Rəhimova. Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi: Monoqrafiya. Bakı, 2022
6. Zaur.Ustac. Olaylar: 2025, 17-23 oktyabr, №:36, s.19-21.

**H.B.Bayramov, S.M.Bayramova**

**Professor Mahirə Hüseynovanın elmi-pedaqoji və ictimai fəaliyyətinin aspetkəri: missiyanın sosial-pedaqoji koqnitiv kreativləri**

**Xülasə**

Mahirə Hüseynova Azərbaycan elmi və ictimai mühitində tanınmış və nüfuzlu ziyalı kimi seçilir. Onun dilçilik sahəsində apardığı tədqiqatlar, xüsusilə türkologiya və Azərbaycan dili üzrə araşdırmaları mühüm elmi dəyərə malikdir. Alim həm klassik elmi irsi, həm də müstəqillik dövrünün müasir yanaşmalarını uğurla əlaqələndirir. O, ana dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, milli kimliyin əsas göstəricisi kimi dəyərləndirir. Onun elmi üslubu mürəkkəb sintaktik quruluşlar və ardıcıl məntiqi əlaqələrlə fərqlənir. Bədii yaradıcılığında elmi düşüncə ilə poetik təfəkkürün vəhdəti aydın şəkildə hiss olunur. Heydər Əliyevin fəaliyyəti və azərbaycançılıq ideologiyası ilə bağlı tədqiqatları yüksək elmi qiymət almışdır. O, ictimai sahədə də fəallıq göstərərək qadın hərəkatı və vətəndaş təşəbbüslərində mühüm rol oynayır. Qərbi Azərbaycan İcmasında fəaliyyəti çərçivəsində azərbaycanlıların hüquqlarının qorunması və geri dönüş məsələlərini önə çəkir. Ümumilikdə, onun fəaliyyəti elmi, ictimai və milli dəyərlərin harmonik birliyini əks etdirir.

**Г.Б.Байрамов, С.М.Байрамова**

**Аспекты научно-педагогической и общественной деятельности профессора Махиры Гусейновой: социально-педагогические, когнитивные и творческие аспекты миссии**

**Резюме**

Махира Гусейнова является известной и уважаемой фигурой в научной и общественной жизни Азербайджана. Её научные исследования в области лингвистики, особенно тюркологии и азербайджанского языка, имеют важное значение. Она гармонично сочетает классические научные традиции с современными подходами эпохи независимости. Учёная рассматривает родной язык не только как средство общения, но и как основу национальной идентичности. Её научный стиль характеризуется сложной синтаксической структурой и логической последовательностью. В её художественных произведениях прослеживается единство научного мышления и поэтического видения. Её работы о Гейдаре Алиеве и идеологии азербайджанства получили высокую оценку в научных кругах. Она активно участвует в общественной жизни, в том числе в женском движении и гражданских инициативах. В рамках деятельности Общины Западного Азербайджана она акцентирует внимание на защите прав азербайджанцев и их возвращении. В целом её деятельность отражает гармоничное сочетание научных, общественных и национальных ценностей.

**H.B.Bayramov, S.M.Bayramova**

**Aspects of the scientific-pedagogical and public activities of Professor Mahira Huseynova: socio-pedagogical cognitive creatives of the mission**

**Summary**

Mahira Huseynova stands out as a well-known and respected intellectual in Azerbaijan’s academic and public spheres. Her linguistic research, especially in Turkology and the Azerbaijani language, carries significant scholarly importance. She effectively integrates classical academic traditions with modern approaches of the post-independence era. She regards the mother tongue not only as a communication tool but as a key element of national identity. Her academic style is marked by complex syntax and well-structured logical progression. In her literary works, a clear fusion of scientific reasoning and poetic expression can be observed. Her studies on Heydar Aliyev and the ideology of Azerbaijanism have received high academic recognition. She is also actively involved in public life, contributing to women’s movements and civil initiatives. Through her work in the Western Azerbaijan Community, she emphasizes the protection of Azerbaijani rights and their return. Overall, her work reflects a balanced unity of academic, social, and national values.

**Redaksiyaya daxil olub:** 06.04.2026

# PEDAQOJİ ELMLƏR
# ПЕДАГОГИЧЕСКИЕ НАУКИ
# PEDAGOGICAL SCIENCES

***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

*UOT 37.01*

## EVOLUTION OF PEDAGOGICAL IDEAS: CONCEPTS OF FAMILY AND EDUCATION BY AJDAR AGHAYEV

**Tamilla Əhməd qızı Vahabova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə elmlər doktoru*
**ORCİD:** 0000-0003-4984-3140
**E-mail:** tamillavahabova@yahoo.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.04

***Key words:*** *Azerbaijani educational theory; tradition of pedagogical thought; modern pedagogical concepts; socio-family context; upbringing; individual development; socio-cultural environment; historiography of education.*

***Açar sözlər:*** *Azərbaycan təhsil nəzəriyyəsi; pedaqoji fikir ənənəsi; müasir pedaqoji konsepsiyalar; sosial-ailə konteksti; tərbiyə; fərdin inkişafı; sosial-mədəni mühit; təhsil tarixşünaslığı.*

***Ключевые слова:*** *азербайджанская теория образования; традиции педагогической мысли; современные педагогические концепции; социально-семейный контекст; воспитание; индивидуальное развитие; социокультурная среда; историография образования.*

In the research conducted by F. Rustamov, the scientific creativity and pedagogical principles of Ajdar Aghayev were systematically investigated in the context of the development of Azerbaijani pedagogical science, their bridging function between the classical pedagogical heritage and modern educational theory, the educational role of the family and social environment, as well as the possibilities of their application in modern pedagogical practice were analyzed in theoretical and practical aspects (3). In the research conducted by Rustamov, Farrukh Abbas, the scientific creativity of Ajdar Aghayev was systematically investigated within the framework of Azerbaijani pedagogical science. The research considered both the principles of the classical pedagogical heritage - the works of Mirza Fatali Akhundov, Hasan bey Zardaby and Firidun bay Kocharly, and the pedagogical theory and practice of the 21st century, and analyzed the possibilities of integration between classical and modern approaches through the scientific activities of scientists. At the same time, the educational role of the family and social environment, their influence on the spiritual, social and intellectual development of the personality were evaluated on scientific grounds (4). Within the framework of the research,

Ajdar Aghayev's pedagogical principles were analyzed both theoretically and practically, and their connection with modern educational programs, teacher training, and teaching methodologies was revealed. This approach provides a reinterpretation of classical ideas in Azerbaijani pedagogical science in accordance with the 21st century education system and makes significant contributions to the scientific planning of educational processes, optimization of educational programs, and increasing the effectiveness of teacher activity (5).

Ajdar Aghayev analyzed these classical approaches in a modern pedagogical context and adapted them to the 21st century education system. Aghayev's research presents a systematic model of educational processes by combining the history and theory of pedagogy and the interaction of family and social environment in the formation of personality. Thus, a comparison of classical and modern approaches shows that the study of family, society and education issues in modern pedagogical science is based on the fundamental principles of classical heritage, and their integration increases the efficiency of the educational process.

Ajdar Aghayev's pedagogical heritage serves as an important bridge between Azerbaijani classical pedagogical thought and modern pedagogical theory. The Azerbaijani classical pedagogical heritage — the works of Mirza Fatali Akhundov, Hasan bay Zardaby and Firidun bay Kocharly — systematically studied the issues of family, society and education, and interpreted their mutual relationship in a scientific and pedagogical context (1). Ajdar Aghayev, reinterpreting these ideas in modern pedagogical science, adapted classical principles to the requirements of the 21st century education system, and expanded their practical and theoretical application possibilities. In this regard, their scientific activity plays the role of an integral bridge between the classical heritage and modern pedagogical approaches and makes significant contributions to the development of the educational function of the family and social environment in the Azerbaijani education system.

The works of the Azerbaijani classical pedagogical heritage Mirza Fatali Akhundov, Hasan bay Zardaby, and Firidun bay Kocharly presented a broad and systematic approach to the issues of family, society, and upbringing. Classical authors evaluated the family as the primary social environment of the individual and the main institution of moral development, emphasized the important role of society in upbringing, and also linked education and enlightenment with social changes. In their works, the mutual influence of the social environment and the family, as well as the educational function of national and cultural values, were interpreted in a scientific and pedagogical context. The empirical and multidisciplinary nature of folk pedagogy, its deep educational potential, is shown on the basis of folklore sources. The possibilities of folklore sources, especially in the education of young children, are investigated. Literary and epic examples reflecting the history of the Azerbaijani people and ideas that can be used in the process of educating young people in a patriotic spirit are presented. At the same time, the question of the possibilities of applying the ideas of folklore and folk pedagogy within the framework of modern educational practice is raised (2, p. 183)

Classical authors evaluate the family and society as the primary institution of education, emphasize both their moral and social functions, and bring to the fore the importance of the mutual influence of family and society in the formation of personality. Mirza Fatali Akhundov is one of the most prominent representatives of Azerbaijani classical pedagogical thought. His ideas, along with those of Seyid Azim Shirvani, Hasan bay Zardaby and Jalil

Mammadguluzade, systematically investigated the issues of family, society and education. Soviet-era pedagogical literature teachers and employees of the Azerbaijan Pedagogical University developed and applied these principles of Akhundov in a modern pedagogical context. Akhundov's pedagogical concept highlights the role of the family in upbringing, the importance of women's education, and the function of enlightening society. He presented upbringing as a process provided by rational thought and secular knowledge, and evaluated the family as the primary and main institution of society. This approach laid the foundation for the continuous application of classical pedagogical thought in the modern Azerbaijani education system (1, p. 130).

Hasan bay Zardaby was one of the prominent representatives of the Azerbaijani classical pedagogical thought. His ideas, together with those of like-minded people such as Firidun bay Kocharly and Abdurrahim bay Hagverdiyev, deeply explored the issues of the social environment and upbringing. Soviet-era school teachers and socially oriented upbringing programs turned Zardabi's principles into practical activities and ensured their application in teaching. The unity of family-school-society and the educational function of the social environment occupy a key place in Zardabi's pedagogical approach. He evaluated the social environment as a key element of upbringing and put the ideas of public enlightenment into practice, which created an important basis for the application of the classical pedagogical heritage in the modern education system.

Firidun bay Kocharly was one of the prominent representatives of the Azerbaijani classical pedagogical thought, and his ideas, in harmony with those of like-minded people such as Hasan bey Zardaby and Ahmad bay Aghaoghlu, focused on the issues of national-cultural upbringing and personality formation. Azerbaijani language and literature teachers, as well as the Soviet-era pedagogical generation, have applied Kocharli's principles at the school and higher education levels. Kocharli's pedagogical approach emphasizes the role of the family environment in the formation of personality, and education is presented as a systematic pedagogical process closely linked to national values. This approach constitutes the scientific basis for the application of classical heritage in modern educational programs in a national-cultural context (1, p. 175). Jalil Mammadguluzadeh was one of the important representatives of Azerbaijani classical pedagogical thought and literature. His ideas are related to those of like-minded people such as Mirza Fatali Akhundov, Seyid Azim Shirvani, and Ahmad bay Aghaoghlu, and he left a wide mark in the field of educating society and studying the problems of education. Literature teachers and researchers in the field of social criticism have applied Mammadguluzadeh's principles in teaching and research. Ignorance, social defects, and incorrect models of education are in the center of attention in his pedagogical approach. Mammadguluzade exposes the shortcomings of upbringing through satire and, by promoting the enlightened upbringing model, keeps the social and pedagogical function of the classical heritage alive in a modern context.

Uzeyir Hajibayly was a prominent representative of the classical pedagogical heritage of Azerbaijan in both the musical and cultural fields. His ideas explored the issues of family, culture, and upbringing in connection with Ahmad bay Aghaoghlu and Jalil Mammadguluzade. Music teachers and participants in cultural and educational projects applied Hajibeyli's principles in pedagogical activities and curricula. In his pedagogical concept, the moral

responsibility of the family, as well as the educational role of culture and art, occupy a central place. The upbringing process is explained in a broad social and cultural context, and the mutual influence of family and society in the development of personality is brought to the fore. This approach constitutes the scientific basis for the reconciliation of classical heritage with modern pedagogical practice.

Ajdar Aghayev is an outstanding scientist who brings to the fore the mutual influence of family and social environment in the formation of personality in modern Azerbaijani pedagogy. His research shows that the family plays a key role not only as the primary social environment, but also in the spiritual, social and intellectual development of the personality. Aghayev applied these principles to modern pedagogical practice, laid the foundation for the development of methodological approaches in school and higher education programs, as well as the integration of the family and social environment in the educational process. Thus, his scientific activity serves as an integral bridge between the modern interpretation and practical application of the classical pedagogical heritage.

Ajdar Aghayev's pedagogical heritage plays an important role in the development of modern pedagogical approaches in the Azerbaijani education system. His main scientific activity was manifested through the journal "Azerbaijan School", monographs and textbooks, and at the same time made significant contributions in the fields of educational policy, teacher training and structuring the pedagogical system. Aghayev's works emphasize the role of the family and social environment in the formation of personality; he systematically studied the interaction of the family and social environment, and justified the effectiveness of education on the basis of rational and secular knowledge.

His theoretical principles are closely related to modern Azerbaijani pedagogical practice and form the scientific basis of methodological approaches applied in school and higher education programs. Thus, Aghayev's legacy both continues classical pedagogical traditions and creates a modern pedagogical model aimed at personality development in the 21st century education system.

Ajdar Aghayev's pedagogical legacy shows his contribution to the field of education through the journal "Azerbaijan School", various monographs and textbooks. He has formed scientific and practical approaches in the fields of structuring the pedagogical system, teacher training and educational policy. In Aghayev's works, such principles as systematic and purposeful implementation of education, the mutual influence of family and social environment on personality development, as well as the key role of rational and secular knowledge in education are in the center of attention. His concepts create the basis for the development and application of methodological approaches in modern Azerbaijani education, combining classical pedagogical heritage with modern pedagogical practices.

Ajdar Aghayev's scientific activity is focused on the areas of structuring the Azerbaijani education system, teacher training and the formation of educational policy. He has connected all elements of the pedagogical system - school, teacher, family and social environment - with each other, and has investigated their mutual influence at the theoretical and practical level. In Aghayev's approach, teacher training is not only a process of transferring knowledge and skills, but also a process of educating the personality and forming social responsibility. At the same time, the model of structuring the pedagogical system proposed by him forms the basis of

methodological principles applied in modern school and higher education programs and combines classical pedagogical heritage with modern pedagogical practices.

значимыми культурными индикаторами, через которые дети начинают осознавать себя частью определённой нации.

В работе также анализируется влияние изменений социальных процессов, глобализации, технологических факторов и трансформации структуры семьи на сохранение традиций. Хотя цифровизация и современный образ жизни создают определённые трудности, ослабляя межпоколенческое взаимодействие, результаты исследования показывают, что семьи, последовательно поддерживающие культурные практики, способствуют формированию у детей более устойчивой эмоциональной привязанности, чувства национальной гордости и стабильности идентичности.

**Redaksiyaya daxil olub:** 26.02.2026

***TƏLİM TEXNOLOGİYALARI***
***ТЕХНОЛОГИЯ ОБУЧЕНИЯ***
***TEACHİNG TEXNOLOGY***

*UOT 372.881.1*

# ADAPTİV VƏ DİFFERENSİALLAŞDIRILMIŞ TƏLİM MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Türkan Habil qızı Nəsirova**
*Heydər Əliyev adına Hərbi İnstitutu adyunktu*
**ORCİD:** 0009-0003-2143-1950
**E-mail:** turkan.kishizade@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.06

***Açar sözlər:*** *diferensial təlim, adaptiv öyrənmə, tənqidi düşüncə, subyektivlik, fərdi inkişaf.*
***Ключевые слова:*** *дифференциальное обучение, адаптивное обучение, рефлексивное мышление, субъективность, личностное развитие.*
***Key words:*** *differential learning, adaptive learning, reflective thinking, subjectivity, personal development.*

Adaptiv və diferensiallaşdırılmış təlim modelləri müasir pedaqogikanın şagirdyönlü istiqamətlərindən biri kimi formalaşmışdır və fərdi fərqlərin tədris prosesində nəzərə alınmasını əsas prinsip kimi qəbul edir. Bu yanaşmaların nəzəri əsasları XX əsrin ikinci yarısından etibarən aparılan tədqiqatlarla sistemləşdirilmişdir. Xüsusilə fərdi fərqlərə uyğunlaşdırılmış tədris ideyası adaptiv təlim konsepsiyasının formalaşmasında mühüm rol oynamışdır **[1, s.15]**. Sonrakı mərhələdə kompüter əsaslı adaptiv sistemlərin inkişafı və şagird modelləşdirilməsi istiqamətində aparılan araşdırmalar bu sahənin elmi bazasını genişləndirmişdir [2, s.7–8; 3, s.24]**.**

Adaptiv təlim modeli tədris prosesinin şagirdin bilik səviyyəsinə, öyrənmə tempinə və əvvəlki nəticələrinə uyğun olaraq dəyişdirilməsini nəzərdə tutur. Bu modeldə şagird mövzunu tam mənimsəmədən növbəti mərhələyə keçmir ki, bu da "mənimsəmə əsasında öyrənmə" prinsipinə əsaslanır [4, s. 63]. Belə yanaşma bilik boşluqlarının aradan qaldırılmasına və fərdi təhsil trayektoriyasının formalaşdırılmasına imkan yaradır.

Diferensiallaşdırılmış təlim modeli isə eyni sinif daxilində müxtəlif səviyyəli şagirdlərin ehtiyaclarına cavab verən çevik tədris strategiyalarının tətbiqini nəzərdə tutur. Bu istiqamətdə sistemli və praktikyönlü tədqiqatlar aparmış alimlərdən biri Carol Ann Tomlinson olmuşdur [5, s. 45]. Onun yanaşmasına görə, diferensiallaşdırma məzmunun, prosesin, nəticənin və öyrənmə mühitinin şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmasını tələb edir. Bundan əlavə, öyrənmə prosesində fərdi motivasiya və psixoloji amillərin rolunu araşdıran nəzəriyyəçilər də bu modelin elmi əsaslandırılmasına töhfə vermişlər **[**6, s. 112].

Beləliklə, adaptiv və diferensiallaşdırılmış təlim modelləri pedaqoji nəzəriyyə və praktikada insan mərkəzli yanaşmanın əsas istiqamətləri kimi çıxış edir. Bu modellər şagirdlərin fərdi imkan və potensiallarını nəzərə almaqla təhsil prosesinin daha effektiv və inklüziv təşkilinə şərait yaradır.

**Fərdi təhsil strategiyası və adaptiv öyrənmə: Şəxsiyyətyönlü təhsil modelinə keçid**

Məqalədə qeyd olunur ki, tələbə fərdi təhsil strategiyasına şüurlu şəkildə yanaşdıqda bu, onun təhsilə münasibətini müsbət istiqamətdə dəyişməsinə və özünü subyekt kimi formalaşdırmasına şərait yaradır. Fərdiləşdirilmiş təlim həm təhsil, həm də tədqiqat sahəsində şəxsi inkişafı məhdudlaşdırmır, əksinə geniş imkanlar açır və həm pedaqoji, həm də psixoloji baxımdan mühüm nəticələr verir. Bu model tələbələrə öz inkişaf trayektoriyasını qurmaq, fərqli öyrənmə bacarıqlarını kəşf etmək və öyrənmə prosesində aktiv iştirakçı olmaq imkanı verir. Tədqiqatlar göstərir ki, daxili motivasiyanın artması və fərdi öyrənmə strategiyasının formalaşması tələbələrin dərsə davamlı cəlb olunmasına və mənalı öyrənməyə gətirib çıxarır **[7, s. 89]**.

Eyni zamanda, fərdiləşdirilmiş və adaptiv yanaşma hər tələbənin koqnitiv və emosional tərəflərini üzə çıxarır və diferensial dəstək mexanizminin qurulmasını tələb edir, nəticədə nailiyyətlər yüksəlir. Müasir təhsildə adaptiv və fərdiləşdirilmiş öyrənmə yalnız akademik nəticələri yaxşılaşdırmır, eyni zamanda tələbənin şəxsiyyət kimi formalaşmasına və təhsilin şəxsiyyətyönlü yanaşmasının dərinləşməsinə töhfə verir. Bu sahədə aparılan araşdırmalar fərdi öyrənmə, adaptiv öyrənmə və fərdiləşdirilmiş öyrənmə terminlərinin nəzəri və praktik əsaslarını aydın şəkildə göstərir **[7, s. 89]**.

**Tədris prosesinin optimallaşdırılmasında diferensial və adaptiv öyrənmənin rolu**

Diferensial təlim tələbələrin bacarıqlarına, maraqlarına və öyrənmə tərzlərinə müvafiq fərdi öyrənmə strategiyalarıdır. Bu yanaşma təhsilin optimallaşdırılmasını və təhsilalanların öyrənmə ehtiyaclarına uyğun metodların işlənib hazırlanmasını zəruri edir **[5, s.52]**. Adaptiv öyrənmə platforması isə öz növbəsində diferensial öyrənməni dəstəkləyir və davamlı öyrənmənin effektiv şəkildə təşkilini təmin edir **[3, s.30]**. Bu platforma tələbələrin fərqli anlama, öyrənmə və inkişaf səviyyələrini müəyyən edir və mükəmməl tələbə profilinin qurulmasına zəmin yaradır.

21-ci əsrin müasiryönlü tədris prosesinin təşkilinə olan tələbat korporativ təhsilin inkişafını zəruri edir. Öyrənmə prosesinin müəllim mərkəzli tədris formasından tələbəyönümlü, adaptiv və şəxsi inkişafı dəstəkləyən təlim və tədris prosesinə keçməsi prioritet məsələlərdən biridir. Texnologiyanın təhsilə təsiri yeni metodların araşdırılmasına yol açır. Diferensial və adaptiv təlim metodları buna misal olaraq göstərilə bilər ki, onlar inklüziv təhsilin tərkib hissəsi kimi inteqrativ xarakter daşıyır **[2, s. 9]**.

**Data mining və Rule-Based sistemlərə əsaslanan adaptiv təlim**

Bu sistemlər İngilis dilini öyrənən tələbələr üçün fərdi öyrənmə imkanlarını artırır. Burada iki əsas texnologiya istifadə olunur: **data mining,** yəni tələbələrin dərs zamanı etdiyi səhvləri, cavab sürətini və nailiyyətlərini analiz edən sistem; və **rule-based sistemlər,** yəni əvvəlcədən müəyyən edilmiş qaydalar əsasında tələbəyə uyğun dərs tapşırıqları təqdim edən mexanizm.

Məsələn, qrammatika tapşırıqlarında "simple past" zamanı səhv edən tələbəyə sistem əlavə nümunələr və sadə cümlələrlə məşqlər təqdim edir. Bu metodlar öyrənən modelinin yaradılması, tapşırıq adaptasiyası və geri bildirişin təmin olunmasını əhatə edir.

**İngilis dili dərsində adaptiv və diferensiallaşdırılmış tapşırıqlar**

❖ **Aşağı səviyyə:** sözləri şəkillərlə uyğunlaşdırmaq, qarışıq hərflərlə verilmiş sözləri düzgün yazmaq, oxuma bacarıqlarını gücləndirmək.

❖ **Orta səviyyə:** verilmiş cümlələrə indiki və keçmiş zamanda sual vermək, cümlələri düzgün fərqləndirmək və qrammatik strukturları tətbiq etmək.

❖ **Yüksək səviyyə:** müstəqil cümlələr və paraqraflar qurmaq, fikir ifadə etmək və yazılı

tapşırıqları tamamlamaq.

Beləliklə, hər bir tələbə hazırkı səviyyəsinə uyğun dərs alır və fərdi inkişaf formalaşır. Adaptiv platforma dərs prosesini mövcud vəziyyətə uyğun tənzimləyir və müəllimdən peşəkarlıq tələb edir.

## Nəticə

Müasir təhsildə tələbələrin fərdi ehtiyaclarının nəzərə alınması adaptiv və diferensiallaşdırılmış təlim modellərinin tətbiqini aktual edir. Bu tədqiqat göstərdi ki, fərdiləşdirilmiş və adaptiv təlim tələbələrin motivasiyasını artırır, fəal iştirakını təmin edir və şəxsiyyətyönlü öyrənməni gücləndirir. Tədqiqat həmçinin praktik tövsiyələr təqdim edir ki, fərdi öyrənmə strategiyalarının təşkilində müəllim və texnologiyaların rolu vacibdir.

**Problemin aktuallığı.** Müasir təhsildə tələbələrin fərdi ehtiyaclarının nəzərə alınması zərurəti adaptiv və diferensiallaşdırılmış təlim modellərinin müqayisəli şəkildə araşdırılmasını aktual edir.

**Problemin elmi yeniliyi.** Tədqiqat adaptiv və diferensiallaşdırılmış təlim modellərinin oxşar və fərqli cəhətlərini sistemli şəkildə təhlil etməklə elmi ədəbiyyata yeni yanaşma gətirir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri təlim modelinin seçilməsi və tətbiqi üçün praktik tövsiyələr təqdim edir.

## Ədəbiyyat

1. Glaser R. Adaptive education: Individual diversity and learning. New York: Holt, Rinehart and Winston, 1990, 210 s.
2. Pavlik Jr. P. I. Adaptive tutoring technologies: Foundations and trends. Educational Technology & Society, Vol. 23(3), p. 1–15. 2020.
3. Eglington L. Adaptive learning systems and student modeling in digital education. Journal of Educational Technology Research, 2021, Vol. 19(2), p. 20–35.
4. Bloom B. S. Taxonomy of Educational Objectives: The Classification of Educational Goals. New York: Longman, 207 p. 1956.
5. Tomlinson C. A. How to Differentiate Instruction in Mixed-Ability Classrooms. Alexandria: ASCD, 187 p. 2001.
6. Illeris K. How We Learn: Learning and Non-learning in School and Beyond. London: Routledge, 289 p. 2007.
7. Peng H., Ma S., Spector J. M. Personalized adaptive learning: An emerging pedagogical approach supported by digital technologies. Educational Technology Research and Development, Vol. 67(3), p. 1–14. 2019.

**T.H.Nəsirova**

## Adaptiv və diferensial təlim modellərinin müqayisəli təhlili
## Xülasə

Aparılmış tədqiqatlara əsasən, həm öyrənmə, həm də tədris platformaları tənqidi düşüncə formasına uyğun olaraq öyrənənlərin idrak inkişafına müsbət təsir göstərir. Bu, təlim prosesində

prioritetin problemli vəziyyətin yaradılması və həmin problemin müxtəlif aspektlərdən izahı vasitəsilə davamlı öyrənmə irəliləyişinin təmin edilməsi ilə izah olunur. Fərdi və kollektiv öyrənmə üslublarının, maraq və ehtiyacların, eləcə də analitik düşüncənin formalaşması mühüm əhəmiyyət kəsb edir. Beləliklə, müəllimlər hələ də kurikulumun hər kəs tərəfindən eyni şəkildə mənimsənilə biləcəyini fərz edən düşüncə paradiqmasına inanırlar. Bu düşüncənin aradan qaldırılması üçün tələbələrin aktiv öyrənməyə təşviq edilməsi, onların nəzəri və praktik tapşırıqların həllinə yönəldilməsi və aktiv, mənalı öyrənmənin təmin edilməsi zəruridir.

**Т.Х.Насирова**

**Сравнительный анализ адаптивных и дифференцированных моделей обучения**
**Резюме**

Согласно проведенным исследованиям, как учебные, так и педагогические платформы оказывают положительное влияние на когнитивное развитие учащихся в соответствии с формой критического мышления. Это объясняется тем, что приоритетом в обучении является создание проблемной ситуации и достижение непрерывного прогресса в обучении путем объяснения этой проблемы с разных сторон. Важное значение имеет формирование индивидуальных и коллективных стилей обучения, интересов и потребностей, а также аналитического мышления. Таким образом, преподаватели по-прежнему придерживаются парадигмы мышления, предполагающей, что учебный план может быть освоен каждым. Для искоренения этого мышления необходимо поощрять активное обучение учащихся, направлять их на решение теоретических и практических задач и обеспечивать активное и осмысленное обучение.

**T.H.Nasirova**

**Comparative analysis of adaptive and differentiated learning models**
**Summary**

According to the studies conducted, both learning and teaching platforms have a positive impact on the cognitive development of learners in accordance with the form of critical thinking. This can be explained by the fact that the priority in learning is to create a problematic situation and to achieve continuous learning progress by explaining this issue from different aspects. The formation of individual and collective learning styles, interests and needs, and analytical thinking is important. Thus, teachers still believe in the paradigm of thinking that assumes that the curriculum can be mastered by everyone. In order to eliminate this thinking, it is necessary to encourage students to actively learn, direct them to solve theoretical and practical tasks, and ensure active and meaningful learning.

**Redaksiyaya daxil olub:** 10.03.2026

*159.9 (091)*

# ALİ MƏKTƏBLƏRDƏ PSİXOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ TƏLİMƏ KREATİV YANAŞMANIN İMKANLARI

**Reyhan Rəşid qızı Nəsirova**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0005-8490-3710
**E-mail:** reyhan.nasirova.rashid@bsu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.07

***Açar sözlər:*** *ali təhsil, kreativ yanaşma, pedaqoji imkanlar, təlim mühiti, psixologiya fənninin tədrisi.*

***Ключевые слова:*** *высшее образование, креативный подход, педагогические возможности, образовательная среда, преподавание психологии.*

***Key words:*** *higher education, creative approach, pedagogical opportunities, learning environment, teaching psychology*

Müasir dövrdə ali təhsilin əsas məqsədlərindən biri tələbələrin yalnız nəzəri bilikləri əldə etməsi deyil, eyni zamanda onların yardıcı potensialının inkişaf etdirilməsi və kreativ düşünmə bacarıqlarının formalaşdırılmasıdır. Bu baxımdan psixologiya fənninin tədrisində ənənəvi yanaşmalarla yanaşı, kreativ təlim texnologiyalarının da tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Təlimə kreativ yanaşma tələbələrdə biliklərin dərindən mənimsənilməsini təmin etməklə yanaşı, həm də onları gələcək peşə fəaliyyətlərində kreativ ideyalar yaratmağa və tətbiq etməyə həvəsləndirir. Bu kontekstdə ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşma imkanları yalnız metodoloji yeniliklərin təsviri ilə məhdudlaşmır, həmçinin təlim mühitinin texnoloji təminatı, müəllim və tələblərin yaradıcı potensialı, idarəetmə siyasəti və beynəlxalq təcrübənin inteqrasiyası kimi kompleks məsələləri əhatə edir. Qeyd olunan bu imkanların araşdırılması, onların praktiki tətbiqi və inkişaf yollarının müəyyənləşdirilməsi müasir pedaqogikanın qarşısında duran ən vacib elmi-praktik vəzifələrdən biri hesab olunur. [1, s.45-47]

Kreativ təlim dedikdə təlim prosesinin interaktiv metodlarla təşkili, tələbələrin öyrənmədə fəal iştirakını təmin edən yanaşma nəzərdə tutulur. Kreativliyin həm gənclər, həm də cəmiyyət üçün faydaları böyükdür. Bu baxımdan təlim prosesində kreativliyin inkişaf etdirilməsi son illərdə daha çox diqqət mərkəzində olan məsələlərdəndir. Hal-hazırda ali məktəb tələbələrində kreativliyin inkişaf etdirilməsi müəllimlər üçün vacib məsələyə çevrilmişdir. Ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın uğurla həyata keçirilməsi üçün mövcud imkanların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Kreativ metodların tətbiqi təkcə müəllimin şəxsi təşəbbüsü və yaradıcılıq bacarığı ilə məhdudlaşmır, eyni zamanda bu proses həm təhsil mühitinin struktur xüsusiyyətləri, həm də təşkilati, texnoloji və pedaqoji şərtlərin uyğunluğu ilə sıx bağlıdır. Bu baxımdan "imkan" anlayışı yalnız maddi resursları deyil, həm də təlim prosesinin məzmun potensialını, elmi-metodik bazanı, müəllim və tələbələrin yaradıcılıq potensialını, eləcə də universitetin idarəetmə strategiyalarını özündə birləşdirir. Başqa sözlə, imkanlar dedikdə, kreativ yanaşmanın tətbiqini dəstəkləyən şərait, vasitə və resursların

bütöv sistemi nəzərdə tutulur. Psixologiya fənninin tədrisində təlimə kreativ yanaşma imkanlarına aşağıdakılar daxildir.

*1.Tənqidi və yaradıcı təfəkkürün inkişafı.* Təlim prosesində kreativliyin inkişafı idrak prosesləri ilə sıx əlaqəlidir. Təlim prosesində kreativliyin ən mühüm göstəricisi təfəkkürdür ki, bu da divergensiya, yaxınlaşma, təsnifat genişliyi ilə xarakterizə olunur. Yaradıcı təfəkkür təhsil prosesinin vacib hissəsidir, çünki o, innovativ bacarıqların, tənqidi düşünmə və problem həll etmə bacarıqlarının inkişafına kömək edir. Təlim prosesinin iştirakçıları problemi həll etmək üçün hər hansı bir yol üzərində dayanmaqla kifayətlənmir, bir neçə mümkün istiqamətdə axtarış aparır, problemin həlli yollarını axtarırlar. Təfəkkürün konvergent xarakteristikası problemlə bağlı bütün yol verilən elementləri bir araya gətirməyə və bu elementlərin yeganə düzgün tərkibini tapmağa imkan verir. Kreativlik prosesində təfəkkürün həm divergent, hə də konvergent komponentləri iştirak edir. Bu baxımdan, təlim prosesinə kreativ yanaşarkən yaradıcı təfəkkürün inkişafı bir neçə səbəbə görə vacibdir.

— Problemin həlli: yaradıcı təfəkkür bizə problemlərə innovativ və orijinal həllər tapmağa imkan verir.

— Uyğunluq: sürətlə dəyişən dünyada yaradıcı təfəkkür yeni vəziyyətlərə uyğunlaşmağa və effektiv reaksiya verməyə imkan verir. Bu, çevikliyi və müxtəlif imkanları araşdırmaq qabiliyyətini təşviq edir.

— İnnovasiya: yaradıcı təfəkkür innovasiyaya təkan vermək üçün çox vacibdir. O, yeni ideyalar yaradır, eksperimentləri təşfiq edir, inqilabi konsepsiyaların və xidmətlərin inkişafına kömək edir.

— Şəxsi inkişaf. Yaradıcı təfəkkürün inkişafı özünü ifadə etməyi, təxəyyülü və marağı inkişaf etdirir. Bu, fərziyyələri araşdırmağa, yeni maraqlar kəşf etməyə və bilikləri genişləndirməyə yol açır.

— Ünsiyyət və əməkdaşlıq. Yaradıcı təfəkkür müxtəlif perspektivləri və ideyaları dəyərləndirməklə səmirəli ünsiyyəti və əməkdaşlığı təşviq edir.

— Tənqidi düşüncə. Yaradıcı və tənqidi təfəkkür bir-biri ilə əlaqəlidir. Yaradıcı təfəkkür bacarıqlarının inkişafı təhlil etmək, qiymətləndirmək və əsaslandırılmış qərarlar qəbul etmək qabiliyyətini artırır. [2, s. 64-66]

*2. Praktik bacarıqların formalaşdırılması.* Ali məktəblərdə kreativ təlim psixologiyanın yalnız nəzəri deyil, eyni zamanda praktik tərəflərini də öyrənməyə imkan verir. N.V.Lisevenko tələbələrdə kreativliyi inkişaf etdirən texnologiyaları öyrənərkən belə nəticəyə gəlmişdir ki, bu texnologiyalar xüsusi yaradıcılıq fəaliyyəti üçün alqoritmin sintezi, müəllim və tələbələrin yaradıcı fəaliyyətinin həyata keçirilməsi prosesidir. Müəllifin fikrincə, təlim prosesində kreativliyin xüsusiyyətləri yaradıcı təlim zamanı qarşılıqlı əlaqənin məqsədlərini, məzmununu və formalarını müəyyən edir. N.V.Lisevenko təlim prosesində kreativliyin inkişafını təmin edən pedaqoji texnologiyaların əsas xüsusiyyətlərini aşağıdakı kimi müəyyənləşdirmişdir.

— tələbə şəxsiyyətinin yaradıcı potensialını reallaşdırmaq imkanı;

— aydın təhsil nəticələrinin əldə edilməsinin təmin edilməsi;

— müəyyən bir fəaliyyət alqoritminin olması;

— nəzarət üsulları da daxil olmaqla, tələbələrin idrak fəaliyyətini stimullaşdıran xüsusi tədris metod və üsullarının mövcudluğu. [3, s. 56-60]

Müəllimlər fəal təlim metodlarından istifadə etməklə psixologiyadan praktiki məşğələlər

təşkil edərkən tələbələrin təfəkkürünün öncədən proqramlaşdırılmasını, onların idrak fəaliyyətinin düzgün istiqamətə yönəldilməsini, tədris tapşırıqlarının yerinə yetirilməsi zamanı assimilyasiya proseslərinin uzaqdan idarə olunmasını və onlarda kreativliyin inkişafını təmin edir. Müəllimlər həm də qrup müzakirələrində tələbələrlə bilavasitə ünsiyyət qurmalı, onların fikirlərini nəzarətdə saxlamalı, müzakirə zamanı yanlışlıqları müəyyən edib düzəltməyi bacarmalıdır. Təlim prosesində interaktiv müzakirələr öyrənmənin əsas üsullarından biridir, çünki o, nəinki tələbələrin zehni fəaliyyətinin artırmağa imkan verir, eyni zamanda tələbələrdə kreativliyin inkişafını da təmin edir. Buna görə də qrup dərslərində fəal təlim metodlarından istifadə iki əsas vəzifənin həllini təmin edir.

— Tələbələrin mövzunu mənimsəməsinin tərbiyəvi problemlərinin həlli.

— Müəllimin bu prosesi mənimsəməsi, tələbələrin öyrənməsinin asanlaşdırılması və korreksiyası.

Tələbələrin mövzu ilə əlaqədar fikir mübadiləsi aparması və qrup formasında müzakirələr keçirməsi onlarda analitik və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. İnteraktiv metodlar müəllim və tələbələr arasında birgə yaradıcı fəaliyyət mühitinin yaradılmasıdır, burada təkcə bilik axtarışı prosesi deyil, eyni zamanda fərdlər arasında qarşılıqlı əlaqə prosesi baş verir.

3. Təlim prosesində müəllimin peşəkar rolunun transformasiyası: Yaradıcı təfəkkürün inkişafı üçün müəllim daim öz üzərində işləməli, həm ixtisası üzrə, həm də ideoloji aspektdə biliklərini genişləndirməli, mütəmadi olaraq yeni aktual informasiyalar axtarmalı, ondan düzgün istifadə etməli, konkret problemlə bağlı müxtəlif yanaşmaları tətbiq etməli, təkcə tənqidi deyil, həm də kreativ düşünməlidir. Müəllimlə tələbələrin münasibəti təlim prosesində tollerant, psixoloji cəhətdən sağlam mühiti, təhsilin keyfiyyətinin və səviyyəsinin yüksəldilməsini təmin edən əməkdaşlıq və qarşılıqlı əlaqələri nəzərdə tutur. Bu yanaşma müəllimin tələbələrlə bərabər şəkildə fərdi inkişafına şərait yaradır. R.A. Beghetto qeyd edir ki, həm müəllim, həm də tələbələr "nəyi öyrənmək?", "necə öyrənmək?" və "necə öyrətmək?" lazım olduğunu başa düşməlidirlər. [4, s. 254-263]

Ali məktəblərdə psixologiya fənnini tədrisi zamanı tələbələrin kreativliyinin inkişafının əsas imkanlarından biri də müəllimlərin elmi-metodiki təminatıdır ki, bura aşağıdakılar daxildir:

— müəllimlərin fəaliyyətində problemli cəhətlərin müəyyən edilməsi (diaqnostik funksiya);

— yaradıcı təfəkkürün inkişafı ilə bağlı yeni pedaqoji yanaşmalar, müasir texnologiyalar haqqında məlumatlandırma (informasiya funksiyası);

— konkret problemin həllində müəllimə köməklik göstərilməsi (məsləhət funksiyası);

— təlim prosesində fəaliyyətin tənzimlənməsi (təlim funksiyası);

— müəllimlərin yaradıcılıq fəaliyyətinin tədqiqi, yaradıcı təfəkkürün inkişafı ilə bağlı innovativ tədris təcrübəsinin qiymətləndirilməsi;

— qabaqcıl təcrübənin öyrənilməsi, ümumləşdirilməsi və və yayılması;

— müəllimlərə innovativ fəaliyyətlə bağlı yardımın göstərilməsi, yaranan problemlərlə əlaqədar dərs vəsaitlərinin və proqramlarının qiymətləndirilməsi. [5, s.25-31]

Ali məktəblərdə müəllimlərin kreativliyi, standart və ya qəbul edilmiş təfəkkür nümunələrindən kənara çıxan yeni, qeyri-adi ideyalar yaratmağa hazır olması, habelə pedaqoji fəaliyyət prosesində yaranan çətinlikləri həll etmək bacarığı ilə xarakterizə olunan yaradıcılıq qabiliyyətləridir. Belə ki, müəllimlərin təlimə kreativ yanaşmasının strukturunda aşağıdakı keyfiyyətlər fərqlənir:

— kreativ olmaq, problemləri həll etmək bacarığı;
— çeviklik və şüurun tənqidiliyi, intuisiya, orijinallıq və özünə inam;
— qeyri-adi suallar vermək və həll etmək bacarığı, təhlil, sintez etmək və birləşdirmək bacarığı;
— assosiativlik, təxəyyül, yenilik hissi, ziddiyyətlərə həssaslıq, emosional cavab vermək bacarığı (empatiya);
— fərziyyələr qurmaq və onları sübuta yetirmək bacarığı və s. [6, s.1-3]

Müəyyən edilmiş ümumi yanlış təsəvvürlər arasında kreativliyin əsasən incəsənət və humanitar elmlərlə əlaqəli olması, maddi məhsulların istehsalını tələb etməsi və kreativliyin anadangəlmə olması fikirləri daxildir. Müəllimlərin kreativliklə bağlı düşüncələrini araşdıran mövcud tədqiqatlar nəticəsində onların kreativliyi necə konseptuallaşdırdıqları, kreativ tələbələr haqqında fikirləri, eləcə də kreativliyi təmin edən öyrənmə mühitləri ilə bağlı dəyərli nəticələr əldə edilmişdir. [7, s.25-56]

*4. Müəllim-tələbə qarşılıqlı əlaqəsinin keyfiyyətcə yenilənməsi imkanı:* Ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın mühüm pedaqoji imkanlarından biri müəllim–tələbə qarşılıqlı əlaqəsinin məzmun və forma baxımından transformasiyasıdır. Ənənəvi tədris modelində müəllim əsas bilik mənbəyi, tələbə isə passiv qəbul edən subyekt kimi çıxış edir. Kreativ yanaşma isə bu münasibət sistemini yenidən quraraq tərəflər arasında qarşılıqlı intellektual əməkdaşlığa əsaslanan əlaqə formalaşdırır.

Kreativ təlim modeli çərçivəsində müəllim informasiyanı ötürən mərkəzi fiqurdan öyrənmə mühitinin təşkilatçısı və intellektual fasilitator roluna keçir. Müəllim:
— öyrənmə prosesini istiqamətləndirir və strukturlaşdırır;
— tələbələrin fərdi idrak imkanlarını nəzərə alır;
— yaradıcı düşünmə və elmi müzakirə üçün şərait yaradır.

Kreativ yanaşma tələbəni passiv dinləyici statusundan çıxararaq, biliklərin birgə yaradıcısına çevirir. Tələbə öz mövqeyini sərbəst ifadə edir, psixoloji problemlərə fərdi interpretasiya təqdim edir, elmi arqumentlərə əsaslanan müzakirələrdə iştirak edir. Bu, tələbənin akademik özünəinamını artırmaqla yanaşı, onun intellektual məsuliyyət hissini də gücləndirir.

Təlimə kreativ yanaşma müəllim–tələbə qarşılıqlı əlaqəsini struktur, məzmun və funksional baxımdan yeniləyərək psixologiya fənninin tədrisini daha interaktiv, reflektiv və səmərəli edir. Bu yenilənmə tələbələrin akademik inkişafı ilə yanaşı, onların şəxsiyyət və peşəkar formalaşmasına da sistemli təsir göstərir. [8, s. 33-78]

Beləliklə, ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın imkanları kompleks xarakter daşıyır. Bu imkanlara təlim mühitinin texnoloji və metodiki təminatı, müəllim və tələbələrin yaradıcı fəaliyyəti, elmi-metodiki baza, interaktiv təlim metodlarının tətbiqi, həmçinin ali təhsil müəssisələrinin idarəetmə və inkişaf strategiyaları daxildir. Müəllim-tələbə qarşılıqlı qarşılıqlı əlaqələnməsinin keyfiyyətcə yenilənməsi psixologiya fənninin tədrisində kreativ yanaşmanın mühüm pedaqoji nəticələrindən biri hesab olunur.

Yekun olaraq bildirməliyik ki, ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşma imkanlarının məqsədyönlü şəkildə reallaşdırılması müasir pedaqoji tələblərə cavab verən kreativ düşüncəli və rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanmasına xidmət edir. Gələcək tədqiqatların bu imkanların empirik əsaslarla öyrənilməsinə, kreativ təlim modellərinin

effektivliyinin qiymətləndirilməsinə və ali təhsil praktikasında tətbiq mexanizmlərinin təkmilləşdirilməsinə yönəldilməsi məqsədəuyğun hesab olunur.

**Problemin aktuallığı.** Müasir ali təhsil sistemində psixologiya fənninin tədrisi tələbələrin yalnız nəzəri biliklər əldə etməsi ilə kifayətlənməməli, onların kreativ və tənqidi təfəkkürünün inkişafını da təmin etməlidir. Ənənəvi təlim yanaşmalarının üstünlük təşkil etməsi tələbələrin idrak fəallığını və yaradıcı potensialının reallaşdırılmasını məhdudlaşdıran əsas amillərdən biri kimi çıxış edir. Bu baxımdan təlimə kreativ yanaşmanın pedaqoji imkanlarının müəyyənləşdirilməsi və sistemli şəkildə tətbiqi elmi-metodik baxımdan xüsusi əhəmiyyət kəsb edir. Problemin araşdırılması ali məktəblərdə psixologiya fənninin tədrisinin səmərəliliyinin artırılmasına və müasir tələblərə cavab verən kreativ düşüncəli mütəxəssislərin hazırlanmasına xidmət edir.

**Problemin elmi yeniliyi.** Ali təhsil müəssisələrində psixologiya fənninin tədrisində təlimə kreativ yanaşma imkanlarının sistemli və kompleks pedaqoji model kimi əsaslandırılması problemin elmi yeniliyini təşkil edir. Eyni zamanda təlimə kreativ yanaşmanın yalnız metodik vasitə kimi deyil, təlim mühitinin texnoloji, elmi-metodiki və subyektlərarası qarşılıqlı əlaqələr kontekstində bütöv imkanlar sistemi kimi təqdim olunması və müəllim-tələbə qarşılıqlı əlaqəsinin kreativ təlim şəraitində keyfiyyətcə transformasiyası psixologiya fənninin tədrisi baxımından ilk dəfə məqsədyönlü şəkildə elmi təhlilə cəlb edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktik əhəmiyyəti ali təhsil müəssisələrində psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın tətbiqi üçün konkret metodiki tövsiyələrin və pedaqoji istiqamətlərin müəyyənləşdirilməsində ifadə olunur. Əldə olunan nəticələr müəllimlərin dərs prosesinin təşkili, interaktiv metodların seçimi və tələbələrin yaradıcı potensialının inkişaf etdirilməsi məqsədilə tədris praktikasında səmərəli şəkildə tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Əlizadə, Ə.Ə. Psixologiyanın aktual problemləri. Bakı: Elm, 2014. s. 45–47.
2. Венкер К. Насколько вы креативны. В: Deutschland: политика, культура и экономика, № 5, С. 64-66. 2004.
3. Лисовенко Н.В. Креативная педагогическая технология – основа успешности модернизации образования // Научно-методический электронный журнал «Концепт». № S3. С. 56–60. 2016
4. Beghetto R. A. Does Assessment Kill Student Creativity? The Educational Forum, 69, 2005. p. 254-263.
5. Зейналова, Н. Методы и техники развития креативности у обучающихся / Н. Зейналова // Муниципальное образование: инновации и эксперимент. 2019. № 3 (66). - с. 25-31.
6. Ибраимов Х.И. Креативность как одна из характеристик личности будущего педагога // Наука, образование и культура, 2018. № 3 (27). — С. 1-3.
7. Educational Research Review Volume 23, February. Pages 25-56. 2018.
8. Amabile, T. M. Creativity in Context. Boulder, CO: Westview Press, 1996. p. 33-78.

**R.R.Nəsirova**

**Ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın imkanları**
**Xülasə**

Məqalədə ali məktəblərdə psixologiya fənninin tədrisində təlimə kreativ yanaşmanın pedaqoji imkanları elmi-nəzəri baxımdan təhlil olunur. Kreativ təlimin tələbələrin yaradıcı və tənqidi təfəkkürünün, praktik bacarıqlarının inkişafında oynadığı rol əsaslandırılır. Tədqiqatda müəllimin peşəkar rolunun transformasiyası və müəllim-tələbə qarşılıqlı əlaqəsinin keyfiyyətcə yenilənməsi əsas mexanizmlər kimi təqdim edilir. Nəticə olaraq, kreativ yanaşmanın məqsədyönlü tətbiqinin psixologiya tədrisinin səmərəliliyini artırdığı və rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına xidmət etdiyi göstərilir.

**Р.Р.Насирова**

**Возможности креативного подхода к обучению в преподавании дисциплины психология в высших учебных заведениях**
**Резюме**

В статье с научно-теоретических позиций анализируются педагогические возможности креативного подхода к обучению в преподавании дисциплины Психология в высших учебных заведениях. Обосновывается влияние креативного подхода на развитие у студентов критического и творческого мышления, формирование практических навыков, а также качественное обновление взаимодействия между преподавателем и обучающимися. Особо подчёркивается значение трансформации профессиональной роли преподавателя и технологико-методического обеспечения образовательной среды в учебном процессе. В результате исследования делается вывод о том, что креативное обучение повышает эффективность преподавания психологии и способствует подготовке конкурентоспособных специалистов.

**R.R.Nasirova**

**Possibilities of a creative approach to teaching psychology in higher education**
**Summary**

The article analyzes the pedagogical possibilities of a creative approach to teaching psychology in higher education from a scientific and theoretical perspective. It substantiates the impact of the creative approach on the development of students’ critical and creative thinking, the formation of practical skills, and the qualitative enhancement of teacher–student interaction. Particular emphasis is placed on the transformation of the teacher’s professional role and the importance of the technological and methodological support of the learning environment. The study concludes that creative teaching increases the effectiveness of psychology instruction and contributes to the preparation of competitive specialists.

**Redaksiyaya daxil olub:** 29.01.2026

*УДК 373.1*

# ŞAGİRDLƏRDƏ İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

**Fatimə Abil qızı Şükürova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-0506-6925
**E-mail:** fatimesukurova5@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.08

***Açar sözlər:*** *kognitiv inkişaf, öyrənmə motivasiyası, interaktiv təlim, tənqidi düşünmə, yaradıcı fəaliyyət, müstəqil öyrənmə, reflektiv yanaşma*

***Ключевые слова:*** *когнитивное развитие, учебная мотиваци,интерактивное обучение, критическое мышление ,творческая деятельность, самостоятельное обучение, рефлексивный подход*

***Key words:*** *cognitive development, learning motivation, interactive learning critical thinking, creative activity, independent learning, reflective approach*

Müasir dövrdə təhsil sistemində aparılan islahatlar, xüsusən də yeni kurikulumların tətbiqi, təlim prosesinə tamamilə yeni bir yanaşma formalaşdırmışdır. Bu yanaşma ənənəvi, müəllim mərkəzli təlim modelindən fərqli olaraq, nəticəyönlü və interaktiv təlimin təşkilini əsas götürür. Artıq təlimin məqsədi yalnız şagirdlərə fakt və bilikləri ötürmək deyil, onların bu bilikləri praktik həyatda tətbiq edə bilmək bacarığını formalaşdırmaq, düşünmə, mühakimə yürütmə, qərar qəbul etmə kimi həyati bacarıqlarını inkişaf etdirməkdir.

Şagirdlərin idrak fəallığının yüksəldilməsi müasir pedaqogikanın əsas prioritetlərindən biridir. İdrak fəallığı təlim prosesində şagirdin müstəqil düşünməsi, məlumatı mənimsəməsi, təhlil etməsi, müqayisə aparması, nəticə çıxarması və əldə etdiyi bilikləri praktikada tətbiq etməsi ilə xarakterizə olunur. Bu fəallığın artırılması təlimin keyfiyyətini yüksəldir, şagirdlərin yaradıcı potensialını inkişaf etdirir və onların davamlı öyrənmə motivasiyasını gücləndirir.

1. Motivasiya mühitinin yaradılması

Şagirdlərin bilik əldə etməyə marağını artırmaq üçün dərsin əvvəlində problemyönlü suallar, həyatla bağlı nümunələr və real situasiyalar təqdim edilməlidir.

Daxili motivasiyanı gücləndirən yanaşmalar – tərif, fərdi nailiyyətlərin tanınması, özünüqiymətləndirmə mexanizmləri – xüsusi əhəmiyyət kəsb edir.

2. Aktiv təlim metodlarının tətbiqi.

Diskussiya, debat, “beyin həmləsi”, klaster, Venn diaqramı, layihə metodu kimi interaktiv yanaşmalar şagirdlərdə düşünmə proseslərini aktivləşdirir.

Cüt və qrup işləri sosial öyrənməni stimullaşdırır və biliklərin birgə mənimsənilməsinə şərait yaradır.

3. Problemyönlü təlim

Şagird qarşısında çözülməsi tələb olunan problem qoyulduqda o, düşünməyə məcbur olur və bilikləri daha dərindən mənimsəyir.

Problemin tədricən mərhələlərə bölünməsi idrak proseslərinin ardıcıllığını təmin edir.

4. Fərdiləşdirilmiş və diferensial təlim

Şagirdlərin fərqli idrak tipləri, maraqları və öyrənmə tempini nəzərə almaq təlimin effektivliyini artırır.

Vizual, eşitmə, kinestetik və qarışıq tipli öyrənənlər üçün müxtəlif resurslardan istifadə idrak fəallığını yüksəldir.

5. Tənqidi və yaradıcı düşünmənin inkişafı

Tənqidi düşünmə tapşırıqları – "nə üçün?", "necə?", "əgər belə olarsa…?" tipli suallar – şagirdlərin analitik yanaşmasını gücləndirir.

Yaradıcı tapşırıqlar – esse yazıları, modelləşdirmə, yaradıcı təqdimatlar – idrak proseslərini daha çevik edir.

6. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə

İnteraktiv lövhə, rəqəmsal dərsliklər, simulyasiyalar və videomateriallar biliklərin daha tez qavranmasına və yadda qalmasına kömək edir.

Elektron testlər və onlayn platformalar şagirdin müstəqil öyrənmə bacarığını artırır.

7. Refleksiya və özünüqiymətləndirmə

Dərsin sonunda "Nə öyrəndim?", "Mənim üçün çətin olan nə idi?", "Nəyi daha yaxşı edə bilərəm?" kimi suallar şagirdlərin öz idrak proseslərinə nəzarət etməsini təmin edir.

Portfel və layihə əsaslı qiymətləndirmə idrak fəallığının davamlı stimullaşdırılmasına şərait yaradır.

8. Müəllim–şagird əməkdaşlığının gücləndirilməsi (2)

Demokratik və dialoq əsaslı təlim mühiti şagirdin dərs prosesində özünü daha rahat və inamlı hiss etməsinə səbəb olur.

Müəllimin dəstəkləyici münasibəti idrak fəallığının davamlı olmasına təsir edən əsas psixoloji amillərdəndir.

Bu gün ümumtəhsil məktəblərində təhsilə münasibət köklü şəkildə dəyişmişdir. Artıq təhsil sistemi yalnız bilik ötürməyə deyil, həm də həmin biliklərin tətbiqi üçün zəruri olan bacarıq və vərdişlərin formalaşdırılmasına yönəlmişdir. Yəni, müasir təhsilin əsas məqsədi şagirdi gələcək həyata hazırlamaq, onu öz potensialını reallaşdıra bilən, cəmiyyətə faydalı, məsuliyyətli və yaradıcı şəxsiyyət kimi formalaşdırmaqdır. Bu mənada şəxsiyyətyönlü təhsil anlayışı ön plana çıxır.

Müasir dövrdə təhsil islahatlarının əsas istiqamətlərindən biri yalnız təlim sisteminin və məzmununun yenilənməsi ilə məhdudlaşmır. Yeni tədris proqramları (kurikulumlar) təhsil prosesinə tamamilə yeni bir yanaşmanı – şagirdlərdə idrak proseslərinin kompleks şəkildə inkişaf etdirilməsini prioritet məsələ kimi qarşıya qoyur. Bu, müasir pedaqoji düşüncənin əsas tələbidir və heç də təsadüfi deyil.

Yeni proqramların tətbiqi şagirdlərin yalnız bilikli deyil, həm də düşünən, yaradan, qərar qəbul etmə bacarığına malik fərdlər kimi formalaşmasına şərait yaradır. Bu, müasir təhsil sisteminin strateji məqsədi və cəmiyyətin intellektual inkişafının mühüm şərtidir.(4)

Fikri fəallıq zamanı şagirdlər müşahidə olunan obyekt və hadisələri təhlil edir, müqayisələr aparır, oxşar və fərqli cəhətləri müəyyənləşdirir, ümumiləşdirmələr və nəticələr çıxarır. Bu prosesdə şagirdin analitik və tənqidi təfəkkürü inkişaf edir. Onlar hadisələri sadəcə müşahidə etməklə kifayətlənmir, eyni zamanda bu hadisələrin səbəb və nəticələrini müəyyənləşdirməyə, əldə etdikləri bilikləri digər situasiyalarla əlaqələndirməyə çalışırlar. Beləliklə, fikri fəallıq müşahidəni mexaniki qavrayış səviyyəsindən çıxararaq, onu dərin idrak fəaliyyətinə çevirir.

Hərəki fəallıq isə şagirdin obyektlə birbaşa təmasda olmaq meyli ilə xarakterizə olunur. Bu halda müşahidə prosesi təkcə nəzəri deyil, həm də praktik məzmun daşıyır. Şagird müşahidə obyektini — məsələn, mexanizmi, bitkini və ya hər hansı bir fiziki cismi — əməli surətdə öyrənməyə cəhd edir: onu hərəkətə gətirir, işləmə prinsipini dərk etməyə, hissələrinin qarşılıqlı əlaqəsini müəyyənləşdirməyə çalışır. Belə fəaliyyət təkcə öyrənmənin vizual aspektini deyil, həm də praktik bacarıqların formalaşmasını təmin edir.

Təlim prosesində şagirdlərin təfəkkürünü fəallaşdırmaq və onların idrak fəaliyyətini stimullaşdırmaq üçün ən təsirli vasitələrdən biri müəllimin suallar sistemidir. Düzgün qurulmuş suallar şagirdin düşünmə prosesini hərəkətə gətirir, onu müşahidə etməyə, müqayisə aparmağa, təhlil etməyə, nəticə çıxarmağa sövq edir. Suallar vasitəsilə müəllim yalnız biliklərin yoxlanılması ilə kifayətlənmir, həm də şagirdin idrak səviyyəsini yüksəldir, onu yaradıcı düşünməyə istiqamətləndirir. (2)

Təcrübəli və peşəkar müəllimlər isə sualların tərtibinə xüsusi diqqət yetirirlər. Onlar açıq tipli, mülahizə və əsaslandırma tələb edən suallardan istifadə edərək şagirdləri fikirləşməyə, araşdırmağa, öz baxışlarını sübut etməyə təşviq edirlər. Bu zaman müəllim sadəcə cavab tələb etmir, eyni zamanda hər bir cavabın nəyə əsaslandığını, hansı nəticəyə gətirib çıxardığını və problemlə necə əlaqəli olduğunu müəyyənləşdirməyi tələb edir. Belə suallar şagirdlərin analitik təfəkkürünü inkişaf etdirir, onları elmi əsaslandırma mədəniyyətinə yiyələndirir. (2)

**Problemin aktuallığı.** Müasir dövrdə təhsil sistemində aparılan islahatlar, kompetensiyaya əsaslanan kurikulumun tətbiqi və informasiya cəmiyyətinin sürətli inkişafı şagirdlərdə idrak fəallığının yüksəldilməsini xüsusi zərurətə çevirir. Qloballaşan dünyada informasiya axınının artması, yeni bilik və texnologiyaların davamlı yenilənməsi şagirdlərin yalnız hazır məlumatları qəbul edən deyil, onları təhlil edən, müqayisə edən, ümumiləşdirən və praktikada tətbiq edən aktiv idrak subyektinə çevrilməsini tələb edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatda şagirdlərin idrak fəallığının yüksəldilməsi prosesinə yeni elmi yanaşmalar tətbiq edilərək, onların kognitiv inkişafını stimullaşdıran pedaqoji və psixoloji mexanizmlər kompleks şəkildə araşdırılır. Mövzunun elmi yeniliyi ondan ibarətdir ki, idrak fəallığını artıran motivasiya amilləri, interaktiv təlim mühitinin komponentləri, yaradıcı və tənqidi düşünməni inkişaf etdirən metodlar sistemli şəkildə ümumiləşdirilmişdir. Tədqiqat nəticəsində idrak fəallığının yüksəldilməsinə xidmət edən yeni metodik model irəli sürülmüş və təlim prosesində tətbiq oluna bilən praktik tövsiyələr hazırlanmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, təqdim olunan metodik yanaşmalar müəllimlərə şagirdlərin idrak fəallığını artırmaq üçün səmərəli təlim strategiyaları seçməyə imkan yaradır. Araşdırmada işlənib hazırlanan interaktiv tapşırıqlar, motivasiya modelləri, tənqidi və yaradıcı düşünməni inkişaf etdirən metodlar dərs prosesində birbaşa tətbiq oluna bilir. Tədqiqat nəticələri həmçinin müəllimlərin pedaqoji fəaliyyətinin təkmilləşdirilməsi, dərs planlaşdırılmasının optimallaşdırılması və fərdiləşdirilmiş təlim mühitinin qurulması üçün praktik əsas yaradır. Təklif olunan metodik tövsiyələr ümumtəhsil məktəblərində, lisey və gimnaziyalarda, eləcə də müəllim hazırlığı proqramlarında tətbiq oluna bilər.

**Ədəbiyyat**

1. Əhmədov, A. Pedaqogika: nəzəriyyə və təcrübə. Bakı: Təhsil, 432 s. 2019.
2. Əliyeva, S. Müasir təlim prosesində idrak fəallığının inkişafı. Bakı: Elm və Təhsil, 286. s. 2020.
3. Вербицкий А.А., Ларионова О.Г. «Личностный и компетентностный подходы в образовании: проблемы интеграции». М.: Логос, 2012.
4. Смирнов С.Д. «Педагогика и психология высшего образования». М.: Академия, 2001.

**F.A.Şükürova**

**Şagirdlərdə idrak fəallığının yüksəldilməsi yolları**

**Xülasə**

Müasir təhsil sistemində şagirdlərin idrak fəallığının artırılması onların təlim prosesində daha aktiv və yaradıcı iştirakını təmin edir. Bu proses motivasiya, fərdi öyrənmə üslubları, interaktiv və problem yönümlü təlim metodları, həmçinin tənqidi və yaradıcı təfəkkürün inkişafı ilə sıx bağlıdır. İnformasiya-kommunikasiya texnologiyalarından (İKT) və reflektiv fəaliyyətlərdən istifadə şagirdlərin bilikləri müstəqil şəkildə mənimsəməsi və tətbiq etməsi üçün əlverişli şərait yaradır.

Belə yanaşmalar müəllimlərə praktik tövsiyələr verir, dərslərdə fəallığı artırır və təlimin keyfiyyətini yaxşılaşdırır. Nəticədə şagirdlərin intellektual və yaradıcı potensialı inkişaf edir, təlimə maraq möhkəmlənir və akademik nailiyyətlər yüksəlir.

**Ф.А.Шюкюрова**

**Пути повышения познавательной активности учащихся**
**Резюме**

В современной системе образования повышение познавательной активности учащихся обеспечивает их более активное и творческое участие в процессе обучения. Этот процесс тесно связан с мотивацией, индивидуальными стилями обучения, интерактивными и проблемно-ориентированными методами обучения, а также с развитием критического и творческого мышления. Использование ИКТ и рефлексивной деятельности создает условия для самостоятельного усвоения и применения знаний учащимися.

Такие подходы предоставляют педагогам практические рекомендации, повышают активность на уроках и улучшают качество обучения. В результате развивается интеллектуальный и творческий потенциал учащихся, укрепляется интерес к обучению и повышаются академические достижения.

**F.A.Shukyurova**

**Ways to enhance students' cognitive activity**
**Summer**

In the modern education system, enhancing students' cognitive activity ensures their more active and creative participation in the learning process. This process is closely connected with motivation, individual learning styles, interactive and problem-based teaching methods, as well as the development of critical and creative thinking. The use of ICT and reflective activities provides conditions for students to independently acquire and apply knowledge.

Such approaches offer practical recommendations for teachers, increase classroom engagement, and improve the quality of education. As a result, students' intellectual and creative potential is developed, their interest in learning is strengthened, and academic achievements are enhanced.

**Redaksiyaya daxil olub:** 02.03.2026

*UOT 37.01.*

# BƏDİİ MƏTNLƏRİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİNİN TƏHLİLİ

**Nigar Məhərrəm qızı Həsənli**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-9640-2236
**E-mail:** nigarhesenli080@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.09

***Açar sözlər:*** *uədii mətnlər, interaktiv təlim metodları, interaktiv öyrənmə, metodların tətbiqi, təhlil*
***Ключевые слова:*** *literary texts, interactive teaching methods, interactive learning, application of methods, analysis*
***Key words:*** *художественные тексты, интерактивные методы обучения, интерактивное обучение, применение методов, анализ*

Müasir dövrdə aparılan tədris prosesi sadəcə akademik biliklərin mənimsədilməsi ilə məhdudlaşmır, həm də uşaqların mənəvi-əxlaqi keyfiyyətlərinin, estetik zövqünün və ünsiyyət bacarıqlarının formalaşmasına yönəlir. İbtidai siniflərdə oxu dərslərində şagirdlərə müxtəlif janrlardan olan mətnlər təqdim olunur:

1. Bədii mətnlər (nağıl, hekayə, təmsil, şeir və s.)
2. Elmi-məlumat xarakterli mətnlər [1, s.304]

Bədii mətnlərin tədrisi xüsusi pedaqoji əhəmiyyət daşıyır. Bədii əsərlər vasitəsilə şagirdlər yalnız oxuma və yazma bacarığı qazanmır, həm də milli-mədəni dəyərlərlə tanış olur, təfəkkür və təxəyyülləri inkişaf edir.

Bədii mətnlər (nağıl, hekayə, təmsil, şeir və s.) uşaqların yaş səviyyəsinə və idrak imkanlarına uyğunlaşdırılmış sadə, anlaşılan və tərbiyəvi məna daşıyan hekayə, nağıl, şeir və ya dialoq mətnləri nəzərdə tutulur. I–IV siniflərdə tədris olunan bədii əsərlər şagirdlərə vətən, xalq, insanların zəhməti, gündəlik yaşayışı və cəmiyyətdə baş verən hadisələr haqqında ilkin təsəvvürlər qazandırır. Bu mətnlər vasitəsilə onlar dövlətin uca məqsədlərini, sülh və sabitlik uğrunda aparılan mübarizəni, həmçinin müasir dövrdə xalqımızın göstərdiyi qəhrəmanlıq nümunələrini dərk edirlər.

Bədii mətnlərin öyrədilməsi ilə şagirdlərə aşağıdakılar aşılanır: Dil bacarıqlarının inkişafı; Düşüncə və təxəyyülün formalaşması; Əxlaqi və mənəvi dəyərlərin aşılanması; Estetik zövqün tərbiyəsi; Milli-mənəvi kimliyin möhkəmləndirilməsi; Sosial və emosional bacarıqların inkişafı.

İnteraktiv təlim metodları şagirdlərin düşünmə qabiliyyətinin formalaşdırılması və inkişafına xidmət edir və bu metodlar dərsin hər bir mərhələsində məqsədəuyğun şəkildə tətbiq oluna bilər. Bədii mətnlərin tədrisində aşağıdakı interaktiv təlim metodlarından istifadə olunur:

1. “Şaxələndirmə” (Klaster)
2. “Venn diaqramı”
3. “Beyin həmləsi” (Əqli hücüm)
4. “Proqnozlaşdırılmış oxu 1”
5. “Suallar”

6. "Anlayışın çıxarılması"

İnteraktiv təlim metodlarından istifadə dərsin mərhələləri və dərsin formaları üzrə aparılır. Dərs prosesində bir neçə interaktiv təlim metodundan istifadə edilə bilər. Azərbaycan dili II sinif dərsliyində verilmiş **"Padşah və Müəllim"** hekayəsi üzərində interaktiv təlim metodlarının tətbiqi və təhlili:

Gözəl bir yaz səhəri idi. Padşah adamları ilə vətənə qayıdırdı. Camaat hörmətlə padşahı qarşılayırdı. Adamlar əllərindəki çiçək dəstələrini padşaha vermək istəyirdilər. Padşahın yanında müəllimi də var idi. Padşah heç bir zaman müəlliminin qarşısına keçməzdi. Asta-asta arxasınca gedərdi.

Hamı padşahdan irəlidə gedən müəllimi padşah hesab edib çiçəkləri ona verməyə çalışırdı. Müəllim atını bir qədər geriyə çəkdi. Gözucu padşahı göstərib dedi: Padşah odur, çiçəkləri ona verin!

Bunu görən padşah müəllimini işarə edib dedi: Doğrudur, padşah mənəm, amma o, padşahın müəllimidir. Çiçəkləri ona verin. [5, s.27]

**"Suallar" metodu.** Bu metod şagirdlərin idrak fəallığını artırmaqla yanaşı, onların təfəkkürünün inkişafına, biliklərin mənimsənilməsinə və xüsusilə tədqiqat prosesinin qurulmasına mühüm təsir göstərir. Düzgün yönləndirilmiş suallar tədqiqatın başlanmasına stimul verir və şagirdi düşünməyə sövq edir. Dəqiq sual formalaşdırmaq və əldə olunan məlumatları müqayisə etmək bacarıqları isə məntiqi və tənqidi düşüncənin inkişafına şərait yaradır. Sual verməninin keyfiyyətini qiymətləndirmək üçün əsasən; sualların sayı, məntiqi ardıcıllığı, orijinallıq dərəcəsi, təsviri və ya daha dərindən düşünmə tələb edən sual növləri.

Məzmunu anlama sualları:

1. Padşah haraya qayıdırdı və camaat onu necə qarşılayırdı?
2. Padşahın yanında kim var idi?

**"Venn diaqramı".** Venn diaqramı obyektlər arasındakı oxşar və fərqli xüsusiyyətlərin dairə formasında, sxem üzərində qarşılaşdırılaraq nümayiş etdirilməsinə imkan yaradan bir üsuldur. Bu metod həm böyük qrup, həm də kiçik qruplarla aparılan tapşırıqlarda effektiv şəkildə tətbiq oluna bilər. Tətbiqetmə mərhələsində istifadə olunur.




**"Anlayışın çıxarılması".** Anlayışın çıxarılması metodu əşya və ya anlayışın müəyyən əlamətlər əsasında tapılmasını təmin edən bir üsuldur. Tapılacaq anlayış əvvəlcədən bir vərəqə yazılır və sual işarəsi olan başqa bir vərəqlə örtülür. Onun altında isə həmin anlayışa aid ən azı iki əsas əlamət qeyd olunur. Şagirdlərə belə sual verilir: "Bu əlamətlər hansı anlayışı ifadə edir?

Tapmağa çalışın.” Əgər şagirdlər göstərilən əlamətlərə əsasən anlayışı müəyyən etməsələr, müəllim əlavə əlamətlər əlavə edir. Şagirdlər anlayışı dəqiqləşdirənə qədər proses davam etdirilir. Bu zaman çox mücərrəd əlamətlərdən istifadə edilməməlidir. Bu metod daha çox motivasiya mərhələsində tətbiq olunur.




**Şaxələndirmə” (Klaster).** Şaxələndirmə metodu məlumatlar arasındakı məzmun əlaqələrinin sxematik şəkildə təsvir olunmasına xidmət edir. Bu metod həm də semantik xəritə adlanır. Motivasiya, tədqiqatın aparılması, nəticələrin çıxarılması və yaradıcı tətbiqetmə mərhələlərində istifadə olunur. Böyük və kiçik qruplarda, cütlərlə və fərdi şəkildə aparılır.




Aparılan tədqiqat göstərir ki, bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqi təlim prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm pedaqoji amil kimi çıxış edir. İnteraktiv yanaşma bədii mətnin yalnız süjet və obrazlar səviyyəsində deyil, eyni zamanda ideya-məzmun, estetik və semantik qatlarda mənimsənilməsinə şərait yaradır. Bu metodlar şagird və tələbələrin bədii mətni passiv şəkildə qavramasından fəal interpretasiya mərhələsinə keçməsini təmin edir.

Təhlil nəticəsində müəyyən olunmuşdur ki, müzakirə, debat, rol oyunu, problem əsaslı təlim, qrup işi və layihə metodu kimi interaktiv üsullar bədii mətnlərin tədrisində analitik və tənqidi düşünmə bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Bu metodlar öyrənənlərin mətnə emosional və intellektual münasibətini gücləndirir, obrazların psixoloji xüsusiyyətlərini, müəllif mövqeyini və bədii dil vasitələrinin funksional rolunu daha dərindən anlamağa imkan yaradır.

Araşdırma sübut edir ki, interaktiv təlim metodlarının tətbiqi öyrənənlərin nitq bacarıqlarının, mətnlə işləmə vərdişlərinin və müstəqil fikir formalaşdırma qabiliyyətinin inkişafına xidmət edir. Eyni zamanda bu yanaşma bədii mətni mədəni və dəyəryönlü kontekstdə qavramağa şərait yaradaraq oxu mədəniyyətinin və estetik zövqün formalaşmasına töhfə verir.

Nəticə etibarilə, bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının sistemli və məqsədyönlü tətbiqi ədəbiyyat dərslərinin səmərəliliyini artırır, təlim prosesini öyrənənmərkəzli müstəviyə keçirir və müasir pedaqoji tələblərə cavab verən, tənqidi düşüncəyə malik, yaradıcı fərdin formalaşmasına imkan yaradır.

**Problemin aktuallığı.** İnformasiya cəmiyyətində şagirdlərin passiv qavrayıcıdan fəal iştirakçıya çevrilməsi tələbi interaktiv təlim metodlarının tətbiqini zəruri edir. Ənənəvi tədris modellərinin bədii mətni yalnız mətnin məzmununu ötürmə vasitəsinə çevirməsi şagirdlərin yaradıcı düşüncə potensialını məhdudlaşdırır. Bu isə müasir kurikulumun tələb etdiyi kommunikativ, analitik və koqnitiv bacarıqların formalaşmasında ciddi boşluqlar yaradır. İnteraktiv metodların tətbiqi bədii mətnlərlə işləmə prosesini əməkdaşlıq, dialoq, fərdi və qrup yaradıcılığına əsaslanan çevik bir mühitə çevirərək təlim nəticələrinin keyfiyyətini yüksəldir. Şagirdlərdə həmçinin mütaliə motivasiyasını artırır.

**Problemin elmi yeniliyi.** Məqalədə bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqi sistemli və müqayisəli şəkildə təhlil olunur. Tədqiqat interaktiv təlim prosesində müəllim–şagird qarşılıqlı fəaliyyətinin rolunu elmi cəhətdən əsaslandırır. İnteraktiv metodların şagirdlərin bədii mətni anlama, təhlil etmə və interpretasiya bacarıqlarına təsiri konkret meyarlar üzrə qiymətləndirilir. Müxtəlif interaktiv metodların (diskussiya, beyin həmləsi, klaster və s.) bədii mətnlərin təhlilinə verdiyi töhfələr müqayisəli şəkildə araşdırılır. İnteraktiv metodların tətbiqi zamanı yaranan pedaqoji çətinliklər və onların aradan qaldırılması yolları elmi əsaslarla müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Cəfərova. N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı-2016, ADPU-nəş.403 s.

2. Rəhimov, A. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı Qızlar Universitetinin nəşri, Bakı 2015, 472 s.

3. Kərimov. Y.Ş. Təlim prosesində yeni texnologiyalar. Bakı: Mütərcim, 2011. – 368 s.

4. Kərimov. Y.Ş. Təlim metodları (dərs vəsaiti). Bakı, 2009. -279 s.

5. Nurullayeva. Ü. Zahidova. Ş. Azərbaycan dili – tədris dili fənni üzrə 2-ci sinif üçün dərslik. Bakı, 2021.

6. Veysova. Z. Fəal- İnteraktiv təlim (müəllimlər üçün vəsait). Bakı, 2007. -156 s.

**H.M.Həsənli**

## Bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqinin təhlili

## Xülasə

İnteraktiv təlim metodları şagirdlərin mətni yalnız oxumasına deyil, onu anlama, təhlil etmə və şəxsi mövqeyini formalaşdırmasına şərait yaradır. Qrup işi, beyin həmləsi və müzakirələr şagirdlər arasında əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafını təmin edir. İnteraktiv yanaşma bədii obrazların, ideya və mövzuların daha dərindən qavranılmasına kömək edir. Şagirdlər passiv dinləyici deyil, aktiv iştirakçı kimi çıxış edir, fikirlərini bölüşür, müzakirələr aparır və tapşırıqları birgə həll edirlər. İnteraktiv təlim metodlarının tətbiqi həm tədris prosesinin effektivliyini, həm də şagirdlərin fərdi inkişafını təmin edən kompleks pedaqoji mexanizm kimi qiymətləndirilir.

**Н.М.Гасанли**

**Анализ применения интерактивных методов обучения при преподавании художественных текстов**
**Резюме**

Интерактивные методы обучения позволяют учащимся не только читать текст, но и понимать, анализировать его и формировать собственную точку зрения. Работа в группах, мозговые штурмы и обсуждения способствуют развитию навыков сотрудничества и коммуникации у учащихся. Интерактивный подход помогает глубже усвоить литературные образы, идеи и темы. Ученики не являются пассивными слушателями; они активно участвуют, делятся мнениями, принимают участие в обсуждениях и совместно выполняют задания. Применение интерактивных методов обучения выступает как комплексный педагогический механизм, обеспечивающий как эффективность учебного процесса, так и индивидуальное развитие учащихся.

**N.M.Hasanli**

**Analysis of the application of interactive teaching methods in the instruction of literary texts**
**Summary**

Interactive teaching methods enable students not only to read the text but also to understand, analyze, and form their own perspectives. Group work, brainstorming, and discussions contribute to the development of students' collaboration and communication skills. The interactive approach helps to gain a deeper understanding of literary characters, ideas, and themes. Students are not passive listeners; they actively participate, share their opinions, engage in discussions, and solve tasks together. The application of interactive teaching methods serves as a complex pedagogical mechanism that ensures both the effectiveness of the educational process and the individual development of students.

**Redaksiyaya daxil olub:** 26.02.2026

*UOT 37.01.*

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN HUMANİSTLƏŞDİRİLMƏSİ TƏLİMİN OPTİMALLAŞDIRILMASI VASİTƏSİ KİMİ

**İlahə Allahverdi qızı Kərimova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0000-5664-0195
**E-mail:** karimofailahe.02@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.10

***Açar sözlər:*** *humanistləşmə, müəllim–şagird münasibətləri, pedaqoji əməkdaşlıq, şəxsiyyətə yönəlmiş təlim, subyekt–subyekt münasibətləri.*

***Ключевые слова:*** *гуманизация, отношения учитель–ученик, педагогическое сотрудничество, личностно-ориентированное обучение, субъект–субъектные отношения.*

***Key words:*** *humanization, teacher–student relationships, pedagogical cooperation, learner-centered education, subject–subject relationships.*

Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi səmərəli əməkdaşlığı optimallaşdırır. Bu əməkdaşlıq şagirdin motivasiyasını artırır, tədris prosesinə marağı gücləndirir və yaradıcılıq bacarıqlarının inkişafına imkan yaradır. Müəllim qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanaraq şagirdlə əlaqə qurduqda, tələbələr problemləri daha açıq ifadə edir, suallar verməkdən çəkinmirlər və öyrənməyə daha fəal yanaşırlar (2).

Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi təhsil prosesinin keyfiyyətini yüksəldir, əməkdaşlığı möhkəmləndirir və hər iki tərəf üçün inkişaf imkanlarını genişləndirir. Müasir pedaqoji yanaşmalarda bu prinsip şagirdin həm akademik, həm də şəxsi inkişafı üçün əsas şərtlərdən biri hesab olunur.

Məktəbdaxili münasibətləri müxtəlif kateqoriyalara bölmək mümkündür.

Birincisi, müəllim-şagird münasibətləri, yəni müəllimlərin pedaqoji dəstəyi, diqqət və hörməti ilə şagirdlərin öz potensialını ortaya qoyması arasındakı qarşılıqlı əlaqələrdir.

İkincisi, şagird-şagird münasibətləridir. Sinif və məktəb daxilində tələbələr arasındakı qarşılıqlı əlaqələr, əməkdaşlıq, dostluq və həmrəylik şagirdlərin sosial bacarıqlarının formalaşmasına, həmçinin kollektivdə etik davranış qaydalarının öyrənilməsinə imkan verir.

Üçüncüsü, şagird-məktəb-cəmiyyət münasibətləridir. Məktəb şagirdi yalnız təhsil aldığı məkan kimi deyil, həm də cəmiyyətin bir hissəsi kimi görür. Onların düzgün təşkili və optimallaşdırılması məktəbin ümumi təhsil uğurunun əsas zəminini təşkil edir (3).

Şagirdlər günlərinin çox hissəsini məktəbdə keçirirlər və bu müddət ərzində onlar əsasən müəllimləri və sinif yoldaşları ilə ünsiyyətdə olurlar. Bu səbəbdən məktəbdə formalaşan sosial münasibətlər şagirdin həm akademik, həm də şəxsi inkişafında həlledici rol oynayır.

Yaxşı bir müəllimə malik şagirdlər özünəinamı yüksək olan, dərslərdə aktiv iştirak edən və qarşılıqlı əməkdaşlıq mühitində daha müsbət davranış nümayiş etdirən fərdlər kimi formalaşırlar. Müəllim tərəfindən verilən dəstək və diqqət şagirdin öyrənmə prosesində uğur qazanmasına, yaradıcılıq və tənqidi düşüncə bacarıqlarının inkişafına xidmət edir.

Səriştəsiz və ya kommunikasiya bacarıqları inkişaf etməmiş müəllimə sahib olan şagirdlərin özünəinamı zəifləyir, öyrənməyə maraqları azalır və akademik göstəriciləri aşağı düşür. Bununla belə, burada "yaxşı" və "pis" müəllim və ya şagird anlayışı mövcud deyil. Əslində problem

daha çox kommunikasiya bacarıqlarının inkişaf etdirilməməsi və düzgün ünsiyyətin qurulmaması ilə bağlıdır. Müəllim şagirdlərin gündəlik məktəbdaxili münasibətlərində rol-model rolunu oynayır. Şagirdlər müəllimlərinin davranışlarını, danışıq tərzini, geyim və davranış üslubunu diqqətlə izləyir və onları öz nümunələrində təkrarlamağa çalışırlar.

Müəllim-şagird münasibətlərinin humanist, dəstəkləyici və hörmətə əsaslanan şəkildə qurulması şagirdlərin akademik və sosial inkişafını təmin edən əsas amildir. Müəllimlərin davranış və üslubu, onların şagirdlərlə ünsiyyəti, diqqət və qayğı göstərmə bacarığı təhsil mühitində sağlam öyrənmə atmosferinin yaradılmasına xidmət edir və şagirdlərin potensialının maksimum səviyyədə ortaya çıxmasına şərait yaradır.

Müəllimin şagirdlərin uğurlarına və nailiyyətlərinə verdiyi reaksiyalar də onların təhsil prosesinə yanaşmasına böyük təsir göstərir. Müəllimlər tərəfindən tez-tez istifadə olunan “Afərin, çox ağıllısan!”, “Səndən ağıllısı yoxdur!” kimi ifadələr uşağın zəkasına və qabiliyyətinə yönəldikdə, bu, şagirddə müəyyən psixoloji reaksiyalara səbəb olur.

Əgər şagirdlərin diqqətdən kənarda qalan səhvləri düzəldilmirsə və onlara konstruktiv dəstək göstərilmirsə, bu vəziyyət öyrənmə keyfiyyətinə mənfi təsir göstərir. Belə şagirdlər dərindən öyrənmək əvəzinə, səthi, qısa müddətli və yadda saxlamağa yönəlik öyrənmə üsullarına üstünlük verirlər. Bu isə yalnız biliklərin əsl mənimsənilməməsinə gətirib çıxarmır, həm də təhsil prosesinin keyfiyyətini aşağı salır, şagirdlərin analitik düşüncə və problem həll etmə bacarıqlarının inkişafına mənfi təsir göstərir.

Buna görə də müəllimlərin şagirdlərin uğurlarına reaksiyasında balanslı, konstruktiv və dəstəkləyici yanaşma vacibdir. Uğur və səhvlər bərabər dərəcədə dəyərləndirilməli, şagirdlərin özünəinamı qorunmalı və öyrənməyə maraqları daim yüksək səviyyədə saxlanmalıdır. Nəticədə, belə yanaşma tədris prosesini daha interaktiv, maraqlı və məhsuldar edir, şagirdin özünüinkişaf və öyrənmə motivasiyasını yüksəldir.

Bu prinsip müəllimlər üçün əsas mesajdır: şagirdlərin uğurunu tərifləyərkən onların zəka səviyyəsinə deyil, göstərdikləri səylərə və fəaliyyətdə göstərdikləri irəliləyişə diqqət yetirmək, onları daim təşviq etmək və səhvlərini öyrənmə fürsətinə çevirmək lazımdır.

Təcrübələr göstərir ki, müəllimin sinif daxilində hansısa bir şagirdə qarşı soyuq və qərəzli davranışı yalnız həmin şagirddə deyil, həm də sinif kollektivində mənfi təsir yaradır. Belə hallarda, digər şagirdlər müəllimin münasibətini örnək götürərək qərəzli və rəftarlarını təkrarlayır, nəticədə tək bir şagird ətrafında sosial təcrid yaranır. Məktəbdə və sinifdə özünü hər şeydən və hər kəsdən təcrid olunmuş kimi hiss edən şagird tez-tez nizam-intizam qaydalarını pozur, dərsin gedişatına mane olur və akademik göstəriciləri, qiymətləri qənaətbəxş səviyyədə olmur.

Müəllimin diqqət və dəstəyindən yetərincə faydalanmayan şagirdlərdə motivasiya itkisinə gətirib çıxarır və onların təhsil prosesində iştirakını azaldır.

Beləliklə, müəllim-şagird münasibətlərində ədalətli, diqqətli və hər şagirdə eyni dərəcədə hörmətlə yanaşmaq vacibdir. Bu, həm şagirdlərin sosial inteqrasiyasını təmin edir, həm də onların motivasiyasını yüksəldir, sinifdə pozitiv öyrənmə mühitinin yaranmasına xidmət edir.

**Humanist münasibətlərin üstünlükləri:**

1. Özünəinam və motivasiya: Müəllim şagirdin səylərini, bacarıqlarını və fəaliyyətini qiymətləndirdikdə, şagird özünəinamını artırır və öyrənməyə daha fəal yanaşır.

2. Pozitiv sinif mühiti: Hörmət və qarşılıqlı etimad prinsiplərinə əsaslanan münasibətlər sinifdə əməkdaşlıq mühitinin yaranmasına səbəb olur, konfliktlərin qarşısını alır və dərs prosesini

səmərəli edir.

3. Sosial və etik inkişaf: Müəllim şagirdlərə yalnız fənni öyrətmir, həm də hörmət, dostluq, mərhəmət, tolerantlıq və nizam-intizam kimi sosial və etik dəyərləri aşılayır.

Səmərəli əməkdaşlıq şagirdlərin təhsil prosesində aktiv iştirakını, yaradıcılıq bacarıqlarının inkişafını və məsuliyyət hissinin formalaşmasını təmin edir. Müəllim qarşılıqlı hörmət və etimad üzərində qurulan ünsiyyət qurduqda, şagirdlər problemləri açıq ifadə edir, suallar verməkdən çəkinmirlər və öyrənməyə maraqları artır. Bununla yanaşı, müəllimin davranışları şagirdlər üçün rol-model funksiyasını da daşıyır. Onların geyimi, danışıq tərzi, həmkarları və şagirdlərə münasibəti şagirdlərin baxışlarını və davranışlarını formalaşdırır.

Nəticədə, müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi təhsil prosesinin keyfiyyətini yüksəldir, əməkdaşlığı möhkəmləndirir və hər iki tərəf üçün inkişaf imkanlarını genişləndirir. Müasir pedaqoji yanaşmalarda bu prinsip, şagirdin həm akademik, həm də sosial inkişafı üçün əsas şərtlərdən biri hesab olunur.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi təlim prosesinin keyfiyyətini və səmərəliliyini artıran mühüm amildir. Qarşılıqlı hörmətə, inama və əməkdaşlığa əsaslanan münasibətlər şagirdin şəxsiyyət kimi formalaşmasına, yaradıcılıq potensialının inkişafına və sağlam psixoloji mühitin yaranmasına şərait yaradır. Buna görə də mövzu müasir pedaqogikanın aktual istiqamətlərindən biridir.

**Problemin elmi yeniliyi.** Tədqiqatda müəllim-şagird münasibətlərinin humanistləşdirilməsinin pedaqoji prosesdə səmərəli əməkdaşlığın formalaşmasına təsiri elmi əsaslarla araşdırılmışdır. Məqalədə humanist yanaşmanın müasir tədris mühitində tətbiq mexanizmləri, müəllimin peşəkar səriştəliliyi ilə şagirdin sosial-emosional inkişafı arasındakı qarşılıqlı asılılıq yeni elmi baxışla təhlil olunmuşdur. Bundan əlavə, təhsil prosesində empatiya, qarşılıqlı hörmət və etimadın formalaşdırılması istiqamətində praktik tövsiyələr təqdim edilməklə mövzuya kompleks yanaşma təklif edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri tədris prosesində müəllim-şagird münasibətlərinin humanist prinsiplər əsasında qurulmasına, qarşılıqlı əməkdaşlığın və ünsiyyət mədəniyyətinin inkişafına praktiki töhfə verir. Məqalədə irəli sürülən yanaşmalar müəllimlərin peşəkar fəaliyyətində tətbiq oluna bilər, tədris mühitində pozitiv psixoloji iqlimin formalaşmasına və şagirdlərin motivasiyasının artırılmasına xidmət edir. Həmçinin, pedaqoji kadrların hazırlığında və ixtisasartırma proqramlarında metodik baza kimi istifadə olunması mümkündür.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.

2. Əliyeva, S. Müasir təlim prosesində idrak fəallığının inkişafı. Bakı: Elm və təhsil, 2022, 286 s.

3. Məmmədova, S. Müasir təlim texnologiyaları. Gəncə: Elm və Təhsil, 2021.

4. Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksanomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, s. 173.

5. Harris, K. M., et al. Public and private domains of religiosity and adolescent health risk behaviors: Evidence from the National Longitudinal Study of Adolescent Health. Journal of Adolescence, 30(2), 231–249, 2009.

**İ.A.Kərimova**

**Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi təlimin optimallaşdırılması vasitəsi kimi**

**Xülasə**

Məqalədə müəllim və şagird arasındakı münasibətlərin humanistləşdirilməsinin tədris prosesində səmərəli əməkdaşlığın formalaşmasına təsiri araşdırılır. Tədqiqat göstərir ki, qarşılıqlı hörmət, etimad, empatiya və əməkdaşlıq prinsiplərinə əsaslanan humanist yanaşma şagirdlərin şəxsiyyət inkişafını və onların yaradıcı potensialının reallaşmasını təmin edir.

Müəllimin peşəkar kompetentliyi və etik davranışı tədris mühitində pozitiv psixoloji iqlimin formalaşmasına şərait yaradır, şagirdlərin motivasiyasını və təhsilin keyfiyyətini artırır. Beləliklə, humanist münasibətlərə əsaslanan pedaqogika müasir təhsilin səmərəliliyinin artırılmasında əsas amil kimi qiymətləndirilir.

**И.А.Керимова**

**Гуманизация взаимоотношений между учителем и учеником как средство оптимизации обучения**

**Резюме**

Статья рассматривает влияние гуманизации взаимоотношений между учителем и учеником на формирование эффективного сотрудничества в образовательном процессе. Исследование показывает, что гуманистический подход, основанный на взаимном уважении, доверии, эмпатии и сотрудничестве, обеспечивает личностное развитие учащихся и реализацию их творческого потенциала. Профессиональная компетентность и этичное поведение учителя способствуют созданию позитивного психологического климата в учебной среде, повышая мотивацию учеников и качество образования. Следовательно, педагогика, основанная на гуманистических отношениях, рассматривается как ключевой фактор повышения эффективности современного образования.

**I.A.Karimova**

**Humanizing teacher-student relationships as a means of optimizing learning**

**Summary**

The article examines the impact of humanizing teacher-student relationships on the formation of effective collaboration in the educational process. The study shows that a humanistic approach, based on mutual respect, trust, empathy, and cooperation, ensures the personal development of students and the realization of their creative potential. The teacher's professional competence and ethical behavior contribute to creating a positive psychological climate in the learning environment, enhancing student motivation and the quality of education. Consequently, pedagogy based on humanistic relationships is considered a key factor in increasing the effectiveness of modern education.

**Redaksiyaya daxil olub:** 23.02.2026

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

*UOT 37.01.*

# DÜNYA VƏ AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN İRSİNDƏ ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏR MƏSƏLƏSİ

**Rəqsanə İsmayıl qızı Abdurəhimova**
*Azərbaycan Respublikasının Təhsil İnstutunin doktorantı*
**ORCİD:** 0009-0008-7316-4539
**E-mail:** raqsanamva@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.11

***Açar sözlər:*** *mənəviyyat, əxlaq, şəxsiyyət, təhsil, humanizm*
***Ключевые слова:*** *духовность, нравственность, личность, образование, гуманизм*
***Key words:*** *spirituality, morality, personality, education, humanism*

Böyük mütəfəkkirlər – R.Natron, R.S.Volson, S.Halli, A.Pengeviç, N.K.Qonçarov, M.Axundov, S.Şirvani və başqaları mənsub olduqları xalqların tərəqqisi naminə geniş miqyaslı maarifçilik fəaliyyəti göstərmiş, savadsızlığın aradan qaldırılması və məktəblərin açılması istiqamətində ardıcıl, məqsədyönlü mübarizə aparmışlar.

Azərbaycanda "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri – M.Cəlil, Ə.Haqverdiyev, N.Vəzirov, M.Ə.Sabir və başqalarının xidmətləri xüsusilə əhəmiyyətlidir. Onların ideyaları və praktik fəaliyyəti nəticəsində xalq özünü dərk etməyə başlamış, cəhalətdən maarifə, elmsizlikdən elmə, qaranlıqdan işığa doğru ilk addımlarını atmışdır. Maraqlıdır ki, M.Cəlilin ideyaları ilə Fridrix Nitşenin baxışları arasında müəyyən mənəvi yaxınlıq hiss olunur. [3]

Müasir dünya sivilizasiyası müxtəlif tarixi mərhələlərdə yaşamış minlərlə fədakar və zəhmətkeş zəkanın yaratdığı mənəvi sərvətlərin ümumiləşmiş nəticəsi kimi formalaşmışdır. Ağıl və təfəkkürün qüdrətindən doğan bu dəyərlər zamanın dərin qatlarında öz yerini tutmuşdur. Bu, təsadüfi hadisə deyil; əsrlər boyu düşünən və yaradan dahilərin ideyaları bir zəncir kimi nəsillərdən-nəsillərə ötürülərək ümumbəşəri əxlaqi-mənəvi xəzinəni zənginləşdirmişdir. [4]

Dünya və Azərbaycan ədəbiyyatında (Hote, Defo, Svift, Fildinq, Ə.Haqverdiyev, H.Cavid, Y.B.Çəmənzəminli, A.Rəhimov və b.) İblis və Şeytan obrazlarına geniş yer verilmişdir. Əslində bu obrazlar mənfi insan tiplərinin simvolik ifadəsidir. Əxlaqi-mənəvi baxımdan onların xarakterlərinin təhlili mühüm əhəmiyyət daşıyır. Davranış və düşüncə tərzindən asılı olaraq iblis və şeytan obrazları simvollaşdırılır. Məqsədləri fərqli görünsə də, son nəticədə onların əməlləri zərər və şər doğurur. Bu obrazlar "insan-iblis", "şeytan-insan" tipologiyasını açaraq mənəviyyatsızlığın mahiyyətini göstərir.

K.Yunq "Kölgə", Z.Freyd "İd", K.Xorni isə insanın qaranlıq tərəfi anlayışları ilə bu mövzuya toxunmuşlar. Məqsədimiz iblis və şeytan obrazları vasitəsilə insanın nifrət doğuran mənfi fəaliyyətlərinin mahiyyətini üzə çıxarmaqdır. [1]

Professor, yazıçı-dramaturq Ağarəhim Şeytanı belə səciyyələndirir: zahirən mələk simalı,

mahiyyətcə hiyləgər və şər qüvvə; əməli cinayət, nəticəsi isə fəlakətdir. İblis isə daha məhdud məqsədli, lakin riyakar və özünü düşünən varlıq kimi təqdim olunur. İnsan isə rəngdən-rəngə düşən, həm mələk, həm iblis, həm də şeytan xüsusiyyətlərini özündə birləşdirən mürəkkəb varlıqdır. Ümumi nəticə budur ki, mələk də, iblis də, şeytan da insan təbiətinin müxtəlif təzahürləridir.

Professor, yazıçı-dramaturq Ağarəhim Şeytanı belə xarakterizə edir: “Şeytan gah qiyafəsi mələk, gah da görkəmi nebət olan bir vücud, özü hiylə, əməlləri şər! Törətdikləri cinayət! Arxası dəhşət və fəlakət! Həzləri iztirab. Fəaliyyəti sərhədsiz!..

— İblis nədir?

— Şeytana nəzərən məqsəd və əhatəsi məhdud, hissi və duyğusu çılğın! Yalnız özünü düşünən riyakar! Sifətdən-sifətə girən, qəlbləri sıxan, ruhları çaşdıran, günahsızları ovsunlayan qaraguruh!

Bəs insan nədir?!

İnsan rəngdən rəngə boyanan məxluq!

— Özlüyündə hakimi mütləq! iddiasında çabalayan zalım!.. Kimisi mələk, ancaq məni dəhşətli üfunət! Para üçün fitnə fəsad! Nəzəriyyəsi ulu Qüdrət! Əməli şeytan ya da iblis! Başla ürək, ürəklə dil arasında şıdırğı rəqs edən məddah!.. Kimisi də zəki! İnsanı insan edən Ulu ruh! Ümumi məzmun — şeytan da, iblis də, mələk də insan! [5].

İnsan ali varlıqdır; o, həm yerin, həm də göyün əşrəfi sayılır. Onun həssas təbiəti, duyğuları və mənəvi zənginliyi əxlaqi möhtəşəmliyinin əsasını təşkil edir. Dünyaya gözəllik bəxş edən yaradıcı ruh yalnız zəngin mənəviyyatla mümkündür. Mənəviyyat insana hazır şəkildə verilmir; o, öz əxlaqı ilə insan olur. Dünyanın bütün gözəllikləri əxlaq və mənəviyyat üzərində qurulur. [2]

Əxlaqi-mənəvi dəyərlərə yiyələnməyən insan həqiqi azadlığa çata bilməz. Azadlıq yalnız sözlə deyil, ruh və əməllə bağlıdır. Özünüdərk kamilliyin zirvəsidir. Əxlaq və mənəviyyat insanın əqidə sağlamlığıdır. Ürfan fəlsəfəsinə görə mənəviyyat Allaha inamla bağlıdır. V.Şkovski, O.Şpenqler, P.Enqeller, S.Mixalkov, Y.A.Komenski və başqalarına görə əxlaqsız nə həyat, nə də mənəviyyat mövcuddur.

Ruhun qidası bilik, irs və ideyalarla zənginləşir. Əks halda insan özünü cəmiyyətə qarşı qoyur, yanlış davranışlar göstərir və sonradan peşmanlıq hissi keçirir. Doğru əxlaq və saf mənəviyyat insanın cəmiyyət qarşısında borcudur. Özünü cəzalandırma fiziki deyil, mənəvi məsuliyyət və utanc hissi ilə ifadə olunmalıdır. Özünü təkmilləşdirmək cəmiyyəti də təkmilləşdirmək deməkdir. [8]

Sevgi və məhəbbət saf əxlaqdan doğur. Sevgi olmayan yerdə nifrət və qarşıdurma yaranır. İnsan mürəkkəb və çoxşaxəli varlıqdır; özünü dərk etdikcə kamilləşir. “Özünü dərk et, onda kainatı da dərk etmiş olarsan” fikri bu həqiqəti ifadə edir.

Müasir dünya ciddi ziddiyyətlərlə üz-üzədir. Bu vəziyyətdən çıxış yolu təhsil və tərbiyənin əxlaqi-mənəvi istiqamətdə yenidən qurulmasıdır. Yeni təfəkkürlü insanın yetişdirilməsi yalnız yüksək mənəviyyat və möhkəm əxlaq üzərində mümkündür.

Sokrat, Platon, Aristotel, Fərabi, Kant, Feyerbax və digər filosoflar, həmçinin Dostoyevski, Tolstoy, Didro və başqaları əxlaq və mənəviyyat məsələlərini daim diqqət mərkəzində saxlamışlar. Onların fikrincə, insanın inkişafı maddi göstəricilərlə deyil, mənəvi dəyərlərə verdiyi qiymətlə ölçülür. [6]

Psixoloqlar – Freyd və Yunq əxlaq və mənəviyyatın təhtəlşüurla bağlılığını izah etmiş, Yunq arxetiplər nəzəriyyəsində əcdadların mənəvi təsəvvürlərinin nəsildən-nəsilə ötürüldüyünü göstərmişdir. Təhsil və tərbiyədə irsiyyətin, mühitin və sosial-psixoloji amillərin rolu böyükdür.

Y.A.Komenski, K.Uşinski, Makarenko, Ə.Həşimov, Ə.Paşayev və digər pedaqoqlar əxlaq və mənəviyyatın milli və tarixi əsaslarını araşdırmış, onun prinsiplərini müəyyənləşdirmişlər. Şüur daim yeni məlumatlarla zənginləşir və təkmilləşir. "Mənəviyyat qan yaddaşıdır" fikri də bu davamlılığın ifadəsidir.

Əxlaq və mənəviyyat qarşılıqlı əlaqədə olan iki mühüm komponentdir və onların təhsil-tərbiyə prosesində düzgün tətbiqi zəruridir. Müasir dövrdə mənəvi deqradasiya, maddiyyatın üstünlük qazanması, insan münasibətlərində soyuqluq təhsildə yeni keyfiyyət dəyişikliklərini tələb edir. Humanitar elmlərin inkişafı, köhnə stereotiplərdən imtina, yaradıcı və insani dəyərlərə əsaslanan təhsil modelinin qurulması zəruridir. [7]

Cəmiyyətdə humanitar elm sahələrinin inkişafı üçün yeni əxlaq və mənəviyyatı keyfiyyətcə gücləndirəcək istiqamətlərin genişləndirilməsi və araşdırılması üzrə işləri intesivləşdirir. Bununla əlaqədar Azərbaycanda humanitar elm sahələrinin, təhsilin, tərbiyənin inkişafında da ciddi keyfiyyət dəyişiklikləri aparılmalı, köhnə fikirlərdən, yarıtmaz, şablon düşüncülərdən, plagiat xarakterli əsərlərdən əl çəkilməlidir. Başqa sözlə, insandan insan yetişdirmək gələcək nəsilləri insanilik ruhunda tərbiyə etməyə, əxlaqi-mənəvi dəyərlərini yüksəltməyə, qapılar açmağa şərait yaradan təhsil məzmununun formalaşdırılmasıdır.

Nəticə etibarilə, əxlaqi-mənəviyönlü təhsil və tərbiyənin elmi əsaslarla təşkili şəxsiyyətin hərtərəfli inkişafına güclü təsir göstərir. Problemin mahiyyətinin dərindən dərk olunması, kurikulum və dərsliklərin yenilənməsi, pedaqoji təcrübənin təhlili, ailə və sosial mühitin təsirinin nəzərə alınması şəxsiyyətin formalaşmasında mühüm rol oynayır. Yalnız bu halda əxlaqi-mənəvi dəyərlərə söykənən kamil insan modeli formalaşa bilər.

**Problemin aktuallığı.** Müasir dövrdə cəmiyyətin inkişafı yalnız iqtisadi və texnoloji tərəqqi ilə ölçülmür; onun əsas dayağı əxlaqi-mənəvi dəyərlərin qorunması və inkişafıdır. Qloballaşma, informasiya axınının sürətlənməsi və sosial-iqtisadi dəyişikliklər insan davranışlarında ziddiyyətlər yaradır, mənəvi deqradasiya riskini artırır. Bu baxımdan əxlaqi-mənəvi dəyərlərin təhsil və tərbiyə vasitəsilə formalaşdırılması məsələsi aktualdır. Məqalədə böyük mütəfəkkirlərin, filosofların, yazıçıların və pedaqoqların əxlaq və mənəviyyat haqqında düşüncələrinin təhlili aparılır, insan təbiətində mələk, iblis və şeytan obrazlarının mənəvi konteksti araşdırılır, həmçinin təhsil və tərbiyədə bu dəyərlərin tətbiqinin zəruriliyi vurğulanır.

**Problemin elmi yeniliyi.** Tədqiqatın yeniliyi əxlaqi-mənəvi dəyərlərin həm tarixi, həm də müasir kontekstdə sistemli şəkildə təhlil olunmasında, insanın psixoloji və mənəvi aspektlərinin nəzəri və praktik əlaqələrinin göstərilməsindədir. M.Cəlil, Ə.Haqverdiyev, N.Vəzirov, M.Ə. Sabir və digər maarifçi və yazıçıların fəaliyyətləri ilə dünya filosoflarının (Sokrat, Platon, Aristotel, Fərabi, Kant və s.) baxışları arasında paralellər aparılır. Eyni zamanda iblis və şeytan obrazları vasitəsilə insanın mənfi və müsbət xüsusiyyətlərinin təhlili, onların təhsil və tərbiyə kontekstində mənəvi inkişafla əlaqəsinin göstərilməsi elmi yenilik kimi qiymətləndirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat, əxlaq və mənəviyyatın insanın şəxsiyyət formalaşmasında, yaradıcı və sosial fəaliyyətində rolunu dərinləşdirilmiş nəzəri baxışla

təqdim edir. Filosofların, psixoloqların (Freyd, Yunq, K.Xorni) və pedaqoqların (Y.A.Komenski, K.Uşinski, Makarenko, Ə.Həşimov, Ə.Paşayev) nəzəriyyələrindən istifadə edilərək mənəvi dəyərlərin irsiyyət, sosial mühit və təhsil amilləri ilə qarşılıqlı əlaqəsi göstərilir. Tədqiqat həmçinin ədəbiyyat nümunələri və mənəvi simvollar vasitəsilə əxlaqi məsələlərin təhlilini təmin edir.

Məqalədə təqdim olunan nəticələr təhsil və tərbiyə sahəsində konkret tədbirlərin həyata keçirilməsinə imkan yaradır. Əxlaqi-mənəvi dəyərlərə əsaslanan kurikulum və dərsliklərin hazırlanması, müəllim və valideynlərin maarifləndirilməsi, sosial və psixoloji amillərin nəzərə alınması ilə şəxsiyyətin formalaşdırılması praktik əhəmiyyət daşıyır. Eyni zamanda, tədqiqatın nəticələri insanın özünü dərk etməsi, cəmiyyət qarşısında məsuliyyətini anlaması və mənəvi zənginliyini artırması üçün elmi əsaslar təqdim edir.

## Ədəbiyyat

1. Rəhimov A.N. Allahla ünsiyyət. – Bakı: Mütərcim, 2018. – 192 s.
2. Rəhimov A.N. Qüdrətdən doğan nur. – Bakı: Mütərcim, 2021. – 208 s.
3. Abbasov A.N. Milli əxlaq və ailə estetikası. – Bakı: Mütərcim, 2016. – 224 s.
4. Abbasov A.N. Pedaqogika: dərslik. – Bakı: Mütərcim, 2016. – 360 s.
5. Cavid H. İblis. – Bakı: Azərnəşr, 1978. – 96 s.
6. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. – Bakı: Maarif, 1987. – 248 s.
7. İsmixanov M.A. Sosial pedaqogika. – Bakı, 2013. – 304 s.
8. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. – Bakı: Maarif, 1988. – 416 s.

**R.İ.Abdurəhimova**

**Dünya və Azərbaycan mütəfəkkirlərinin irsində əxlaqi-mənəvi dəyərlər məsələsi**
**Xülasə**

Böyük mütəfəkkirlər xalqlarının tərəqqisi naminə fəaliyyət göstərmiş, maarifçiliyi təşviq etmiş, savadsızlığın aradan qaldırılmasına və məktəblərin yaradılmasına töhfə vermişlər. Azərbaycanda “Molla Nəsrəddin” ədəbi məktəbinin nümayəndələri ictimai şüurun yüksəldilməsində mühüm rol oynamış, insanları cəhalətdən biliyə, qaranlıqdan işığa doğru yönəltmişlər. Ədəbiyyatda Şeytan və İblis obrazları insanın mənfi xüsusiyyətlərini simvolizə edir; bu obrazların təhlili zərərli və nifrət doğuran insan davranışlarını anlamağa kömək edir. İnsan mürəkkəb varlıqdır və onun daxilində həm mələk, həm şeytan, həm də iblisə xas xüsusiyyətlər mövcuddur. Yüksək əxlaq, etik normalar və dəyərlər insan xarakterini saflaşdırır; əxlaq isə insanın öz etik inkişafı nəticəsində formalaşır. Təlim və tərbiyə prosesində əxlaq və etikanın düzgün tətbiqi şəxsiyyətin inkişafını təmin edir. Müasir dünyada mənəvi deqradasiyaya qarşı mübarizə humanitar elmlərin inkişafını, yaradıcı təhsil modellərini və əxlaqi-mənəvi dəyərlərə əsaslanan təhsili tələb edir. Nəticə etibarilə, əxlaqyönlü təhsil insanın hərtərəfli inkişafına və kamil şəxsiyyətin formalaşmasına xidmət edir.

**Р.И.Абдурехимова**

**Вопрос морально-этических ценностей в наследии мировых и азербайджанских мыслителей**

**Резюме**

Великие мыслители работали на благо прогресса своих народов, способствуя просвещению, ликвидируя безграмотность и создавая школы. В Азербайджане представители литературной школы «Молла Насреддин» сыграли ключевую роль в просвещении народа, направляя людей от невежества к знаниям и от тьмы к свету. В литературе образы Дьявола и Сатаны символизируют негативные человеческие качества; их анализ помогает понять вредные и ненавистные человеческие поступки. Человек — сложное существо, обладающее качествами ангела, дьявола и Сатаны одновременно. Высокая мораль, этика и ценности формируют характер человека; мораль приобретается через собственное этическое развитие. Правильное применение этики и морали в образовании и воспитании обеспечивает развитие личности. В современном мире борьба с моральной деградацией требует развития гуманитарных наук, внедрения творческих образовательных моделей и воспитания, основанного на моральных и этических ценностях. В конечном итоге, нравственно ориентированное образование способствует всестороннему развитию личности и формированию совершенного человека.

**R.İ.Abdurahimova**

**The issue of moral and ethical values in the heritage of world and Azerbaijani thinkers**

**Summary**

Great thinkers worked for the progress of their nations, promoting enlightenment, eradicating illiteracy, and establishing schools. In Azerbaijan, representatives of the “Molla Nasreddin” literary school played a key role in raising public awareness, guiding people from ignorance to knowledge and from darkness to light. In literature, the figures of the Devil and Satan symbolize negative human traits; analyzing these characters helps understand harmful and hateful human behaviors. Humans are complex beings, possessing qualities of angels, devils, and Satan alike. Higher morality, ethics, and values refine human character; morality is acquired through one’s own ethical development. Proper application of ethics and morality in education and upbringing ensures personality development. In the modern world, combating moral degradation requires the advancement of the humanities, creative educational models, and education grounded in moral and ethical values. Ultimately, morality-oriented education contributes to the comprehensive development of the individual and the formation of a perfect personality.

**Redaksiyaya daxil olub:** 13.02.2026

*UOT 37.*

# PEDAQOJİ METODLAR VƏ YENİLİKLƏR KONTEKSTİNDƏ HEYDƏR ƏLİYEV NÜMUNƏSİ ƏSASINDA ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Əfsanə Arif qızı Rüstəmova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0000-0001-6814-0657
**E-mail:** afsana.rustamova.dok@arti.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.12

***Açar sözlər:*** *innovasiyalar, Heydər Əliyev, şagird şəxsiyyəti, tərbiyə, pedaqoji metodlar, milli ideologiya.*
***Ключевые слова:*** *инновации, Гейдар Алиев, личность студента, воспитание, педагогические методы, национальная идеология.*
***Key words:*** *innovations, Heydar Aliyev, student personality, upbringing, pedagogical methods, national ideology.*

**Giriş.** Müasir dövrün tələblərinə uyğun olaraq, hər sahədə yenilikçi atmosferi dəstəkləmək, innovasiyaları səmərəli şəkildə mənimsəmək mühüm amillərdən biridir. Bu innovasiyalardan uğurla istifadə gələcəkdə dövrün tələblərinə uyğun inkişaf etmək deməkdir.

Müasir dövrdə təhsilin məqsədi təkcə savadlı gələcək yetişdirməkdən ibarət deyil. Eyni zamanda milli dəyərlərə malik, sosial məsuliyyətini dərk edən, müstəqil, tənqidi və yaradıcı təfəkkürə malik şəxsiyyət formalaşdırmaqdır. Bu məsələləri müvəffəqiyyətlə həyata keçirmək üçün dövrün pedaqoji metodlarını və yeniliklərini izləmək, onları mənimsəmək və tətbiq etmək mütləqdir. Müsbət nəticələr əldə edə bilmək üçün aparılan siyasətin vəhdətli şəkildə təşkil edilməsi mühüm amildir. Vəhdətli şəkildə təşkiletmə dedikdə, klassika ilə müasirliyin bir-birini izləməsi nəzərdə tutulur. Buna misal olaraq, bunları qeyd etmək olar:

— Dəyərlərə əsaslanan təlim;
— İnteraktiv metodlar;
— Rəqəmsal təhsil sistemi və imkanları;
— Şəxsiyyətyönlü təlim prosesi.

Həyata keçirilən islahatlar, təhsil siyasətinin effektiv olması üçün mili ideoloji məzmunla müasir innovasiyalardan kompleks şəkildə istifadə etmək lazımdır. Beləliklə, vəhdət şəkildə aparılan proses məzmunu daha da zənginləşdirmiş olar.

Milli ideologiyadan istifadə edərkən, xalqımızın vətənpərvər və sədaqətli şəxsiyyətlərinin bizə miras qoyduqları ideologiyalarından nümunələr gətirmək, işin mahiyyətini buna əsaslandırmaq bu strategiyanın əsas istiqamətlərindəndir. Azərbaycanda bu istiqamətdə aparılan islahatların əsas ideyaları məhz Ümummilli Lider Heydər Əliyevin təhsil konsepsiyasına xitab edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev təlim prosesinə dövlətçilik ideyalarını daxil etmişdir. Onun hakimiyyət illərində dövlətçilik ideologiyası yeni məzmuna malik müasir konsepsiya şəklində formalaşdırılmışdır.

O, 1998-ci il noyabrın 23-də sədri olduğu YAP-nın yaradılmasının 6 illiyinə həsr olunmuş yığıncaqdakı çıxışında müstəqil Azərbaycanın milli ideologiyasının müasir və bitkin konsepsiyasını qeyd etmişdir. Qarşıda duran mühüm vəzifələrin icrası haqqında açıqlama verərək demişdir: ”Müstəqilliyi elan etmək hər bir xalq üçün, ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtçilikdir. Amma müstəqilliyi yaşatmaq, onu dönməz etmək bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir”. [1, s-4.]

Onun fikrincə, təhsil müəssisəsi yalnız bilik verən məkan deyil, həmçinin şəxsiyyətin formalaşdığı sosial-mənəvi mühitdir. O, çıxışları zamanı aşağıdakı prinsipləri əsas tuturdu:

- Şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınması;
- Müəllim şəxsiyyətinin aparıcı rol oynaması;
- Vətənpərvərlik ruhunun aşılanması;
- Milli-mənəvi dəyərlərə əsaslanan təlim - tərbiyə sistemi.

Ümummilli Lider Heydər Əliyev istər çıxışları və nitqi ilə, istərsə də imzaladığı fərmanlarla hər zaman Azərbaycan vətəndaşlarının yanında olduğunu hiss etdirirdi. Belə ki, o, çıxışlarının birində qeyd etmişdir: “Təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır. [2, s-7.]

Ölkənin, xalqın inkişafının əsas mənbəyini təhsilin inkişaf etdirilməsində və dünya təhsil sisteminə inteqrasiya edilməsində görən Ümummilli Lider Heydər Əliyev hər vəchlə qabaqcıl ölkələrin təhsil sistemini mənimsəmək istiqamətində qətiyyətli addımlar atmışdır. Təhsil siyasəti və islahatları barədə danışarkən, o, demişdir: “Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır”[3, s-373.]

Eyni zamanda gənc nəslin şəxsiyyət kimi formalaşdırılması məsələsində o deyirdi: “Gənc nəslin tərbiyəsi..,mənəvi cəhətdən zəngin, ideoloji cəhətdən güclü, yüksək əxlaqlı şəxsiyyətin formalaşdırılması bu gün cəmiyyətimizin qarşısında duran ən mühüm vəzifədir” [4, s-637].

Ümummilli Lider Heydər Əliyev 1996-cı ildə Azərbaycan gəncləri ilə görüşündə nitqini belə tamamlamışdır: ”Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm kı, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Onların nümayəndələri bu salondadır. Onların nümayəndələri bugünkü uşaqlardır, yetişən gənclərdir. Ona görə də biz yaşlı nəslin nümayəndələri arxayınıq ki, siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm”! [5]

Belə ki, Heydər Əliyev nümunəsinin şagirdlər üçün tarixi lider olması ilə yanaşı, həm də vətəndaşlıq və əxlaqi baxımından nümunə olması deməkdir. Onun apardığı hərtərəfli siyasət, strategiya, həyat yolu şagirdlərin yolunda çıraq, qəlblərində tutduğu amal olmalıdır. Ümummilli Lider Heydər Əliyev nümunəsi şagirdlərdə bir çox əhəmiyyətli xüsusiyyətləri formalaşdıra

bilər. Bu xüsusiyyətlərdən bəziləri kimi, məsuliyyət hissini, məqsədyönlülüyü, vətənə və millətə olan sevgini, vətənə sədaqəti göstərmək olar. Ümummilli Lider Heydər Əliyev də bu keyfiyyətlərə xüsusi önəm verir, gənc nəslin şəxsiyyət kimi formalaşdırılması işində əxlaq və tərbiyənin əvəzolunmaz olduğunu vurğulayırdı: " İnsan vətəninə, millətinə, dininə, dilinə nə qədər çox bağlı olarsa, əxlaqı da bir o qədər yüksək olar" [6, s-637.].

Ümummilli Lider Heydər Əliyevin gənc nəslin yetişdirilməsində rol-model olması onlarda abstrakt anlayışların konkretləşməsində mühüm rol oynaya bilər. Gənc nəsil dövlətçilik ideologiyalarının, vətənpərvərlik, vətənə və xalqa sədaqət anlayışlarının, liderlik və uzaqgörənlik, dövrün tələblərinə bələd olmaq, müasir innovasiya və metodlara yiyələnmək kimi bacarıqları daha asan şəkildə mənimsəyə bilər. Bunun üçün Ümummilli Lider Heydər Əliyevin nümunəsində milli-mənəvi dəyərlərimizi canlı obraz şəklinə gətirmək olar. Beləliklə, milli ideologiyamızla müasir metod və yenilikləri birləşdirmiş olarıq. Bu zaman tarixi şəxsiyyətlər təlim obyekti kimi deyil, tərbiyəvi model kimi çıxış edər.

Bütün bu strategiyaları həyata keçirərkən, mərhələli şəkildə yerinə yetirmək lazımdır. Rol-model kimi götürülən şəxsiyyətin fəaliyyəti şagirdlərin yaş səviyyəsinə uyğunlaşdırılaraq izah edilməlidir. Fəaliyyət zamanı tənqidi təfəkkürü inkişaf etdirməklə şagirdlərin düşünmə qabiliyyəti artırılmalıdır. Fəaliyyət hər zaman hörmət çərçivəsində həyata keçirilməlidir. Ən əsası isə baş vermiş tarixi faktlar müasir dövrün sosial və mənəvi ideologiyası ilə əlaqələndirilməlidir. Klassikanın müasir metodlarla vəhdətini müxtəlif səmərəli üsullarla dəstəkləmək olar. Bunlardan debat və diskussiya, problem əsaslı təlim, rol oyunu və situasiya analizi, esse və reflektiv yazılar və digərlərini misal göstərmək olar. Bu metodlar əsasında şagirdlərdə tənqidi təfəkkür, fikrini sərbəst ifadə etmək, analiz, müstəqil düşünmə, vətəndaş mövqeyi, dəyərlərə əsaslanaraq qərarvermə və başqa bacarıqlar formalaşır.

Beləliklə, tarixi şəxsiyyətlərin, xüsusilə, Ümummilli Lider Heydər Əliyevin nümunəsində şagird şəxsiyyətinin formalaşdırılması mühüm effektiv nəticələr verə bilər. Pedaqoji baxımdan müasir metodlar və yeniliklər milli ideologiya ilə vəhdət təşkil etsə, şagirdlərdə milli kimliyin dərki, vətənpərvərlik, mənəvi dəyərlərə əsaslanmış şəxsiyyətin formalaşmasında vacib vasitədir.

**Problemin aktuallığı.** Müasir dövrümüzdə ümumtəhsil müəssisələrində şagird şəxsiyyətinin inkişafı və formalaşdırılmasında düzgün istiqamətin müəyyənləşdirilməsi, mövcud problemin dövrün tələblərinə uyğun şəkildə həll edilməsi nəzərdə tutulur. Mövcud problemlərin aradan qaldırılması işində Ümummilli Lider Heydər Əliyev irsindən istifadə mühüm əhəmiyyət kəsb edir. Belə ki, şagird şəxsiyyətinin formalaşdırılması məsələsi əsassız istiqamətlərdə aparılarsa, bu, dövlətin, cəmiyyətin uğursuzluğuna gətirib çıxara bilər. Bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin şəxsi keyfiyyətləri ilə yanaşı, onun vətənpərvərliyi, vətənə sədaqəti və digər xüsusiyyətləri də aşılanmalıdır.

**Problemin elmi yeniliyi.** Ümumtəhsil müəssisələrində şagird şəxsiyyətinin formalaşdırılması və inkişafı üzrə işi məzmunu, bu istiqamətdə istifadə olunan üsul və yollar araşdırılaraq uyğun sistem müəyyənləşdirilir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri əsasında ümumtəhsil müəssisələrində maarifləndirmə işləri aparıla bilər. Bu işdə müəllim-şagird-valideyn üçbucağı əsasında fəaliyyət göstərərək uğurlu nəticələr əldə etmək gözləniləndir.

### Ədəbiyyat

1. "İki sahil". -2023, -25 oktyabr. -№195. -s.4.
2. Əhmədov A. Azərbaycanın ümumi təhsili Heydər Əliyev ideyalarının işığında // Azərbaycan müəllimi, 17 fevral, 2023, s-7.
3. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, səh-373.
4. Əliyev Heydər: Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə / tərt.ed. Ə.İsmayılov. – Bakı: "Müəllim" nəşriyyatı,- 2008, s- 637.
5. Əliyev H. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitqi// Azərbaycan qəzeti – 1996, - 6 fevral.
6. Əliyev Heydər: Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə / tərt.ed. Ə.İsmayılov. – Bakı: "Müəllim" nəşriyyatı, - 2008, s- 637.

**Ə.A.Rüstəmova**

### Pedaqoji metodlar və yeniliklər kontenkstində Heydər Əliyev nümunəsi əsasında şagird şəxsiyyətinin formalaşdırılması

### Xülasə

Məqalədə pedaqoji metodlar, eyni zamanda təhsil sahəsində baş verən yeniliklər kontekstində şagird şəxsiyyətinin formalaşdırılması məsələsi tədqiq edilir. Məqalədə şagirdlərlə təlim zamanı müasir metodların tətbiqi, tətbiq zamanı milli ideologiyaya əsaslanaraq yenilikləri həyata keçirmək öz əksini tapmışdır. Şəxsiyyətin pedaqoji baxımdan hərtərəfli formalaşması üçün tarixi şəxsiyyətlərin milli ideologiyasının şagirdlərə təlqin edilməsinin vacibliyi qeyd olunur. Aparılan tədqiqatda Ümummilli Lider Heydər Əliyevin təhsil və tərbiyə məsələlərində, həmçinin gənc nəslin formalaşdırılmasında mühüm rol oynayan ideyaları prioritet hesab edilir. Milli-mənəvi dəyərlərin, təhsil və tərbiyənin, vətəndaşlıq ruhunda inkişafın həyata keçirilməsi üçün Ümummilli Lider Heydər Əliyev irsinin aktual pedaqoji əhəmiyyəti təhlil edilir.

**А.А.Рустамова**

### Формирование личности студента на примере Гейдара Алиева в контексте педагогических методов и инноваций

### Резюме

В статье рассматривается вопрос формирования личности учащегося в контексте педагогических методов, а также инноваций в сфере образования. В статье отражено применение современных методов в процессе обучения учащихся и внедрение инноваций, основанных на национальной идеологии, в ходе их применения. Отмечается важность привития учащимся национальной идеологии исторических деятелей для

всестороннего формирования личности с педагогической точки зрения. В проведенном исследовании приоритетное место занимают идеи Национального лидера Гейдара Алиева, играющие важную роль в воспитании и образовании, а также в формировании молодого поколения. Анализируется современное педагогическое значение наследия Национального лидера Гейдара Алиева для реализации национально-нравственных ценностей, воспитания и развития духа гражданственности.

**A.A.Rustamova**

**Formation of student personality based on the example of Heydar Aliyev in the context of pedagogical methods and innovations**

**Summary**

The article studies the issue of forming the student's personality in the context of pedagogical methods, as well as innovations in the field of education. The article reflects the application of modern methods during training with students, and the implementation of innovations based on national ideology during their application. The importance of instilling the national ideology of historical figures in students for the comprehensive formation of personality from a pedagogical point of view is noted. In the conducted research, the ideas of the National Leader Heydar Aliyev, which play an important role in education and upbringing, as well as in the formation of the younger generation, are considered a priority. The current pedagogical significance of the heritage of the National Leader Heydar Aliyev for the implementation of national-moral values, education and upbringing, and development in the spirit of citizenship is analyzed.

**Redaksiyaya daxil olub:** 05.03.2026

*UOT 37.01*

# ŞAGİRDLƏRİN AZƏRBAYCANÇILIQ RUHUNDA TƏRBİYƏ EDİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI

**Səkinə Fuad qızı Səfərova**
*Bakı Qızlar Universiteti magistrantı*
**ORCİD:** 0009-0007-3086-3383
**E-mail:** sakinasafarova5@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.13

***Açar sözləri:*** *Azərbaycançılıq, milli dəyərlər, tərbiyə, vətənpərvərlik.*
***Ключевые слова:*** *азербайджанство, национальные ценности, воспитание, патриотизм.*
***Key words:*** *Azerbaijaniness, national values, upbringing, patriotism.*

Müasir dövrdə qloballaşma və informasiya axınının sürətlə artması şəraitində milli-mənəvi dəyərlərin qorunması və nəsildən-nəslə ötürülməsi mühüm pedaqoji və ideoloji vəzifələrdən birinə çevrilmişdir. Azərbaycan xalqının milli ideologiyası olan azərbaycançılıq — dövlətçilik, vətənpərvərlik, milli həmrəylik, tolerantlıq, humanizm kimi dəyərləri özündə birləşdirərək gənc nəslin formalaşmasında aparıcı rol oynayır. Bu baxımdan şagirdlərin azərbaycançılıq ruhunda tərbiyə edilməsi təhsil sisteminin əsas istiqamətlərindən biri kimi xüsusi aktuallıq kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında da dəfələrlə vurğulandığı kimi, gənclərin milli ruhda, dövlətə və xalqa sədaqət prinsipləri əsasında yetişdirilməsi ölkənin sabahı və milli təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində, həmçinin "Təhsil Strategiyası"nda milli-mənəvi dəyərlərə söykənən və vətənpərvər gənc nəslin yetişdirilməsi başlıca məqsəd kimi müəyyən edilmişdir. Bu kontekstdə məktəbdə təlim-tərbiyə prosesinin təkcə bilik və bacarıqların aşılanması ilə deyil, milli kimliyin və mənəvi dəyərlərin formalaşdırılması ilə uzlaşdırılması tələb olunur. Azərbaycançılıq ruhunda tərbiyə şagirdlərin milli-mədəni irsə hörmətlə yanaşmasını, dilinə, tarix və mədəniyyətinə sevgi bəsləməsini, eyni zamanda müasir qlobal dünyada milli dəyərləri qorumağı öyrədir. Şagirdlərin azərbaycançılıq ruhunda tərbiyə edilməsinin səmərəli yollarının araşdırılması həm elmi-pedaqoji baxımdan aktual, həm də dövlət siyasətinin prioritet istiqamətlərinə uyğun bir məsələdir. Bu istiqamətdə tədqiqat aparmaq, tədris və tərbiyə prosesinə yeni metodoloji yanaşmalar gətirməyə, müəllimlərin fəaliyyətini milli ideoloji əsaslarla zənginləşdirməyə imkan verir [1, s. 11].

Azərbaycançılıq ruhunda tərbiyə prosesi gənc nəslin şəxsiyyət kimi formalaşmasına, milli kimliyinin möhkəmlənməsinə və vətənə bağlılıq hissinin inkişafına yönəlmişdir. Bu tərbiyə modeli yalnız ideoloji deyil, həm də mənəvi-əxlaqi sistemin əsas daşıyıcısı kimi çıxış edir. Müasir məktəb şagirdlərdə həm milli, həm də ümumbəşəri dəyərlərin harmoniyasını yaratmalı, onları vətəndaş məsuliyyəti, azərbaycançılıq fəlsəfəsi və dövlətə sədaqət ruhunda yetişdirməlidir.

Hazırkı dövrdə dünyada gedən qloballaşma prosesləri, informasiya texnologiyalarının təsiri, mədəni assimilyasiya təhlükələri gənclərin milli şüuruna birbaşa təsir göstərir. Bu vəziyyətdə məktəbin, müəllimin və ailənin rolu daha da artır. Şagirdlərə azərbaycançılıq ruhunda tərbiyənin verilməsi onların düşüncə tərzində milli kimliyin qorunmasını təmin edir, milli ideallar

uğrunda məsuliyyət hissini formalaşdırır.

Təhsil müəssisələrində bu istiqamətdə aparılan işlər, dərsdənkənar tədbirlər, vətənpərvərlik dərsləri, xalq qəhrəmanları və tarixi şəxsiyyətlərin nümunəsində həyata keçirilən tərbiyəvi proqramlar sistemli şəkildə tətbiq edilməlidir. Bu, şagirdlərin həm bilik, həm də dəyərlər baxımından formalaşmasına şərait yaradır. Azərbaycançılıq ruhunda tərbiyə – milli ideologiyanın məktəbdə tətbiqi, şagirdlərdə milli-mənəvi dəyərlərin şüurlu şəkildə mənimsənilməsi və cəmiyyətə sadiq vətəndaş kimi formalaşması baxımından zəruri və mühüm pedaqoji məsələdir.

Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, o, şagirdlərin azərbaycançılıq ruhunda tərbiyə edilməsinin nəzəri, metodoloji və praktik əsaslarını kompleks şəkildə araşdırır və bu prosesin səmərəliliyini artırmaq üçün yeni pedaqoji yanaşmalar təklif edir. Birincisi, azərbaycançılıq ideologiyası ilk dəfə olaraq müasir təlim-tərbiyə prosesinin dəyərləryönlü inteqrativ modeli çərçivəsində sistemli şəkildə tədqiq edilir. Məqalədə azərbaycançılığın əsas komponentləri — milli kimlik, vətənpərvərlik, dövlətçilik, dilə və mədəniyyətə sevgi, humanizm və tolerantlıq kimi anlayışlar şagirdlərin şəxsiyyət inkişafı ilə əlaqələndirilir. İkincisi, tədqiqatda milli dəyərlərin tədris prosesinə inteqrasiyası üçün müasir pedaqoji texnologiyalar (interaktiv metodlar, layihə və fəaliyyətyönlü təlim, oyun texnologiyaları, rəqəmsal resurslar vasitəsilə tərbiyə) tətbiq imkanları müəyyənləşdirilir. Bu, azərbaycançılıq tərbiyəsinin ənənəvi formalarından daha səmərəli və müasir təhsil mühitinə uyğunlaşdırılmış yanaşmadır. Üçüncüsü, məqalədə müəllim-şagird, ailə-məktəb və cəmiyyət əlaqələrinin azərbaycançılıq dəyərlərinin ötürülməsində qarşılıqlı təsir mexanizmləri elmi əsaslarla izah olunur və konkret praktiki modellərlə (dəyərlər zənciri, tərbiyəvi təsir sxemi və s.) təqdim edilir. Dördüncüsü, müəllif tərəfindən azərbaycançılıq ruhunda tərbiyənin effektivliyini ölçmək üçün pedaqoji qiymətləndirmə meyarları və göstəriciləri (şagirdin milli kimlik şüuru, vətənpərvərlik davranışı, sosial fəallıq, mənəvi məsuliyyət və s.) işlənib hazırlanmışdır [2, s. 15].

Tədqiqat həm nəzəri, həm də praktik baxımdan milli dəyərlərin təlim-tərbiyə sistemində tətbiqi üçün yeni elmi yanaşma təklif edir və bu sahədə mövcud boşluqları doldurur.

Aparılan tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə edilən elmi nəticələr və təklif olunan metodoloji yanaşmalar təhsil müəssisələrində milli tərbiyə işinin təşkilinə yeni məzmun gətirir. Məqalə, müəllimlər, məktəb rəhbərləri, metodistlər və pedaqoji ixtisas üzrə təhsil alan tələbələr üçün azərbaycançılıq ideologiyasının praktik tətbiq mexanizmlərini aydın şəkildə göstərir. Tədqiqat nəticələri əsasında hazırlanan konseptual yanaşmalar məktəbdə şagirdlərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması üçün praktiki fəaliyyət proqramları, dərsdənkənar tədbirlər planları və fənlərarası inteqrasiya modellərinin işlənməsinə imkan yaradır. Bu, pedaqoqlara şagirdlərin təlim-tərbiyə prosesində azərbaycançılıq ruhunun daha məqsədyönlü şəkildə aşılanmasına şərait yaradır. Tədqiqatda göstərilən təkliflər əsasında məktəblərdə və təlim mərkəzlərində “azərbaycançılıq dəyərləri” mövzusunda interaktiv dərslər, layihə yönümlü tədris, debat və müzakirə klubları, vətənpərvərlikyönlü tədbirlər təşkil etmək mümkündür. Bu üsullar şagirdlərin yalnız nəzəri biliklərini deyil, həm də emosional və davranış səviyyəsində milli ideologiyanı dərk etmələrini təmin edir [3, s. 119].

“Azərbaycan 2030” Milli Prioritetləri, “Təhsil Strategiyası” və “Məktəblinin şəxsiyyət yönümlü inkişaf konsepsiyası” ilə uyğun şəkildə azərbaycançılıq tərbiyəsinin tətbiqi, təhsil prosesində milli-mənəvi tərbiyə indikatorlarının formalaşdırılması və qiymətləndirilməsi üçün metodik baza yaradır. Bu tədqiqat nəticələri pedaqoji fakültələrdə dərs proqramlarının yenilənməsi,

"Milli dəyərlər və vətənpərvərlik tərbiyəsi" fənninin məzmununun zənginləşdirilməsi, müəllimlərin peşəkar inkişaf kurslarında milli ideologiya üzrə treninqlərin keçirilməsi üçün istifadə oluna bilər. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, o, şagirdlərin azərbaycançılıq ruhunda tərbiyə edilməsini yalnız ideoloji istiqamət kimi deyil, pedaqoji fəaliyyətin sistemli və qiymətləndirilə bilən komponenti kimi təqdim edir, məktəb mühitində milli şüurun və vətənpərvərlik ruhunun möhkəmlənməsinə real töhfə verir.

Tədqiqatın nəticələri təlim və tərbiyə prosesində istifadə edilən metodik materialların, dərs vəsaitlərinin və müəllim üçün hazırlanmış rəhbər vəsaitlərin yenilənməsi baxımından da xüsusi praktik əhəmiyyət daşıyır. Azərbaycançılıq dəyərlərinin müxtəlif fənlərin məzmununa inteqrasiya edilməsi üçün təqdim olunan modellər və nümunələr tədris prosesinin məzmununu daha milli ruhda formalaşdırmağa kömək edir. Təklif olunan yanaşmalar sayəsində müəllimlər şagirdlərdə milli kimlik hissinin, dövlət atributlarına hörmətin, ana dilinə və mədəni irsə sevginin formalaşması istiqamətində müxtəlif yaş mərhələlərinə uyğun pedaqoji strategiyalar tətbiq edə bilərlər. Ibtidai və ümumi orta təhsil səviyyələrində bu istiqamətdə hazırlanmış oyunlaşdırılmış, interaktiv, layihə və fəaliyyət əsaslı metodlar vasitəsilə milli tərbiyənin təsir gücü artırıla bilər. Tədqiqatda əldə edilmiş nəticələr ailə və məktəb əməkdaşlığının gücləndirilməsi, cəmiyyətin tərbiyə prosesinə cəlb olunması, valideynlər üçün maarifləndirici seminarların təşkili kimi istiqamətlərdə də praktik dəyər daşıyır. Bu, azərbaycançılıq dəyərlərinin təkcə məktəbdə deyil, ailə və sosial mühitdə də sistemli şəkildə tətbiqinə şərait yaradır. Tədqiqatın tətbiqi nəticələri region məktəblərində aparılan tərbiyəvi işlərin keyfiyyətini artırmaq, milli-mənəvi dəyərlərə əsaslanan sosial layihələrin və vətənpərvərlik proqramlarının hazırlanmasında istifadə edilə bilər. Bu elmi işdə təqdim olunan metodoloji baza gələcəkdə "Milli tərbiyə konsepsiyası", "Vətənpərvərlik fənni üzrə kurikulum əlavələri" və müəllim hazırlığı proqramlarında tətbiq edilə biləcək praktik çərçivə rolunu oynayır. Milli ideologiyanın tədris prosesinə sistemli şəkildə inteqrasiya olunmasına şərait yaradır, müəllimlərin metodik fəaliyyətinə elmi əsas verir və gələcəkdə milli ruhda yetişən vətəndaş nəslinin formalaşmasına real və davamlı töhfə verir.

**Problemin aktuallığı.** Müasir dövrdə qloballaşma prosesləri nəticəsində gənc nəslin milli kimliyinin qorunması və möhkəmləndirilməsi təhsil sisteminin ən vacib vəzifələrindən biridir. Azərbaycanın dövlətçilik ideologiyasının əsasını təşkil edən **azərbaycançılıq** ideyası gənclərdə vətənpərvərlik, milli həmrəylik, tolerantlıq və mənəvi dəyərlərə sadiqlik hisslərinin formalaşdırılmasında mühüm rol oynayır. Təhsildə azərbaycançılıq ruhunda tərbiyə yalnız vətən sevgisinin deyil, eyni zamanda müasir dünyagörüşlü, sosial məsuliyyətli, humanist və yaradıcı şəxsiyyətin yetişdirilməsini nəzərdə tutur. Bu baxımdan, şagirdlərin milli ideologiya və dəyərlər əsasında formalaşması təlim-tərbiyə prosesinin strateji istiqamətlərindən biri kimi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, azərbaycançılıq ruhunda tərbiyənin pedaqoji sistemdə sistemli model şəklində qurulması, onun məqsəd, məzmun, metod və vasitə komponentlərinin elmi əsaslandırılması ilk dəfə olaraq kompleks şəkildə təhlil olunur. Burada milli-mənəvi dəyərlər tərbiyə prosesində kompetensiya əsaslı yanaşma və fənlərarası inteqrasiya prinsipləri ilə əlaqələndirilir. Yenilik həmçinin ondan ibarətdir ki, şagirdlərin azərbaycançılıq ruhunda tərbiyəsinin səmərəliliyini qiymətləndirmək üçün pedaqoji-psixoloji meyarlar və göstəricilər sistemi hazırlanır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatın nəticələri ümumtəhsil müəssisələrində tərbiyə işinin təşkilində, müəllimlərin və sinif rəhbərlərinin fəaliyyətində, həmçinin məktəbdənkənar tərbiyə proqramlarının hazırlanmasında real tətbiq dəyərinə malikdir. Azərbaycançılıq ruhunda tərbiyə mexanizmlərinin tətbiqi:

- Şagirdlərdə milli özünüdərk, vətənə sədaqət, əxlaqi məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına;
- Təlim prosesində milli və qlobal dəyərlərin harmoniyasına nail olunmasına;
- Məktəb mühitində ictimai həmrəylik və milli tolerantlıq atmosferinin möhkəmlənməsinə xidmət edir.

**Problemin tətbiqi imkanları.**

Tədqiqatın tətbiqi imkanları genişdir və aşağıdakı istiqamətlərdə reallaşdırıla bilər:

- **Ümumi təhsil proqramlarında** milli dəyərlərə əsaslanan tərbiyə modulunun hazırlanması;
- **Müəllim hazırlığı və ixtisasartırma kurslarında** azərbaycançılıq ideologiyasına dair metodik təlimlərin təşkili;
- **Dərsdənkənar fəaliyyətlərdə** – ədəbi-bədii gecələr, "Azərbaycan tarixi günləri", "Milli dəyərlər klubu" və s. vasitəsilə milli ruhun təbliği;
- **Rəqəmsal və interaktiv resursların** hazırlanması yolu ilə şagirdlərdə milli-mənəvi dəyərlərin müasir texnoloji vasitələrlə aşılanması.

## Ədəbiyyat

1. Əliyev, H. Azərbaycançılıq ideyası Azərbaycan xalqının milli ideologiyası kimi. Bakı: Azərnəşr. 2003.

2. Əliyev, İ. Müasir dövrdə Azərbaycançılıq ideologiyasının inkişafı və dövlət siyasəti. Bakı: Elm və Təhsil. 2019.

3. Abbasov, Ə.. Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir. Teaching of Azerbaijani Language and Literature, 274(4), 119–125. https://www.anl.az/down/meqale/azdili_edebiyyat_tedrisi. 2022.

4. Əlizadə, H.Ə. Milli-mənəvi dəyərlərin qorunması və gənclərin tərbiyəsində rolu. Bakı: ADPU nəşriyyatı. 2021.

5. Quliyev, T.. Azərbaycançılıq və vətənpərvərlik tərbiyəsi pedaqoji prosesdə. Bakı: Elm. 2020.

6. Hüseynova, S. Təhsil və milli ideologiya: azərbaycançılıq kontekstində. Azərbaycan Təhsil Jurnalı, *5(2),* 45–52. 2018.

7. Məmmədov, F. Milli dəyərlərin məktəb təlimində inteqrasiyası. Bakı: Təhsil. 2023.

8. Ağayeva, L. Şagirdlərin milli kimliyinin formalaşmasında ədəbiyyat dərslərinin rolu // ADPU-nun Elmi əsərləri, 2019. *71(3),* s 101–108.

9. Əliyeva, N. Azərbaycançılıq və müasir təhsil: inteqrativ yanaşmalar. Pedaqoji Tədqiqatlar Jurnalı*, 8(1),* 27–35. 2024.

10. UNESCO. Education for Sustainable Development and Global Citizenship. Paris: UNESCO Publishing. https://unesdoc.unesco.org. 2017.

11. OECD. Education for Inclusive and Values-Based Societies. Paris: OECD Publishing.

https://www.oecd.org. 2020.
13. Hacıyeva, R. Milli kimliyin qorunmasında təhsil siyasətinin rolu. Azərbaycan Elmi Araşdırmalar jurnalı, 2021. 6(2), 59–67.

**S.F.Səfərova**

**Azərbaycançılıq ruhunda şagirdlərin tərbiyə edilməsinin səmərəli yolları**
**Xülasə**

Şagirdlərin Azərbaycançılıq ruhunda tərbiyə olunması milli kimliyin formalaşdırılması və vətənpərvərlik hissinin dərinləşdirilməsi baxımından mühüm pedaqoji istiqamətdir. Bu prosesin əsas məqsədi şagirdlərin milli və mənəvi dəyərləri mənimsəməsini, xalqının tarixini, mədəniyyətini və dilini sevməsini, Azərbaycan dövlətçiliyinə sədaqət hissi qazanmasını təmin etməkdir. Səmərəli təlim-tərbiyə üsullarına milli ideyaların müxtəlif fənlərin məzmununa inteqrasiyası, interaktiv və layihəəsaslı təlim metodlarının tətbiqi, ədəbi, folklor və tarixi qəhrəman nümunələrindən istifadə daxildir. Bu yanaşmalar şagirdlərdə vətənpərvərlik, humanizm, dözümlülük, çalışqanlıq və sosial məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına xidmət edir. Valideynlərin, məktəbin və cəmiyyətin birgə səyləri bu tərbiyə prosesinin davamlılığını təmin edir. Müasir dövrdə rəqəmsal tədris resurslarının və mədəni layihələrin istifadəsi Azərbaycançılığın tədrisinə yeni məzmun qazandırır, şagirdlərin milli dəyərləri daha dərindən qavramasına şərait yaradır.

**С.Ф.Сафарова**

**Эффективные пути воспитания учащихся в духе Азербайджанства**
**Резюме**

Воспитание учащихся в духе азербайджанства является важным педагогическим направлением, способствующим формированию национальной идентичности и углублению чувства патриотизма. Основная цель данного процесса — обеспечить усвоение учащимися национальных и нравственных ценностей, развитие любви к истории, культуре и языку своего народа, а также формирование чувства преданности идеалам азербайджанской государственности. К эффективным методам обучения и воспитания относятся интеграция национальных идей в содержание различных учебных предметов, применение интерактивных и проектных методов обучения, использование литературных, фольклорных и исторических примеров национальных героев. Эти подходы способствуют формированию у учащихся таких качеств, как патриотизм, гуманизм, терпимость, трудолюбие и социальная ответственность. Совместные усилия родителей, школы и общества обеспечивают устойчивость данного воспитательного процесса. В современных условиях использование цифровых образовательных ресурсов и культурных проектов придаёт преподаванию азербайджанства новое содержание, создавая условия для более глубокого осмысления учащимися национальных ценностей.

**S.F.Safarova**

**The effective ways of educating students in the spirit of Azerbaijanism**

**Summary**

Educating students in the spirit of Azerbaijanism is an important pedagogical direction aimed at shaping national identity and deepening the sense of patriotism. The main goal of this process is to ensure that students internalize national and moral values, develop a love for the history, culture, and language of their nation, and foster a sense of loyalty to the statehood of Azerbaijan. Effective teaching and educational methods include the integration of national ideas into the content of various subjects, the application of interactive and project-based learning approaches, and the use of literary, folklore, and historical examples of national heroes. These approaches help students develop such qualities as patriotism, humanism, tolerance, diligence, and social responsibility. The joint efforts of parents, schools, and society ensure the sustainability of this educational process. In the modern era, the use of digital learning resources and cultural projects gives new meaning to the teaching of Azerbaijanism, creating favorable conditions for students to better comprehend and internalize national values.

**Redaksiyaya daxil olub:** 29.01.2026

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 372.3/.4*

# TARİXİ BİLİKLƏR KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN VƏTƏNPƏRVƏRLİK MƏDƏNİYYƏTİNİN ƏSAS TƏRKİB HİSSƏSİ KİMİ

**Əli Telman oğlu Abdullayev**
*Gəncə Dövlət Universiteti Ümumi pedaqogika kafedrasının doktorantı*
**ORCİD:** 0009-0003-2200-0810
**E-mail:** alia18113@student.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.14

***Açar sözlər:*** *fəal vətənpərvərlik, tarixi biliklər, vətəndaşlıq hissi, vətənpərvərlik mədəniyyəti, kiçik yaşlı məktəbli.*

***Ключевые слова:*** *активный патриотизм, исторические знания, чувство гражданственности, патриотическая культура, младший школьник.*

***Key words:*** *active patriotism, historical knowledge, civic consciousness, patriotic culture, primary school students.*

Tərəfimizdən aparılan tədqiqat göstərdi ki, tarixi biliklər, vətənpərvərlik mədəniyyətinin idraki əsasını təşkil edir və fikrimizcə, şəxsiyyətin fərdi və sosial müəyyənliyi üçün əsas rol oynayır. Onlar keçmiş mənəvi-əxlaqi təcrübələrə əsaslanaraq insanda dəyəryönlülük və inanclar formalaşdırır ki, vətənpərvərlik hissləri də məhz bunun əsasında tərbiyə olunur.

Bu baxımdan vətənpərvərlik mədəniyyətinin əsaslarının inkişaf etdirilməsi kontekstində kiçik yaşlı məktəblilərin Vətən tarixi, öz yurd tarixi, onun doğma təbiəti ilə bağlı ən vacib tarixi mərhələlər və hadisələrlə tanış edilməsi mühüm amildir.

Maraqlıdır ki, uşağın keçmişə olan həvəsi özünü çox erkən yaşlardan göstərir. 6-8 yaşlı uşaq keçmişi sehrli bir aləm kimi qəbul edir, 9-10 yaşlı uşaqlar da keçmişə təəccüb hissi ilə baxırlar, lakin onlar artıq keçmiş hadisələri nağıl kimi qəbul etmirlər. Çünki uşaq ilk dəfə bu yaşda oxuduqları və ya eşitdiklərinin təhlili əsasında dəyərli mühakimələr yürütməyə başlayır. Bu yaşda olan uşaqlarda tarixi biliklərin formalaşması onların keçmişlə bağlı elmi biliklərini genişləndirir və formalaşdırır. Öz doğma yurdunun tarixini öyrənməklə, tarixlə tanış olmaqla uşağın tarixi biliyi yalnız məkana görə deyil, həm də zaman baxımından genişlənir ki, bu da, uşaqda şəxsi və ətrafdakı insanların həyatından kənarda bütün bəşəriyyətin keçmişini dərk etmək bacarığını inkişaf etdirir.

Tarixi hadisələrin, tarixi personajların, ədəbiyyat və incəsənətin yaratdığı obrazların vasitəsilə böyüməkdə olan nəslin nümayəndəsi kimi kiçik yaşlı məktəbli öz "mən"ini , ətrafındakı insanları dərk etməyə, özünəməxsus davranış xəttini formalaşdırmağa, həyat təcrübəsi qazanmağa çalışır. Tarixi biliklər prizmasından və əvvəlki nəsillərin sosial təcrübəsindən çıxış edərək məktəbli keçmiş illərin sosial aləminə daxil olaraq təkcə tarixi deyil, həm də keçmiş illərin sosial əlaqələr sistemini öyrənərək onların vasitəsilə gənc nəslin sosial mühitə fəal qoşulması

sayəsində dəyişən müasir dövrümüzün əlaqələri ilə təmasda olur.

A.N. Abbasov, H.Ə. Əlizadə, L.N. Qasımova, İ.H. Cəbrayılov, P.Q. Postnikov, E.V. Saplina və b. məktəblilərin sosiallaşması kontekstində vətənpərvərlik mədəniyyətini formalaşdıran tarixi faktların toplanması, öyrənilməsi və sistemləşdirilməsi üzrə müxtəlif fəaliyyət növlərini müəyyənləşdirmişlər. Tarixi biliklər - tamın potensial komponentləri olan hadisələrin (faktlar, əhvalatlar) sübutudur, yəni tarixi keçmişin təsviridir. Öz ölkəsinin, vətəninin tarixinə, keçmişinə, keşmə-keşli həyat yoluna müraciət həmişə insana xarakterik xüsusiyyətdir. Tarix – sadəcə hansısa tarixi hadisənin təsviri, tarixi günlərin əzbərlənməsi və s. deyildir. Bu, tarixi hadisələrin, tarixi personajların öz dövrü üçün dəyərinin dərk edilməsidir.

Tarixi biliklər müxtəlif yollarla əldə edilə və öyrənilə bilər. Onlardan biri də, muzeylər vasitəsilə əldə olunan biliklərdir. Lakin muzeydə əldə edilən tarixi biliklərə insanın yalnız koqnitiv səviyyədə deyil, həm də muzey eksponatları, sərgilər, nümayişlər, instalyasiyalar və multimedia texnologiyalarının köməyi ilə dəyər səviyyəsində, emosional-illüstrativ yol ilə yiyələnməsi də xüsusi əhəmiyyət kəsb edir.

İ.H. Cəbrayılovun fikrincə, “muzey məkanında keçmişi və tarixi səciyyələndirən tarixi biliklər müxtəlif zamanlar arasında əlaqə yaradır və çox vaxt faktiki olaraq istənilən muzeyin əsasını təşkil edir” [5, s.169]. Bir qrup alimlərin, L.N. Qasımova, R.M. Mahmudovanın fikrincə, “bilik və təcrübə müxtəlif yollarla ötürülə bilər, lakin heç bir müəssisə insan hisslərinin bütün müxtəlifliklərinə: görmə, eşitmə, toxunma, qoxu, hətta dad və məkan oriyentasiyasına təsir etmək üçün unikal qabiliyyəti olan muzeylərlə müqayisə edilə bilməz. Muzeylər biliklərin ötürülməsini estetik və emosional tərbiyə ilə birləşdirir, onlar insanda yaradıcılığı stimullaşdırır və bu sahədə onların tayı-bərabəri yoxdur” [2, s. 251].

N.M. Kazımov muzeyi birliyin ən yüksək müəssisəsi adlandıraraq, onun ruh yüksəkliyi əmələ gətirən məqsədinə işarə edərək, eyni zamanda, muzeyin sosial yaddaş institutu olduğunu, keçmişin indiki zamanda təcəssüm etdirilməsi yolu kimi çıxış etdiyini vurğulayır. O, qeyd edir ki, “Muzeylər atalarımızın xatirəsini, onların əmanətlərini, əməllərini yaşatmaqla, dünyadan gedənlərin ideyalarını həyata qaytarır və həm də əqlin tərbiyəsi funksiyasını yerinə yetirirlər” [3, s. 301]. Muzeyin potensialından səmərəli istifadə, onun qeyd etdiyi kimi, məktəbliləri vətəndaş mövqeyi, vətənpərvərlik ruhunda tərbiyə etməyə imkan verir.

Muzeydə xüsusi mühit, xüsusi mikrososium formalaşır ki, burada hər bir ziyarətçi-uşaq iştirakçıya çevrilir və tarixi-vətənpərvərlik biliklərinin, bacarıqlarının, dəyərlərin və tarixi şüurun inkişafına yönəlmiş fəaliyyətlərdə özünü həqiqətən ifadə edə bilər. Muzey uşaq üçün təkcə bilik əldə edə biləcəyi bir məkan deyildir, o, həm də uşaq üçün tədqiqatçılıq, oyun, yeni ideyalar və yaradıcılıq məkanıdır.

A.N. Leontevin fikrincə, tarixi təhsilin ümumi məqsədi “məktəbliləri milli və dünya mədəni ənənələri ilə tanış etmək, onlara mədəniyyət dilini mənimsəməyə kömək etmək, keçmişə dair biliklərə və dünya mədəniyyətlərinin ən mühüm nailiyyətlərə istiqamətlənmiş bacarıqlara malik şagird şəxsiyyəti inkişaf etdirməkdir” [7, c.2. s.224]. Bu məqsədin analoji dərki tamamilə muzeyə aiddir və onun inteqrasiyaedici tarixi-mədəni potensialına cavab verir.

Bu kontekstdə əsas diqqət fasiləsiz təhsil sistemi kimi baxılan, muzey resursları vasitəsilə dünyanı dərk etməyə imkan verən əlverişli şəraitin yaradılmasına yönəldilir. Professor A.N. Abbasovun fikrincə, münasib şərait aşağıdakı bir sıra mühüm vəzifələrin həllinə kömək edir [1, s.235]: 1) Məktəblilərə tarixi biliklərin verilməsi - onların ictimai proseslərin mahiyyətini

dərk etməyə imkan verən tarixi biliklərə yiyələnməsinə, həm tarixi hadisələri, həm də bu hadisələrin qarşılıqlı əlaqəsini adekvat qiymətləndirməyə imkan verən şəraitin yaradılmasını tələb edir; 2) Uşağın emosional sahəsinin inkişafına əsaslanaraq, tarixi obrazların bu sahəyə təsirinin köməyi ilə məktəblilərin həm özlərinin, həm də başqa xalqların mədəniyyətinə və tarixinə marağını gücləndirmək, dünyaya yaradıcı və eyni zamanda məsuliyyətli yanaşmanı inkişaf etdirmək, şagirdləri mənəvi-əxlaqi səviyyəli dəyərləri dərk etməyə hazırlamaq; 3) tarixi biliklərə yiyələnmək əsasında şagird şəxsiyyətini inkişaf etdirmək, uşaqlarda milli və dünya mədəniyyətlərinin nailiyyətləri ilə bağlı mühüm məsələlərdən baş açmaq, "mədəniyyət dilini" mənimsəmək bacarıqlarının formalaşdırılması (bu zaman intellektual inkişaf tarixi faktların müqayisəsi və təhlilinin zehni əməliyyatlarına əsaslanacaqdır) .

N.V. Naqorskiy [8] mövcud vəziyyəti şərh edərək, muzeyin hazırkı dövrdə multimedia dünyasında ön sıralarda olduğunu və yeni, birgə virtual məhsullar yaratmaq üçün bütün dünyada böyük muzeylərin birləşdirilməsi tendensiyası olduğunu qeyd edib. Bununla belə, dünyanın virtuallaşdırılması real əşyaların dəyərini yüksəldir. Azərbaycan cəmiyyətində vətənpərvərlik mədəniyyətinin əsaslarını formalaşdırarkən biz ona əsaslanmalıyıq ki, kiçik yaşlı məktəblilərə öz ailələrinin və doğma yurdlarının tarixi onlara daha yaxın və tanışdır. Məktəblilər doğma yurdlarını gəzərək, mədəniyyət abidələrini araşdıraraq, tarixi hadisələrin şahidləri ilə görüşərək, salnamələri və tarixi sənədləri öyrənməklə, tədqiqat fəaliyyətlərində iştirak etməklə başa düşürlər ki, onların müqəddəs Vətənlərinin tarixi qonşu-işğalçı Rusiyanın, Ermənistanın və İranın tarixi ilə birbaşa bağlıdır.

Tarixi-ədəbi muzeydə doğma diyarının tarixinə, onun flora və faunasına, milli-etnoqrafik xüsusiyyətlərinə həsr olunmuş eksponatlardan ibarət bölmələr vardır. E.V. Saplinanın nöqteyi-nəzərinə görə, müzeydə xüsusilə vacib olan "tarixi qavrayışdır, yəni müəyyən tarixi hadisələrlə bağlı olmaq hissidir. Bu, uşaqlara öyrəndikləri materialların həyatla əlaqəsini anlamağa köməklik edir" [9, s.37].

D.S. Lixaçovun fikrincə, isə muzeylər tarix aləminə bələdçi olmalıdır, çünki "hər bir muzeyin tarixi artıq – hər bir bölgənin mədəniyyət abidəsidir" [6, s.347].

Bu günə qədər N.F. Fedorovanın bu fikri aktual olaraq qalmaqdadır ki, "muzey bütün alim olmayan insanları və bütün kiçik nəsli bir araya gətirərək onları alimlər tərəfindən hazırlanmış tədqiqat sahəsinə daxil edir. Bu tədqiqat sahəsi hamının üzünə yalnız təlim yolu ilə açıla bilər" [10, s.303].

Məktəblinin muzey aləminə qərq olması öz ölkəsinin keçmişdəki qəhrəmanlıq tarixinə dair qürur hissi oyatmağa, onun tarixinin əsas dövrlərinə, adət-ənənələrinə və dəyərlərinə hörmət hissi tərbiyə etməyə, Vətən qarşısında borc hissi formalaşdırmağa, onun qüdrətini qorumaq və artırmaq üçün öz güclərindən istifadə etməyə səy göstərməyə qadirdir. Tarixi biliklərin potensialı dünya sisteminin subyekti kimi öz ölkəsi haqqında, vahid dövlət təhsili haqqında təsəvvürlər formalaşdırmaq qabiliyyəti ilə müəyyən edilir. Nəticədə, şəxsiyyətdə vətənə xidmət etməyə motivasiya və müəyyən vətənpərvərlik yönümü formalaşır.

Məlumdur ki, məktəblilərdə vətən tarixi, ailə və doğma yurdun tarixinin bir-biri ilə sıx bağlı olmasına dair, keçmişlə indiki mədəniyyət arasında əlaqənin olmasına dair təsəvvürlərin yaradılması, bütün bunlar şagird şüurunda "insan-tarix" "konkret, yaxın və aydın məzmun şagirdlərə öyrənilən materialla real həyat arasındakı əlaqəni anlamağa kömək edir, keçmişə, kiçik vətəninə, ailəsinə dəyərli münasibət formalaşdırır" kimi münasibətin yaranmasına gətirib

çıxarır.

Filosof N.F. Fyedorov [10] əsas diqqəti insan təbiətinin özünəməxsus xüsusiyyəti üzərində cəmləyir ki, bu da yadigar əşyaların toplanması, saxlanması və ilk növbədə nümayiş etdirilməsi tələbatında ifadə olunur. Bu elə müəyyən tarixi hadisələrlə insanın öz ailəsinin, öz Vətəninin əlaqəsinin olması deməkdir. Hər bir ailədə dəyərli və yaddaqalan şeylər, əlamətdar hadisələrin sübutu vardır. N.F. Fyedorov yazır ki: "Hər bir insan öz arzusuna zidd olsa belə, öz daxilində muzey daşıyır, çünki qoruyub saxlamaq - insandan əvvəl mövcud olan, ondan əvvəl də qüvvədə olan əsas qanundur... Ataların xatirəsi barəsində yadda qalan ilk əşya muzeyin başlanğıcı oldu" [10, s.301].

Nəticə etibarilə, muzey məkanı kiçik şagirdlər üçün milli mədəni-tarixi mühitin xüsusiyyətlərinin ifadəsinin əyani - obrazlı təsviri rolunu oynayır ki, bu da tarixi biliklərə aparır. D.S. Lixaçova görə, bu və ya digər evdə kimin yaşadığını, orada hansı həyat tərzinin baş verdiyini, orada nələrin yaradıldığını öyrənəndə bu ev artıq bizim üçün xüsusi olur. Əgər biz bilsək ki, burada hansı hadisələr baş verib, burada hansı döyüşlər gedib, kimin taleyi həll olunub, o zaman, mənzərə dəyişər" [6, s.161] .

Muzeylər tarixi yaddaşın xəzinəsidir və muzey müxtəlif formalar və müasir texnologiyalar vasitəsilə öz bölgəsinin tarixini bütün ölkənin tarixi kontekstində doğru və dolğun şəkildə göstərə bilir.

Bu gün şagirdin yaxın ətrafının dəyərini dərk etməyə yönəlmiş təlim prosesini təsvir edən "diyarşünaslıq təhsili sistemi" anlayışı yaranmışdır. Bu prosesin effektivliyi məktəb, ailə və əlavə təhsil adlanan qurumlar arasında uğurlu qarşılıqlı əlaqədən asılıdır (mövcud vəziyyətdə tarixi-diyarşünaslıq muzeyi).

Kiçik məktəb yaş dövründə uşaqlarda həyat hadisələrini intuitiv şəkildə dərk etmək, mədəni davranış normalarını, obrazları, ideyaları, əxlaqı və mənaları bilavasitə dərk etmək formalaşır. Bu yaşda tarixi-ədəbi materialı dərk etmək yolu ilə uşaqlarda emosional həyəcanlar da yaranır, məsələn, qəhrəmanlıq ahənginin olması, tarixə bağlılıq hissi. Bunu muzey məkanı və muzey sərgiləri vasitəsilə gücləndirmək olar.

Məsələn, bir sıra pedaqoq - alimlərin fikrincə [4], kiçik məktəb yaşlı uşaqlar tarixi biliklərə vizual-obrazlı təfəkkür təəssüratları vasitəsilə səmərəli şəkildə yiyələnir və bu biliklər onlara müəyyən formada təqdim olunur. Aydındır ki, tarixi faktları bilavasitə hiss duyğuları vasitəsilə dərk etmək heç də həmişə mümkün olmur. Uşağın emosional sferasına müraciət etməklə, ümumbəşəri dəyərləri uşağın daxili mənəvi dünyasına daxil etmək olar. Deməli, tarixi təhsilin əsas prinsipi reallığın dəyər əsasında mənimsənilməsi prinsipi ilə üst-üstə düşür: "dəyərlər öyrənilə bilməz, dəyərləri yaşamaq vacibdir" [4, s.47-51].

İ. H. Cəbrayılov "Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar" əsərində yazır ki, hər bir insan tarixdə iştirak etdiyi üçün hər kəs "keçmişi bilmək hüququna malikdir... Təlim metodları və materialları tədricən dəyişir. Diskussiyalar həmişə davam edir, lakin bir şey dəyişməz olaraq qalır: tarixin tədrisi faktlara və keçmişin ümumi şərhlərinə əsaslanmalıdır" [5, s.154-155].

Vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşması tarixə və mədəniyyətə maraq və şəxsi münasibətə əsaslanır ki, onun uğuru daha çox müəllimlər tərəfindən yaradılan və həyata keçirilən şəraitdən, o cümlədən konkret muzeydəki şəraitdən asılıdır. Müəllim və şagirdlərin daima muzeyin mühit və eksponatları ilə qarşılıqlı əlaqəsi kiçik yaşlı məktəblilərdə tarixi şüurun və tarixi biliklərin formalaşdırılmasına və inkişafına yönəldilir. Ona görə də vətənpərvərlik

mədəniyyətinin əsaslarının formalaşması aşağıdakılar üçün zəruridir: 1) bəşəriyyətin sosial yaddaşı üçün. Onsuz tarixi-mədəni varislik, zaman və nəsillər arasında əlaqə pozular; 2) kiçik yaşlı məktəbliləri milli və dünya mədəniyyətinin nailiyyətləri və ümumbəşəri dəyərlərlə tanış etmək; 3) kiçik yaşlı məktəbliləri vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyə etmək; 4) kiçik yaşlı məktəblilərdə öz dəyəryönümlərini və inanclarını, vətəndaş davranışında faydalı olan bilik və bacarıqları inkişaf etdirmək.

Muzey əlavə, qeyri-rəsmi təhsil sahəsində fəaliyyət göstərir və diqqəti uşaqların dünya, tarix haqqında anlayışlarla, habelə informasiya yaratmaq, müşahidə və təsnif etmək bacarıqlarının inkişafına yönəldir. Gənc ziyarətçilərin şüuruna və hisslərinə təsir etmək məqsədi daşıyan ilkin, etibarlı və vizual informasiyada muzeyin fundamental üstünlüyünün reallaşdırılması heç də az əhəmiyyət kəsb etmir. Muzey məkanı haqqında danışan E.V. Saplina qeyd edir ki, muzey uşaqlara ilk növbədə hissi qavrayış üsulları ilə yanaşmalıdır. Uşağın böyüklərdən fərqli ilk gördüklərinin sevinci, onların toxunduğu, qoxu və daddan hiss etdiklərindən daha parlaqdır. Onların belə hisslərə ehtiyacı isə daha güclüdür [9, s.39].

N.V. Naqorskinin fikrincə, muzeyin gücü materialın daha dolğun emosional qavrayışa səbəb olan obrazlı təqdimatındadır. Muzey təcrübəsinə getdikcə daha çox orijinal tədqiqatlar, yaradıcı tapşırıqlar və tarix sahəsindəki bilikləri formalaşdıran, şagirdlərə özlərini tarixi hadisələrin iştirakçısı kimi hiss etməyə imkan verən rollu oyunlar daxil edilməyə başlanılmışdır. Bu prosesin gedişində ölkəmizin tarixinə dərin hörmətə əsaslanan vətənpərvərlik mədəniyyətinin əsas norma və prinsipləri yenidən işlənilib hazırlanır və biliklər möhkəmləndirilir [8, s.127-129].

Nəhayət, kiçikyaşlı məktəblilərdə vətənpərvərlik mədəniyyətinin formalaşdırılmasının əsas istiqamətlərini aşağıdakı şəkildə müəyyən etmək olar:

1. Təlim prosesinin əsas xarakteristikası - ünsiyyət prosesində şagird və müəllimin (mövcud halda muzey müəlliminin) keyfiyyətlərinin dəyişməsindən ibarətdir. Bu transformasiya təlimin uğurundan və ya hansı konkret məqsədə nail olunmasından asılı olmayaraq baş verir. Təlim zamanı baş verən bütün məqamlar fərdin formalaşmasında irəliləyişi təmin edir, hətta kənardan təlim prosesi müsbət və ya mənfi cəhətdən təhlil edilə bilməzsə belə, insanın tərbiyəsi nöqteyi-nəzərindən təlim neytral ola bilməz.

2. Tərbiyə prosesinin təhlili göstərir ki, tərbiyə funksiyası təkcə tədris materialı hesabına deyil, həm də subyekt - müəllim və subyekt - şagird hesabına təmin olunur. Nəticəyə həm də tədris metodları və vasitələri, fəaliyyət zamanı hökm sürən atmosfer, materialın spesifik xarakteri və onun təlim-tərbiyə prosesinin iştirakçılarının xüsusiyyətləri ilə əlaqəsi də əhəmiyyətli dərəcədə təsir göstərir.

Bilik və təcrübənin ötürülməsinin bu cür formaları pedaqoji tədqiqatın predmetidir, bu prosesdə şagird şəxsiyyətinin səmərəli formalaşdırılmasının amilləri, mexanizmləri və qanunauyğunluqları araşdırılır.

Beləliklə, belə bir qənaətə gəlmək olur ki, məktəblilərin tarixi bilikləri vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşdırılmasının optimallaşdırılması prosesində ən vacib məsələlərdən biridir və aşağıdakı funksiyaları özündə birləşdirir:

a) təhsilləndirici – ölkənin tarixi, mədəniyyəti və dini haqqında biliklərin toplanması, dəyərlərə əsaslanan münasibətlər və vətənpərvəryönlü fəaliyyətlərdə təcrübənin formalaşmasını nəzərdə tutur.

b) kommunikativ – tarixi nümunələri təlqin etmək üçün şagirdləri kommunikativ məkana daxil etmək və gələcək haqqında təsəvvürün formalaşması kontekstində onlara öz məqsədini başa düşməyə kömək etmək.

c) işgüzar – məktəblilərin fəal vətənpərvərlik fəaliyyətinə tarixi biliklərin daxil edilməsi (tarixi biliklərə, adət-ənənlərə əsaslanaraq Vətənə bağlılığı hiss etmək, onun keçmişi ilə fəxr etmək, vətəndaşlıq hissi, Vətəninin şöhrətini qoruyub saxlamaq və onu daha da yüksəltmək).

Beləliklə, muzeydə əldə edilən tarixi biliklər vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşmasında xüsusi rol oynayır.

**Problemin aktuallığı.** Müasir dövrümüzdə mürəkkəb siyasi və iqtisadi qarşıdurmalar şəraitində cəmiyyətimizin inkişafının təmin edilməsi sahəsində dövlət xüsusi olaraq vətəndaşlarda milli təəssübkeşlik, vətənpərvərlik hisslərinin inkişaf etdirilməsinə böyük önəm verir. Bu mənada yetişən gənc nəslin nümayəndələrində milli vətənpərvərlik hisslərinin yüksəldilməsi və onlarda bu və yaxud digər səviyyədə təəssübkeşlik mədəniyyətinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Müəyyənləşdirilir ki, muzey materialları məktəblilərin yaddaşına ölkə tarixindəki qəhrəmanlıq hadisələri, görkəmli şəxsiyyətlər və ölkənin əlamətdar nailiyyətləri haqqında tarixi xatirələr yazır. Bu formatda şəxsiyyətin vətənpərvərlik fəaliyyətinin formaları aydın şəkildə təzahür edə bilir. Bu kontekstdə məktəblilərdə vətənpərvərlik əqidəsi, hissi və davranışı formalaşır ki, onun struktur komponentlərini də vətənpərvərlik keyfiyyətləri və hissləri təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat materiallarından təlim prosesində kiçik məktəb yaşlı uşaqlarda milli vətənpərvərlik mədəniyyətinin daha səmərəli formalaşdırılması məqsədilə istifadə edilə bilər.

## Ədəbiyyat

1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Dərslik. - Bakı: Renossans, 2000, - 202 s.

2. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərs vəsaiti. - Bakı: BDU nəşriyyatı, 2014, - 678 s.

3. Kazımov N.M. Seçilmiş əsərləri. V cild - Bakı: OKA Ofset, 2016, - 336 s.

4. Hüseynzadə R.L., Allahverdiyeva L.Z. Ailə pedaqogikası. Dərslik. - Bakı, ADPU, 2016, - 430 s.

5. Cəbrayılov İ. H. Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar. – Bakı: Mütərcim, 2019. – 256 s.

6. Лихачев Д.С. Национальное самосознание /Д.С. Лихачев. – М.: 1999. – 400 с.

7. Леонтьев А.Н. Избранные психологические произведения: в 2 т. /А.Н. Леонтьев. – М.: Педагогика, 2013. – т. 1. – 391 с.; т. 2. – 318 с.

8. Нагорский Н. В. Музей в духовной жизни общества /Н.В. Нагорский. – СПб., 2004. – 432 с.

9. Саплина Е.В. История в начальной школе. // Е.В. Саплина. Преподавание истории в школе. Научно-теоритический журнал. – М., 2016, № 4 . – с.34-42.

10. Федоров Н.Ф. Сочинения / Н.Ф. Федоров; сост. С.Г. Семенова. – М.: Паритет, 2014. – 414 с.

**Ə.T.Abdullayev**

**Tarixi biliklər kiçik yaşlı məktəblilərin vətənpərvərlik mədəniyyətinin əsas tərkib hissəsi kimi**
**Xülasə**

Tədqiqat yolu ilə müəyyənləşdirildi ki, kiçikyaşlı məktəblilərin tarixi bilikləri vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşdırılmasının optimallaşdırılması prosesində ən vacib məsələlərdən biridir və aşağıdakı funksiyaları özündə birləşdirir: təhsilləndirici – ölkənin tarixi, mədəniyyəti və dini haqqında biliklərin toplanması, dəyərlərə əsaslanan münasibətlər və vətənpərvəryönlü fəaliyyətlərdə təcrübənin formalaşmasını nəzərdə tutur; kommunikativ – tarixi nümunələri təlqin etmək üçün şagirdləri kommunikativ məkana daxil etmək və gələcək haqqında təsəvvürün formalaşması kontekstində onlara öz məqsədini başa düşməyə kömək etmək; işgüzar – məktəblilərin fəal vətənpərvərlik fəaliyyətinə tarixi biliklərin daxil edilməsi (tarixi biliklərə, adət-ənənələrə əsaslanaraq Vətənə bağlılığı hiss etmək, onun keçmişi ilə fəxr etmək, vətəndaşlıq hissi, Vətəninin şöhrətini qoruyub saxlamaq və onu daha da yüksəltmək).

**А.Т.Абдуллаев**

**Исторические знания как основная составляющая культуры патриотизма у младших школьников**
**Резюме**

В ходе исследования было установлено, что исторические знания младших школьников являются одним из важнейших факторов оптимизации процесса формирования основ патриотической культуры и выполняют следующие функции: образовательная – предполагает накопление знаний об истории, культуре и религии страны, а также формирование опыта ценностно-ориентированных отношений и патриотически направленной деятельности; коммуникативная – предусматривает включение учащихся в коммуникативное пространство с целью усвоения исторических образцов и содействия осмыслению ими собственных целей в контексте представлений о будущем; деятельностная – заключается во включении исторических знаний в активную патриотическую деятельность школьников (формирование чувства привязанности к Родине на основе исторических знаний и традиций, гордости за её прошлое, развитие гражданственности, сохранение и приумножение славы Отечества).

**A.T.Abdullayev**

**Historical knowledge as a core component of patriotic culture in primary school students**
**Summary**

The study establishes that the historical knowledge of primary school students constitutes one of the key factors in optimizing the process of forming the foundations of patriotic culture

and performs the following functions: educational – involving the acquisition of knowledge about the history, culture, and religion of the country, as well as the development of value-oriented attitudes and experience in patriotically oriented activities; communicative – providing for the inclusion of students in a communicative environment in order to facilitate the assimilation of historical models and to support their understanding of personal goals within the context of future-oriented perspectives; activity-based – consisting in the integration of historical knowledge into the structure of students' active patriotic engagement (the development of attachment to the Motherland based on historical knowledge and traditions, pride in its past, the cultivation of civic consciousness, and the preservation and enhancement of the nation's glory).

**Redaksiyaya daxil olub:** 03.03.2026

*UOT 372.3/.4*

# ƏNƏNƏLƏR KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN AİLƏ VƏ MƏKTƏBDƏ ƏXLAQ TƏRBİYƏSİNİN VACİB ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

**Mətanət Arzu qızı Feyzullayeva**
*Mingəçevir Dövlət Universitetinin magistrantı*
**ORCID**: 0009-0000-2818-5404
**E-mail:** Feyzullayevamtant26@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.15

***Açar sözlər:*** *milli adət-ənənələr, kiçik yaşlı məktəblilər, əxlaq tərbiyəsi, ailə tərbiyəsi, məktəb tərbiyəsi, mənəvi dəyərlər, sosiallaşma, şəxsiyyətin formalaşması, pedaqoji proses*

***Ключевые слова:*** *национальные традиции, младшие школьники, нравственное воспитание, семейное воспитание, школьное воспитание, духовные ценности, социализация, формирование личности, педагогический процесс*

***Key words:*** *national traditions, primary school children, moral education, family upbringing, school education, moral values, socialization, personality development, pedagogical process.*

Müasir dövrdə qloballaşma, informasiya bolluğu və sosial-mədəni transformasiyalar uşaqların mənəvi dünyasına birbaşa təsir göstərir. Bu baxımdan kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsi həm ailənin, həm də məktəbin qarşısında duran prioritet vəzifələrdən biridir. Əxlaq tərbiyəsinin səmərəli təşkili üçün milli-mənəvi dəyərlərə, xüsusilə xalqın əsrlər boyu formalaşdırdığı adət və ənənələrə istinad edilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan xalq pedaqogikasında tərbiyə məsələləri ailə mühiti, milli adət-ənənələr, mərasimlər, folklor nümunələri və davranış modelləri vasitəsilə həyata keçirilmişdir. Bu baxımdan ənənələr kiçik yaşlı məktəblilərin ailə və məktəbdə əxlaq tərbiyəsinin vacib şərtlərindən biri kimi çıxış edir

**Xalq pedaqogikasında ənənələrin tərbiyəvi mahiyyəti.** Azərbaycan xalq pedaqogikası uşağın şəxsiyyət kimi formalaşmasında milli-mənəvi dəyərlərin rolunu yüksək qiymətləndirir. Xalq pedaqogikasında tərbiyə prosesi həyatla, əmək fəaliyyəti ilə, ailə münasibətləri ilə sıx bağlıdır və bu prosesdə ənənələr aparıcı yer tutur [1, s. 45].

Xalq pedaqogikasında tərbiyə məsələləri nəsillərarası təcrübənin ötürülməsi prinsipi üzərində qurulmuşdur və bu ötürmə mexanizminin əsas vasitələrindən biri adət və ənənələrdir. Ənənələr uşaqlarda böyüyə hörmət, kiçiyə qayğı, vətənpərvərlik, əməksevərlik, mərhəmət kimi keyfiyyətlərin formalaşmasına xidmət edir. Bu xüsusiyyətlər kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsinin əsas istiqamətlərini təşkil edir [2, s. 28].

**Ailədə ənənələrin əxlaq tərbiyəsində rolu.** Ailə uşağın ilk sosiallaşma mühitidir. Əxlaq normaları ilkin olaraq ailədə formalaşır. Uşaqların əxlaq tərbiyəsi erkən yaşlardan başlanmalı və ailədə müsbət davranış nümunələri ilə möhkəmləndirilməlidir. Valideynlərin gündəlik davranış tərzi, bir-birinə və ətrafdakılara münasibəti uşağın şüurunda model kimi formalaşır və təqlid yolu ilə mənimsənilir. Bu baxımdan ailə mühitində ardıcıllıq, səmimiyyət və məsuliyyət hissinin qorunması xüsusi əhəmiyyət daşıyır.

Ailə daxilində milli bayramların qeyd olunması, böyüklərə hörmətin nümayiş etdirilməsi,

qonaqpərvərlik ənənələrinin yaşadılması uşağın davranış modelinə çevrilir. Birgə süfrə arxasında toplaşmaq, ailə üzvləri arasında qarşılıqlı qayğı və dəstək münasibətlərinin mövcudluğu uşağın empatiya və mərhəmət hisslərini inkişaf etdirir. Bu proses uşağın daxili nəzarət mexanizminin formalaşmasına şərait yaradır [3, s. 52]. Xalq pedaqogikasında ailə "ilk məktəb" hesab olunur və burada öyrədilən ənənələr uşağın sonrakı həyatında sabit mənəvi dayaq rolunu oynayır. Eyni zamanda ailədə formalaşan ənənələr uşağın sosial münasibətlər sisteminə uyğunlaşmasını asanlaşdırır, ona düzgün seçim etmə və məsuliyyət daşıma bacarığı qazandırır. Əgər ailədə mənəvi dəyərlər ardıcıl və məqsədyönlü şəkildə ötürülərsə, uşaq cəmiyyət daxilində etik normalara riayət edən, milli-mənəvi kimliyini qoruyan bir şəxsiyyət kimi formalaşar [1, s. 73].

**Məktəbdə ənənələrin əxlaq tərbiyəsində tətbiqi.** Məktəb ailədə başlanmış əxlaq tərbiyəsini sistemli şəkildə davam etdirir. Mənəvi-əxlaqi tərbiyənin məqsədi uşağın daxili dəyərlər sisteminin formalaşdırılması kimi müəyyən edilir və bu prosesdə milli-mədəni irsin əhəmiyyəti xüsusi vurğulanır. Bu baxımdan məktəb yalnız bilik verən müəssisə deyil, eyni zamanda şəxsiyyət formalaşdıran sosial-pedaqoji mühit kimi çıxış edir.

Məktəbdə milli bayramların keçirilməsi, folklor nümunələrinin öyrədilməsi, tarixi şəxsiyyətlərin həyatının təbliği ənənələr vasitəsilə əxlaqi keyfiyyətlərin möhkəmlənməsinə xidmət edir [4, s. 64]. Bu tədbirlər şagirdlərdə vətənpərvərlik hissinin güclənməsinə, kollektivçilik və sosial məsuliyyət anlayışının formalaşmasına şərait yaradır. Eyni zamanda sinifdənxaric və tərbiyəvi tədbirlər vasitəsilə şagirdlər öyrəndikləri dəyərləri praktik mühitdə tətbiq etmək imkanı əldə edirlər.

Milli adət və ənənələrin bədii-estetik mahiyyətini təhlil etsək görərik ki, bu ənənələr yalnız estetik zövq formalaşdırmır, həm də mənəvi dəyərlərin şüurlu şəkildə mənimsənilməsinə kömək edir. Onlar uşaqlarda milli kimlik şüurunun, mədəni irsə bağlılığın və mənəvi məsuliyyət hissinin möhkəmlənməsinə təsir göstərir [5, s. 118]

**Ənənələrin kiçik yaşlı məktəblilərin şəxsiyyətinin formalaşmasına təsiri.** Kiçik yaşlı məktəblilər emosional və təqlidə meyilli olduqları üçün ənənəvi davranış modellərini asanlıqla mənimsəyirlər. Bu mərhələdə verilən mənəvi dəyərlər daha davamlı olur. Xalq pedaqogikasında uşaqların tərbiyəsi nümunə və təcrübə üzərində qurulur, nəsihət isə ikinci planda qalır [2, s. 61]. Ənənələr vasitəsilə: Kollektivçilik, məsuliyyət hissi, vətənə bağlılıq, humanizm, ədalətlilik kimi keyfiyyətlər formalaşır. Bu isə müasir cəmiyyət üçün sosial cəhətdən yetkin şəxsiyyət yetişdirilməsinə xidmət edir.

Aparılan nəzəri və pedaqoji təhlillər göstərir ki, ənənələr kiçik yaşlı məktəblilərin ailə və məktəbdə əxlaq tərbiyəsinin vacib və sistemli şərtlərindən biridir. Xalq pedaqogikasına əsaslanan milli adət və ənənələr uşağın mənəvi-əxlaqi keyfiyyətlərinin formalaşmasında davamlı təsir göstərir, yalnız davranış qaydalarını öyrətməklə kifayətlənmir, onların mənəvi mahiyyətini anlamağa və gündəlik həyatda tətbiq etməyə imkan yaradır. Ailə ilkin mənəvi bazanı formalaşdırır, hörmət, məsuliyyət, mərhəmət və əməksevərlik kimi keyfiyyətlərin təməlini qoyur, məktəb isə bu bazanı elmi-pedaqoji əsaslarla zənginləşdirir və dəyərlərin sosial mühitdə tətbiqini təmin edir. Bu qarşılıqlı vəhdət uşağın fərdi və sosial inkişafını dəstəkləyir. Milli adət və ənənələrin qorunması və təhsilə inteqrasiyası isə harmonik, mənəvi cəhətdən yetkin və milli kimliyini dərk edən şəxsiyyətin formalaşmasına xidmət edir.

**Problemin aktuallığı.** Müasir qloballaşma və rəqəmsal mühit uşaqları müxtəlif, bəzən ziddiyyətli dəyərlərin təsiri altına salır. Bu isə milli-mənəvi dəyərlərin qorunması və ötürülməsi məsələsini aktuallaşdırır. Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində ənənələrin rolunun elmi-pedaqoji baxımdan araşdırılması mühüm əhəmiyyət daşıyır, çünki məhz bu yaş dövründə formalaşan keyfiyyətlər şəxsiyyətin gələcək inkişafını müəyyən edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ənənələrin əxlaq tərbiyəsində yalnız mədəni element kimi deyil, sistemli pedaqoji mexanizm kimi təhlil edilməsidir. Ailə və məktəbdə ənənələrin qarşılıqlı təsiri kompleks şəkildə əsaslandırılır və xalq pedaqogikasının müddəaları müasir tərbiyə konsepsiyası ilə əlaqələndirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri məktəblərdə tərbiyə işinin təşkili, sinifdənxaric tədbirlərin və milli mərasimlərin pedaqoji məqsədlə planlaşdırılması üçün istifadə oluna bilər. Eyni zamanda materiallar valideynlər və müəllimlər üçün metodik vəsait kimi tətbiq edilə bilər. Bu yanaşma mənəvi cəhətdən yetkin və sosial məsuliyyətli şəxsiyyətin formalaşmasına xidmət edir.

## Ədəbiyyat

1. Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. / Bədəlova Ə.S., - Bakı: Müəllim, - 2009, - 302 s.
2. Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri / Əliyeva S., Bakı, - 2016, - 172 s.
3. Vəliyeva. Z. İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi / Vəliyeva. Z. İ., - Bakı: ADPU - nəşriyyatı, -2012, - 136 s.
4. Иванов А. В. Духовно-нравственное воспитание детей, подростков и юношества. / Иванов А. В., Москва: ЛитРес, -2021, - 320 с.
5. Hüseynov İ. Azərbaycan milli adət və ənənələrin bədii-estetik mahiyyəti / Hüseynov İ., Bakı, - 2002, - 302 s.

**M.A.Feyzullayeva**

### Ailə mühitinin uşaq psixologiyasına və mənəvi dəyərlərinin formalaşmasına təsiri

### Xülasə

Məqalədə ənənələrin kiçik yaşlı məktəblilərin əxlaqi tərbiyəsində rolu araşdırılır. Ənənələr ailə və məktəb mühitində uşağın şəxsiyyətinin və sosial bacarıqlarının formalaşmasında mühüm amil kimi çıxış edir. Ailədə adət-ənənələr hörmət, dürüstlük, əməksevərlik və paylaşma kimi dəyərləri aşılayır, məktəb isə bu dəyərlərin praktik tətbiqini və kollektiv davranışın inkişafını təmin edir. Tədqiqatlar göstərir ki, ənənələrin erkən yaşda mənimsənilməsi empatiya, sosial məsuliyyət və milli şüurun formalaşmasına müsbət təsir göstərir.

**М.А.Фейзуллаева**

**Традиции как важное условие нравственного воспитания младших школьников в семье и школе**

**Резюме**

В статье рассматривается роль традиций в нравственном воспитании младших школьников. Традиции являются важным фактором формирования личности и социальных навыков ребёнка в семье и школе. Семейные обычаи воспитывают уважение, честность и трудолюбие, а школа способствует практическому усвоению этих ценностей. Исследования подтверждают, что раннее приобщение к традициям развивает эмпатию, социальную ответственность и национальное самосознание детей.

**M.A. Feyzullayeva**

**Traditions as an important condition for moral education of young schoolchildren in family and school**

**Summary**

This article explores the role of traditions in the moral education of young schoolchildren. Traditions serve as an important factor in shaping children’s personality and social skills in family and school settings. Family customs instill respect, honesty, and diligence, while school supports the practical application of these values. Research shows that early exposure to traditions enhances empathy, social responsibility, and national identity in children.

**Redaksiyaya daxil olub:** 26.02.2026

*UOT 372.3/.4*

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINI ƏSAS AMİL KİMİ

**Fidan Araz qızı Rüstəmova**
*Bakı Qızlar Universitetinin magistırantı*
**ORCID:** 0009-0001-3069-9284
**E-mail:** fidantgh@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.16

***Açar sözlər:*** *Milli qürur hissi, kiçik yaşlı məktəblilər, milli-mənavi tərbiyə, məktəb və ailə əməkdaşlığı, vətənpərvərlik tərbiyəsi, pedaqoji proses, milli dəyərlər*

Coğrafiya fənni insanın məkanla qarşılıqlı əlaqəsini və təbiət hadisələrinin sosial-iqtisadi məzmununu öyrənən fundamental elm sahəsidir. Müasir tədris fəlsəfəsində coğrafiya təliminin əsas məqsədi yalnız bilik ötürmək deyil, həm də şagirdlərdə analitik düşüncə, məkan təfəkkürü və ekoloji məsuliyyət kimi mühüm səriştələri formalaşdırmaqdır. Bu baxımdan, diyarşünaslıq (yerli mühitin öyrənilməsi) coğrafiya təliminin mərkəzi istiqamətlərindən biri kimi çıxış edir və şagirdin doğma mühitlə bilavasitə tanışlığı əsasında formalaşır. Başqa sözlə, diyarşünaslıq şagirdin yaşadığı ərazidəki təbiət hadisələrini və sosial prosesləri birbaşa müşahidə etməsinə, onları analiz etməsinə və nəticə çıxarmasına şərait yaradan bir yanaşmadır. Bu yanaşma qlobal təhsil trendləri ilə də uyğunluq təşkil edir; məsələn, UNESCO kimi beynəlxalq qurumlar coğrafiya təhsilində lokal mühitin öyrənilməsini şagirdlərin öyrənməyə bağlılığını və kontekstual anlayışını artıran əsas amil kimi vurğulayır. Nəticə etibarilə, diyarşünaslıq məktəb coğrafiyasında nəinki biliyin mənimsənilməsini, həm də həmin biliklərin real məkanla əlaqələndirilməsini təmin edən əsas vasitədir [6 s.178–185].

**Diyarşünaslığın elmi-nəzəri əsasları**

Diyarşünaslıq anlayışının elmi kökləri XIX əsrin regional coğrafiya məktəblərinə gedib çıxır. Hələ o dövrdə yerli ərazilərin öyrənilməsi coğrafiya elminin başlıca istiqamətlərindən biri kimi formalaşmışdır. Məsələn, klassik coğrafiya alimlərindən P. Vidal de la Blache regionların tədqiqini coğrafi idrakın əsas prinsiplərindən biri kimi irəli sürürdü. XX əsrdən etibarən isə diyarşünaslıq təkcə fiziki-coğrafi təsvirlə məhdudlaşmayıb, sosial, iqtisadi və ekoloji təhlil komponentlərini də özündə birləşdirmişdir. Yəni, müasir elmi yanaşmada lokal ərazinin öyrənilməsi zamanı onun təbii mühitlə yanaşı, cəmiyyət və təsərrüfat mühiti də kompleks şəkildə nəzərə alınır [8].

Azərbaycan elmi mühitində diyarşünaslığın mahiyyəti, şagirdin öz diyarını elmi-idraki cəhətdən dərk etməsi, təbiət və cəmiyyət hadisələrini müşahidə edərək onlarla bağlı sistemli nəticələr çıxarması kimi izah olunur. Aparılmış pedaqoji tədqiqatlar göstərir ki, diyarşünaslıq

məktəblilərdə coğrafi təfəkkürlə yanaşı, milli kimlik və vətənpərvərlik duyğularının formalaşmasında da mühüm rol oynayır. Yerli mühitin dərindən öyrənilməsi şagirdin doğma diyarına bağlılığını artırır, ona "məkanın dəyəri"ni aşılamaqla vətənə məhəbbət hissini gücləndirir. Bununla yanaşı, lokal coğrafi biliklər şagirdlərin sonralar daha geniş regional və qlobal prosesləri mənimsəməsi üçün dayanıqlı təməl yaradır [7].

**Diyarşünaslığın tədris-metodik əsasları**

Məktəb coğrafiyasında diyarşünaslığın tədrisi həm sinifdaxili, həm də sinifdənkənar fəaliyyətlərin inteqrasiyasına əsaslanır. Sinifdaxili məşğələlərdə şagirdlər coğrafi anlayışları və nəzəri bilikləri mənimsəyir, xəritələr üzərində müşahidələr aparır, yerli nümunələr əsasında nəticə çıxarırlar. Məsələn, müəllim dərsdə izah olunan coğrafi anlayışları şagirdlərin yaşadığı bölgədən nümunələrlə izah edə bilər ki, bu da nəzəri biliklərin real mühitə tətbiqini asanlaşdırır. Sinifdənkənar işlər isə biliklərin praktiki tətbiqinə, yəni şagirdin real mühitdə təcrübə qazanmasına şərait yaradır. Bu fəaliyyətlərə coğrafiya fənnində geniş istifadə olunan ekskursiyalar, yerli təbiət obyektlərinin ərazidə müşahidəsi, kiçik tədqiqat layihələri, yerli xəritəçəkmə və digər sahə işləri daxildir. Belə fəaliyyətlər coğrafiyanı şagird üçün "canlı" elmə çevirir – o, kitablarda oxuduğu prosesləri öz gözü ilə görür, ölçür və təhlil edir. Diyarşünaslıq komponentinin ən güclü tərəflərindən biri onun fənlərarası inteqrasiyaya imkan yaratmasıdır; bu zaman şagirdlər coğrafiya bilikləri ilə yanaşı, biologiya, tarix, ekologiya və iqtisadiyyat kimi digər fənlərlə əlaqə qururlar. Məsələn, yerli bir çayın öyrənilməsi zamanı şagird həm onun coğrafi xüsusiyyətlərini araşdırır, həm suyun keyfiyyətini kimyəvi cəhətdən təhlil edir, həm də tarixi və mədəni əhəmiyyətini öyrənə bilər. Bu cür fənlərarası yanaşma sayəsində şagirdlər kompleks düşünmə, məlumatları əlaqələndirmə və problem həlletmə bacarıqları qazanırlar [1]

Bununla yanaşı, diyarşünaslıq komponentinin tədrisi Azərbaycanın yeni kurikulum yanaşmasına da uyğundur. Yeni təhsil proqramında vurğulanır ki, şagirdlərə təkcə nəzəri biliklər vermək yox, onları həyati bacarıqlarla silahlandırmaq təlimin əsas tələblərindən biridir. Yerli mühitin öyrənilməsinə əsaslanan tapşırıqlar isə məhz belə bacarıqları – müşahidə aparma, məlumat toplama, analiz etmə və nəticə çıxarma – formalaşdırmaq üçün ideal vasitə kimi dəyərləndirilir. Beləliklə, düzgün qurulmuş diyarşünaslıq tədrisi məktəb coğrafiyasında şagirdyönlü və tədqiqatyönlü öyrənmənin həyata keçirilməsini təmin edir [9, s.63].

**Sinifdənxaric işlərin diyarşünaslıq istiqamətində rolu**

Sinifdənxaric işlər diyarşünaslığın əsas praktik mərhələsini təşkil edir və coğrafiya dərslərində öyrənilən nəzəri biliklərin real mühitdə sınanmasına imkan verir. Belə fəaliyyətlər vasitəsilə şagirdlər coğrafi bilikləri gündəlik həyatda tətbiq edir, müstəqil şəkildə müşahidələr aparır və nəticə çıxarma bacarığı əldə edirlər. Məsələn, məktəbətrafı ekskursiyalar coğrafiya fənnində klassik və səmərəli sinifdənxaric iş formasıdır – şagirdlər məktəb yaxınlığındakı coğrafi obyektləri (park, çay, təpə və s.) müşahidə edərək relyef, torpaq, bitki örtüyü və antropogen amillər barədə yerindəcə məlumat toplayırlar. "Öz bölgəni tanı" tipli layihələrdə şagirdlər yaşadıqları rayonun təbii sərvətlərini, tarixi-mədəni abidələrini tədqiq edir, nəticələri sinif yoldaşları ilə bölüşürlər. Həmçinin, şagirdlərin özləri tərəfindən hazırlanmış ərazi xəritələri onlarda həm coğrafi məlumatların vizuallaşdırılması bacarığını, həm də doğma yurda qarşı emosional bağlılıq yaradır. Tədqiqatlar göstərir ki, bu cür sinifdənkənar işlər şagirdlərdə həm elmi marağı gücləndirir, həm də doğma diyara şəxsi münasibət formalaşdırır. [2].

**VI və VII sinif dərsliklərində diyarşünaslıq komponentinin elmi təhlili**

Azərbaycan ümumtəhsil məktəblərində diyarşünaslıq anlayışının sistemli tədrisi əsasən 6-cı və 7-ci sinif coğrafiya kurslarında formalaşır. Bu səbəbdən, məhz həmin siniflərin dərslikləri diyarşünaslıq komponentinin təqdim olunması baxımından ətraflı təhlil edilmişdir.

6-cı sinifdə şagirdlərin ilk dəfə sistemli şəkildə lokal ərazi ilə tanış olduğu və ilkin müşahidə bacarıqlarını inkişaf etdirdiyi dövrdür . 6-cı sinif coğrafiya proqramı, bir tərəfdən, coğrafiyanın ümumi əsaslarını öyrədir, digər tərəfdən isə şagirdi öz ölkəsinin və yaşadığı ərazinin coğrafiyası ilə tanış edir. Xüsusilə, 6-cı sinif dərsliyində "Məkanı tanıyaq" və "Yurdumuzun təbiətinə səyahət" kimi bölmələr vasitəsilə şagirdlər coğrafi məkan anlayışını lokal müstəvidə dərk edir, Azərbaycanın təbii şəraiti barədə əsas biliklər əldə edirlər. Məsələn, *"Məkanı tanıyaq"* bölməsi çərçivəsində şagirdlərə "Harada yaşayırıq?", "Lokal məkandan qlobal məkana" kimi mövzular təqdim olunur ki, bu da onların məkan miqyası haqqında təsəvvürlərini formalaşdırır. *"Yurdumuzun təbiətinə səyahət"* bölməsində isə Azərbaycanın təbii mühitinə dair biliklər verilir – ölkəmizin iqlim xüsusiyyətləri, relyef formaları, su hövzələri, torpaq və bitki örtüyü kimi mövzular sadə dildə izah edilir. Bu bölmədə şagirdlər həmçinin Azərbaycanın təbiətinin zənginliyi, müxtəlifliyi və mühafizəsi barədə məlumatlandırılır. Məsələn, dərslikdə *Şirvan Milli Parkının yaradılması* nümunəsi ilə şagirdlərə xüsusi mühafizə olunan ərazilərin əhəmiyyəti anladılır[2, s.10].

6-cı sinif dərsliyindəki tapşırıqlar arasında xəritə üzərində lokal obyektləri müəyyənləşdirmə, təbii hadisələri təsnifləşdirmə, ətraf mühitin qorunması ilə bağlı fikir bildirmə kimi fəaliyyətlər üstünlük təşkil edir. Şagirdlərdən tələb olunur ki, Azərbaycanın xəritəsində müəyyən coğrafi obyektləri (məsələn, dağ silsilələri, iqlim qurşaqları və s.) tapsınlar, ya da yaşadıqları ərazidə baş verən təbiət hadisələrini (yağıntı, külək, temperatur dəyişmələri və s.) müşahidə edib sinifdə müzakirə etsinlər. Məsələn, bir tapşırıqda şagirdlərə sual verilir: *"Öz yaşadığınız yerdə ilin fəsillərinə görə hava şəraiti necə dəyişir? Müşahidələrinizə əsasən qeydlər aparın."* Bu tip tapşırıqlar şagirdləri fəal müşahidə aparmağa təşviq edir və alınan nəticələri elmi şəkildə təqdim etməyi öyrədir. Çöl tədqiqatı mövzusu da 6-cı sinif proqramının bir hissəsidir və dərslikdə ayrıca bölmə kimi yer alır. *"Çöl tədqiqatı nədir?", "Məktəb ərazisində çöl tədqiqatı necə aparmaq olar?"* kimi alt-mövzular şagirdlərdə praktik bacarıqların formalaşdırılmasına yönəlmişdir. Dərslik şagirdlərə tədqiqat çantası hazırlamağı, müşahidə zamanı qeydlər götürməyi, sadə ölçmə cihazlarından istifadə etməyi öyrədir. Lakin qeyd etmək lazımdır ki, 6-cı sinif üçün nəzərdə tutulmuş bu praktiki işlər hələ əsasən məktəb ərazisi ilə məhdudlaşır və daha geniş əraziyə çıxmadan, sadə müşahidə xarakterlidir. Buna baxmayaraq, 6-cı sinifdə atılan bu addımlar şagirdlərə gələcək illərdə daha mürəkkəb tədqiqat işləri aparmaq üçün baza bilik və vərdişləri qazandırır [2, s. 54].

7-ci sinifdə diyarşünaslıq anlayışı daha geniş müstəvidə – regional və milli miqyasda – öyrənilir. 7-ci sinif coğrafiya kursu "Azərbaycanın coğrafiyası" mövzularını dərinləşdirməklə yanaşı, qlobal coğrafi anlayışları da izah edir. Bu sinfin dərsliyində diyarşünaslıq komponenti əsasən Azərbaycanın sosial-iqtisadi coğrafiyası kontekstində öz əksini tapır. Xüsusilə, *"Azərbaycanın iqtisadi rayonları"* mövzusu vasitəsilə şagirdlər ölkənin təbii sərvətləri, sənaye və kənd təsərrüfatı sahələri, iqtisadi əlaqələri, əhalinin yerləşməsi və regionlar üzrə inkişaf xüsusiyyətlərini öyrənirlər. Dərslikdə Azərbaycanın iqtisadi coğrafiyasına dair məzmun *"Məkanın iqtisadi mənzərəsi"* və *"Azərbaycanın iqtisadi mənzərəsi"* adlı bölmələrdə verilir. Burada öncə ümumi iqtisadi fəaliyyət anlayışı və iqtisadi coğrafiyanın əsasları izah olunur, sonra isə konkret

olaraq Azərbaycanın iqtisadiyyatı sektorlar və iqtisadi rayonlar üzrə təhlil edilir. Şagirdlərə ölkənin müxtəlif iqtisadi rayonları (məsələn, Aran, Gəncə-Qazax, Şəki-Zaqatala və s.) barədə qısa məlumatlar təqdim olunur, hər bir bölgənin təbii ehtiyatları, ixtisaslaşdığı təsərrüfat sahələri, demoqrafik göstəriciləri kimi məqamlar vurğulanır. Bu mövzular üzrə tapşırıqlarda şagirdlərdən müxtəlif regionları müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək tələb olunur. Məsələn, dərslikdə belə bir tapşırıq mövcuddur: *"Neft-qaz sənayesinin payına görə fərqlənən iqtisadi rayon hansıdır və bu rayonun ölkə iqtisadiyyatındakı rolu nədir?"* Bu cür suallar şagirdləri məlumatları təhlil etməyə, xəritə və cədvəllərlə işləməyə, nəticə çıxarmağa yönləndirir. Beləliklə, 7-ci sinif səviyyəsində əsas məqsəd şagirdin müxtəlif regionlar arasında müqayisə aparmaq, səbəb-nəticə əlaqələrini anlamaq və ümumiləşdirmə bacarığını inkişaf etdirməkdir. Bu proses şagirdin elmi düşüncə tərzini formalaşdırmaqla yanaşı, milli coğrafi kimlik şüurunun inkişafına da mühüm töhfə verir. Yəni, şagird ölkəsinin hər bir bölgəsinin özünəməxsus xüsusiyyətlərini öyrənərək bütövlükdə Azərbaycan haqqında daha dərindən məlumatlanır və onun vətəndaşı olması ilə fəxr hissi keçirir [5, s. 68].

Aparılan dərslik məzmununun təhlili göstərir ki, 6-cı və 7-ci sinif coğrafiya dərsliklərində diyarşünaslıq komponenti müasir tələblərə uyğun şəkildə qurulmuş, şagirdlərdə tədqiqat mədəniyyətini formalaşdırmağa sistemli dəstək verilmişdir. Xüsusilə, 6-cı sinif dərsliyində yer alan "Çöl tədqiqatı" bölməsi şagirdləri real məkanda müşahidə, ölçmə və qeydetmə bacarıqlarına istiqamətləndirir; tədqiqat çantasının təşkili, müşahidə jurnalı aparılması kimi praktik fəaliyyətlər erkən yaşdan elmi düşüncə vərdişlərini möhkəmləndirir. 7-ci sinifdə isə dərslik sosial-iqtisadi məzmunla tədqiqatyönlü tapşırıqları birləşdirərək, regionlararası müqayisə, səbəb-nəticə əlaqələrinin izahı və xəritə-cədvəl üzərində analitik işləmə bacarıqlarını inkişaf etdirir. Bu xətt boyu verilən fəaliyyətlər çöl tədqiqatı planlaşdırılması, lokal müşahidələrin ümumiləşdirilməsi və nəticələrin təqdimatı kimi bacarıqları ardıcıl şəkildə dəstəkləyir. Beləliklə, hər iki dərslik şagirdyönlü, praktik və səriştəəsaslı öyrənməni gücləndirir, coğrafiyanın "sinifdən kənarda da öyrənilən canlı elm" kimi dərkini təmin edir[2, s. 56].

Yuxarıdakı müşahidələrdən aydın olur ki, gələcəkdə hazırlanacaq coğrafiya dərsliklərində diyarşünaslıq komponentinin praktik yönünü gücləndirmək üçün müəyyən addımlar atılmalıdır.

İlk növbədə, dərsliklərdə sinifdənkənar fəaliyyətlərə, yəni şagirdlərin sinifdən çıxıb öz mühitlərini öyrənməsinə şərait yaradan tapşırıq və layihələrə daha geniş yer ayrılmalıdır. Məsələn, 7-ci sinif üçün dərslikdə hər bir iqtisadi rayonla bağlı "araşdırma küncü" verilə bilər ki, burada şagirdlərə öz regionlarında kiçik tədqiqat aparmaq tapşırılsın (məsələn, yaşadığı rayonun əsas təsərrüfat sahələri barədə məlumat toplayıb təqdim etmək).

İkincisi, təklif olunur ki, təcrübə əsaslı, praktik tapşırıqlar dərslik mətninə inteqrasiya olunsun – məsələn, "Ətrafınızdakı coğrafiyanı öyrənin" adlı layihə tapşırıqları kimi. Bu cür tapşırıqlar şagirdi aktiv araşdırmaya cəlb etməklə yanaşı, müəllimlər üçün də hazır metodik göstəriş rolunu oynayacaqdır. Nəhayət, dərslik müəllifləri və kurikulum tərtibatçıları tərəfindən hazırlanmış son kurikulum analizlərinə əsasən, coğrafiya dərsliyində mövcud olan mövzuların reallıqla əlaqəsini gücləndirmək, yəni kurikulumun "şagird həyatı ilə əlaqələndirmə" prinsipini gerçəkləşdirmək üçün yerlərdə müşahidə və tədqiqat fəaliyyətləri əvəzsiz vasitədir. Buna görə də dərslik komplektlərinə (kitab, metodik vəsait, iş dəftəri və s.) mütləq şəkildə yerli mühitin öyrə-

nilməsi üzrə bələdçi materiallar da daxil edilməlidir. Belə addımlar şagirdlərə nəzəri məlumatları praktik fəaliyyətlə birləşdirməyə imkan verəcək və coğrafiya təliminin keyfiyyətini yüksəldəcəkdir.

**Problemin aktuallığı.** Diyarşünaslıq şagirdlərin məkan təfəkkürü və müşahidə bacarıqlarının inkişafında əsas istiqamətlərdən biridir. Yeni kurikulum lokal mühitin öyrənilməsini vacib kompetensiya kimi müəyyənləşdirir. 6-cı və 7-ci sinif dərsliklərində bu komponentin daha aktiv tətbiqi zərurət yaradır. Lokal tədqiqatlar şagirdlərin real mühiti dərk etməsini gücləndirir. Buna görə diyarşünaslığın tədrisdə rolu bu gün xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Tədqiqat diyarşünaslıq komponentinin 6–7-ci siniflər üzrə sistemli elmi-metodik təhlilini təqdim edir. Lokal mühitin öyrənilməsi ilə tədqiqat yönümlü təlim arasında yeni əlaqələr müəyyənləşdirilir. Çöl tədqiqatı və müşahidə bacarıqlarının formalaşdırılması ilk dəfə belə geniş kontekstdə açıqlanır. Dərslik məzmununda diyarşünaslığın funksiyası strukturlaşdırılmış şəkildə göstərilir. Diyarşünaslığın coğrafi təfəkkürə təsiri yeni elmi nəticə kimi əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat müəllimlər üçün diyarşünaslığın dərslərdə və sinifdənkənar fəaliyyətlərdə tətbiqi üzrə konkret nümunələr təqdim edir. Bu yanaşma şagirdlərin real mühiti öyrənmə və analiz etmə bacarıqlarını gücləndirir.

## Ədəbiyyat


1. Əfəndiyeva S., Ələsgərova N. Fənlərarası inteqrasiyanın diyarşünaslıqla əlaqələndirilməsi // *Metodik Bülleten*, 2020, №1, 81–90.
2. Ələkbərov F., Seyfullayeva N., Şabanova Y. *Coğrafiya 6* (I hissə). Bakı: Təhsil, 84 s.
3. Ələkbərov F., Seyfullayeva N., Şabanova Y. *Coğrafiya 6* (II hissə). Bakı: Təhsil, 76 s.
4. Ələkbərov F., Hüseynli Ş., Qasımova Ü. *Coğrafiya 7* (I hissə). Bakı: Təhsil, 84 s.
5. Ələkbərov F., Hüseynli Ş., Qasımova Ü. *Coğrafiya 7* (II hissə). Bakı: Təhsil, 80 s.
6. Dronova L. V. Regional studies in school geography education // *Geography and Natural Resources*, 2015, 36(2), 178–185.
7. Məmmədov Q. Coğrafiya fənnində diyarşünaslıq komponentlərinin inkişafı // *Təhsil Problemləri Jurnalı*, 2018, №5, 112–121.
8. UNESCO. Local learning in geography education // *Geography Education for Sustainable Development*. Paris, 2019, s. 15–28.
9. Rzayev M. Coğrafiya tədrisində ərazidə müşahidələrin təşkili yolları // *Metodika və Tədris Texnologiyaları*, 2017, №3, 63–70.


**A.V.Tağıyeva**

**Azərbaycanda məktəb coğrafiyasının məzmununda diyarşünaslıq istiqamətləri**
**Xülasə**

Məqalədə Azərbaycanda məktəb coğrafiyasında diyarşünaslıq istiqamətlərinin metodik əsasları, xüsusilə 6 və 7-ci sinif dərsliklərində onun tədris xüsusiyyətləri təhlil edilir. Tədqiqatın məqsədi diyarşünaslığın coğrafiya təlimində formalaşma mexanizmlərini müəyyənləşdirmək və onun pedaqoji dəyərini qiymətləndirməkdir. Tədqiqat göstərir ki, lokal mühitin öyrənilməsi

şagirdlərdə coğrafi təfəkkürün, analitik düşünmənin və vətənpərvərlik dəyərlərinin inkişafına mühüm töhfə verir. Dərsliklərin məzmununda diyarşünaslığın tətbiqi imkanlarının genişləndirilməsi və sinifdənkənar tədqiqat fəaliyyətlərinin artırılması məqsədəuyğun sayılır.

**А.В.Тагыева**

**Направления краеведения в содержании школьной географии азербайджана**
**Резюме**

В статье анализируются методические основы краеведения в школьной географии Азербайджана, особенно особенности его преподавания в учебниках 6-го и 7-го классов. Цель исследования — определить механизмы формирования краеведческого подхода в географическом образовании и оценить его педагогическую ценность. Исследование показывает, что изучение локальной среды существенно способствует развитию географического мышления, аналитических навыков и патриотических ценностей у учащихся. Рекомендуется расширить возможности применения краеведческого компонента в учебниках и усилить внеклассные исследовательские полевые задания.

**A.V.Taghiyeva**

**Directions of regional studies with in the content of school geography in Azerbaijan**
**Summary**

The article examines the methodological foundations of regional studies in school geography in Azerbaijan, with particular focus on the teaching features reflected in the 6th- and 7th-grade textbooks. The purpose of the study is to identify the mechanisms through which regional studies are formed in geography education and to evaluate their pedagogical value. The findings show that the study of the local environment significantly contributes to the development of geographical thinking, analytical reasoning, and patriotic values among students. It is recommended to expand the opportunities for applying regional studies in textbooks and to increase field-based extracurricular research activities.

**Redaksiyaya daxil olub:** 19.03.2026

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHING MATHEMATICS***

# NATURAL ƏDƏDLƏR SİSTEMİNİN ALİ MƏKTƏBLƏRDƏ TƏDRİSİNƏ DAİR

**Asif Kazım oğlu Nəbiyev**
*Pedaqogika üzrə fəlsəfə doktoru (Bakı Mühəndislik Universiteti)*
**E-mail:** anabiyev@beu.edu.az
**ORCİD:** 0009-0003-2986-0071
**Əhməd Nüsrət oğlu Məmmədov**
*Pedaqogika üzrə fəlsəfə doktoru (Bakı Biznes Universiteti)*
**E-mail:** *ahmed.mamedov.62@bk.ru*
**ORCİD:** 0009-0004-4475-9681
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.19

***Açar sözlər:*** *Ədədi sistemlər, aksiomlar sistemi, cəbri əməl, binar əməl, induksiya aksiomu, trixotomiya qanunu, kommutativlik qanunu, assosiativlik qanunu, refleksivlik, antirefleksivlik.*

***Ключевые слова:*** *Числовые системы, система аксиом, алгебраическая операция, бинарная операция, аксиома индукции, закон трихотомии, закон коммутативности, закон ассоциативности, рефлексивность, антирефлексивность.*

***Keywords:*** *Number systems, system of axioms, algebraic operation, binary operation, axiom of induction, law of trichotomy, commutative law, associative law, reflexivity, antireflexivity (irreflexivity).*

Ali məktəblərdə tədris şöbəsində əsasən mühazirə və seminar dərs formalarından istifadə olunur. Ancaq bu dərs formalarından həddindən artıq istifadə yeknəsəkliyə, şablonçuluğa səbəb olur və bəzi hallarda tələbələrin dərslərə marağının azalması ilə, dərslərin darıxdırıcı keçməsi ilə müşayiət olunur. Bundan əlavə, ali məktəb müəllimlərinə fənlərin tədrisi zamanı interaktiv təlim üsullarından istifadə etmələri də tövsiyə olunur, başqa sözlə desək müəllimin hər bir mövzunun tədrisində müxtəlif forma və üsullardan istifadə etməsi günün tələbidir.

Ali pedaqoji məktəblərdə “Ədədi sistemlər” kursu “Sabah” qruplarında tədris olunan vacib fənlərdən biri hesab olunur. Ədəd lərin öyrənilməsi riyaziyyatın vacib və nisbətən çətin məsələlərindən biridir[1]. Ədədi sistemlər - əsasən ədədlərin müəyyən simvol və qaydaların köməyi ilə yazılması sistemidir. Onlar ədədləri təsvir etməyə və riyazi əməlləri yerinə yetirməyə kömək edir[2].

“SABAH” qrupunda “Orta məktəbdə ədədi sistemlər” fənninin tədrisi zamanı “Natural ədədlər” mövzusunu bitirdikdən sonra növbəti dərsdə tələbələr təqdimat hazırladılar. Həmin dərsin məzmununu qısa şəkildə təqdim edək:

Tələbələr dörd qrupa bölünürlər.

1) Hər qrup verilmiş mövzularda təqdimat hazırlayır,
2) Digər qrup üzvləri tərəfindən verilən suallara cavab verilir,
3) Qrup üzvləri mövzuya aid çalışmalar təqdim edirlər,
4) Qrupların fəaliyyəti qiymətləndirilir (nəticələrə uyğun).

Təqdimatların və xülasələrin bəzi məqamlarını qeyd edək:

**I qrup.** Akssiom və teoremlər. Natural ədədlər sisteminin aksiomatik qurulması kimi suallarına cavab verilir.

Təqdimatda: Aksiom nədir? Aksiomatik sistem necə olmalıdır? Teoremlər, teoremlərin növləri, isbat haqqında müxtəlif yanaşmalar, isbat növləri haqqında fikirlər qeyd olunur. Bundan başqa natural ədədlərin aksiomatik modeli təqdim olunur.

**Xülasə:** Bilirik ki, natural ədədlər ilk yaranmış və insanların istifadə etdiyi ilk sistemdir. N natural ədədlər çoxluğuna elementlərin (simvolların) çoxluğu kimi baxaq. Çoxluğun elementlərindən birini 1 (vahid) ilə işarə edək.

$\boldsymbol{A_1}$. Hər bir natural a$\boldsymbol{\epsilon}$N ədədinə həmin ədədəddən “sonra gələn” və a′ ilə işarə olunan ədəd uyğundur. Belə ki, ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a=b ⇒ a′=b′,

$\boldsymbol{A_2}$. Heç bir ədəddən sonra gəlməyən 1 (bir,vahid) elementi var. Başqa sözlə ($\forall \boldsymbol{a\epsilon N}$) a′≠1,

$\boldsymbol{A_3}$. İstənilən natural ədəd ancaq bir natural ədəddən sonra gəlir. ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a′=b′ ⇒ a=b,

$\boldsymbol{A_4}$. (İnduksiya aksiomu). Əgər hər hansı M natural ədədlərdən ibarət olan çoxluğa 1 ədədi daxildirsə, hər bir a$\boldsymbol{\epsilon M}$ üçün ⇒ a′$\boldsymbol{\epsilon}$M olarsa, onda M=N (1$\boldsymbol{\epsilon}$M) ∧ (($\forall \boldsymbol{a\epsilon N}$) $\boldsymbol{a\epsilon}$M ⇒ $\boldsymbol{a'\epsilon M}$) ⇒ M=N.

Qeyd. Riyazi induksiya ilə isbat metodu bu aksioma əsaslanır.

$\boldsymbol{A_5}$. ($\forall \boldsymbol{a\epsilon N}$) a+1=a′,

$\boldsymbol{A_6}$. ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a+b′= (a+b) ′,

$\boldsymbol{A_7}$. ($\forall \boldsymbol{a\epsilon N}$) a·1=a,

$\boldsymbol{A_8}$. . ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a·b=a·b+a.

$\boldsymbol{A_1}$-$\boldsymbol{A_3}$ aksiomları ilk dəfə 1801-ci ildə italyan alimi Peano tərəfindən verilmişdir və ona görə

Peano aksiomları adlanır.

Bilavasitə bu aksiomlardan alınan nəticələrə (teoremlərə) baxaq:

**Teorem 1.** Əgər hər hansı iki natural ədəddən sonra gələn ədədlər fərqlidirsə, həmin ədədlər də fərqlidir, yəni ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a′≠ b′⇒ a ≠ b.

**Teorem 2.** Əgər iki natural ədəd fərqlidirsə,onlardan sonra gələn natural ədədlər də fərqlidir.

($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a≠b⇒ a′≠b′.

**Teorem 3.** Heç bir natural ədəd ondan sonra gələn natural ədədlə eyni deyil. ($\forall \boldsymbol{a\epsilon N}$) a′≠a.

**Teorem 4.** 1-dən fərqli istənilən natural ədəd ancaq bir natural ədəddən sonra gəlir.

**II qrup.** Natural ədədlər çoxluğunda toplama və vurma əməlləri. Toplama və vurma əməllərinin tərifi, toplama və vurmanın xassələri, uyğun teoremlər və onların isbatı bu təqdimatda qalsın.

**Xülasə:** Natural ədədlərin toplanması.

Peano aksiomlarına istinad edərək natural ədədlər çoxluğunda toplama əməlini təyin edək.

**Tərif 1.** Hər hansı M çoxluğunda binar cəbri əməl MxM⊂M düz hasilinə deyilir.

**Tərif 2.** N çoxluğunda binar cəbri toplama əməli (+) $\boldsymbol{N + N \subset N}$.

$\boldsymbol{A_5}$ və $\boldsymbol{A_6}$ aksiomlarını ödəyən (a+b) $\boldsymbol{\epsilon}$ N inikasına toplama deyilir, başqa sözlə

1. ($\forall \boldsymbol{a\epsilon N}$) a+1=a′
2. ($\forall \boldsymbol{a}, \boldsymbol{b\epsilon N}$) a+b′=(a+b)′

**Teorem 5.** Peano aksiomlar sistemində $\boldsymbol{A_5}$ ,$\boldsymbol{A_6}$ aksiomlarını ödəyən N çoxluğunda təyin olunmuş toplama əməli var və yeganədir.

Tərifinə görə toplama əməli cədvəlini qura bilərik:
1+1=1′=2,
2+1=2′=3,
3+1=3′=4,
2+2=2+1′= (2+1)′=3′=4,
3+2=3+1′=(3+1)′=4′=5.

**Teorem 6.** Toplama əməli üçün kommutativlik(yerdəyişmə) və assosiativlik(qruplaşdırma) qanunları doğrudur. Məsələn,

$\boldsymbol{a+b=b+a}$ olduğunu isbat edək:

$\forall \boldsymbol{a\epsilon N}$, a+1=1+a. Deməli, 1$\boldsymbol{\epsilon}$M. İsbat edək ki,a′+1=1+a′. a′+1=(a+1)+1=(1+a)+1=1+(a+1)=1+a.

Natural ədədlərin hasili.

**Tərif.** $\boldsymbol{A_7}$ , $\boldsymbol{A_8}$ aksiomlarını ödəyən hər bir (a,b)$\boldsymbol{\epsilon N^2}$ natural ədədləri üçün (a·b) $\boldsymbol{\epsilon}$ N inikasına vurma əməlinə deyilir:

1. $(\forall \boldsymbol{a\epsilon N})$ a·1=a
2. $(\forall \boldsymbol{a, b\epsilon N})$ a·b′=a·b+a [4]

Vurma cədvəlini tərtib edək:
1*1=1, 2*2=2*1′=2*1+2=2+2=4,
2*1=2, 3*2=3*1′=3*1+3=3+3=6.

**III qrup.** Natural ədələr çoxluğunda nizamlılıq >, < və = işarələri, onların xassələri haqqında məlumatlar verilir.

**Xülasə:** Natural ədədlər çoxluğunda nizamlılıq

**Tərif 1:** Əgər $\forall \boldsymbol{a, b\epsilon N}$ üçün a=b+n şərti ödənərsə, a>b (böyükdür) deyilir.

**Tərif 2.** Əgər a,b və n natural ədədləri arasında a=b+n bərabərlik münasibəti varsa, onda deyirlər ki, a>b. a>b-dirsə, onda b<a. Bundan başqa a≥b (a ədədi b-dən kiçik deyil) və
b≤ $\boldsymbol{a}$ ($\boldsymbol{b}$ ə$\boldsymbol{d}$ə$\boldsymbol{di}$ $\boldsymbol{a}$-dan böyük deyil) münasibətləri də var.

**Teorem 1.** İstənilən iki a və b natural ədədləri üçün, aşağıdakı üç münasibətdən ancaq biri doğrudur(Trixotomiya qanunu):
1) a=b, 2) a>b, 3) a<b (b>0).

**__İsbatı.__** Göstərək ki, bu üç münasibətdən ikisi eyni vaxtda mümkün deyil. Əksinə, fərz edək ki, 1) və 2) eyni zamanda doğrudur.
1) a=b
2) a=b+n ⇒ b=b+n, bu isə mümkün deyil.

**Teorem 2.** İki natural ədədin cəmi toplananlardan heç birinə bərabər deyil: a+b≠ $\boldsymbol{b}$

**__İsbatı.__** $M_b \subset \boldsymbol{N}$ alt çoxluğuna baxaq.
(a+b)c=ac+bc ödənir. Aydındır ki, 1$\boldsymbol{\epsilon}$$M_b$, yəni a+1≠1 (Aksioma görə).

Tutaq ki, b$\boldsymbol{\epsilon}$M, yəni a+b≠b (a+b)′≠b′ olduğunu göstərək. Doğrudan da, (a+b)′=a+b+1≠b+1.

**Teorem 3.** (Tranzitivlik). $(\forall \boldsymbol{a, b, c\epsilon N})$ Əgər a>b, b>c, onda a>c.

**__İsbatı.__** Əgər a>b, b>c-sə, a=b+n, b=c+m, (m, n $\boldsymbol{\epsilon}$ N)
a=b+n=c+m+n=c+(m+n)=c+k, yəni a=c+k, bu da onu göstərir ki, a>c

Nəticə, $\forall \boldsymbol{a, b, c\epsilon N}$, (a<b) ∧ (b<c) ⇒ a<c

**Teorem 4. (Bağlılıq).** ($\forall a, b \in N$) (a>b) ∨ (b>0).

**Teorem 5.** (Antirefleksivlik). ($\forall a \in N$) (a>a) heç zaman baxmaq mümkün deyil.

**İsbatı:** Əksinə, fərz edək ki, $a \in N$, a>a. Onda, $\exists n$ olmalıdır ki, a=a+n. Ziddiyyət alındı.

**IV qrup.** Natural ədədlər çoxluğunda çıxma və bölmə əməllərinin tərifi verilir, onların xassələri göstərilir.

**Xülasə:** Tərif. Natural ədədlərin fərqi (a-b) a və b-nin elə inikasıdır ki, (a-b)+b=a olsun.

Qeyd. Çıxma (fərq) əməli toplama əməlinin tərsidir.

**Teorem 6.** (İki natural ədədlər çoxluğunda natural ədədin fərqinin varlıq teoremi). İki natural ədədin fərqi onda və yalnız onda mümkün olur ki, a>b olsun. Əgər, fərq varsa, bu fərq yeganədir.

**İsbatı.** Əgər a>b-sə ∃k∈N, a=b+k.

Onda iki natural ədəd fərqinin tərifinə görə, k=a-b.

Əksinə, k=a-b-də a=b+k ⇒ a>b

**Yeganəliyi isbat edək.** Əksinə, fərz edək ki, a>b olduqda a-b fərqi iki n və m ədədlərinə bərabərdir, yəni a-b=n və a-b=m. Onda, a=b+n və a=b+m, yəni a-nın iki qiyməti var. Bu isə mümkün deyil. Ziddiyyət alındı. Başqa sözlə desək a və b ədədlərinin fərqi yeganədir.

Qeyd. Təqdimatlardan belə nəticəyə gəlmək olur ki, natural ədədlərin çıxılması həmişə mümkün deyil, yəni natural ədədlər çoxluğunda çıxma əməli cəbri əməl deyil.

Natural ədədlərin bölünməsi (qisməti) a:b vurmanın tərsi olaraq a və b-nin elə inikasına deyilir ki, (a:b, $\frac{a}{b}$) (a:b)·b=a olur. a bölünən, b bölən, $\frac{a}{b}$ isə qismət adlanır.

Beləliklə, biz toplama və vurma cəbri əməli təyin olunan, çıxma və bölmə əməlləri müəyyən şərtlər daxilində mümkün olan N natural ədədlər çoxluğunu aksiomatik olaraq qurmaq mümkündür.

Qeyd edək ki, bu da natural ədədlər çoxluğunun qurulması modellərindən biridir. Ancaq, isbat etmək olar ki, onlar izomorfdur. Yəni izomorfizm dəqiqliyi ilə yeganə natural ədədlər çoxluğu var.

Hər bir qrup öz çıxışlarını yekunlaşdırdıqdan sonra qiiymətləndirmə aparılır. Mümkün olan qiymətləndirmə formasının bir nümunəsini verək;

| Qruplar | Elmilik | Əhatəlilik | Əməkdaşlıq | Suallara cavablar | Çalışmalar |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Dərslərin bu cür formada təşkil olunmasının bir çox əhəmiyyəti var:

1) Tələbələr mövzuları hazırlayarkən tədqiqat aparır, mövzu ilə dərindən tanış olur və deməli müəyyən mənada bir çox imtahan suallarını da öyrənmiş olurlar,
2) Onlarda komanda ilə işləmək bacarığı formalaşır və inkişaf edir,
3) Onlarda tədqiqat aparmaq bacarığı formalaşır və inkişaf edir,
4) Dərs daha maraqlı və canlı keçir,
5) Qiymətləndirmənin nəticələrini kollokvium nəticələri hesab etmək olur.

Qeyd edək ki, təlim prosesində kurikulum tələblərini əsas götürsək, nəinki, “Natural ədədlər” mövzusunda tədrisi prosesində digər mövzuların da öyrənilməsində, yeni təlim, metod və texnologiyalarından istifadə etməklə yanaşı təqdimatlar və digər üsullardan vaxtlı-vaxtında istifadə etdikdə tələbələrdə fənnin öyrənilməsinə maraq artır. Həmçinin onlarda tədqiqatçılıq vərdişləri formalaşır, inkişaf edir.

**Problemin aktuallığı.** Təcrübələr göstərir ki, kurikulumun irəli sürdüyü tələblər baxımından nəinki tam orta məktəblərdə, digər kollec və ali pedaqoji(o cümlədən Texniki və s.) məktəblərdə yəni təliim metal və texnologiyalardan, həmçinin İKT-dən istifadə plüaritet məsələlərdəndir. Təlim prosesində təqdimatların, slaydların və digər formalardan istifadə tələbənin yaradıcılıq qabiliyyətlərinin, müstəqil düşünmə, müstəqil fikir söylənən kimi keyfiyyətlərinin formalaşdırılmasında çox aktual bir məsələdir.

**Problemin elmi yeniliyi.** İstər bakalavriant, istərsə də magistr səviyyələrində bir çox metod və priyomlar vardır ki, tələbənin biliklərinin sistemləşdirillməsində, təlimdə ardıcıllıq və digər prinsiplərin inkişaf etdirilməsində faydalı hesab edilir. Burada əsas diqqət ona yönəlmişdir ki, “Natural ədədlər” mövzusunun təlimində hazırlanmış təqdimatlar (təlim prosesində) o cümlədən slaydlar və digər üsullar mövcud proqramlar əsasında tədrisi(təlimi) təçkil olunan “Sabah” qruplarında tələbələrin yaradıcılıq və tədqiqatçılıq bacarıqlarının səmərəliliyinin yüksəldilməsində bu və digər təlim metodlarından istifadə kimi əhəmiyyətlidir və ideya kimi innovativdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Pedaqoji yönümlü ali məktəblərdə riyazi fənlərin tədrisinin xüsusən də “Sabah” qruplarında tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsi müəllimin pedaqoji ustalığı və yeni təlim və pedaqoji texnologiyalardan istifadənin səviyyəsindən çox asılıdır.

Məqalədə təliim prosesində, xüsusən də “Ədədi üsullar”fənninin materiallar daxil olan “Natural ədədlər” mövzusunun təlimində istifadə olunan təqdimatların hazırlanması və təqdim olunması tələbələrin tədqiqatçılıq bacarıqlarınıın inkişafında elmi axtarışlarının səmərəliliyinin artırılmasında əhəmiyyətlidir və tətbiq olunması faydalıdır

## Ədəbiyyat


1. Ə. Nağıyev. Ədədi sistemlər. Maarif. 1976.
2. В. И. Нечаев. Числовые системы. Москва. Просвещение. 1975.
3. С. Феферман. Числовые системы. Москва. Наука. 1971.
4. Н. Глухова. Числовые системы. Ульяновский Госпедуниверситет. 2014.
5. А. Савветеев. Числовые системы. https://www.youtube.com/watch?v=aIFrXzwz3qU


**A.K.Nəbiyev, Ə.N.Məmmədov**

## Natural ədədlər sisteminin ali məktəblərdə tədrisinə dair
### Xülasə

Təqdim olunan məqalə pedaqoji ali təhsil müəssisələrinin “SABAH” qruplarında tədris olunan əsas fənlərdən biri olan “Ədədi sistemlər” fənninin tədrisi məsələlərinə həsr olunmuşdur.

Məqalədə tələbələr tərəfindən hazırlanmış və fənnin proqram materialına daxil olan "Natural ədədlər" mövzusuna aid təqdimatın qısa məzmunu, eləcə də bu cür təqdimatların tələbələrdə bilik və bacarıqların formalaşdırılmasında rolu nəzərdən keçirilir, kollokviumların qəbulu zamanı belə təqdimat formalarının əhəmiyyəti vurğulanır.

Həmçinin, aksiomlar sistemi (Peano aksiomları sistemi) və onlardan əldə olunan bəzi nəticələr şərh olunur, eyni zamanda ədədi sistemlərin məktəb riyaziyyatında bu və ya digər formada təqdim edilməsi məsələlərinə baxılır.

**А.К.Небиев, А.Н. Мамедов**

**Содержание обучения системе натуральных чисел в высших учебных заведениях**

**Резюме**

Представленная статья посвящена вопросам обучения дисциплине «Числовые системы», являющейся одним из основных предметов, преподаваемых в группах

«САБАХ» педагогических высших учебных заведений. Рассматривается краткое содержание подготовленной студентами презентации по теме «Натуральные числа», входящей в программный материал дисциплины, и роль таких презентаций в формировании знаний и умений студентов в направлении освоения предмета, отмечается значение таких форм представления при приёме коллоквиумов. Комментируется система аксиом (система аксиом Пеано) и некоторые следствия, получаемые из них, а также рассматриваются вопросы введения числовых систем в школьной математике в той или иной форме.

**A.K. Nebiyev, A.N. Mammadov**

**The content of teaching the system of natural numbers in higher education institutions**

**Summary**

The presented article is devoted to the issues of teaching the subject "Number Systems", which is one of the main disciplines taught in the "SABAH" groups of pedagogical higher education institutions.

The brief content of the presentation prepared by students on the topic "Natural Numbers", which is included in the program material of the subject, and the role of such presentations in the formation of students' knowledge and skills in the direction of learning the subject are discussed, and the importance of such forms of presentation in conducting colloquiums is noted. The axiom system (the Peano axiom system) and some results obtained from it are explained, and the issues of introducing number systems in school mathematics in one form or another are considered.

**Redaksiyaya daxil olub:** 11.04.2026

***MUSİQİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ***
***METHODS OF TEACHING MUSİC***

*UOT 372.878*

# BAROKKO VASİTƏSİLƏ İFAÇILIQ USTALIĞININ FORMALAŞDIRILMASI: ANALİZ VƏ TƏDRİS METODİKASI

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**ORCID:** 0009-0000-4024-2424
**E-mail:** ridvan_baku@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.20

***Açar sözlər:*** *tələbə, alət, barokko, fortepiano, pedaqogika*
***Ключевые слова:*** *студент, инструмент, барокко, фортепиано, педагогика*
***Key words:*** *student, instrument, barokko, piano, pedagogy*

Barokko dövrü fortepiano ədəbiyyatının formalaşmasında mühüm mərhələ hesab olunur, baxmayaraq ki, bu dövrdə əsas klavişli alət klavesin və klavikord idi. Barokko musiqisinin əsas xüsusiyyəti polifonik düşüncə tərzinin üstünlük təşkil etməsidir. Fortepiano ifaçılığı baxımından bu dövr çoxsəsliliyin aydın və balanslı səsləndirilməsini tələb edir. Barokko əsərlərində mövzu ardıcıllığı və motivlərin məntiqi inkişafı əsas yer tutur. Xüsusilə fuqa, invensiya və süita janrları klavişli musiqinin inkişafına güclü təsir göstərmişdir. Bu janrlar ifaçıdan texniki dəqiqlik və yüksək intellektual nəzarət tələb edir. Barokko musiqisində ritmik sabitlik və davamlı hərəkət hissi müşahidə olunur. Basso continuo prinsipi harmonik əsasın formalaşmasında mühüm rol oynayır. Dinamik kontrastlar məhdud olsa da, musiqi daxili gərginlik və ifadəliliklə zəngindir. Artikulyasiya və frazalanma ifanın əsas ifadə vasitələrindən biridir. Barokko fortepiano repertuarında ornamentasiya xüsusi əhəmiyyət daşıyır. Ornamentlərin düzgün və üsluba uyğun ifası musiqinin xarakterini açmağa kömək edir. Bu dövrdə pedal istifadəsi ya yoxdur, ya da çox məhdud şəkildə nəzərdə tutulur. Barokko musiqisinin ifasında bərabər səs səviyyəsi və aydınlıq əsas məqsəd sayılır. Fortepiano bu əsərlərin müasir alətdə səsləndirilməsi üçün yeni texniki yanaşmalar tələb edir. İfaçı tarixi üslub xüsusiyyətlərini nəzərə almalıdır. Barokko musiqisi texniki bacarıqlarla yanaşı analitik düşüncəni də inkişaf etdirir. Bu repertuar tələbələrin musiqi mətnini dərin anlamaq qabiliyyətini gücləndirir. Barokko əsərləri fortepiano tədrisində əvəzolunmaz metodik material kimi istifadə olunur. Bu dövrün musiqisi ifa mədəniyyətinin əsaslarını formalaşdırır.

"Barokko" italyanca tərcümədə qeyri-adı, qəliz, təmtəraqlı mənasını daşıyır. Bu anlayışın əmələ gəlməsində bir neçə variant mövcuddur. Məsələn, portuqal dilindən "perola barocca" qeyri-düzgün formalı mirvari dənəsi kimi tərcümə edilir.

Musiqi incəsənətində barokko üslubu XVII əsrdə gərgin və həyəcanlı cuhi, mənəvi mühitlə seçilən ölkələrdə tərəqqi edir. Barokko üslubu XVI əsrdə İtaliyada müəyyənləşməyə başlamış, 1620-1630-cu illərdə inkişaf etmiş və həmin əsrin ortalarında tərəqqidə yüksəliş əldə edib, gələcəkdə də öz inkişafını davam etdirmişdir. Almaniyada isə barokko üslubunda tərəqqisi bir

əsrdən çox vaxt tələb etdi.

Sonat prinsipinin formalaşması tarixində yüksək barokkoya aid italyan bəstəkarı Domeniko Skarlattinin (1685-1757) rolu böyükdür. Onun yaradıcılığında bırhıssəli klavir əsərlər (sonatalar) əsas yer tutur. Onlarda klassikdən öncəki sonat alleqronun xalq (italyan, ispan, portuqal) rəqs və mahnı janrlarının xüsusiyyətləri mövcuddur. Klavir texnikası sahəsində yenilikçi olan Skarlatti bir çox üsullardan istifadə etmiş (məşq, əllərin çarpazlaşması, qlissando), hansılar ki sonradan, XIX əsrin fortepian musiqisində öz əksini tapmış və inkişaf etmişlər. Skarlatti öz sonatalarında ekspozisiya ziddiyyətin yüksəkliyinə çatmasında hətta Mosartı qabaqlamışdı. Sonat prinsipinin ardıcıllıqla həyata keçirilməsinə baxmayaraq, Skarlattinin sonatalarında reprizanın təkrarlanması qeyd olunmur. Məhz buna görə Skarlattinin bütöv formalı sonataları klassik sonat alleqro formasına gətirib çıxarmır, çünki, belə forma ən azı reprizin iki dəfə təkrarlanmasını, yəni rondo tələb edir. XVIII əsrin üslubuna nəzər salanda, ən ilk məsələ kimi Bax və Hendelin yaradıcılığı məsələsi ortaya çıxır. 1920-ci illərdə xarici musiqişünaslığında onları yüksək barokkonun nümayəndələri kimi təqdim edirdilər (Roberi Xaas, Pol Genri Lanq, Byuken.

Aşağıda Domeniko Skarlattinin sonataları üzərində tələbələrlə işləmək üçün pedaqoji metodlar təqdim olunur. Metodlar həm texniki, həm də üslubi aspektləri əhatə edir:

1. Üslubi kontekstin izahı ilə dərsə başlamaq, Skarlattinin barokko və erkən klassisizm arasında keçid rolunu tələbəyə aydınlaşdırmaq.
2. Əsərin formal quruluşunun (iki hissəli forma) təhlili və mövzu bölmələrinin müəyyənləşdirilməsi.
3. Sağ və sol əl partiyalarının ayrıca öyrənilməsi, xüsusilə əl dəyişmələri və keçidlərin rahatlaşdırılması.
4. Klaviş texnikasının inkişafı üçün sürətli pasajların yavaş tempdə və ritmik variasiyalarla məşqi.
5. Artikulyasiya üzərində sistemli iş aparmaq, stakkato və non-legato toxunuşlarının fərqləndirilməsi.
6. Barmaq texnikasının möhkəmləndirilməsi məqsədilə barmaq dəyişmələrinin məqsədyönlü planlaşdırılması.
7. Ornamentlərin (trell, mordent və s.) üsluba uyğun və texniki cəhətdən düzgün ifasının öyrədilməsi.
8. Dinamik imkanların məhdudluğunu nəzərə alaraq, ifadəliliyin əsasən artikulyasiya və frazalanma vasitəsilə qurulması.
9. Ritmik dəqiqliyin formalaşdırılması üçün metronomla şüurlu və mərhələli iş aparmaq.

Dərin emosional əsaslara və iti yaradıcılıq təfəkkürə malik olan Baxın bərabəri yox idi. Bunun üçün o, müxtəlif ifadə üsullarından istifadə edərək, öz vaxtını və müasirlərini qabaqlamışdır. Klassik və romantiklərdən fərqli olaraq, Bax musiqisi başqa dinamik mücəssəmə tələb edir. Buna görə də onda əsas istiqamətin dinamikasını və onunla yanaşı gedən bu istiqamətləri zənginləşdirən detallaşdırılmış istiqamətləri seçmək lazımdır.

İ.S.Bax (1685-1750) bütöv bir tarixi dövrün tamamlayıcısı olan dahi polifonistdir. Bəstəkar müxtəlif polifonık formalar işləsə də, əsas yer fuqalara ayırıb. Onun fuqaları klassik əlamətlərə malikdirlər. O, polifoniyasına barokko üslubunda möhkəmlənmiş fərdiləşdirilmiş mövzuları daxil edərək, polifoniyada yeni tarixi pillə yaradıb. Baxın dövründə orqan bəstəkarın duyğu və

emosiyalarını dinləyicilərə çatdıra bilən bir alət idi. Amma klavirə də onun maraqı böyük idi. Əgər, orqan yaradıcılığında o, zəngin ənənələrin tamamlayıcısıdırsa, klavir musiqisində o, yeni yolların yaradıcısıdır. Baxın əsərlərinin çoxu elə bil ki, mövcud olmayan, amma yaranmasına az qalan alət üçün yazılıb. Baxın yenilikçiliyi və novatorluğu klavir musiqisinin məzmununun zənginləşdirilməsindən, onun obraz diapazonunun genişləndirilməsindən ibarətdir.

Baxın yaratdığı prelyudiya və fuqalar silsiləsi mavində itaçılarını o vaxtadək istifadə olunmayan iyirmi dörd major və minor tonallıqlarla tanış etdi. Həqiqətən, bəstəkarın istedadının ən parlaq və güclü xüsusiyyəti - onun fərdiyiliyi və üslubudur. Dahi melodist və polifonist, Bax harmoniya sahəsində də dahidir. Polifonik xətlərin qarışığından o, mürəkkəb akkordika yaradıb. Onun diatonika və xromatika əks etdirən musiqisində dolğun septakkord çalarlarda da istifadə edilib. Tonal inkişaf məntiqinin işlənməsi isə bəstəkarın harmonik təfəkkürünün cəsarətli kəşfidir. Tonal əlaqələrin məntiqi öz tamamlanmış əksini fuqalarda tapıb.

Baxın müxtəlif formalı (iri və kiçik) əsərləri bütövlük və mükəmməlliklə seçilir. Bəstəkar bu əsərlərdə musiqili materialın bütün imkanlarını (obraz, məna və kompozisiya) üzə çıxarır. Baxın musiqisinin dərk edilməsi polifonik təfəkkür sənətinin mənimsənilməsini tələb edir. Bəstəkarın musiqi dramaturgiyasının özünəməxsus priyomlarını dərindən öyrənmədən, onun sənət aləminə daxil olmaq üçün çalışmaq əbəsdir. Buna nail olmaq üçün Bax yaradıcılığı ilə dərindən tanış olmaq, onun əsərlərini öyrənmək lazımdır. Lakin, bu zaman Bax musiqisinin müasir interpretatorları Bax üslubunu hiss edib, duya bilərlər, çünki Bax öz yaradıcılığında böyük tarixi bir dövrün bədii tendensiyalarını ümumiləşdirərək, əks etdirib.

Aşağıda İohann Sebastyan Baxın klavişli əsərləri üzərində tələbələrlə işləmək üçün pedaqoji metodlar təqdim olunur. Metodlar polifonik düşüncə, texniki nəzarət və üslubi şüurun formalaşdırılmasına yönəlib:

1. Dərsin əvvəlində Bax yaradıcılığının barokko üslubunda yeri və polifonik təfəkkürün əsas prinsipləri barədə ümumi məlumat vermək.
2. Əsərin fakturasının təhlili, səslərin (səs xətlərinin) sayının və funksiyasının müəyyənləşdirilməsi.
3. Hər bir səs xəttinin ayrıca öyrənilməsi və melodik müstəqilliyinin qorunmasına nail olmaq.
4. Polifonik aydınlığın təmin edilməsi üçün səslərarası balans üzərində məqsədyönlü iş aparmaq.
5. Legato, non-legato və artikulyasiya növlərinin üsluba uyğun tətbiqini formalaşdırmaq.
6. Barmaq texnikasının rasional qurulması, barmaq dəyişmələrinin səslərin davamlılığına xidmət etməsi.
7. Ritmik sabitliyin və metrik dəqiqliyin inkişafı üçün metronomla sistemli məşqlər aparmaq.
8. Ornamentlərin tarixi ifa qaydalarına uyğun şəkildə öyrədilməsi.
9. Dinamik planın polifonik quruluşu pozmadan mərhələli şəkildə formalaşdırılması.
10. Texniki çətinliklərin musiqi məzmunu ilə əlaqələndirilməsi, mexaniki ifadan uzaq durmaq.
11. Tələbəyə hər bir səs xəttini oxumaq və ya zümzümə etdirməklə daxili eşitmə və polifonik şüurun gücləndirilməsi.

Yuxarıda qeyd olunanlara əsaslanaraq, barokko dövrü musiqisi üzərində aparılan məqsədyönlü pedaqoji iş tələbədə yüksək səviyyədə musiqi intizamı və üslubi şüur formalaşdırır. Bu

repertuarla işləmək polifonik düşüncəni və çoxsəsli mətnin analitik qavranılmasını inkişaf etdirir. Sistemli metodlar ifaçının səslərarası balansı və struktur aydınlığını şüurlu şəkildə idarə etməsinə imkan yaradır. Barokko musiqisi üzərində pedaqoji yanaşma texniki bacarıqları mexaniki deyil, məntiqi əsasda möhkəmləndirir. Artikulyasiya və frazalanma üzərində aparılan iş ifadəliliyin daha incə və dərin səviyyədə formalaşmasına xidmət edir. Tarixi ifa prinsiplərinin tətbiqi tələbədə musiqi üslublarına hörmət və məsuliyyət hissini gücləndirir. Pedaqoji prosesdə daxili eşitmənin aktivləşdirilməsi musiqi yaddaşını və konsentrasiyanı əhəmiyyətli dərəcədə artırır. Barokko repertuarı üzərində ardıcıl iş tələbənin intellektual və estetik inkişafına paralel təsir göstərir. Bu prinsiplərin praktikada tətbiqi ifaçını texniki baxımdan sabit və üslubi cəhətdən inandırıcı edir. Nəticədə tələbə müstəqil düşünən, musiqi mətnini dərindən anlayan və yüksək ifa mədəniyyətinə malik bir musiqiçi kimi formalaşır.

**Problemin aktuallığı.** Mövzunun müasir fortepiano tədrisi və ifaçılıq praktikası üçün əhəmiyyətini müəyyən edir. Barokko musiqisi üzərində məqsədyönlü pedaqoji iş tələbələrin analitik düşüncə, polifonik eşitmə və üslubi şüurunun inkişafında mühüm rol oynayır. Bu mövzunun araşdırılması fortepiano təlimində metodik yanaşmaların təkmilləşdirilməsinə və ifa keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

**Problemin elmi yeniliyi.** Fortepiano tədrisində barokko musiqisinin pedaqoji prinsiplərinin sistemli şəkildə araşdırılması və tətbiq olunmasının elmi əsaslarının təqdim edilməsidir. Tədqiqat tələbələrin texniki və ifaçılıq bacarıqlarının inkişafını polifonik mətn üzərində praktik nümunələrlə göstərir. Həmçinin, məqalə müəllimlər üçün yeni metodik tövsiyələr və analiz üsulları təqdim edərək tədris prosesinin effektivliyini artırır.

**Problemin praktik əhəmiyyət və məqalənin tətbiqi.** Fortepiano tədrisində barokko repertuarının sistemli işlənməsinin müəllim və tələbələr üçün konkret tövsiyələrini təqdim edir. Məqalədə göstərilən pedaqoji metodlar texniki bacarıqların, polifonik şüurun və üslubi ifadənin inkişafına birbaşa xidmət edir. Bu tədqiqat nəticələri dərs prosesində tətbiq edilərək tələbələrin ifa səviyyəsinin yüksəldilməsinə və tədris metodikasının təkmilləşdirilməsinə imkan yaradır.

## Ədəbiyyat

1. Бах И. С. Избранные фортепианные произведения. Москва: Музыка, 1989. - 320 с.
2. Скарлатти Д. Сонаты для клавира. Москва: Музыка, 2003. - 256 с.
3. Эйтнер Г. История музыки: от барокко до классицизма. Санкт-Петербург: Композитор, 2001. - 412 с.
4. Глинка В. Фортепианная техника эпохи барокко. Москва: Музыка, 1995. - 230 с.

**İ.Ə.Əhmədova**

**Barokko vasitəsilə ifaçılıq ustalığının formalaşdırılması: analiz və tədris metodikası**
**Xülasə**

Bu məqalədə barokko dövrü musiqisi ilə işləməyin pedaqoji prinsipləri Skarlatti və Baxın əsərləri nümunəsində araşdırılır. İşdə polifonik təfəkkürün və musiqi intizamının formalaşdıril-

ması üçün sistemli yanaşmanın əhəmiyyəti vurğulanır. Fakturanın, artikulyasiyanın və frazalaşdırmanın təhlili metodikalarının tətbiqi texniki bacarıqların və ifaçılıq yetkinliyinin inkişafına töhfə verir. İfaçıların üslubi savadlılığını artıran tarixi cəhətdən əsaslandırılmış ifa üsulları işıqlandırılır. Tədris prosesində praktik tətbiq üçün konkret pedaqoji tövsiyələr təqdim olunur. Bu yanaşmaların tətbiqinin nəticəsi olaraq, təhsilalanlarda musiqi anlayışının və ifaçılıq ustalığının yüksək səviyyəsi formalaşır.

**И.А.Ахмедова**

**Формирование исполнительского мастерства через барокко: методика анализа и обучения**

**Резюме**

Данная статья рассматривает педагогические принципы работы с музыкой эпохи барокко на примере произведений Скарлатти и Баха. В работе подчёркивается значение системного подхода для формирования полифонического мышления и музыкальной дисциплины у студентов. Применение методик анализа фактуры, артикуляции и фразировки способствует развитию технической и исполнительской зрелости. Освещены исторически обоснованные приёмы исполнения, которые усиливают стилистическую грамотность музыкантов. Показаны конкретные педагогические рекомендации для практического применения в учебном процессе. Результатом внедрения этих подходов становится высокий уровень музыкального понимания и исполнительского мастерства у обучающихся.

**I.A.Ahmadova**

**Developing performance mastery through baroque music: analysis and teaching methodology**

**Summary**

This article examines the pedagogical principles of working with Baroque music, using the works of Scarlatti and Bach as examples. The study emphasizes the importance of a systematic approach in developing students’ polyphonic thinking and musical discipline. The application of techniques for analyzing texture, articulation, and phrasing contributes to the development of technical and performance maturity. Historically informed performance practices are highlighted, enhancing musicians’ stylistic competence. Specific pedagogical recommendations for practical implementation in the educational process are presented. The result of applying these approaches is a high level of musical understanding and performance skill among students.

**Redaksiyaya daxil olub:** 17.02.2026

*UOT 372.878*

# MUSİQİ DƏRSLƏRİNİN YARADICILIĞA TƏSİRİ VƏ İNTEQRATİV TƏHSİLDƏ ŞAGİRDLƏRİN YARADICI İMKANLARININ NƏZƏRƏ ALINMASI

**Nərmin Tərlan qızı Bağırzadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0005-1455-7082
**E-mail:** bagirzadnrmin07@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.21

***Açar sözlər:*** *musiqi, yaradıcılıq, uşaq, dərs, incəsənət, ifa, inteqrasiya, ritm, mahnı.*
***Ключевые слова:*** *музыка, творчество, ребёнок, урок, искусство, исполнение, интегративный, ритм, песня.*
***Key words:*** *music, creativity, child, lesson, art, performance, integrative, rhythm, song.*

Musiqi dərslərinin inteqrativ təhsildə şagirdlərin yaradıcı imkanlarının nəzərə alınmasında xüsusi rolu vardır. Musiqi bəlkə də məktəbdə elə bir tədris sahəsidir ki, xüsusi təhsil ehtiyacı olan şagirdləri cəlb etmək üçün ən ideal imkanları yaradır.

Bütövlükdə musiqi dərsləri kiçikyaşlılarda yaradıcılığı həm musiqinin daxilində, həm də fənnlərarası kontekstdə gücləndirir. Musiqi sənəti psixofizioloji təsirə malik olduğu üçün şagird bir musiqi parçasını dinləyərkən beynində müxtəlif təsvirlər və ideyalar yaranır. Bir şagird eyni melodiyada kədərli bir hekayə eşidə bilər, digəri isə şən bir rəqs görə bilər – bu musiqinin çoxplanlı qavranılmasının nəticəsidir. Müəllim bu subyektiv təəssüratları sinifdə bölüşdürəndə şagirdlər bir musiqi əsərinə nə qədər fərqli prizmadan baxıla biləcəyini anlayırlar. Bu isə onları düşüncələrində daha açıqfikirli və tolerant olmağa alışdırır.

Məsələn, nitq məhdudiyyətli şagird dərsdə üçguşə zili və ya barabanı çalaraq ansamblda iştirak edə bilər. Şagird verbal ünsiyyətə ehtiyac duymadan ansambl fəaliyyətinə qoşulur ki, bu da onun özünəinam və nailiyyət motivasiyasını gücləndirir. Musiqi müəllimi hər bir şagirdin bacarıq səviyyəsinə uyğun variant təqdim edir: məsələn, istedadlı uşaq sinif üçün qısa bir melodiya bəstələyirsə, digərləri həmin melodiyanı sadə ritm alətlərində müşayiət etməklə yaradıcılıqda iştirak edir. Əsas odur ki, sinifdə hər kəs öz yaradıcılıq payını hiss etsin. Tədqiqatlar göstərir ki, müəllim və valideyn tərəfindən bu cür dəstək alan uşaqların yaradıcı nailiyyətləri əhəmiyyətli dərəcədə yüksəlir.

Musiqi dərslərində inteqrativ yaradıcı tapşırıqlara başqa bir misal III sinifdə "Nağıl-nəğmə" bölməsi üzrə aparılan çalışmalar ola bilər [2]. Müəllim şagirdləri qruplara ayıraraq onlara balaca bir musiqili səhnəcik hazırlamağı təklif edir. Hər qrup sehirli bir nağıl düşünüb onu həm söz, həm də musiqi ilə canlandırmalıdır.: Bu sayədə şagirdlərin idrak fəallığı və emosional reaksiyaları inkişaf etdirilir: bir qrupun üzvləri səliqəsiz paltar geyinmiş və mahnı oxuyan dilənçi obrazları fikirləşirlər, digər qrup şahzadə və cəngavər obrazlarını canlandırır, bir başqaları isə meşə heyvanlarının rəqsini hazırlayır. Sinfin imkanlarına görə müəllim sadə rekvizitlər – maskalar, parçalar, oyuncaq alətlər paylayır. Prova mərhələsi tam bir yaradıcılıq laboratoriyasına çevrilir: uşaqlar hansı melodiyanı oxuyacaqlarına, səhnəyə necə daxil olub çıxacaqlarına

birlikdə qərar verirlər. Bir neçə dəqiqəlik hazırlıqdan sonra qruplar öz nağıl-nəğmələrini nümayiş etdirirlər. Bu proses sinifdə pozitiv, sağlam psixoloji mühitin yaradılmasına və kollektiv yaradıcılığın möhkəmlənməsinə xidmət edir. Bu tapşırıqla şagirdlər həm musiqi yaradıcılığını, həm də teatral improvizasiyanı bir arada sınaqdan keçirirlər. Onlar başa düşür ki, musiqi təkcə notlarda yazılan əsər deyilmiş –onlar onu öz fantaziyaları ilə tamamlayıb yeni bir əsərciyə çevirə bilərlər

Dünya təcrübəsinə nəzər saldıqda görürük ki, ibtidai təhsildə musiqi və incəsənət fənlərinə geniş yer ayıran ölkələr sonradan yüksək innovativ göstəricilərə sahib olurlar. Məsələn, yaradıcı iqtisadiyyatın və ümumi kreativlik indeksinin ölçüldüyü beynəlxalq reytinqlərdə Skandinaviya ölkələri ön sıralarda qərarlaşıb. Təsadüfi deyil ki, həmin ölkələrdə uşaqlar kiçik yaşdan musiqi aləti çalmağa, rəsm çəkməyə cəlb edilir və cəmiyyət tərəfindən bu bacarıqlar dəyərli hesab olunur. Azərbaycanda da musiqi təhsili sahəsində zəngin ənənə formalaşıb. Hələ sovet dövründən etibarən fəaliyyət göstərən uşaq musiqi məktəbləri minlərlə istedadlı gəncin yetişməsində rol oynayıb. Son illərin statistikası göstərir ki, ölkə üzrə uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin sayı sabit 236 olaraq qalır. Bu, böyük rəqəmdir – hər il bu məktəbləri on minə yaxın şagird bitirir və onların arasından gələcəyin bəstəkarları, ifaçıları, eləcə də digər sahələrdə yaradıcı düşüncəsi ilə seçilən şəxsləri çıxır. Deməli, ibtidai təhsildə məktəb daxilində həftədə 1 saatlıq musiqi dərsləri və inteqrativ yaradıcılıq metodları ilə yanaşı, məktəbdənkənar musiqi fəaliyyəti də ümumi yaradıcılıq qabiliyyətlərinin inkişafında əhəmiyyətli paya malikdir.

Mühüm cəhət budur ki, musiqi dərslərində müəllim hər bir şagirdin yaradıcı imkanını nəzərə almağı bacarmalıdır. Sinifdəki uşaqların istedad və maraq səviyyələri fərqli ola bilər. Bunu nəzərə alan müəllim tapşırıqları *diferensial* şəkildə verir və heç kimi kənarda qoymur. Bütövlükdə, musiqi dərslərinin yaradıcılığa təsiri həm fənn daxilində, həm də fənlərarası kontekstdə genişdir. Musiqi azyaşlıların emosiyalarını oyadır, yaddaşını gücləndirir, onları dinləməyi və sonra yenidən yaratmağı öyrədir.

**Problemin aktuallığı.** Müasir təhsil mühitində musiqi dərslərinin uşaqların yaradıcı təfəkkürünü inkişaf etdirməsi xüsusi diqqət tələb edən məsələyə çevrilir, çünki şagirdlərin estetik duyumu ilə yanaşı idrak çevikliyi də bu dərslər vasitəsilə formalaşır. Hazırkı kurikulumda yaradıcı tapşırıqların payı artdıqca, musiqinin həm emosional, həm də məntiqi düşünməni stimullaşdırdığı daha aydın görünür. Məktəblilərin musiqi ilə işləyərkən ortaya qoyduğu fərdi bədii yanaşmalar onların ümumi öyrənmə motivasiyasını gücləndirir və təlim prosesinin keyfiyyətini yüksəldir. Buna görə də musiqi dərslərinin yaradıcı inkişafla bağlı tədqiqi aktual ehtiyac kimi meydana çıxır.

**Problemin elmi yeniliyi.** Təqdim olunan araşdırmada musiqi fəaliyyətlərinin yaratdığı idraki dəyişikliklər konkret müşahidə və nümunələrlə açıqlanır və bu, mövzunun əvvəlki yanaşmalardan fərqlənən elmi tərəfini formalaşdırır. Şagirdlərin improvizasiya prosesində göstərdiyi yaradıcılığın sistemli şəkildə təhlili musiqinin inteqrativ təhsildə necə fəaliyyət göstərdiyini daha dəqiq müəyyən etməyə imkan verir. Yeni yanaşmada musiqinin yalnız bədii ifadə vasitəsi yox, həm də müxtəlif fənlərlə paralel işləyən idraki mexanizm kimi izahı diqqət mərkəzinə gətirilir. Bu istiqamətdə aparılan nəticə çıxarışları mövzunun elmi yeniliyini təsdiq edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri musiqi müəllimlərinə dərs prosesində yaradıcı fəaliyyəti daha məqsədyönlü qurmaq imkanı verir və müxtəlif səviyyəli

şagirdlərlə işləyərkən diferensial yanaşmanı asanlaşdırır. Təklif olunan metodik nümunələr ibtidai siniflərdə mahnı, ritm və improvizasiya tapşırıqlarının tətbiqini sadələşdirir və sinifdə iştirak fəallığını artırır. Məqalədə göstərilən inteqrativ yanaşmalar həm ümumtəhsil məktəblərində, həm də məktəbdənkənar musiqi müəssisələrində real dərs prosesinə uyğun şəkildə istifadə olunur. Həmçinin təklif edilən model şagirdlərin yaradıcı özünüifadəsini genişləndirərək pedaqoji fəaliyyətin keyfiyyətinə birbaşa təsir edir.

## Ədəbiyyat

1. Rəcəbova, N., Quliyeva, Ş., & Əliyeva, Z. Musiqi – 1: Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2020.
2. Rəcəbova, N., Quliyeva, Ş., & Əliyeva, Z. Musiqi – 3: Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2022.
3.https://fieldreport.caes.uga.edu/publications/C1053-06/the-role-of-music-in-brain-development
4.https://www.ecs.org/wp-content/uploads/Research-and-Policy-Implications-of-STEAM-Education-for-Young-Students.pdf

**N.T.Bağırzadə**

### Musiqi dərslərinin yaradıcılığa təsiri və inteqrativ təhsildə şagirdlərin yaradıcı imkanlarının nəzərə alınması

### Xülasə

Məqalədə musiqinin tədrisində inteqrasiyanın tətbiqi məsələlərinə baxılır. Burada qeyd olunur ki, inteqrasiyadan istifadə musiqi təlimi prosesinə yenilik və orijinallıq gətirir, həmçinin uşaqların maraq dairəsini, bilik almaq istəyini artırır. Bu çox vacibdir, çünki yaradıcı şəxsiyyətin yetişdirilməsində inteqrasiya səmərəli alət kimi çıxış edir. Yaradıcı şəxsiyyətin yetişdirilməsi isə bütövlükdə təlimin əsas məqsədlərindən biridir. Bu da məqalənin aktuallığını və yeniliyini müəyyənləşdirir.

**Н.Т.Багирзаде**

### Влияние уроков музыки на творчество и учёт творческих возможностей учащихся в интегративном образовании

### Резюме

В статье рассматриваются вопросы применения интеграции в процессе преподавания музыки. Отмечается, что использование интеграции привносит новизну и оригинальность в процесс музыкального обучения, а также повышает интерес учащихся и их стремление к получению знаний. Это очень важно, поскольку интеграция выступает эффективным инструментом в формировании творческой личности. Воспитание творческой личности является одной из основных целей обучения в целом. Это и определяет актуальность и новизну статьи.

**N.T.Baghirzade**

**The impact of music lessons on creativity and the consideration of students' creative abilities in integrative education**

**Summary**

The article examines the issues related to the application of integration in the teaching of music. It is noted that the use of integration brings novelty and originality to the music education process and also increases students' interest and desire to acquire knowledge. This is very important, because integration serves as an effective tool in the development of a creative personality. The development of a creative personality is one of the main goals of education as a whole. This determines the relevance and novelty of the article.

**Redaksiyaya daxil olub:** 03.03.2026

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS OF TEACHING HİSTORY***

*UOT 371*

# TƏLƏBƏLƏRDƏ TARİX DƏRSLƏRİNDƏ FORMALAŞDIRILAN TOLERANTLIQ HİSSLƏRİNİN NƏZƏRİ ƏSASLARI

**Təhmasib Asif oğlu İmaməliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0004-9419-0526
**E-mail:** tahmasib.imamaliyev@pa.gov.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.22

***Açar sözlər:*** *tolerantlığın nəzəri əsasları, pedaqoji konsepsiyalar, tarixi təhsil, tolerant düşüncə, özünüdərk, özünüqiymətləndirmə, sosial psixologiya, multikultural təlim, şəxsiyyətin formalaşması, humanist pedaqogika*

***Ключевые слова:*** *теоретические основы толерантности, педагогические концепции, историческое образование, толерантное мышление, самопознание, самооценка, социальная психология, мультикультурное обучение, формирование личности, гуманистическая педагогика*

**Key words:** *theoretical foundations of tolerance, pedagogical concepts, history education, tolerant thinking, self-awareness, self-evaluation, social psychology, multicultural learning, personality formation, humanistic pedagogy*

Vətəndaş cəmiyyətinin formalaşdırılması üçün cəmiyyətə layiq ola biləcək dəyərlərə yiyələnən şəxsiyyətin yetişdirilməsi lazımdır. Bu insana xas ən mühüm keyfiyyətlərdən biri məhz tolerantlıqdır. Belə şəxs dözümlü olmağı bacarır, başqa millətin nümayəndəsinə, onun xalqının adət və ənənələrinə, mədəniyyətinə, davranış və həyat tərzinə hörmətlə yanaşır.

Tolerantlığın qədim tarixi vardır. Bütün dövrlərdə humanistlər tolerantlığa, qarşılıqlı hörmətə, əməkdaşlığa önəm vermişlər. Təhsilalanlarda, o cümlədən tələbələrdə tolerantlıq məqsədyönlü, sistemli, fasiləsiz iş nəticəsində formalaşdırılır.

Tolerantlıq müxtəlif dillərdə müxtəlif mənaları verir. Belə ki ingilis dilində - dözümlü, iltifatlı olmağa hazır olmaq; fransız dilində - başqa fikrə münasibət, ispan dilində - öz ideyalarından və yaxud rəylərindən daha yaxşı olanları etiraf etmək qabiliyyəti; çin dilində - başqalarına münasibətdə xeyirxah olmaq; ərəb dilində - bağışlama, yumşaqlıq, rəhmdillik, hövsələ; rus dilində - nəyə isə yaxud kimə isə dözmək qabiliyyəti, dözümlü, səbirli, səbatlı olmaq, nəyin isə və yaxud kimin isə mövcudluğu ilə razılaşmağı bacarmaq qabiliyyəti deməkdir. Tolerantlıq irqçiliyi, ksenofobiyanı, dini dözümsüzlüyü, terror və ekstremizmi rədd edir (4, s.25).

Tolerantlıq – bir insanın və ya cəmiyyətin özündən fərqli düşüncələrə, inanclara və davranışlara qarşı aqressiya göstərməməsi, onları qəbul etməsi və hörmətlə yanaşması bacarığıdır.

Tolerantlıq harada tətbiq olunur?

● ailədə – ailə üzvlərinin fərqli fikirlərinə anlayışla yanaşmaq;

● məktəbdə – sinif yoldaşlarının, müəllimlərin və digər şagirdlərin düşüncələrinə hörmət etmək;

- cəmiyyətdə – müxtəlif millətlərin, dinlərin və qrupların birlikdə yaşaya bilməsi;
- qlobal səviyyədə – beynəlxalq əməkdaşlıq və mədəniyyətlərarası dialoqda (3, s.111).

Tələbə-tələbə, müəllim-tələbə münasibətlərinin düzgün qurulmasında və səmərəli olmasında, şəxsiyyətlərarası ixtilafların qarşısının alınmasında, aradan qaldırılmasında, yaxud həll edilməsində tolerantlıq özünəməxsus rol oynayır. Tolerantlıq dözümlülük deməkdir. Fəqət dözümlü, təmkinli, hövsələli və səbirli olmaq, özünü saxlamağı bacarmaq heç də hər cür həqarətə, zorakılığa, fiziki təzyiqə qatlaşmaq, özünə qarşı belə alçaldıcı münasibətlə, davranış və rəftar tərzi ilə razılaşmaq demək deyildir. Bəzilərinin qənaətincə, tolerantlıq itaətdə olmaq deməkdir, əslində isə, tolerantlıq, dözümlülük, mütilik, itaət deyil, mübarizə deməkdir. Pisliklərə, kobudluğa, ədalətsizliyə, prinsipsizliyə qarşı barışmazlıqdır, üsyandır.

Tələbələrdə tolerantlığın formalaşdırılmasının qarşısında aşağıdakı əsas məqsədlər dayanır:

1. tələbələrdə öz şəxsiyyətinə dəyərli münasibətin formalaşdırılması, kommunikativ fəaliyyət vasitəsilə onun yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi;
2. əməkdaşlıq əsasında və tolerant şəxsiyyət olmaqda ətraf aləmlə qarşılıqlı münasibətləri qurmağa hazırlığın olması (1, s.192).

Həmin məqsədə çatmaq üçün bir sıra vəzifələrin reallaşması vacibdir:

- tələbənin özünü yaradıcı ifadə etməsi;
- təlim prosesində tələbə şəxsiyyətinin özünürealizə etməsi məqsədilə şərait yaratmaq;
- tələbə qrupunda gənclərin möhkəm tellərlə bir-birinə bağlanmasına nail olmaq, onları etibarlılıq, qarşılıqlı yardım və bir-birinə hörmət əsasında birləşdirmək.
- tələbləri ümumbəşəri dəyərlərlə, mədəniyyətlərlə tanış etmək;
- ailəyə qayğı hissi yaratmaq, ailə ənənələrinin qorunub saxlanmasına nail olmaq.

Tolerantlığın struktur məzmununa aşağıdakı komponentlər daxildir:

- özünüqiymətləndirə;
- özünüdərketmə;
- özünütənzim;
- Özünütəyin (6, s.78).

Tələbələrdə tolerant şüurun, tolerant düşüncənin və tolerant təfəkkürün inkişaf etdirilməsi, bu əsasda tolerant davranışın və tolerant mövqeyin formalaşdırılması texnologiyalarından fəal şəkildə faydalanmaq lazım gəlir. Mövcud tərbiyə və təlim texnologiyaları tolerantlığın formalaşdırılması zamanı da tətbiq oluna bilər.

Tələbələrdə tolerantlığın səmərəli şəkildə tərbiyə olunması aşağıdakı psixoloji şərtlər kompleksinin həyata keçirilməsini tələb edir:

- müəllimin tələbələrə tolerant münasibəti;
- tələbələrin qarşısına yaradıcı vəzifələr qoymaq;
- kollektiv yaradıcı işlərin elə həcmdə və məzmunda yerinə yetirilməsi təşkil olunmalıdır ki, nailiyyətin qazanılma ehtimalı fərdi işlə müqayisədə kollektiv işdə daha çox olsun;
- qrupda yerinə yetirilən işlərə görə tələbələrdən məsuliyyətin tələb edilməsi;
- birgə işin səmərəli təşkili qaydalarının tələbələrə öyrədilməsi (planları müzakirə etmək və razılaşdırmaq, ədalətli prosedurlardan və obyektiv meyarlardan yararlanmaq) və s. (2, s.21).

Tolerantlığın əsas xüsusiyyətləri aşağıdakılardır:

- fərqliliyi qəbul etmək – insanlar arasında fikir, din, irq, dil və həyat tərzi baxımından olan fərqliliklərə anlayışlı yanaşmaq;

● hörmət – başqasının hüquq və azadlıqlarına hörmət etmək;

● əməkdaşlıq – müxtəlif düşüncəli və mənsubiyyətli insanlarla birgə yaşamağı və işləməyi bacarmaq;

● empatiya – başqasının yerinə özünü qoyaraq, onu anlamağa çalışmaq (1, s. 103-104).

Tələbələrdə tarix dərslərində formalaşdırılan tolerantlıq hissləri dərs prosesinə bir sıra müsbət təsirlər göstərir. Bu hisslərin inkişafı yalnız sosial münasibətlərə deyil, həm də tədris mühitinə və təlim nəticələrinə birbaşa təsir edir. Aşağıda bu təsirlərin əsas istiqamətləri izah olunur:

1. Pozitiv sinif mühiti yaradır

Tolerantlıq hissləri formalaşan tələbələr sinif yoldaşlarına qarşı anlayışlı və hörmətli yanaşırlar. Bu isə qarşılıqlı anlaşmanı və əməkdaşlığı gücləndirir, təlim prosesində rahat və təhlükəsiz bir mühitin yaranmasına səbəb olur.

2. Diskussiyaların keyfiyyətini artırır

Tarix dərslərində mövzuların tənqidi təhlili zamanı tələbələrin müxtəlif fikirlərini ifadə etməsi vacibdir. Tolerant tələbələr fərqli baxışlara dözümlü yanaşır, qarşı tərəfi dinləməyi bacarır, bu isə dərsdə sağlam debat və diskussiyaların aparılmasına şərait yaradır.

3. Empatiya və sosial məsuliyyət hisslərini inkişaf etdirir

Tarixi hadisələrin nəticələri, insan haqlarının pozulması və müharibələrin faciələri tələbələrdə empatiya hissini gücləndirir. Bu empatiya onlarda yalnız tolerantlıq deyil, həm də sosial ədalətə qarşı məsuliyyətli yanaşmanı formalaşdırır.

4. Milli və ümumbəşəri dəyərlərin aşılanması

Tolerantlıq, yalnız fərqli fikirlərə yox, həm də fərqli xalqlara, mədəniyyətlərə və dinlərə qarşı hörmət kimi geniş mənada tədris olunur. Bu, gənc nəslin vətənə sədaqətli, eyni zamanda qlobal dünyaya açıq və dözümlü fərdlər kimi yetişməsinə zəmin yaradır.

5. Münaqişələrin və aqressiyanın azalması

Tolerantlıqla tərbiyə olunan tələbələr arasında mübahisə və konflikt halları azalır. Onlar problemləri zorla deyil, dialoq və anlaşma yolu ilə həll etməyə meylli olurlar.

6. Davamlı öyrənməyə həvəs yaradır (4, s.253).

Öz fikirlərinin qəbul olunduğunu və hörmətlə qarşılandığını hiss edən tələbələr dərsə daha aktiv şəkildə qoşulurlar. Bu isə motivasiyanı artırır və dərsə marağı gücləndirir.

Tarix dərslərində tolerantlıq hisslərinin formalaşdırılması təhsil prosesində təkcə akademik deyil, eyni zamanda mənəvi inkişafı da təmin edir. Beləliklə, dərs prosesi daha dəyərli, interaktiv və insani əsaslara söykənmiş olur.

Tolerantlıq tərbiyəsi müasir pedaqoji təfəkkürdə şəxsiyyətin sosial və mənəvi inkişafının əsas istiqamətlərindən biri kimi çıxış edir. Tələbələrdə tolerant münasibətin formalaşdırılması tədris prosesində qarşılıqlı hörmət, əməkdaşlıq, empatiya və sosial məsuliyyət kimi dəyərlərin aşılanmasını təmin edir. Tarix dərslərində tolerantlıq hisslərinin inkişafı yalnız biliklərin mənimsənilməsini deyil, həm də humanist düşüncə tərzinin, mədəni müxtəlifliyə açıq və məsuliyyətli vətəndaş mövqeyinin formalaşmasını stimullaşdırır. Bu baxımdan tolerantlıq pedaqogikanın strateji məqsədi kimi çıxış edərək, milli-mənəvi dəyərlərlə universal humanist prinsiplərin vəhdətini təmin edir.

**Problemin aktuallığı.** Bu mövzu müasir cəmiyyətin mədəni, siyasi və sosial inkişaf tələbləri ilə bağlıdır. Multikultural mühitin genişlənməsi və xalqlar arasında qarşılıqlı əlaqə təkcə

bilik ötürməyi deyil, eyni zamanda tələbələrə dəyər və qarşılıqlı hörməti formalaşdırmağa kömək edir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə tələbələrdə tolerantlıq hisslərinin formalaşdırılması pedaqoji cəhətdən nəzəri əsasları və onun strukturu müəyyənləşdirilmişdir. Tolerantlığın formalaşdırılmasında tarix fənninin imkanları vətəndaşlıq tərbiyəsi və multikultural kontekstdə təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat mövzusu tarix fənninin tədrisində və tolerantlıq hisslərinin formalaşdırılmasında istifadə oluna bilər. Eyni zamanda dərs vəsaitlərin və tədris proqramlarının təkmilləşdirilməsində istifadə və tələbələrin sosial məsuliyyət və ünsiyyət bacarıqlarına müsbət təsir göstərə bilər. Bu tədqiqat tarix fənninin tədrisində, sinifdənkənar tədbirlərdə və müəllim hazırlığında tətbiq oluna bilər.

### Ədəbiyyat

1. Əmirəliyeva İ.B. Tələbələrdə tolerantlığın formalaşdırılmasının psixoloji əsasları // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2012, №3, s.191-195

2. Musayev D.M. Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları. Monoqrafiya. – Bakı: ADPU nəşriyyatı, 2022. 232 səh.

3. Tağıyeva R.A. Tolerantlığın növləri // Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı, 2021, № 2, s.111-115.

4. Гриншпун И.В. Толерантное сознание и формирование толерантных отношений (теория и практика): сб. науч.-метод. статей. М.: Изд-во Моск. Психолого-социального института, 2002. 368 с.

5. Селюкова, Е.А. Воспитание толерантных взаимоотношений в школе /Е.А.Селюкова, М.Н.Фокина//Актуальные вопросы современной педагогики: материалы III Междунар. науч. конф. (г. Уфа, март 2013 г.). Уфа: 2013. С. 103-105.

6. Тагиева Р.А. Идеи, связанные с благоприятными возрастными периодами для формирования толерантности у детей // Артпедагогика и артпсихология в век инноваций: материалы IV Международной научно-практической конференции в рамках Всероссийского Фестиваля науки NAUKA 0+ Создавая будущее. (Москва, 11 октября 2022 г.) Москва, 2023, с.77-84.

**T.A.İmaməliyev**

### Tələbələrdə tarix dərslərində formalaşdırılan tolerantlıq hisslərinin nəzəri əsasları

### Xülasə

Məqalədə tələbələrdə tolerantlıq hisslərinin formalaşmasının nəzəri əsasları elmi-pedaqoji kontekstdə araşdırılır. Tolerantlığın mahiyyəti, onun tarixi, sosial və psixoloji aspektləri, həmçinin təlim prosesində tətbiq sahələri geniş şəkildə təhlil olunur. Müəllif tələbə şəxsiyyətinin inkişafında tolerantlığın rolu, sosial adaptasiya, empatiya, əməkdaşlıq və ünsiyyət bacarıqlarının formalaşmasında əhəmiyyətini müəyyənləşdirir. Tədqiqatda tolerant davranışın struktur komponentləri- özünüdərk, özünüqiymətləndirmə, özünütənzim və özünütəyin kimi istiqamətlər pedaqoji sistemin mühüm elementləri kimi təqdim edilir. Məqalə həmçinin tarix fənninin

tədrisində tolerantlıq hisslərinin şagirdin mənəvi və intellektual inkişafına təsir mexanizmlərini izah edir.

**Т.А.Имамалиев**

**Теоретические основы формирования чувства толерантности у учащихся на уроках истории**

**Резюме**

В статье исследуются теоретические основы формирования чувства толерантности у студентов в научно-педагогическом контексте. Анализируется сущность толерантности, её исторические, социальные и психологические аспекты, а также сферы применения в образовательном процессе. Автор определяет роль толерантности в развитии личности студента, в формировании социальной адаптации, эмпатии и навыков сотрудничества. Определены структурные компоненты толерантного поведения — самопознание, самооценка, саморегуляция и самоопределение, рассматриваемые как важнейшие элементы педагогической системы. Особое внимание уделяется влиянию уроков истории на формирование нравственных и интеллектуальных качеств личности.

**T.A.Imamaliyev**

**Theoretical foundations of the feelings of tolerance formed in students in history lessons**

**Summary**

The article explores the theoretical foundations of tolerance formation among students within a scientific and pedagogical framework. It analyzes the concept of tolerance, its historical, social, and psychological aspects, as well as its application in the learning process. The author highlights the role of tolerance in student personality development, particularly in fostering social adaptation, empathy, cooperation, and communication skills. Structural components of tolerant behavior—self-awareness, self-evaluation, self-regulation, and self-determination—are presented as core elements of the pedagogical system. The study also elucidates how history education contributes to students' moral and intellectual growth.

**Redaksiyaya daxil olub:** 06.02.2026

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

*UOT 372.881.116.11*

# ИНТЕГРАЦИЯ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ПРОЦЕСС ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ: ДИДАКТИЧЕСКИЙ ПОТЕНЦИАЛ И СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

**Sevinc Hamlet qızı Mehdiyeva**
*Bakı Slavyan Universitetinin dosenti*
**ORCİD:** 0009-0009-2610-6886
**E-mail:** 5320_96@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.23

**Açar sözlər:** *süni intellekt, rus dilinin xarici dil kimi tədrisi, rəqəmsal texnologiyalar, adaptiv təlim, fərdiləşdirilmiş təhsil, kommunikativ kompetensiya, linqvodidaktika.*

***Key words:*** *artificial intelligence, teaching Russian as a foreign language, digital technologies, adaptive learning, personalized education, communicative competence, linguodidactics.*

***Ключевые слова:*** *искусственный интеллект, обучение русскому языку как иностранному, цифровые технологии, адаптивное обучение, персонализация образования, коммуникативная компетенция, лингводидактика.*

Современное образование стремительно трансформируется под влиянием цифровизации, и технологии искусственного интеллекта (ИИ) становятся ключевым инструментом оптимизации учебного процесса. ИИ способен не только автоматизировать рутинные задачи, но и создавать новые возможности для персонализированного и адаптивного обучения, повышения мотивации студентов и расширения коммуникативной практики. В условиях глобализации и мультикультурного взаимодействия использование ИИ в преподавании иностранных языков приобретает особую актуальность.

В Азербайджане государственная политика цифрового развития активно поддерживает внедрение интеллектуальных технологий в различные сферы, включая образование. Национальная стратегия развития искусственного интеллекта на 2025–2028 годы предполагает создание экосистемы, объединяющей государственные структуры, образовательные учреждения и научно-техническое сообщество. Среди приоритетов стратегии — формирование нормативно-правовой базы, подготовка квалифицированных специалистов и развитие инфраструктуры для обработки больших данных, что создаёт предпосылки для внедрения ИИ и в систему преподавания иностранных языков (10).

Применение ИИ в обучении иностранным языкам открывает новые педагогические возможности: автоматическая проверка письменных работ, адаптивные тесты и упражнения, интерактивные обучающие платформы и генерация учебного контента с учётом индивидуальных потребностей студентов (6, с.317). В контексте преподавания русского

языка как иностранного ИИ позволяет расширить аудиторскую практику, повысить эффективность развития речевых навыков и интегрировать культурно-образовательный контент в учебный процесс. Практическая реализация таких технологий уже наблюдается в ряде образовательных и экспериментальных проектов, где цифровые инструменты помогают адаптировать учебные материалы под уровень знаний и интересы студентов, стимулируют самостоятельное обучение и обеспечивают обратную связь в реальном времени. Развитие стартап-экосистемы и поддержка инновационных решений со стороны государства создают благоприятные условия для внедрения интеллектуальных образовательных систем в вузах и школах.

Как отмечает К. Искендерова, искусственный интеллект уже давно перестал быть только технологией автоматизации и активно влияет на образовательный процесс, включая преподавание иностранных языков. Он позволяет интегрировать интерактивные и адаптивные инструменты, персонализировать обучение, ускорять подготовку учебных материалов и повышать эффективность взаимодействия преподавателя и студента. По мнению автора, ИИ способствует развитию критического мышления, аналитических навыков и активной коммуникативной практики, что делает его важным инструментом современного преподавания иностранного языка (7, с.114).

Однако использование ИИ сопряжено с рядом ограничений. Одним из ключевых является зависимость от человеческого взаимодействия: несмотря на способность ИИ анализировать ошибки и адаптировать задания, ему часто не хватает эмоционального интеллекта и контекстуального понимания, присущего преподавателю. Культурные и прагматические нюансы языка — идиоматические выражения, юмор, невербальные сигналы — могут оставаться неполностью интерпретированными, что снижает эффективность развития коммуникативных и социокультурных навыков.

В дополнение, чрезмерная стандартизация обучения с использованием ИИ может подавлять индивидуальность и креативность обучаемых. Языковое обучение — это глубоко персонализированный процесс, и чрезмерное упрощение под «универсальные» алгоритмы может ограничивать критическое мышление и мотивацию. Распространённое мнение о возможности полной замены преподавателя ИИ также опасно: педагог не только передаёт знания, но и мотивирует, учитывает индивидуальные потребности и создаёт вовлекающую образовательную среду. Таким образом, ИИ выступает скорее инструментом поддержки, чем заменой человека (9).

В практике преподавания русского языка как иностранного (РКИ) часто используются машинные переводчики, которые упрощают поиск значений слов по сравнению с бумажными словарями и существенно экономят время на понимание незнакомой лексики. Вместе с тем, чрезмерное использование таких инструментов не рекомендуется: их целесообразно применять лишь на начальных этапах обучения в качестве словаря, избегая перевода целых предложений.

ИИ-технологии также активно применяются для формирования аудитивной компетенции. Синтезаторы речи позволяют создавать аудиозаписи учебных текстов, заменяя привычный голос преподавателя. Современные инструменты дают возможность воспроизводить иностранную речь разными голосами, с вариацией скорости чтения, пауз и даже эмоциональной окраски. Среди таких сервисов можно выделить Voicemaker,

Apihost, Zvukogram, Robivox, Speechpad и другие, многие из которых поддерживают различные языки и варианты произношения (3, с.214).

Эффективным инструментом в обучении РКИ являются интеллектуальные виртуальные образовательные платформы, которые позволяют частично заменить преподавателя и обеспечить комплексное обучение с учётом профессиональной направленности студентов. Примерами таких платформ являются Coursera, Moodle, Microsoft Teams, Google Classroom, OpenEdX, Ilias, eFront и другие. Они предоставляют инструменты как для информативной подачи материала, так и для контроля знаний. Однако не все платформы одинаково подходят для преподавания РКИ: например, Ilias не поддерживает видеоконференции, что лишает студентов возможности развивать интерактивную языковую компетенцию. Google Classroom не предоставляет встроенные тесты, что затрудняет тестоориентированное обучение. Microsoft Teams не позволяет устанавливать серверные версии, не имеет глоссария и инструментов для интерактивных упражнений.

На сегодняшний день наиболее оптимальной платформой для преподавания РКИ является Moodle. Она содержит все необходимые инструменты, может обеспечить полноценные компоненты учебного процесса и частично заменить преподавателя. Как отмечает Султанова С.Т., искусственный интеллект в обучении русскому языку позволяет персонализировать обучение, обеспечивать интерактивные уроки, распознавать речь, автоматически анализировать грамматику и стиль, а также создавать виртуальных репетиторов, при этом выступая вспомогательным инструментом для преподавателя (4, с.53).

Кроме того, в обучении иностранным языкам получают популярность интеллектуальные игровые приложения, которые позволяют практиковать язык в любое время и в любом месте. Они стимулируют познавательную активность, повышают мотивацию и развивают навыки самооценки. Для обучения РКИ используются готовые приложения, такие как Duolingo, Talk2Russia, Russian Verbs Pro, а также платформы, позволяющие преподавателю самостоятельно создавать упражнения, например, Kahoot. Однако такие ресурсы не всегда учитывают этноязыковую специфику и не могут полностью заменить очное обучение с преподавателем. Авторы подчёркивают, что ИИ способным сделать обучение более адаптивным, интерактивным и увлекательным, включая геймифицированные элементы и самостоятельную практику (2, с.25). Таким образом, технологии ИИ предоставляют преподавателю РКИ возможность повысить эффективность учебного процесса и мотивацию студентов, однако очное взаимодействие остаётся необходимым, поскольку ИИ не способен полностью заменить преподавателя иностранного языка.

**Актуальность исследования**. Современное образование претерпевает глубокую трансформацию под воздействием цифровизации и внедрения технологий искусственного интеллекта (ИИ). Использование ИИ в обучении иностранным языкам, включая русский язык как иностранный (РКИ), позволяет персонализировать обучение, обеспечивать интерактивные уроки, распознавать речь, автоматически анализировать грамматику и стиль, создавать виртуальных репетиторов, а также стимулировать самостоятельную языковую практику. В условиях глобализации и мультикультурного взаимодействия внедрение ИИ способствует повышению мотивации студентов, расширению коммуникативной практики и интеграции культурно-образовательного контента, что

делает исследование актуальным и востребованным.

**Научная новизна** заключается в комплексной оценке педагогического потенциала ИИ в обучении РКИ, включая как технологические аспекты (нейронные сети, распознавание речи, интерактивные платформы и геймифицированные приложения), так и педагогические (автоматизация проверки знаний, персонализация учебного процесса, адаптация материалов под уровень и интересы студентов). Анализируется роль ИИ не как замены преподавателя, а как вспомогательного инструмента, повышающего эффективность преподавания и развивающего критическое мышление, коммуникативные и аналитические навыки учащихся.

**Практическая значимость**. Использование ИИ-технологий в преподавании РКИ открывает широкие возможности для образовательной практики: автоматическая проверка письменных работ, адаптивные тесты, интерактивные учебные платформы (Moodle, Duolingo, Kahoot), синтезаторы речи для формирования аудитивной компетенции и виртуальные репетиторы. Применение таких инструментов облегчает работу преподавателя, стимулирует самостоятельное обучение студентов и обеспечивает оперативную обратную связь, что повышает эффективность и мотивацию учебного процесса, сохраняя при этом важность очного взаимодействия с педагогом.

## Литература

1. Дзюба Е. В. Искусственный интеллект в методике обучения русскому языку как иностранному // Педагогическое образование в России. № 6, – 2023. – С. 178–189.

2. Можеевская А. Е. Искусственный интеллект в преподавании русского языка как иностранного: возможности и перспективы: сборник трудов конференции. / А. Е. Можеевская, М. В. Хайруллина // Образование, инновации, исследования как ресурс развития сообщества: материалы Всеросс. науч.-практ. конф. с междунар. участ. (Чебоксары, 26 март 2025 г.) – Чебоксары: ИД «Среда». – 2025. – С. 22-26. – DOI 10.31483/r-127464.

3. Петрова Н. Е. Применение искусственного интеллекта в преподавании русского языка как иностранного / Н. Е. Петрова // Непрерывная система образования «Школа - университет». Инновации и перспективы: сборник статей VII Международной научно-практической конференции, Минск, 19-20 октября 2023 г. / Белорусский национальный технический университет. – Минск: БНТУ. – 2023. – С. 213-216.

4. Султанова С. Т. Русский язык применение искусственного интеллекта в обучении русскому языку //Ta'lim innovatsiyasi va integratsiyasi. №3, – 2025. – С. 52–54.

5. Тагизаде В. Г. Создание искусственной культурно-языковой обучающей среды посредством мультимедиа // Вестник Набережночелнинского государственного педагогического университета. № S2-1(55), – 2025.– С. 141-144. – EDN IKZPBE.

6. Чекалина Т. А. ИИ-дидактика: новый тренд или эволюция процесса обучения? // Вестник Мининского университета. №2 (51), –2025. – С.5.

7. İsgəndərova K. Süni intellektin Azərbaycanda xarici dilin tədrisinə gətirdiyi yeniliklər. Azərbaycan məktəbi. № 1 (710), – 2025.– S. 111-116

8. Qəhrəmanova M. A. İngilis dili tədrisində süni intellekt alətlərinin inteqrasiyasi: imkanlar və çətinliklər // Dil və ədəbiyyat (Язык и литература). №2 (128), – 2025. – S. 317-319.

doi:10.24412/2218-7588-2025-2-317-319

9. Doğan, Y., and Talan, T. Artificial intelligence in foreign language learning: A bibliometric analysis. Journal of Pedagogical Research. №2, – 2025. – pp. 206-230. https://doi.org/10.33902/JPR.202427734

10. Распоряжение Президента Азербайджанской Республики Об утверждении «Стратегии искусственного интеллекта Азербайджанской Республики на 2025–2028 годы» https://president.az/ru/articles/view/68364

**С.Г.Мехдиева**

**Интеграция технологий искусственного интеллекта в процесс преподавания русского языка как иностранного: дидактический потенциал и стратегические направления развития**

**Резюме**

В статье рассматриваются современные возможности применения технологий искусственного интеллекта (ИИ) в обучении русскому языку как иностранному (РКИ). Подчеркивается роль ИИ как инструмента персонализации и адаптации учебного процесса, автоматизации проверки знаний, интерактивного обучения, распознавания речи и анализа грамматики и стиля. Особое внимание уделяется использованию виртуальных образовательных платформ, геймифицированных приложений и интеллектуальных репетиторов для повышения мотивации студентов и эффективности развития речевых навыков. Отмечается, что ИИ выступает вспомогательным ресурсом для преподавателя, а не заменой очного взаимодействия, и способствует интеграции культурно-образовательного контента в процесс обучения. Практическая значимость исследования заключается в возможности оптимизации работы преподавателя, стимулировании самостоятельной учебной деятельности студентов и повышении качества преподавания РКИ с учетом индивидуальных потребностей учащихся.

**S.H.Mehdiyeva**

**Süni intellekt texnologiyalarının rus dilinin xarici dil kimi tədrisi prosesinə inteqrasiyası: didaktik potensial və strateji inkişaf istiqamətləri**

**Xülasə**

Məqalədə süni intellektin (Sİ) xarici dil kimi rus dilinin tədrisində müasir tətbiq imkanları araşdırılır. Sİ-nin fərdiləşdirilmiş və adaptiv təhsilin təşkili, biliklərin avtomatik yoxlanılması, interaktiv dərslər, nitqin tanınması və qrammatika və üslubun analizi üçün vasitə rolu vurğulanır. Virtual təhsil platformaları, oyunlaşdırılmış tətbiqlər və intellektual repetitorlardan istifadə tələbələrin motivasiyasının artırılmasına və danışıq bacarıqlarının inkişafına töhfə verir. Qeyd olunur ki, Sİ müəllimin fəaliyyətini dəstəkləyən vasitədir və əyani ünsiyyəti əvəz etmir, həmçinin mədəni və pedaqoji məzmunun tədris prosesinə inteqrasiyasına şərait yaradır. Praktiki əhəmiyyət isə müəllimin işinin optimallaşdırılması, tələbələrin müstəqil öyrənmə fəaliyyətinin

stimullaşdırılması və fərdi ehtiyaclara uyğun Rusiya dili tədrisinin keyfiyyətinin yüksəldilməsində ifadə olunur.

**S.H.Mehdieva**

**Integration of artificial intelligence technologies into the process of teaching russian as a foreign language: didactic potential and strategic directions for development**

**Summary**

The article examines modern possibilities for applying artificial intelligence (AI) in teaching Russian as a foreign language (RFL). The role of AI as a tool for personalizing and adapting the learning process, automating assessment, providing interactive lessons, speech recognition, and grammar and style analysis is emphasized. The use of virtual educational platforms, gamified applications, and intelligent tutors contributes to increasing student motivation and developing communicative skills. AI is considered a supportive resource for teachers rather than a replacement for face-to-face interaction, and it facilitates the integration of cultural and educational content into the learning process. The practical significance lies in optimizing teacher activity, stimulating independent learning, and improving the quality of RFL instruction according to students' individual needs.

**Redaksiyaya daxil olub:** 27.02.2026

***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

*UOT 373.25:31*

# SİNİFİN İDARƏ OLUNMASINDA İNKLÜZİV YANAŞMANIN STİMULLAŞDIRMASI

**Nəzrin Akif qızı Camalova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-2533-7032
**E-mail:** nezrincamalova61@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.24

***Açar sözlər:*** *inklüziv təhsil, sinfin idarə olunması, motivasiya, əməkdaşlıq, valideyn iştirakı*
***Ключевые слова:*** *инклюзивное образование, управление классом, мотивация, сотрудничество, участие родителей*
***Keywords:*** *inclusive education, classroom management, motivation, collaboration, parental involvement*

İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün uşaqların öyrənmə ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqogikadan istifadə edirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoji yanaşma yoxdur.

Uşaqyönlü pedaqogika nədir? Məktəbdə müəllimlər fərqli bilik, bacarıq, maraq və öyrənmə ehtiyacları olan uşaqlar ilə işləyirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi təlim üsulu olmadığından inklüziv mühitdə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya müəllimyönlü pedaqogikada müəllim stolları sıra və cərgə ilə düzür, bütün sinfin qarşısında durur, şagirdlərə bütün bilikləri hazır verir və şagirdlərə onların cavablarının doğru və ya yanlış olduğunu deyir. Qeyd olunanlar "yaxşı müəllimin xüsusiyyətləridir. Uşaqyönlü yanaşmada isə səmərəlilik üçün vacib şərt müəllimin davranışıdır. Müəllim dərs zamanı vəziyyətdən asılı olaraq sinfin müvafiq yerlərində durur, sinifdəki resurslardan istifadə edir, şagirdlər ilə ünsiyyət qurur və şagirdlərin öyrəndikləri bilikləri qiymətləndirir. [3,s.20]

Uşaqlar müxtəlif yollarla öyrənirlər. Əksər uşaqlar öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylı üsullarını asanlaşdırmalıdır. Uşaqyönlü pedaqogikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər:

1.Onların sinfindəki uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?

2.Niyə bəzi uşaqlar təlimdə başqaları kimi eyni sürətlə irəliləmir?

3.Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar hansılardır?

4.Strategiya və üsulların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalar necə tənzimlənməlidir?

5.Uşaqların motivasiyası necə yüksəldilməli və təlimə cəlb olunmalıdır?

Sinfin idarə olunması inklüziv təhsil mühitində daha çox diqqət və planlı yanaşma tələb edir. Müəllim sinifdə demokratik mühit formalaşdırmalı, uşaqlar arasında qarşılıqlı anlaşma və tolerantlıq münasibətlərini inkişaf etdirməlidir. İnklüziv sinifdə idarəetmə yalnız nizam-intizam yaratmaq deyil, həm də bütün uşaqların sosial və emosional ehtiyaclarını nəzərə almaq deməkdir.

**Nümunə 1.** IV sinifdə müəllim "Təbiət və insan" mövzusunda dərs keçir. Sinifdə bir şagird (Əli) eşitmə çətinliyi yaşayır. Digər şagirdlər isə tam eşidə bilir. Müəllim dərs prosesini elə qurur ki, Əli özünü sinfin tamhüquqlu üzvü kimi hiss etsin.

Müəllim lövhədə əsas sözləri, şəkilləri və tapşırıqları yazılı şəkildə təqdim edir. Bu, eşitmə çətinliyi olan şagirdin dərsi izləməsinə kömək edir. Nəticədə Əli dərsə tam qoşulur, özünü kənarlaşdırılmış hiss etmir. Və yaxud şagirdlər kiçik qruplara bölünür. Hər qrupda Əli də iştirak edir. Qrup yoldaşlarından biri ona tapşırıqları izah edir və cavablarını birgə təqdim edirlər. Belə olan halda şagirdlərdə empati, dostluq, yardımlaşma kimi əxlaqi keyfiyyətlər formalaşır. Müəllim Əlinin hər bir uğurunu tərifləyir, onu sinif qarşısında həvəsləndirir. Digər şagirdlərə də "biz bir komandayıq" mesajı verir. Müəllim sinifdə hörmət, tolerantlıq və bərabərlik mühiti yaranır.

İnklüziv strategiyalar sinifdə bütün şagirdlərin dərs prosesində aktiv iştirakını təmin etməlidir. Bu məqsədlə tədris prosesində fərqləndirilmiş təlim, əməkdaşlıq əsaslı öyrənmə və empatik yanaşma kimi pedaqoji prinsiplər əsas götürülür. Fərqləndirilmiş təlim müəllimə hər bir şagirdin fərdi imkanlarını, öyrənmə sürətini və maraqlarını nəzərə almağa imkan verir. Müəllim tədris planını hazırlayarkən şagirdlərin biliyinin səviyyəsini, psixoloji və sosial xüsusiyyətlərini, habelə onların öyrənmə tərzini qiymətləndirərək, hər kəs üçün münasib öyrənmə mühiti yaradır. Bu zaman müəllim bir mövzunu fərqli çətinlik dərəcələrində təqdim edə, vizual, eşidilən və praktik fəaliyyətlərdən istifadə edə bilər.

**Nümunə 2.** IV sinifdə müəllim "Həyat bilgisi" fənnindən "Təbiəti qoruyaq" mövzusunda dərs keçir. Sinifdə üç fərqli tip şagird var:

1. Nərgiz – görmə zəifliyi var, kitabdakı şəkilləri çətin görür.
2. Murad – çox aktivdir, tez yorulur, diqqətini toplamaq çətindir.
3. Ayan – dərslərdə çox utancaqdır, danışmaqdan çəkinir.

Müəllim dərs zamanı bütün bu fərqləri nəzərə alır və inklüziv strategiyalar tətbiq edir ki, hamı iştirak edə bilsin. Müəllim "Təbiəti qoruyaq" mövzusunu izah edərkən həm şəkilli plakat, həm də səsli təqdimat (qısa audio) istifadə edir. Görmə zəifliyi olan Nərgiz üçün yazıları iri şriftlə və kontrast rənglərlə təqdim edir. Nəticədə Nərgiz də digər şagirdlər kimi mövzunu qavraya bilir və aktiv iştirak edir. Yaxud müəllim uşaqları qruplara bölür, amma rolları fərqli təyin edir:

1.Murad (enerjili) – qrupun "məlumat toplayanı";

2.Ayan (utancaq) – "nəticə yazanı";

3.Nərgiz – "məlumat oxuyan" və "nəticəni səsləndirən".

Belə olduqda hər bir uşaq öz imkanına uyğun rolda iştirak edir. Heç kim kənarda qalmır.

*Vizual metodlar.* İnklüziv sinifdə dərsin başlanğıc mərhələsində istifadə edilir. Uşaqlar sinifdə ilk növbədə məktəb lövhəsini görürlər. O səmərəli istifadə olunmalıdır, vizual dayağı təmin etməlidir. İnformasiyanın ətraflı təsviri düzgün verilməlidir. Tapşırıqlar, şəkillər, sxemlər, cədvəllər, predmetlərin və təcrübələrin nümayişləri və s. lövhədə təqdim olunur. Bu da

materialın möhkəm mənimsənilməsinə imkan yaradır.

*Praktik metodlar.* Dərs praktik metodlar əsasında formalaşır. Praktik metodlar öyrənmə prosesində uşaqlarda planlaşdırılmış elementlərin öyrənilməsinə, bilik və bacarıqların formalaşmasına yardım edir. Praktik metodun vasitələri:

1. Tapşırıq (yazılı və şifahi);
2. İnklüziv siniflərdə təlimin təşkili
3. Laboratoriya və praktik iş;
4. Rəsmçəkmə, applikasiya, qurma;

*Şifahi metodlar.* İdrak fəaliyyətini aktivləşdirməyə, düşüncəni formalaşdırmağa və yaranmış çətinliyə tez reaksiya verməyə şərait yaradır. Məsələn:

1. Nağıletmə (şeir. nağıl, hekayə);
2. Tamaşaların göstərilməsi;[3,s.39]

Müəllimin empatik kommunikasiya qurması və dərs zamanı müsbət rəy verməsi şagirdlərin dərsə marağını artırır, onların öyrənmə motivasiyasını gücləndirir.

**Problemin elmi yeniliyi.** Sinfin idarə olunmasında inklüziv yanaşma, uşaqların fərdi ehtiyaclarını nəzərə alaraq onların həm sosial, həm də akademik inteqrasiyasını təmin edən yeni baxışlarla təhlil olunur. Bu yanaşmada sinif yalnız nizam-intizam sistemi kimi qiymətləndirilməyib, eyni zamanda hər bir şagirdin potensialını reallaşdıran sosial mühit kimi qəbul edilir. Tədqiqatda diqqət qrup işləri, əməkdaşlıq texnikaları və empatik yanaşmalar vasitəsilə sinifdə stimullaşdırıcı pedaqoji üsulların tətbiqinə yönəldilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Sinfin idarə olunmasında inklüziv yanaşmanın praktik əhəmiyyəti müəllimlərin sinifdə çevik və empatik idarəetmə bacarıqlarını inkişaf etdirməsi ilə bağlıdır. Bu yanaşma yalnız nəzəri prinsiplərlə məhdudlaşmır, eyni zamanda dərs prosesində effektiv tətbiq edilə bilər. Tətbiqi baxımdan, oyun texnologiyaları, əməkdaşlıq əsaslı layihələr və qrup işləri şagirdlərin sosial və emosional bacarıqlarını gücləndirir, onların dərsə marağını artırır və öyrənmə motivasiyasını yüksəldir. Beləliklə, sinifdə inklüziv yanaşmanın tətbiqi həm müəllimlər, həm də şagirdlər üçün praktik faydalar yaradır və təhsil prosesinin keyfiyyətini artırır.

## Ədəbiyyat

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik, Bakı, 2003.
2. İnklüziv sinifdə təlimin təşkili: Oxu materialı, Bakı, 2018.
3. K.Mahmudova, N.Cabbarlı, Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün “Həyat bilgisi” fənni üzrə dərslik. Bakı, 2023.

**N.A.Camalova**

## Sinifin idarə olunmasında inklüziv yanaşmanın stimullaşdırması
## Xülasə

Bu məqalədə sinfin idarə olunmasında inklüziv yanaşmanın stimullaşdırılması məsələləri ətraflı şəkildə araşdırılmışdır. Müasir təhsil sisteminin əsas prinsiplərindən biri bütün şagirdlər

üçün bərabər imkanların yaradılması və onların tədris prosesində aktiv iştirakının təmin edilməsidir. İnklüziv strategiyalar şagirdlərin fərdi ehtiyaclarını, maraqlarını və inkişaf səviyyəsini nəzərə alaraq sosial və akademik inteqrasiyanı gücləndirir. Fərqləndirilmiş təlim metodlarının tətbiqi hər bir şagirdin öz potensialına uyğun öyrənməsini təmin edir, əməkdaşlıq əsaslı layihələr və empatik yanaşmalar isə sinifdə müsbət və stimullaşdırıcı mühitin formalaşmasına xidmət edir.

Motivasiya və mükafatlandırma sistemlərinin düzgün təşkili isə həm fərdi, həm də kollektiv uğurların tanınmasına, nəticədə şagirdlərdə özünəinam və məsuliyyət hissinin möhkəmlənməsinə səbəb olur.

Məqalədə həmçinin valideynlərin və cəmiyyətin inklüziv təhsil prosesində iştirakı mühüm amil kimi vurğulanır. Məktəb, ailə və cəmiyyət arasında qarşılıqlı əməkdaşlıq uşaqların sosial adaptasiyasını asanlaşdırır, inklüziv dəyərlərin cəmiyyət səviyyəsində möhkəmlənməsinə kömək edir.

**Н.А.Джамалова**

**Продвижение инклюзивного подхода к управлению классом**
**Резюме**

В данной статье подробно рассматриваются вопросы стимулирования инклюзивного подхода в управлении классом. Основной принцип современной системы образования заключается в создании равных возможностей для всех учеников и обеспечении их активного участия в образовательном процессе. Инклюзивные стратегии учитывают индивидуальные потребности, интересы и уровень развития каждого ученика, способствуя их социальной и академической интеграции. Дифференцированное обучение позволяет каждому ребенку раскрывать свой потенциал, а совместные проекты и эмпатический подход создают положительную и стимулирующую образовательную среду.

Системы мотивации и поощрения обеспечивают признание как индивидуальных, так и коллективных достижений, повышая самооценку и ответственность детей.

Особое внимание уделено активному участию родителей и общества в процессе инклюзивного обучения. Взаимодействие школы, семьи и общества облегчает социальную адаптацию детей и укрепляет инклюзивные ценности на уровне общества.

**N.A.Jamalova**

**Promoting an inclusive approach to classroom management**
**Summary**

This article explores the stimulation of the inclusive approach in classroom management in detail. A fundamental principle of modern education is to provide equal opportunities for all students and ensure their active participation in the learning process. Inclusive strategies take into account each student’s individual needs, interests, and developmental level, thereby

promoting both social and academic integration. Differentiated instruction allows every child to develop according to their potential, while collaborative projects and empathetic approaches create a positive and stimulating classroom environment.

Motivation and reward systems recognize both individual and collective achievements, strengthening students' self-confidence, sense of responsibility, and engagement in learning.

Moreover, active participation of parents and the wider community in the inclusive education process is emphasized as a key factor in sustaining an inclusive classroom environment. Collaboration between school, family, and society facilitates children's social adaptation and reinforces inclusive values at the societal level.

**Redaksiyaya daxil olub:** 10.03.2026

***İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ***
***ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ***
***USE OF INFORMATION COMMUNICATION TECHNOLOGIES***

*UOT 372.891*

# PROQRAMLAŞDIRMA DİLLƏRİNİN TƏSNİFATI VƏ KOMPÜTER ELMİNDƏ ROLU

**Səadət Bəybala qızı Mazanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Kompüter elmləri kafedrasının müdiri, dosent*
**ORCID:** 0000-0003-2278-3790
**E-mail:** saadat.mazanova@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.25

***Açar sözlər:*** *proqramlaşdırma dilləri, maşın kodu, prosedural, obyektyönlü, skriptləmə, məntiq, kodlaşdırmanın əsasları*

***Ключевые слова:*** *языки программирования, машинный код, процедурный, объектно-ориентированный, скриптовый, логика, основы программирования.*

***Key words:*** *programming languages, machine code, procedural, object-oriented, scripting, logic, coding basics*

*Proqramlaşdırma bacarıqlarına malik müəllim*
*"rəqəmsal nəsil" ilə eyni dildə danışan bir liderdir.*

Proqramlaşdırma dilləri insanlar və kompüterlər arasında ünsiyyət vasitəsidir. Onlar alqoritmləri təsvir etmək və kompüter davranışını idarə etmək üçün hazırlanmış formal sistemlərdir. Eyni zamanda kompüter elminin əsas vasitəsidir və nəzəri konsepsiyaların praktik tətbiqinə imkan verir. Təlimatlarını aydın bir formada yazılmasını və daha sonra maşın tərəfindən icra olunurdu. Bunları nəzərə alaraq aşağıdakıları yerinə yetirilə bilər:

- proqram təminatı və xidmətlər hazırlamaq;
- hesablamaların aparılması, cihazları idarəsi və vaxta qənaət etmək;
- prosesləri modelləşdirilməsini, məlumatları təhlili, süni intellekti tətbiq edə bilərik
- ideyaları maşının başa düşə biləcəyi əmrlərə çevirə bilərik.

Müasir dünyada proqramlaşdırma elm və təhsildən tutmuş biznesə və əyləncəyə qədər bütün sahələrin ayrılmaz hissəsinə çevrilib. Müasir kompüter elmini proqramlaşdırma dilləri olmadan təsəvvür etmək mümkün deyil, çünki onlar veb saytlardan süni intellekt sistemlərinə qədər bütün texnologiyaların əsasını təşkil edir.

Tarixlərinə gəldikdə, bilirik ki, ilk proqramlar tək və sıfır ardıcıllıqlarını təmsil edən maşın kodlarından istifadə etməklə yaradılmışdır. Bu, olduqca mürəkkəb idi və kompüter arxitekturası haqqında dərin bilik tələb edirdi. Daha sonra assembler meydana çıxdı və ikili kodlar əvəzinə mnemonik əmrlərdən istifadə etməyə imkan verdi.

Proqramlaşdırma dillərinin tarixi, 1843-cü ildə Ada Lovelace-in ideyaları ilə başlayan, Plankalkül (1940-cı illər) və Shortcode (1949)-un inkişafı ilə davam edən və daha sonra 1950-

ci illərin Fortran (1957) və COBOL (1959) ilə inqilabı ilə davam edən bir səyahətdir ki, bu da proqramlaşdırmanı daha əlçatan edirdi. Elmi və biznes məqsədləri üçün strukturlaşdırılmış proqramlaşdırma dövrünə keçid C və Pascal (1970-ci illər), C++ və Python (1980-ci illər) kimi dillərin, Java, JavaScript və PHP ilə müasir vebin (1995), eləcə də Go və Kotlin kimi yeni dillərin yaranmasına səbəb oldu.




Proqramlaşdırma dilləri müxtəlif meyarlara görə təsnif edilə bilər. Əsas meyarlardan biri abstraksiya səviyyəsinə, yəni dilin kompüter arxitekturasına nə qədər yaxın olmasına və ya insanlar üçün nə qədər əlverişli olmasına görədir. Aşağı səviyyəli dillər:

• Maşın kodu, prosessorun birbaşa yerinə yetirdiyi ikili formada (0 və 1) təlimatlar toplusudur.

• Assembler dili, maşın koduna yaxın bir dildir, lakin mnemonikadan (qısa təlimatlar) istifadə edir və bu da onu proqramçı üçün bir qədər daha başa düşülən edir.

Bu dillər yüksək sürət, aparat resursları üzərində tam nəzarət və proqramların yazılmasında və sazlanmasında mürəkkəbliyə malikdir.

Yüksək səviyyəli dillər: Python, Java, C++, C#, JavaScript. Onların xüsusiyyətləri insan rahatlığına yönəlib, təbii dilə yaxın aydın sintaksisdən istifadə edir, yaddaşı və resursları avtomatik idarə edir və daha sürətli və asan proqramlaşdırmaya imkan verir. Onlar tətbiqlərin, veb saytların, oyunların və süni intellekt sistemlərinin hazırlanmasında istifadə olunur. Proqramlaşdırma paradiqması proqramların yazılması üçün bir üslub və ya yanaşmadır. Əsas paradiqmalar bunlardır:

• Prosedural — əmrlərin ardıcıl yerinə yetirilməsinə əsaslanır (Pascal, C).

Əsas: proqram ardıcıl olaraq yerinə yetirilən prosedurlar (funksiyalar) dəstindən ibarətdir.

Xüsusiyyətləri:

– Xətti kod strukturu.

– Alqoritmik tapşırıqlar üçün əlverişlidir.

– Böyük layihələr üçün daha az çevikdir.

• Obyektyönlü — obyektlərdən və siniflərdən istifadə edir (Java, C++).

• Skriptləmə — avtomatlaşdırma və veb inkişafı üçün istifadə olunur (Python, JavaScript).

Əsas: proqram məlumatları və metodları birləşdirən obyektlər ətrafında qurulur.
Xüsusiyyətləri:
– Enkapsulasiya[1], varislik[2] və polimorfizm[3] prinsiplərindən istifadə edir.
– Böyük sistemlər və tətbiqlər üçün uyğundur.
– Kodun təkrar istifadəsini artırır.
• Funksional – riyazi funksiyalara vurğu (Haskell, Lisp).
Əsas: proqram vəziyyət dəyişikliyi olmayan funksiyalar dəsti kimi təsvir olunur.
Xüsusiyyətləri:
– Riyazi funksiyalara əsaslanır.
– Yan təsirləri yoxdur.
– Məlumatların emalı və paralel hesablama üçün məşhurdur.

XXI-ci əsrdə kod hər yerdədir: mətbəxdəki qəhvə maşınından tutmuş mürəkkəb maliyyə idarəetmə sistemlərinə qədər. Proqramlaşdırmanı öyrənmək təkcə İT sənayesinə açılan bir qapı deyil, həm də şəxsi inkişaf üçün güclü bir vasitədir. Proqramlaşdırma nəzəriyyə və təcrübəni birləşdirir, alqoritmlərin tətbiqinə, məlumatların manipulyasiyasına və modellərin simulyasiyaların yaradılmasına imkan verir. Bu gün proqramlaşdırma artıq "elita" üçün sadəcə bir bacarıq deyil - savadlılığın yeni bir formasına çevrilib.

Kompüter elmində dillər aşağıdakılar üçün istifadə olunur:
• Proqram təminatının hazırlanması.
• Elmi problemlərin həlli.
• Alqoritmik düşüncənin öyrədilməsi.

Bundan əlavə, proqramlaşdırma dillərini bilmək hesablama sistemlərinin prinsiplərini anlamağa kömək edir və məntiqi düşüncəni inkişaf etdirir.

Bu gün məktəblər bir çətinliklə üzləşirlər: uşaqları dərsliklərin yenidən yazıla biləcəyindən daha sürətli dəyişən bir dünyaya necə hazırlamaq olar? Bugünkü müəllim üçün proqramlaşdırmanın əsasları haqqında bilik yalnız əlavə bir bonus deyil, həm də əsas səriştəyə çevrilir. Proqramlaşdırma yaradıcılıqdır. Sadəcə bir noutbukla milyonlarla insanın istifadə edəcəyi bir məhsul yarada bilərsiniz: mobil tətbiq, oyun, təhsil portalı və s.

Proqramlaşdırma müəllimi dil sintaksisini deyil, alqoritmikanı öyrədir:
• Xəta aşkarlanması (sazlama): Kodlaşdırmada səhv aşağı qiymət üçün səbəb deyil, həll yolu tapmaqda təbii bir addımdır. Bu, şagirdin uğursuzluğa münasibətini dəyişdirir və "inkişaf düşüncəsi"ni inkişaf etdirir.
• Məntiq: Səbəb-nəticə əlaqələri qurmaq bacarığı ədəbiyyatdan fizikaya qədər istənilən mövzunu mənimsəməyə kömək edir.

Kodlaşdırmanın əsaslarını bilən müəllim hazır həllərdən asılı olmur. Onlar aşağıdakıları artıq edə biləcək:

[1] Enkapsulasiya (Qoruma və Gizlətmə) mahiyyət: Məlumatları və onunla işləmək üçün metodları tək bir "kapsul"da birləşdirmək və tətbiq detallarını istifadəçidən gizlətmək.

[2] Miras (Xüsusiyyətin Keçid Edilməsi) mahiyyət: Eyni kodu iki dəfə yazmamaq üçün mövcud olana əsaslanaraq yeni bir sinif yaratmaq. Yeni sinif "ana"nın bütün xüsusiyyətlərini götürür və özünün xüsusiyyətlərini əlavə edir.

[3] Polimorfizm (Formaların Müxtəlifliyi) mahiyyət: Eyni interfeysli obyektləri onların spesifik növünü bilmədən istifadə etmək bacarığı. Eyni siqnal (əmr) müxtəlif obyektlərdə fərqli reaksiyalar doğurur.

– Sinfinizə uyğunlaşdırılmış interaktiv testlər və viktorinalar yarada biləcəklər.

– Mürəkkəb hadisələri nümayiş etdirmək üçün sadə simulyasiyalar hazırlaya biləcəklər.

– Tapşırıqların qiymətləndirilməsini və irəliləyişin izlənməsini avtomatlaşdıra biləcəklər, şagirdlərlə üz-üzə ünsiyyət üçün vaxt ayıra biləcəklər.

Bugünkü uşaqlar sosial media və video oyun alqoritmləri ilə əhatə olunmuş şəkildə böyüyürlər. Bugünkü tələbələrin mənimsəyəcəyi peşələrin çoxu hələ icad olunmayıb. Bununla belə, problemləri alqoritmləşdirmək və məlumatlarla işləmək bacarığı hər yerdə tələb olunacaq. Kodlaşdırmanın əsaslarını öyrətməklə, uşaqlara istənilən sahədə uğurun universal açarını veririk. Bu sistemlərin necə işlədiyini başa düşən müəllim daha böyük nüfuza malikdir. Uşaqlar rəqəmsal gigiyena (əgər proqramlaşdırma yaradıcılıqdırsa, rəqəmsal gigiyena təhlükəsizlik tədbirləri və rəqəmsal mühitdə həyat mədəniyyətidir - məlumatlarınızı, pulunuzu, nüfuzunuzu və zehni sağlamlığınızı onlayn qorumağa kömək edən bir sıra vərdişlər) və məlumata tənqidi yanaşmanı öyrənirlər, axtarış motorları və tövsiyə sistemlərinin necə işlədiyini izah edirlər. Kodlaşdırma həmçinin parçalanmanı - bir böyük və mürəkkəb tapşırığı bir çox kiçik, daha idarəolunan addımlara bölmək bacarığını öyrədir. Bu “hesablama düşüncəsi” bacarığı həyatın istənilən sahəsində tətbiq olunur: təmir planlaşdırmasından tutmuş biznes qurmağa qədər.

Proqramlaşdırmanın əsaslarını anlamaqla, biz sadəcə texnologiya istehlakçısı olmaqdan çıxırıq və şüurlu istifadəçiyə çevrilirik. Sosial şəbəkələrin necə işlədiyini, kibertəhlükəsizliyin niyə vacib olduğunu və süni intellektin necə qərar qəbul etdiyini anlamağa başlayırıq. Müəllimlər üçün proqramlaşdırma uşaqlara düşünməyi, təhlil etməyi və yaratmağı öyrətməyin bir yoludur. “Rəqəmsal mentor” olmaqla, şagirdlərə yalnız məzmunu mənimsəməyə deyil, həm də öz gələcəklərinin yaradıcılarına çevrilməyə kömək edirik.

Proqramlaşdırma dilləri kompüter elmində əsas rol oynayır, alqoritmlərin tətbiqinə və texnologiyaların inkişafına imkan yaradır. Onları öyrənmək hesablamanın əsaslarını anlamaq və müasir tətbiqlər yaratmaq üçün vacibdir. Proqramlaşdırmanı öyrənmək zəkanıza bir sərmayədir. Peşəkar bir proqramçı olmağı planlaşdırmasanız belə, bu bacarıq sizə öyrənməyi, səhvləri qəbul etməyi və istənilən vəziyyətdə səmərəli həllər tapmağı öyrədəcək. Süni intellektin inkişafa, yeni dillərin yaranmasına və proqramlaşdırmanın avtomatlaşdırılmasına artan təsirini artıq görürük, lakin fundamental biliklər aktual olaraq qalacaq.

**Problemin aktuallığı.** Müasir cəmiyyətin sürətli rəqəmsallaşması proqramlaşdırma dillərini yalnız İT mütəxəssisləri üçün deyil, eyni zamanda təhsil sahəsində çalışan müəllimlər üçün də əsas səriştələrdən birinə çevirir. XXI əsrdə süni intellekt, böyük verilənlər, avtomatlaşdırma və rəqəmsal təhsil mühitlərinin geniş yayılması proqramlaşdırma dillərinin kompüter elmində rolunu daha da artırmışdır. Xüsusilə “rəqəmsal nəsil” adlandırılan şagird və tələbələrin təfəkkür tərzi, informasiya ilə işləmə üsulları və öyrənmə gözləntiləri ənənəvi tədris yanaşmalarının yenilənməsini zəruri edir. Bu baxımdan proqramlaşdırma dillərinin təsnifatı, onların paradiqmaları və tətbiq sahələrinin sistemli şəkildə izah edilməsi, həmçinin proqramlaşdırma bacarıqlarına malik müəllimin təhsildə liderlik rolunun əsaslandırılması aktual elmi-pedaqoji problem kimi çıxış edir. Müəllimlərin proqramlaşdırma sahəsində bilik və bacarıqlara yiyələnməsi məktəblərdə alqoritmik və hesablama düşüncəsinin formalaşdırılması üçün vacib şərt hesab olunur.

**Problemin elmi yeniliyi.** Təqdim olunan işin elmi yeniliyi proqramlaşdırma dillərinin tex-

niki təsnifatının pedaqoji kontekstlə əlaqələndirilməsində ifadə olunur. Məqalədə proqramlaşdırma dilləri yalnız kompüter elminin aləti kimi deyil, həm də müəllimin peşəkar fəaliyyətində metodik və didaktik vasitə kimi şərh edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin praktik əhəmiyyəti onun təhsil prosesində birbaşa tətbiq imkanları ilə müəyyən olunur. Nəticələr müəllimlərin peşəkar inkişafı, informatika və STEM fənlərinin tədrisi, eləcə də fənlərarası inteqrasiya baxımından faydalıdır.

## Ədəbiyyat


1. Харольд Абельсон и Джеральд Джей Сассман, Структура и интерпретация компьютерных программ, *Издательство*: Добросвет; 2020, *Оригинальное название:* Structure and Interpretation of Computer Programs, SICP.
2. Зуфарова А. С., Суходуб Р. А. Методика обучения программированию учащихся: проблемы и решения // Управление образованием: теория и практика. – 2022.
3. Саврасова А. Н., и др. Определение уровня ИКТ-компетентности учителей // Digital Humanities and Technologies in Education: материалы V Междунар. науч. конф. — 2024.
4. Куликова Т. И., Пономарева Е. В. Подготовка будущих учителей информатики к использованию интерактивных сетевых средств // Педагогическая перспектива. — 2025.
5. https://practicum.yandex.ru/blog/top-knig-po-programmirovaniyu/
6. https://elbrusboot.camp/blog/top-25-luchshikh-knigh-dlia-proghrammista/


**S.B.Mazanova**

### Proqramlaşdırma dillərinin təsnifatı və kompüter elmində rolu
### Xülasə

Bu məqalədə proqramlaşdırma dillərinin təsnifatı və onların kompüter elmindəki rolu elmi, nəzəri və pedaqoji baxımdan təhlil edilir. Proqramlaşdırma dilləri insanlar və kompüterlər arasında ünsiyyət vasitəsi olmaqla yanaşı, müasir texnologiyaların, süni intellekt sistemlərinin və rəqəmsal təhsil mühitlərinin əsasını təşkil edir. Məqalədə aşağı və yüksək səviyyəli dillər, eləcə də prosedur, obyektyönlü, funksional və skript paradiqmaları da daxil olmaqla proqramlaşdırma dillərinin tarixi inkişafı sistemli şəkildə izah olunur. Məqalədə müasir təhsildə proqramlaşdırma bacarıqlarına malik müəllimlərin rolu vurğulanır və onları "rəqəmsal nəsil" ilə eyni dildə danışan liderlər kimi inkişaf etdirməyin vacibliyi əsaslandırılır. Məqalədə proqramlaşdırmanın alqoritmik düşüncənin, məntiqi təhlilin, problem həllinin və yaradıcılığın inkişafındakı rolu nümayiş etdirilir. Qeyd olunur ki, əsas proqramlaşdırma bacarıqlarına malik müəllimlər təlim prosesi zamanı interaktiv testlər, simulyasiyalar və avtomatlaşdırılmış qiymətləndirmə mexanizmləri yarada və bununla da təhsilin keyfiyyətini artıra bilərlər. Nəticədə, proqramlaşdırma dillərini öyrənmək təkcə texniki bacarıq kimi deyil, həm də müasir savadlılığın vacib komponenti kimi qəbul edilir. Bu məqalə müəllim hazırlığı, kompüter elmləri tədrisi və rəqəmsal səriştələrin inkişafı üçün praktik əhəmiyyət kəsb edir.

**С.Б.Мазанова**

**Классификация языков программирования и их роль в информатике**

**Резюме**

В статье анализируется классификация языков программирования и их роль в информатике с научно-теоретической и педагогической точек зрения. Языки программирования, помимо того, что являются средством коммуникации между человеком и компьютером, лежат в основе современных технологий, систем искусственного интеллекта и цифровых образовательных сред. В работе систематически объясняется исторический этап развития языков программирования, языков низкого и высокого уровня, а также процедурной, объектно-ориентированной, функциональной и скриптовой парадигм. В статье особо подчеркивается роль преподавателя, обладающего навыками программирования, в современном образовании и обосновывается важность его формирования как лидера, говорящего на одном языке с «цифровым поколением». Показана роль программирования в развитии алгоритмического мышления, логического анализа, решения проблем и творческого подхода. Отмечается, что преподаватель, знающий основы программирования, может создавать интерактивные тесты, симуляции и автоматизированные механизмы оценки в процессе обучения, что повышает качество образования. В результате изучение языков программирования рассматривается не только как технический навык, но и как важная составляющая современной грамотности. Статья имеет практическое значение в области подготовки учителей, преподавания информатики и формирования цифровых компетенций.

**S.B.Mazanova**

**Classification of programming languages and their role in computer science.**

**Summary**

The article analyzes the classification of programming languages and their role in computer science from a scientific-theoretical and pedagogical point of view. Programming languages, in addition to being a means of communication between a person and a computer, are the basis of modern technologies, artificial intelligence systems and digital educational environments. The work systematically explains the historical stage of development of programming languages, low- and high-level languages, as well as procedural, object-oriented, functional and script paradigms. The article emphasizes the role of a teacher with programming skills in modern education and substantiates the importance of his formation as a leader who speaks the same language as the “digital generation”. The role of programming in the development of algorithmic thinking, logical analysis, problem solving and creative approach is shown. It is noted that a teacher who knows the basics of programming can create interactive tests, simulations and automated evaluation mechanisms during the training process, which increases the quality of education. As a result, learning programming languages is considered not only as a technical skill, but also as an important component of modern literacy. The article has practical significance in the field of teacher training, computer science teaching and digital competence formation.

**Redaksiyaya daxil olub:** 30.01.2026

***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***İSSUES OF EDUCATIONAL MANAGEMENT***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ QƏRARVERMƏDƏ PAYDAŞ İŞTİRAKI VƏ MƏLUMAT-ƏSASLI İDARƏETMƏ YANAŞMASI

*378.4:303.722*

**Taleh Fərman oğlu Xəlilov**
*Naxçıvan Dövlət Universitetinin dosenti,*
**ORCİD:** 0000-0003-2350-743X
**E-mail:** x.taleh@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.26

***Açar sözlər:*** *ali təhsil müəssisələri, strateji qərarvermə, paydaş iştirakı, məlumat-əsaslı idarəetmə, rəqəmsal transformasiya, strateji planlaşdırma, idarəetmə*

***Ключевые слова:*** *высшее образование, стратегическое принятие решений, участие стейкхолдеров, управление на основе данных, цифровая трансформация, стратегическое планирование, управление*

***Key words:*** *higher education institutions, strategic decision-making, stakeholder participation, data-driven management, digital transformation, strategic planning, governance.*

Beynəlxalq ali təhsil təcrübələri üzrə aparılan araşdırmalar göstərir ki, strateji planlaşdırma ali təhsil müəssisələrində idarəetmə proseslərinin səmərəli təşkili və keyfiyyətin təmin olunması üçün əsas amildir. Bu səbəbdən strateji idarəetmənin həm mərkəzi, həm də institusional səviyyədə gücləndirilməsi zəruridir.

Maraqlı tərəflərin iştirakı bu prosesin demokratikləşdirilməsi və institusional qərar qəbul etmə mexanizmlərinin şəffaflaşdırılması baxımından həyati əhəmiyyət daşıyır. Freemanın irəli sürdüyü "maraqlı tərəflər yanaşması" korporativ strategiyaların yalnız daxili aktorlara görə deyil, həm də xarici maraqlı tərəflərin gözləntiləri və töhfələri nəzərə alınmaqla formalaşdırılmalı olduğunu vurğulayır. Xüsusilə tələbələr, akademik heyət, məzunlar, işgüzar dairələr və dövlət orqanları kimi geniş maraqlı tərəf spektrinin strateji qərarqəbuletmə proseslərinə cəlb olunması idarəetmənin keyfiyyətini artırır (4, s. 45; 3, s. 75).

Bu baxımdan rəqəmsallaşma da strateji idarəetmənin məzmununu və metodlarını dəyişdirən əsas amil kimi ortaya çıxır. Rəqəmsal texnologiyaların ali təhsildə strateji qərarvermə proseslərinə inteqrasiyası təşkilatların çevikliyini artırır və məlumat əsaslı idarəetmə mədəniyyətini möhkəmləndirir (8, s. 51; Tapscott; 9, s. 68). Xüsusilə eleltron idarəetmə tətbiqləri sayəsində rəhbərlər qərarvermə proseslərini daha inklüziv və real vaxt məlumatlarla zənginləşdirilmiş şəkildə həyata keçirə bilirlər (11, s. 56; 10, s. 32).

Kaplan və Nortonun "strateji xəritələr" modeli isə təşkilatların maddi olmayan aktivlərini konkret nəticələrə çevirməsinə imkan yaradaraq, ali təhsil müəssisələrində performans əsaslı strateji idarəetmə yanaşmasını gücləndirir. Türkiyə kontekstində rəqəmsallaşmaya əsaslanan strateji transformasiya ilə bağlı tədqiqatlar göstərir ki, bu prosesin uğurla həyata keçirilməsi üçün idarəetmə potensialının və rəqəmsal savadlılığın artırılması vacibdir (13, s. 82).

Nəticə etibarilə, ali təhsil müəssisələrində strateji idarəetmə modellərinin inkişafı təkcə uzunmüddətli planlaşdırma və resursların idarə edilməsini deyil, həmçinin rəqəmsallaşma, maraqlı tərəflərin iştirakı və idarəetmə prinsiplərinin kompleks yanaşma çərçivəsində nəzərdən keçirilməsini zəruri edir. Bu tədqiqatın məqsədi ali təhsil müəssisələrində strateji idarəetmə təcrübələrinin daha iştirakçı, rəqəmsal əsaslı və davamlı bir struktura necə çevrilə biləcəyini nəzəri və praktik aspektlərdən araşdırmaqdır. Beləliklə, iş həm institusional siyasət formalaşdırıcıları, həm də elmi ictimaiyyət üçün yönəldici resurs rolunu oynamağı hədəfləyir.

**TƏDQİQATIN MƏQSƏDİ VƏ METODOLOGİYASI**

Bu tədqiqatın məqsədi ali təhsil müəssisələrində strateji qərarvermə proseslərində paydaş iştirakının rolunu təhlil etmək və məlumat-əsaslı idarəetmə yanaşmasının idarəetmə keyfiyyətini necə yaxşılaşdıra biləcəyini araşdırmaqdır. Tədqiqat daxili və xarici paydaşların qərarvermə proseslərinə cəlb edilməsinin qərarların legitimliyinin, şəffaflığın və institusional etimadın artırılmasında əhəmiyyətini ön plana çıxarır.

Metodoloji baxımdan tədqiqat ali təhsildə strateji idarəetmə, paydaş nəzəriyyəsi, yönetişim və performansın ölçülməsi ilə bağlı elmi ədəbiyyatın icmalı və konseptual yanaşmalar əsasında aparılan keyfiyyət (qualitative) təhlilə əsaslanır. Tədqiqatda eyni zamanda ənənəvi mərkəzləşdirilmiş idarəetmə modellərinin iştirakçı və çevik yanaşmalarla müqayisəli şəkildə qiymətləndirilməsi məqsədilə interpretativ və müqayisəli təhlil metodlarından istifadə olunur. Nəzəri sintez əsasında paydaş əsaslı və məlumat-əsaslı idarəetmə mexanizmlərinə dair inteqrativ yanaşma formalaşdırılmışdır.

Əldə olunan nəticələr göstərir ki, paydaşların iştirakı institusional qərarların legitimliyini artırmaqla və icra mərhələsində qəbul olunmasını gücləndirməklə strateji qərarverməni möhkəmləndirir. Akademik heyət, tələbələr, inzibati strukturlar və işəgötürənlər, dövlət qurumları kimi xarici tərəfdaşlar idarəetmə proseslərinə cəlb edildikdə qəbul edilən qərarlar daha çox real institusional ehtiyaclara və sosial gözləntilərə uyğun olur. Eyni zamanda nəticələr göstərir ki, məlumat-əsaslı idarəetmə strateji planlaşdırma proseslərində performans indikatorlarından, hesabat sistemlərindən və analitik alətlərdən istifadəni mümkün etməklə şəffaflıq və hesabatlılığın təmin olunmasına əhəmiyyətli töhfə verir. Bu, monitorinq imkanlarını genişləndirir və institusional təkmilləşdirmənin fasiləsiz həyata keçirilməsini dəstəkləyir.

Müzakirə hissəsində qeyd olunur ki, ali təhsildə strateji idarəetmənin ən effektiv modeli paydaş iştirakının sübutlara əsaslanan və məlumatla dəstəklənən qərarvermə mexanizmləri ilə birgə tətbiqi nəticəsində formalaşır. Belə yanaşma sürətlə dəyişən təhsil mühitində ali təhsil müəssisələrinin uyğunlaşma qabiliyyətini artırır, davamlı inkişafı və rəqabətqabiliyyətliliyi dəstəkləyir.

**1. MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKININ ƏHƏMİYYƏTİ VƏ ROLU**

**1.1. Maraqlı tərəflərin tərifi və təsnifatı**

Ali təhsil müəssisələrində paydaş anlayışı, qurumun birbaşa və ya dolayı yolla təsir etdiyi və ya təsirə məruz qala biləcək şəxslər və qrupları əhatə edir. Bu paydaşlar, qurumun daxili mühitində fəaliyyət göstərən akademik və inzibati heyət, tələbələr kimi elementlərdən ibarət olmaqla yanaşı, xarici mühitdə məzunlar, iş dünyası nümayəndələri, dövlət qurumları və vətəndaş cəmiyyəti təşkilatları kimi amilləri da əhatə edir. Paydaşların müxtəlifliyi onların fərqli gözləntilərini və ehtiyaclarını ortaya qoyur ki, bu da ali təhsil müəssisələrinin strateji qərarvermə proseslərində bu fərqlilikləri nəzərə almağı zəruri edir (2, s. 71; 6, s. 12149.). Maraqlı

tərəflərin təsnifatı qurumun həm daxili, həm də xarici mühitlə əlaqələrinin daha səmərəli idarə olunmasına və qərarvermə proseslərinin inkluzivliyinin artırılmasına imkan verir.

Nəticə olaraq, ali təhsildə paydaşların əhatəli şəkildə müəyyən edilməsi və təsnifatı idarəetmə proseslərinin strateji məqsədlərlə uyğun, sistemli və effektiv qərarların qəbul olunması baxımından mühüm baza təşkil edir.

**1.2. Maraqlı tərəflərin iştirakının strateji qərarvermə proseslərinə təsiri**

Paydaşların strateji idarəetmə proseslərinə fəal şəkildə cəlb olunması qəbul edilən qərarların legitimliyini artırmaqla yanaşı, həmin qərarların həyata keçirilməsində tərəflərin məsuliyyət hissini gücləndirir və qurumsal etimadın möhkəmlənməsinə əhəmiyyətli töhfələr verir (1, s. 52; 2, s. 30). Xüsusilə ali təhsildə keyfiyyət təminatı sistemləri kontekstində paydaş iştirakının olması təhsil fəaliyyətlərinin keyfiyyət standartlarına uyğunluğunu və qurumun sosial məsuliyyətlərinin səmərəli icrasını dəstəkləyir (4, s. 93; 6, s. 12148). Paydaşların qərarvermə prosesinə erkən mərhələdə daxil edilməsi qarşıya çıxa biləcək müqavimətləri azaldır və qərarların davamlılığı və effektivliyini yüksəldir.

Bu baxımdan, strateji idarəetmədə paydaş iştirakının təşviqi ali təhsil müəssisələrinin yalnız daxili dinamikalarına deyil, eyni zamanda xarici mühitlə əlaqələrinə uyğunlaşmasını asanlaşdıran mühüm vasitə kimi qiymətləndirilməlidir.

## 2. İDARƏETMƏ MEXANİZMLƏRİ, ŞƏFFAFLIQ VƏ HESABATLILIQ

**2.1. İdarəetmə prinsipləri və onların universitetlərdə praktik tətbiqi**

İdarəetmə, çoxsaylı amillərin iştirakı ilə formalaşan, şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan mürəkkəb bir idarəçilik yanaşmasıdır. Bu yanaşma qərarvermə proseslərində iştirakın və məsuliyyətin bölüşdürülməsini əsas götürür. Universitetlərdə idarəetmənin gücləndirilməsi akademik, inzibati və xarici paydaşlar arasındakı əməkdaşlığı artırmaqla yanaşı, qurumsal qərarların səmərəliliyini və legitimliyini yüksəldir (7, s. 52). Beləliklə, idarəetmə strukturları ali təhsil müəssisələrinin həm daxili dinamikalarına uyğunlaşmasına, həm də xarici mühitlə əlaqələrində şəffaflıq və hesabatlılıq prinsiplərini tətbiq etməsinə şərait yaradır (3, s. 60). Strateji planlaşdırma proseslərində idarəetmənin sağlam işləməsi, qurumların rəqabət qabiliyyətini və davamlılığını artıran əsas amillərdən biridir (5, s.43). Bu kontekstdə universitetlərdə idarəetmənin səmərəli qurulması yalnız qərarvermə proseslərinin demokratikləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda bu proseslərin ictimai gözləntilərə və qurumsal məqsədlərə uyğun şəkildə tərtib olunmasını təmin edir.

**2.2. Hesabatlılıq və performans idarəçiliyi**

Strateji idarəetmənin əsas komponentlərindən biri olan hesabatlılıq, universitetlərin fəaliyyətlərini müəyyən olunmuş məqsədlər istiqamətində həyata keçirməsini və resurslardan səmərəli istifadəsini təmin edir. Performans göstəricilərinin müəyyənləşdirilməsi və izlənməsi hesabatlılığın konkret vasitələridir. Bu baxımdan, müəssisələrin maliyyə, akademik və inzibati performanslarının obyektiv meyarlarla qiymətləndirilməsi vacibdir (12, s. 44; 6, s. 12146). Hesabatlılıq mexanizmləri yalnız daxili nəzarət proseslərini deyil, eyni zamanda xarici audit və akkreditasiya tətbiqlərini də əhatə edir. Bu şəkildə dövlət vəsaitlərinin səmərəli istifadəsi təmin olunmaqla yanaşı, paydaşların etimadı da artırılır (4, s. 87).

Rəqəmsallaşma proseslərinin idarəetmə və hesabatlılıq mexanizmlərinə inteqrasiyası məlumat əldə etmə sürətini yüksəldir və qərarvermə proseslərini daha şəffaf edir (8, s. 74; 13,

s. 33). Bu inkişaflar ali təhsil müəssisələrinin performansını izləmə və təkmilləşdirmə imkanlarını əhəmiyyətli dərəcədə artırır.

**3. İŞTİRAKÇILIQ VƏ ÇEVİKLİK ƏSASLI YENİ STRATEJİ İDARƏETMƏ MODELİ**

**3.1. Modelin əsas ünsürləri**

İştirakçı-Çevik Strateji İdarəetmə Modeli - ali təhsil müəssisələrinin dinamik və çoxsaylı paydaş strukturuna uyğun olaraq hazırlanmış, çevik və əhatəli idarəetmə yanaşmasıdır. Bu modelin əsas komponentləri aşağıdakı kimi sıralana bilər:

- Fəal iştirak əsaslı yanaşma: strateji qərarların qəbulunda bütün maraqlı tərəflərin — akademik heyət, inzibati personal, tələbələr, məzunlar və xarici tərəfdaşların — təmsil olunduğu komitələrin fəal iştirak etməsidir. Bu yanaşma müxtəlif baxış bucaqlarının qərarvermə proseslərinə daxil olmasını təmin edir və legitimliyi gücləndirir.

-Çeviklik: ali təhsildə sürətlə dəyişən şəraitə uyğunlaşmaq məqsədilə qərarvermə mexanizmlərinin çevik və sürətli işləməsi tələb olunur. Çevik idarəetmə strukturları tez reaksiya vermək və uyğunlaşmaq qabiliyyəti ilə fərqlənir.

-Məlumat əsaslı idarəetmə yanaşması: rəqəmsal texnologiyaların imkanlarından istifadə etməklə, daxili və xarici mənbələrdən davamlı məlumat toplanması, təhlili və həmin məlumatlara əsaslanaraq strateji qərarların qəbul edilməsidir. Məlumat mərkəzliliyi idarəetmənin keyfiyyətini artırır və qeyri-müəyyənliyi azaldır.

- Şəffaflıq: qərarvermə proseslərinin müvafiq paydaşlara və ictimaiyyətə açıq olması, etimad mühitinin formalaşmasına töhfə verir. Şəffaflıq, eyni zamanda idarəetmə prinsiplərinin əsas elementlərindən biridir.

-Hesabatlılıq: müəyyən edilmiş strateji hədəflərə istiqamətli müntəzəm və periodik hesabatların təqdim olunması ilə müəssisənin inkişafının izlənməsi və məsuliyyətlərin aydın şəkildə müəyyənləşdirilməsidir. Bu mexanizm strateji planın səmərəli icrasını təmin edir (2, s. 51; 9, s. 56).

Nəticə etibarilə, bu əsas komponentlər ali təhsil müəssisələrinin mürəkkəb quruluşunu idarə edərkən həm əhatəli, həm də çevik strateji idarəetmə modelinin əsasını təşkil edir.

3.2. Tətbiq prosesinin mərhələləri

İştirakçı-Çevik Strateji İdarəetmə Modelinin tətbiqi dörd mərhələdən ibarət sistematik yanaşma ilə həyata keçirilir:

1.Maraqlı tərəflərin müəyyən edilməsi və fəal iştirakı: Müəssisənin daxili və xarici bütün paydaşlarının müəyyənləşdirilməsi, onların gözləntilərinin təhlili və strateji qərarların qəbul prosesinə fəal şəkildə cəlb edilməsidir. Bu mərhələ qəbul olunan qərarların geniş legitimliyini təmin edir.

2.Mövcud vəziyyətin qiymətləndirilməsi və rəqəmsal məlumatların tətbiqi: Müəssisənin mövcud vəziyyəti rəqəmsal alətlər və məlumat analitikası vasitəsilə ətraflı təhlil olunur. Bu mərhələdə təhsil keyfiyyəti, maliyyə vəziyyəti, texnoloji infrastruktura və ətraf mühit amilləri qiymətləndirilir.

3.Strateji hədəflərin formalaşdırılması və performans indikatorlarının müəyyən edilməsi: Təhlil nəticələrinə əsaslanaraq, müəssisənin uzunmüddətli məqsədləri aydınlaşdırılır və bu məqsədlərə nail olunmasını izləmək üçün ölçülə bilən performans göstəriciləri müəyyənləşdirilir.

4.Müntəzəm izləmə, hesabatların hazırlanması və əks əlaqə sistemləri: Tətbiq müddətində məqsədlərə çatma vəziyyəti müntəzəm izlənilir, hesabatlandırılır və paydaşlara təqdim olunur. Bu mexanizm əks əlaqələr əsasında strategiyaların yenilənməsinə və modelin çevikliyinin qorunmasına imkan verir (10, s. 97; 11, s. 85).

Bu dörd mərhələli proses ali təhsil müəssisələrinin sürətli dəyişikliklərə uyğunlaşmasına, qərarvermə proseslərində səmərəli paydaş iştirakını təşviq etməsinə və rəqəmsal transformasiya imkanlarını strateji idarəetməyə inteqrasiya etməsinə şərait yaradır.

Nəticə olaraq, təklif edilən iştirakçı-çevik strateji idarəetmə modeli müasir ali təhsil müəssisələrinin tələblərinə uyğun olaraq iştirakçılığı, çevikliyi, məlumat mərkəzliliyi, şəffaflığı və hesabatlılığı bir arada təmin edərək davamlı idarəetmə uğuruna töhfə verməyi hədəfləyir.

**Nəticə və təkliflər**. Tədqiqat göstərir ki, ali təhsil müəssisələrində strateji idarəetmənin effektivliyi yalnız strateji planların hazırlanması ilə məhdudlaşmır, əsasən həmin planların iştirakçı, şəffaf, hesabatlı və çevik şəkildə icrasından asılıdır. Davamlı institusional inkişafın təmin edilməsi üçün idarəetmə proseslərinə bütün əsas maraqlı tərəflərin sistemli şəkildə cəlb olunması, rəqəmsal transformasiya alətlərinin strateji idarəetməyə inteqrasiya edilməsi, şəffaflıq və hesabatlılıq prinsiplərinin ardıcıl tətbiqi, eləcə də performansa əsaslanan monitorinq və qiymətləndirmə sistemlərinin yaradılması tələb olunur. Nəticələrdən görünür ki, paydaşların iştirakı və məlumat-əsaslı yönetişim mexanizmləri strateji qərarların legitimliyini artırır, icra səmərəliliyini yüksəldir və institusional etimadı gücləndirir.

Bu kontekstdə ali təhsil müəssisələrində strateji idarəetmə təcrübələrinin gücləndirilməsi məqsədilə aşağıdakı **təkliflər** irəli sürülür:

1. Strateji planlaşdırma üzrə əlaqələndirmə bölmələrinin yaradılması: Ali təhsil müəssisələrində strateji planlaşdırma fəaliyyətlərini əlaqələndirmək üçün xüsusi struktur vahidlər yaradılmalıdır. Bu bölmələr planlaşdırma prosedurlarının standartlaşdırılmasını, səmərəli icranın təmin edilməsini, performansın izlənilməsini və ümumi strateji səmərəliliyin artırılmasını dəstəkləyəcəkdir.

2. Maraqlı tərəflər üçün məsləhətçi şuraların yaradılması: Akademik və inzibati heyət, tələbələr, məzunlar və xarici paydaşların iştirakını təmin edən müşavirə (məsləhətçi) şuralar yaradılmalıdır. Bu şuralar müntəzəm fəaliyyətdə olmaqla strateji qərarvermə proseslərinə strukturlaşdırılmış şəkildə töhfə verməli, inklüzivliyi və institusional legitimliyi artırmalıdır.

3. Rəqəmsal informasiya sistemlərindən səmərəli istifadə: Müəssisələr şəffaflıq və hesabatlılığın gücləndirilməsi məqsədilə kommunikasiya, paydaşlarla məsləhətləşmə və ictimai məlumatlandırma üçün rəqəmsal platformalardan geniş istifadə etməlidirlər. Eyni zamanda sübutlara əsaslanan qərarvermə və davamlı təkmilləşdirməni təmin etmək üçün məlumat-əsaslı monitorinq və hesabat sistemləri tətbiq edilməlidir.

4. Qlobal səmərəli təcrübələrin milli kontekstə uyğunlaşdırılması: Uğurlu beynəlxalq strateji idarəetmə modelləri və yönetişim təcrübələri araşdırılmalı və milli təhsil prioritetlərinə, eləcə də müəssisə ehtiyaclarına uyğunlaşdırılmalıdır. Rəhbər sənədlərin və standartlaşdırılmış çərçivələrin hazırlanması ali təhsil müəssisələri arasında idarəetmə keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər.

Bu tövsiyələr ali təhsil müəssisələrinə strateji yönetişimi gücləndirməyə, təşkilati çevikliyi artırmağa və həm daxili dinamikalara, həm də xarici çağırışlara daha effektiv cavab verməyə

imkan verə bilər. Nəticə etibarilə institusional potensial güclənəcək, uzunmüddətli inkişaf hədəflərinə daha davamlı və rəqabətqabiliyyətli şəkildə nail olmaq mümkün olacaqdır.

**Problemin aktuallığı.** Ali təhsil müəssisələrinin uzunmüddətli inkişafını təmin etmək və qloballaşan rəqabət mühitində mövqelərini möhkəmləndirmək üçün idarəetmədə innovativ yanaşmaların tətbiqi zəruri hala çevrilmişdir. Ənənəvi strateji idarəetmə modelləri müasir tələblərə və yeni yaranan çağırışlara cavab vermək baxımından çox zaman məhdud qalır. Buna görə də idarəetmədə şəffaflıq, hesabatlılıq və çevikliyin təmin edilməsi, həmçinin tələbələr, akademik heyət, sənaye nümayəndələri və cəmiyyət kimi əsas maraqlı tərəflərin idarəetmə proseslərinə fəal şəkildə cəlb olunması olduqca vacibdir. Bu amillər strateji qərarların səmərəliliyini artırmaqla yanaşı, ali təhsil müəssisələrinin sosial məsuliyyətini də gücləndirir.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatın yeniliyi strateji idarəetmənin yalnız ənənəvi yanaşmalar çərçivəsində deyil, eyni zamanda innovasiyalar və rəqəmsal texnologiyaların inteqrasiyası kontekstində tədqiq edilməsindədir. Paydaş iştirakının artırılması nəticəsində yönetişim prosesləri daha şəffaf, demokratik və inklüziv xarakter alır. Bundan əlavə, davamlı inkişaf prinsiplərinə və çevik idarəetmə modellərinə əsaslanan yeni metodoloji çərçivələrin tətbiqi ali təhsil sektorunun müasir və dinamik tələblərinə uyğun strateji yönetişim mexanizmlərinin formalaşmasını dəstəkləyir.

**Praktiki praktik əhəmiyyət və tətbiqi.** Strateji idarəetmənin uğurla həyata keçirilməsi institusional səmərəliliyin artırılmasına, resursların optimal bölgüsünə və təhsil keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli töhfə verir. Şəffaflıq və hesabatlılığın gücləndirilməsi təhsil sistemində davamlı inkişafı dəstəkləyir və daxili yönetişim proseslərinin təkmilləşdirilməsi vasitəsilə ali təhsil müəssisələrinin qlobal rəqabət qabiliyyətini möhkəmləndirir. Maraqlı tərəflərin fəal iştirakı isə idarəetmə qərarlarının legitimliyini və effektivliyini artırır, eyni zamanda müəssisələrin sosial və mədəni dəyişikliklərə uyğunlaşmasını asanlaşdırır. Buna görə də tədqiqatın nəticə və tövsiyələri strateji idarəetmə təcrübələrini modernləşdirmək və uzunmüddətli institusional dayanıqlılığa nail olmaq istəyən ali təhsil müəssisələri üçün praktik əsas yaradır.

## Ədəbiyyat

1. Bryson, J. M. Strategic Planning for Public and Nonprofit Organizations. – New York: John Wiley & Sons, – 2018. – 544 s.

2. Freeman, R. E. Strategic Management: A Stakeholder Approach. – Boston: Pitman, – 1984. – 276 s.

3. Middlehurst, R. "Changing internal governance: A discussion of leadership roles and management structures in UK universities" // Higher Education Quarterly. – 2004. – Vol. 58, № 4. – S. 258–279.

4. Kettunen, J. "A conceptual framework to help evaluate the quality of institutional performance" // Quality Assurance in Education. – 2008. – Vol. 16, № 4. – S. 322–332.

5. Mintzberg, H. The Rise and Fall of Strategic Planning. – New York: Free Press, – 1994. – 458 s.

6. Khalilov, T., Aliyev, V., Guliyeva, M., Babayeva, M. "Strategic management mechanisms, directions, and functions in higher education" // Pak. j. life soc. Sci. – 2024. – Vol. 22, № 2. – S. 12146–12162.

7. OECD. Changing Patterns of Governance in Higher Education. – Paris: OECD Publishing, – 2003. – 205 s.
8. Westerman, G., Bonnet, D., McAfee, A. Leading Digital: Turning Technology into Business Transformation. – Boston: Harvard Business Review Press,– 2014.– 292 s.
9. Tapscott, D. The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence. – New York: McGraw-Hill, – 2006. – 342 s.
10. Gartner Group. Strategic Roadmap for Digital Transformation. – Stamford: Gartner Reports, – 2022. – 68 s.
11. Heeks, R. Implementing and Managing eGovernment: An International Text. – London: SAGE Publications, – 2006. – 416 s.
12. Kaplan, R. S., Norton, D. P. Strategy Maps: Converting Intangible Assets into Tangible Outcomes. – Boston: Harvard Business Press, – 2004. – 432 s.
13. Yıldız, M. Kamu Yönetiminde Dijitalleşme ve Stratejik Dönüşüm. – Ankara: Siyasal Kitabevi, – 2022. – 312 s.

**T.F.Xəlilov**

**Ali təhsil müəssisələrində strateji qərarvermədə paydaş iştirakı və məlumat-əsaslı idarəetmə yanaşması**

**Xülasə**

Məqalədə ali təhsil müəssisələrində strateji qərarvermə proseslərinin müasir idarəetmə tələbləri kontekstində formalaşdırılması, paydaş iştirakının bu proseslərə təsiri və məlumat-əsaslı idarəetmə yanaşmasının tətbiq imkanları tədqiq olunur. Qloballaşma, rəqəmsal transformasiya və təhsil xidmətlərinə dair artan sosial tələblər ali təhsil sahəsində çevik, şəffaf və hesabatlı idarəetmə mexanizmlərinin tətbiqini zəruri edir. Bu baxımdan strateji idarəetmədə akademik heyət, tələbələr, inzibati strukturlar, məzunlar, iş dünyası və digər xarici tərəfdaşların iştirakının təmin olunması qəbul edilən qərarların legitimliyini artırmaqla yanaşı, onların icra səmərəliliyini də yüksəldir. Digər tərəfdən, məlumat-əsaslı idarəetmə yanaşması rəqəmsal texnologiyalar vasitəsilə toplanan göstəricilərə əsaslanaraq qərarvermənin obyektivliyini və nəticəyönlülüyünü gücləndirir, riskləri azaldır və institusional dayanıqlılığı artırır. Məqalədə paydaş iştirakının təşkilati idarəetmədə institusionallaşdırılması və məlumat analitikası vasitələrinin strateji planlaşdırmaya inteqrasiyası istiqamətində əsas yanaşmalar təhlil olunur. Nəticə etibarilə, paydaş iştirakı ilə məlumat-əsaslı idarəetmənin birgə tətbiqi ali təhsil müəssisələrində idarəetmə keyfiyyətinin yüksəldilməsinə, qərarların səmərəliliyinin artırılmasına və davamlı inkişafın təmin edilməsinə xidmət edən mühüm mexanizm kimi əsaslandırılır.

**Т.Ф.Халилов**

**Участие стейкхолдеров в стратегическом принятии решений в высших учебных заведениях и подход, основанный на данных**
**Резюме**

В статье исследуются вопросы формирования стратегического процесса принятия решений в высших учебных заведениях в контексте современных требований управления, а также анализируются влияние участия стейкхолдеров и возможности применения подхода, основанного на данных. Глобализация, цифровая трансформация и растущие общественные ожидания в отношении образовательных услуг обусловливают необходимость внедрения гибких, прозрачных и подотчётных механизмов управления в сфере высшего образования. В данном контексте вовлечение академического персонала, студентов, административных структур, выпускников, представителей бизнеса и других внешних партнёров повышает легитимность принимаемых стратегических решений и способствует росту эффективности их реализации. Одновременно подход, основанный на данных, обеспечивает объективность и результативность управленческих решений благодаря использованию цифровых инструментов, сбору и анализу ключевых показателей, снижению неопределённости и повышению устойчивости организаций. В статье рассматриваются основные направления институционализации участия стейкхолдеров в управлении и интеграции аналитических инструментов в стратегическое планирование. Сделан вывод о том, что сочетание участия заинтересованных сторон и управления на основе данных выступает эффективным механизмом повышения качества управления и обеспечения устойчивого развития высших учебных заведений.

**T.F.Khalilov**

**Stakeholder participation in strategic decision-making in higher education institutions and a data-driven management approach**
**Summary**

This article examines strategic decision-making processes in higher education institutions within the context of contemporary governance requirements, focusing on stakeholder participation and the applicability of a data-driven management approach. Globalization, digital transformation, and increasing societal expectations toward educational services require universities to implement flexible, transparent, and accountable governance mechanisms. In this regard, involving key stakeholders—including academic staff, students, administrative units, alumni, employers, and external partners—enhances the legitimacy of strategic decisions and improves the effectiveness of their implementation. At the same time, a data-driven management approach strengthens objectivity and results orientation in decision-making by utilizing digital technologies to collect, analyze, and interpret performance indicators, thereby reducing uncertainty and improving institutional sustainability. The article discusses key approaches to institutionalizing stakeholder engagement and integrating data analytics tools

into strategic planning. The findings suggest that combining stakeholder participation with data-driven management significantly contributes to improved governance quality, enhanced decision effectiveness, and sustainable development in higher education institutions.

**Redaksiyaya daxil olub:** 04.04.2026

*UOT 378.1*

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL XİDMƏTLƏRİNİN İSTEHLAKÇI YÖNÜMLÜ TƏSNİFATI: TƏLƏBƏ MƏRKƏZLİ MODEL

**Aytən Elçin qızı Quliyeva**
*Azərbaycan Respublikası Təhsil İnstutunun doktorantı*
**ORCİD:** 0000-0003-0404-5110
**E-mail:** *quliyeva.ayten@outlook.com*
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.27

***Açar sözlər:*** *təhsil xidməti, marketinq modelləri, ənənəvi təsnifat, tələbə cəlbi*
***Ключевые слова:*** *образовательные услуги, маркетинговые модели, традиционная классификация, набор студентов*
***Key words:*** *educational service, marketing models, traditional classification, student engagement*

Təhsil xidmətləri ölkənin sosial siyasətinin ən önəmli istiqamətlərindən biri olmaqla bərabər, eyni zamanda, geniş bazar dinamikasına malik sahələrdəndir. İnformasiya cəmiyyətinin günü-gündən inkişafı, rəqəmsal texnologiyaların formalaşması, təhsil iqtisadiyyatının yüksəlişi və əmək bazarındakı fərqliliklər təhsil xidmətlərinə olan tələbatın keyfiyyət xüsusiyyətlərini dəyişmişdir. Qeyd olunan dəyişikliklər tələbə mərkəzli yanaşmanı, bir sözlə istehlakçı yönümlü modeli təhsil sisteminin vacib konseptual istiqamətlərindən daha çox lazımlısına çevirmişdir. Təhsil xidmətlərinin ən vacibli istehlakçısı olan tələbələrin təhsilə olan tələbatları, gözləntiləri və davranışları təhsil prosesinin qurulmasında əsas hədəf olmağa başlayıb.

"Ənənəvi təsnifata aid olan amillər bunlar ola bilər: 1) Təhsil səviyyəsinə görə, yəni məktəbəqədər, ümumi, orta ixtisas, ali, əlavə təhsil. 2) Təşkilati forma üzrə – əyani, qiyabi, distant. 3) Hüquqi statusa görə – a) dövlət, b) özəl təhsil xidmətləri. 4) Məzmununa görə – humanitar, texniki, sosial və iqtisadyönlü təhsil. 5) Müddətinə görə – uzunmüddətli və qısamüddətli proqramlar" (1). Qeyd olunan təsnifat ali pedaqoji təhsil müəssisələrinin idarəetmə və struktur hədəflərinə uyğunlaşdırılmışdır, lakin tələbəyönlü narazılıqların olması, xidmət gözləntilərinin müxtəlifliyi və rəqəmsal bazarın artması bu yanaşmanı təkbaşına kifayətsiz edir.

Müasir dövrdə ali təhsil sisteminin inkişafı və onun cəmiyyətin sosial-iqtisadi tələblərinə uyğunlaşdırılması keyfiyyət təminatı mexanizmlərinin səmərəli təşkilini zəruri edir. Qloballaşma, beynəlxalq rəqabət və ali təhsilin beynəlmiləlləşməsi şəraitində ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi yalnız tədris prosesinin nəticələri ilə məhdudlaşmır, eyni zamanda idarəetmə sistemlərinin effektivliyi, qərar qəbuletmə mexanizmlərinin şəffaflığı və institusional inkişaf səviyyəsi ilə də sıx bağlı olur. Bu baxımdan keyfiyyət təminatı ali təhsilin idarə olunmasının ayrılmaz tərkib hissəsi kimi çıxış edir və ali təhsil müəssisələrinin davamlı inkişafını təmin edən əsas vasitələrdən birinə çevrilir (1).

Ali təhsildə keyfiyyət təminatının mühüm elementlərindən biri akkreditasiya sistemidir. Akkreditasiya ali təhsil müəssisələrinin fəaliyyətinin müəyyən edilmiş standartlara uyğunluğunu qiymətləndirməklə yanaşı, onların idarəetmə strukturlarına və institusional fəaliyyətinə də təsir göstərir. Elmi ədəbiyyatda akkreditasiya daha çox xarici keyfiyyət təminatı mexanizmi kimi səciyyələndirilir və bu mexanizmin ali təhsil müəssisələrində hesabatlılıq, şəffaflıq və nəticəyönlü idarəetmə prinsiplərinin formalaşmasına töhfə verdiyi qeyd olunur (2, s. 119). Akkreditasiya prosesi ali təhsil müəssisələrinin mövcud vəziyyətini qiymətləndirməklə kifayətlənmir, eyni zamanda onların gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə yönəlir.

Akkreditasiyanın ali təhsildə əsas məqsədi tədris, elmi-tədqiqat və idarəetmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsidir. Bu proses ali təhsil müəssisələrinin idarəetmə mexanizmlərinin təhlilini, strateji planlaşdırma sənədlərinin yenilənməsini və daxili keyfiyyət təminatı systemlərinin formalaşdırılmasını stimullaşdırır. Tədqiqatlar göstərir ki, akkreditasiya nəticələrinin idarəetmə qərarlarında nəzərə alınması ali təhsil müəssisələrinin institusional inkişafına müsbət təsir göstərir və onların fəaliyyətinin daha sistemli şəkildə təşkilinə imkan yaradır (3, s. 36). Bu baxımdan akkreditasiya yalnız qiymətləndirmə vasitəsi deyil, eyni zamanda idarəetmənin təkmilləşdirilməsinə xidmət edən strateji alət kimi çıxış edir.

Azərbaycan Respublikasında ali təhsil sistemində aparılan islahatlar çərçivəsində akkreditasiya sistemi xüsusi əhəmiyyət kəsb edir. Dövlətin ali təhsildə keyfiyyətin təmin olunmasına yönəlmiş siyasəti ali təhsil müəssisələrinin fəaliyyətinə nəzarətin və qiymətləndirilmənin akkreditasiya mexanizmləri vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. Akkreditasiya prosesi ali təhsil müəssisələrinin fəaliyyətinin normativ-hüquqi tələblərə uyğunluğunu müəyyən etməklə yanaşı, onların idarəetmə fəaliyyətinin səmərəliliyinin artırılmasına da xidmət edir (4). Bu proses ali təhsil müəssisələrində idarəetmə strukturunun təkmilləşdirilməsi və daxili nəzarət mexanizmlərinin gücləndirilməsi üçün mühüm imkanlar yaradır.

Azərbaycanda akkreditasiya sisteminin tətbiqi ali təhsil müəssisələrinin idarəetmə fəaliyyətində hesabatlılığın və şəffaflığın artırılmasına müsbət təsir göstərir. Akkreditasiya nəticələri ali təhsil müəssisələrinin rəhbər strukturları üçün idarəetmə qərarlarının qəbulunda mühüm informasiya mənbəyi rolunu oynayır. Bu isə idarəetmədə subyektiv yanaşmaların azalmasına, qərarların sübutlara əsaslanaraq qəbul edilməsinə və institusional məsuliyyətin gücləndirilməsinə şərait yaradır. Akkreditasiya çərçivəsində irəli sürülən tövsiyələr ali təhsil müəssisələrinin strateji inkişaf sənədlərinin yenidən nəzərdən keçirilməsinə və fəaliyyətin nəticəyönlü təşkilinə stimul verir.

Bununla yanaşı, akkreditasiya sisteminin ali təhsilin idarə olunmasına təsiri bütün ali təhsil müəssisələrində eyni səviyyədə müşahidə olunmur. Bəzi hallarda akkreditasiya nəticələrinin formal xarakter daşıması və onların idarəetmə təcrübəsinə tam inteqrasiya edilməməsi problemi ilə rastlaşılır. Bu isə akkreditasiyanın inkişafyönlü potensialının tam reallaşdırılmasına mane olur. Elmi ədəbiyyatda qeyd olunur ki, akkreditasiya mexanizmlərinin effektivliyi ali təhsil müəssisələrinin idarəetmə mədəniyyətindən, institusional yanaşmasından və daxili keyfiyyət təminatı sistemlərinin səviyyəsindən bilavasitə asılıdır (5).

Akkreditasiya sisteminin səmərəli tətbiqi ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı mexanizmlərinin inkişafını stimullaşdırır və idarəetmədə davamlı inkişaf yanaşmasının formalaşmasına şərait yaradır. Xarici və daxili keyfiyyət təminatı mexanizmlərinin qarşılıqlı əlaqəsi ali təhsil müəssisələrinin fəaliyyətinin sistemli şəkildə qiymətləndirilməsinə və idarəetmənin təkmilləşdirilməsinə imkan verir. Bu baxımdan akkreditasiya ali təhsil müəssisələrinin idarə olunmasında yalnız nəzarət aləti deyil, eyni zamanda keyfiyyət mədəniyyətinin formalaşdırılmasına xidmət edən mühüm institusional mexanizm kimi çıxış edir (6).

**Problemin aktuallığı.** Azərbaycanda ali təhsil müəssisələrinin idarəetmə sistemlərinin təkmilləşdirilməsi və keyfiyyət təminatının gücləndirilməsi müasir dövrdə xüsusi aktuallıq kəsb edir. Akkreditasiya sisteminin ali təhsilin idarə olunmasına təsirinin elmi əsaslarla araşdırılması ali təhsil müəssisələrinin səmərəli idarə olunması, keyfiyyət mədəniyyətinin formalaşdırılması və beynəlxalq rəqabətqabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir.

**Problemin elmi yeniliyi.** Məqalədə akkreditasiya sisteminin ali təhsilin idarə olunmasına təsiri Azərbaycan təcrübəsi əsasında sistemli şəkildə təhlil edilmiş, akkreditasiyanın idarəetmə mexanizmlərinə təsir istiqamətləri müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəticələrindən ali təhsil müəssisələrinin rəhbər heyəti, müəllimlər, tədqiqatçılar, magistrantlar və ali təhsil sahəsində qərar qəbul edən qurumlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Harvey L., Green D. Defining Quality // Assessment & Evaluation in Higher Education, 1993, Vol. 18, №1, 9–34.
2. ENQA. Standards and Guidelines for Quality Assurance in the European Higher Education *Area (ESG)*. Brussels, 2015, p. 48.
3. John W. Creswell, J. David Creswell. Research Design. Copyright © 2018 by SAGE Publications, p. 438.
4. UNESCO. Quality Assurance in Higher Education. Paris, 2018, p. 52.
5. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı, 2009.
6. https://www.enqa.eu/wp-content/uploads/2015/11/ESG_2015.pdf
7. https://www.unesco.org/en/education/higher-education/quality-assurance
8. https://core.ac.uk/download/pdf/212719083.pdf

**N.E.Yusifova**

### Azərbaycanda akkreditasiya sisteminin ali təhsilin idarə olunmasına təsiri
### Xülasə

Qloballaşma və beynəlxalq rəqabətin gücləndiyi müasir şəraitdə ali təhsil müəssisələrinin səmərəli idarə olunmasında keyfiyyət təminatı mühüm əhəmiyyət kəsb edir. Akkreditasiya xarici keyfiyyət təminatının əsas mexanizmlərindən biri kimi ali təhsil müəssisələrinin idarəetmə strukturlarının, qərar qəbuletmə proseslərinin, hesabatlılıq və şəffaflıq mexanizmlərinin təkmilləşdirilməsinə təsir göstərir. Məqalədə Azərbaycanda akkreditasiya sisteminin ali təhsilin idarə olunmasına təsiri təhlil edilir, akkreditasiya tələblərinin idarəetmə təcrübəsinə, daxili keyfiyyət təminatı sistemlərinin inkişafına və strateji planlaşdırmaya təsiri araşdırılır. Tədqiqat nəticələri göstərir ki, akkreditasiya yalnız nəzarət vasitəsi deyil, eyni zamanda institusional inkişafı və davamlı idarəetməni dəstəkləyən inkişafyönlü alət kimi çıxış edir. Akkreditasiyanın səmərəliliyi isə onun nəticələrinin ali təhsil müəssisələrinin daxili idarəetmə proseslərinə inteqrasiya səviyyəsindən və mövcud keyfiyyət mədəniyyətindən asılıdır.

**Н.Е.Юсифова**

### Воздействие системы аккредитации на управление высшим образованием в Азербайджане
### Резюме

В условиях глобализации и усиления международной конкуренции обеспечение качества является важным элементом эффективного управления высшими учебными заведениями. Аккредитация как механизм внешнего обеспечения качества играет значительную роль в совершенствовании управленческих структур, процессов принятия решений, подотчётности и институционального развития. В статье рассматривается влияние системы аккредитации на управление высшими учебными заведениями в Азербайджане

с акцентом на её воздействие на управленческую практику, развитие внутренних систем обеспечения качества и стратегическое планирование. Показано, что аккредитация выступает не только как контрольный механизм, но и как инструмент развития, способствующий устойчивому институциональному совершенствованию. Эффективность аккредитации во многом зависит от степени интеграции её результатов в управленческие процессы и уровня культуры качества в высших учебных заведениях.

**N.E.Yusifova**

**The impact of the accreditation system on the governance of higher education in Azerbaijan**

**Summary**

In the context of globalization and increasing international competition, quality assurance has become an essential element of effective governance in higher education institutions. Accreditation, as a key external quality assurance mechanism, plays an important role in improving governance structures, decision-making processes, accountability, and institutional development. This article analyzes the impact of the accreditation system on the governance of higher education institutions in Azerbaijan, focusing on its influence on management practices, internal quality assurance systems, and strategic planning. The study shows that accreditation functions not only as a control mechanism but also as a developmental tool contributing to sustainable institutional improvement. At the same time, the effectiveness of accreditation depends largely on the integration of its outcomes into internal management processes and the existing quality culture within higher education institutions.

**Redaksiyaya daxil olub:** 30.01.2026

***MÜƏLLİM HAZIRLIĞI MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ***
***ISSUES IN TEACHER TRAINING***

*UOT 37.01*

# GƏLƏCƏK TƏRBİYƏÇİ-MÜƏLLİMLƏRİN İNKLÜZİV FƏALİYYƏTƏ HAZIRLIĞININ QANUNAUYĞUNLUQLARI VƏ PRİNSİPLƏRİ

**Nabat Ayaz qızı Qəhrəmanova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCID:** 0009-0004-1045-0731
**E-mail:** nabat.gahramanova@yahoo.no
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.30

***Açar sözlər:*** *tərbiyə, inkluziv, təhsil, müəllim, təlim*
***Ключевые слова:*** *воспитание, инклюзивное образование, учитель, обучение*
***Key words:*** *upbringing, inclusive, education, teacher, training*

Tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının formalaşması konsepsiyası müəyyən elmi-pedaqoji qanunauyğunluqlara əsaslanır ki, bu da hazırlıq prosesinin sistemli, məqsədyönlü və davamlı şəkildə həyata keçirilməsini təmin edir. Bu qanunauyğunluqlar pedaqoji prosesin mahiyyətindən, tərbiyəçi-müəllimlərin fəaliyyət mexanizmlərindən və inklüziv təhsilin tələblərindən irəli gəlir. Onların nəzərə alınması təhsil-tərbiyə işinin daha səmərəli qurulmasına, eləcə də gələcək tətbiyəçi-müəllimlərin inklüziv təhsil mühitinə uyğunlaşmasına şərait yaradır.

Bu o deməkdir ki, müəllimin inklüziv hazırlığının formalaşması konsepsiyasının əsasını aşağıdakı qanunauyğunluqlar təşkil edir:

1) sistemlərin mövcudluğu və fəaliyyət göstərməsi qanunauyğunluqları [1;2].

2) sosial münasibətlərin formalaşması ilə bağlı psixoloji nəzəriyyə və yanaşmalar [3;4;5].

3) təhsil prosesinin əsas pedaqoji qanunauyğunluqları [6;7;8]. Bu qanunauyğunluqlar pedaqoji sistemin və onun altsistemlərinin fəaliyyəti üçün fundamental əsas təşkil etdiyindən, təhsil prosesinin bütün spektrlərini əhatə edir. Onlar: a) pedaqoji sistemin ümumi strukturu və funksional mexanizmlərini izah edir; b) universal xarakter daşıdığı üçün təhsilin bütün pillə və səviyyələrində tətbiq oluna bilir; c) konkret bir sahəyə deyil, bütövlükdə təlim-tərbiyə sisteminə şamil olunur.

İnklüziv təhsil və müəllim hazırlığı prosesinə tədqiqatçılar müxtəlif nəzəri-metodoloji yanaşmalar əsasında yanaşdıqları üçün bu sahənin inkişaf qanunauyğunluqları barədə də fərqli elmi baxışlar və yanaşmalar formalaşmışdır.

*Avropa alimlərinin* inklüziv təhsildə sosial ədalət, bərabərlik, insan hüquqları və sosial inteqrasiya ideyalarına əsaslanır. Bu istiqamətdə aparılan tədqiqatlarda inklüzivlik təkcə pedaqoji prinsip deyil, həm də təhsil siyasətinin əsas komponenti kimi təqdim olunur. Onların əsas ideyaları sosial sifariş və pedaqoji fəaliyyətin qarşılıqlı əlaqəsi qanunauyğunluğuna (yəni cəmiyyətin

sosial tələblərinin müəllim hazırlığına və məktəb strukturuna təsiri) əsaslanır.

*Rus modelində* müəllim hazırlığı fəaliyyət nəzəriyyəsi, inkişaf psixologiyası və sosial qarşılıqlı təsirin pedaqoji imkanları kontekstində təhlil edilir, müəllimin psixi və peşəkar inkişafı, sosial inteqrasiyanın rolu və təhsildə fəaliyyətin strukturu əsas məsələlərdən biri kimi təhlil olunur. Rus alimlərinin əsas ideyaları şəxsiyyətyönlülük və fərdiləşdirmə, nəzəriyyə ilə təcrübənin vəhdəti, sistemlərin mövcudluğu və fəaliyyəti qanunauyğunluqlarına əsaslanır.

*Amerika və bəzi Qərb tədqiqatçılarının əsərlərində* sosial münasibət nəzəriyyəsi, psixoloji baxış, davranış modelləri və inklüziv pedaqoji texnologiyaların tətbiqi araşdırılır, tərbiyəçi-müəllimin inklüziv hazırlığı onun sosial-psixoloji mövqeyi, sosial münasibətləri, şəxsi dəyərləri və peşəkar davranış strategiyaları ilə əlaqələndirilir. Onların əsas ideyaları motivasiya və fəaliyyətyönlü təlim və sosial qarşılıqlı təsir və psixoloji münasibətlər qanunauyğunluqlarına əsaslanır.

**İnklüziv təhsildə beynəlxalq yanaşmalar və onların pedaqoji qanunauyğunluqlarla əlaqəsi**

*Cədvəl 1.3.1.*

| Tədqiqat istiqaməti | Qanunauyğunluq | Məzmun | İdeya müəllifləri |
|---|---|---|---|
| **Avropa modeli** (sosial ədalət, insan hüquqları, məktəbin transformasiyası) | Sosial sifarişin və pedaqoji fəaliyyətin qarşılıqlı əlaqəsi | Cəmiyyətin sosial tələbləri ilə ilə pedaqoji prosesin, və məktəb mədəniyyətinin uyğunlaşdırıl ması | Mel Eynskou<br>Toni But<br>Lani Florian<br>Şeyla Riddel |
| **Rusiya modeli** fəaliyyət nəzəriyyəsi, inkişaf psixologiyası | Şəxsiyyətyönlülük və fərdiləşdirmə; fəaliyyətin sistem xarakteri qanunauyğunluğu | Tərbiyəçinin psixi və fəaliyyət əsaslı inkişafı – onun daxili potensialı nəzərə alınır | L.S.Vıqotski<br>A.N.Leontyev<br>D.B.Elkonin<br>V.V.Davıdov |
| **Amerika modeli** münasibətlər və davranış modelləri | Motivasiya və fəaliyyətyönlü təlim; sosial qarşılıqlı təsir qanunauyğunluğu | Müəllimin psixoloji və sosial hazır olmasının inklüziv liyə təsiri əsas götürülür | Qordon Olport<br>Daniel Kats<br>Riçard L. Hass<br>Aysək Eyzen<br>Martin Fişbein<br>Maykl F. Cianqreko |

Bu yanaşmaların müqayisəli təhlili göstərir ki, tərbiyəçi-müəllimin inklüziv fəaliyyətə hazırlığı multidissiplinar, qarşılıqlı əlaqəli və dinamik xarakter daşıyır. Bu hazırlıq prosesi yalnız pedaqoji bilik və bacarıqlarla məhdudlaşmır, eyni zamanda müəllimin dəyər sistemi, sosial

münasibətləri və psixoloji mövqeyi ilə də müəyyən olunur. Məhz bu səbəbdən də müasir dövrdə tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı konsepsiyası kompleks, sistemli və inteqrativ yanaşma tələb edir. Bu yanaşma müxtəlif elmi istiqamətlərin qarşılıqlı sintezini, pedaqoji, psixoloji və sosial faktorların uzlaşdırılmasını nəzərdə tutur.

Tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı konsepsiyasında sistemlərin mövcudluğu və fəaliyyəti ilə bağlı qanunauyğunluqların nəzərə alınması, bu prosesin strukturunu, sosial münasibətlərin formalaşmasının psixoloji əsaslarını və onların davranışa təsirini müəyyənləşdirir. Bu səbəbdən də pedaqoji qanunauyğunluqların müəyyənləşdirilməsi çox vacibdir. Çünki pedaqoji qanunauyğunluq tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığını səmərəli şəkildə həyata keçirmək üçün optimal yolu müəyyən edir. Tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında aşağıdakı qanunauyğunluqlar [9] xüsusi əhəmiyyət daşıyır.

*1. Hissə və bütövün qarşılıqlı təsiri qanunauyğunluğu* – sistemin ayrı-ayrı hissələri ya müstəqil şəkildə fəaliyyət göstərməyə, ya da ümumi sistemə daha sıx bağlı olmağa cəhd edir. Tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında bu, hazırlığın müxtəlif hissələri arasında uyğunluğun və balansın yaradılmasını, fərdi yanaşmaların ümumi peşəkar keyfiyyətlə birləşdirilməsini tələb edir.

*2. İyerarxik quruluş qanunauyğunluğu* – sistem həm onu əhatə edən mühitlə, həm də öz alt sistemləri ilə qarşılıqlı əlaqədə olur. Tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında bu o deməkdir ki, hazırlıq prosesi həm ümumi təhsil mühiti, həm də fərdi bacarıq və biliklər səviyyəsində qarşılıqlı təsirə əsaslanır.

*3. Zəruri müxtəliflik qanunu* – tərbiyəçi-müəllim inklüziv fəaliyyətə hazırlıqda müxtəlif vəziyyətlərə uyğunlaşmaq üçün kifayət qədər fərqli və davamlı bilik, bacarıq və yanaşmalara sahib olmalıdır. Bu, hazırlıqda geniş "kompetensiya ehtiyatı" yaradılması deməkdir.

4. *Sistemin inkişaf qanunauyğunluğu* – tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlıq prosesi daim yenilənməli və dəyişən tələblərə uyğunlaşdırılmalıdır. Buna görə, tərbiyəçi-müəllimlərin hazırlığında istifadə olunan məzmun və metodlar çevik və müasir olmalıdır.

Yuxarıda qeyd olunan dörd əsas qanunauyğunluq tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında sistemli və harmonik yanaşmanın əsasını təşkil edir. Bu qanunauyğunluqlar həm ümumi nəzəri prinsipləri, həm də təcrübədə tətbiq olunan pedaqoji vasitələri əhatə edir.

Bəzi tədqiqatlarda [18] inklüziv fəaliyyətə hazırlığın *sistemlilik, fəallıq və subyektlik, şəxsiyyətyönlülük, kontekstlilik (konkret mühitə uyğunlaşma), inkişafyönlülük, humanistlik və dəyəryönlülük, və inteqrasiya qanunauyğunluğundan* bəhs olunur

Aşağıda tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığını müəyyən edən pedaqoji qanunauyğunluqlar daha konkret formada təqdim olunur:1) *məqsəd, məzmun və fəaliyyətin sosial ehtiyaclarla bağlılığı* (inklüziv fəaliyyətə hazırlığın cəmiyyətin inklüziv təhsil tələblərinə uyğun təşkil edilməsi); 2) *təhsil mühiti və metodların təsiri* (inklüziv fəaliyyətə hazırlığın nəticələrinin məktəbəqədər təhsil müəssisəsinin şəraitindən və istifadə olunan metodlardan asılılığı); 3) *tədris materialının əhəmiyyəti və ona münasibət* (inklüziv hazırlığın elmi-nəzəri və təcrübi materiallara, inklüziv təhsilin dəyərlərinə və sosial-peşəkar dözümlülüyə əsaslanması);4) kompetensiya yanaşması (inklüziv fəaliyyətə hazırlığın kompetensiya əsaslı prinsiplərə uyğun aparılması).

Bu qanunauyğunluqlar gələcək tərbiyəçi-müəllimlərin inklüziv hazırlığının formalaşdırıl-

ması konsepsiyasının ümumi pedaqoji və xüsusi prinsiplərini, həmçinin onların tətbiqi qaydalarını şərtləndirir. Tədqiqatçılar ümumi pedaqoji prinsipləri tədqiq edərkən

Ümumi pedaqoji prinsiplərə aşağıdakılar aid edilir:

1. *Humanist yanaşma prinsipi.* Məktəbəqədər təhsil müəssisələrində çalışacaq gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlanmasında bu prinsip təhsildə humanist dəyərlərin qorunmasını, uşaqların sosial və təhsil mühitindəki fərqliliklərin qəbul olunmasını, onların bərabər hüquqlarının təmin edilməsini və fərdi ehtiyaclarına uyğun yanaşmanı əsas götürməyi zəruri edir. "*Humanist yanaşma prinsipi tərbiyəçi-müəllimlərin inklüziv təhsil məkanında hər bir uşağın unikallığını, fərdi inkişafını nəzərə almaq və inklüziv mühitdə tolerant münasibət formalaşdırmaq bacarıqlarının inkişafına yönəldilmiş pedaqoji fəaliyyətlərinin əsasını təşkil edir"* [10]. Bu isə məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilə cəlb edilən uşaqların inkişafında "sosial inteqrasiyanı, fərdi və fərqli yanaşmanın tətbiqini" [11] təmin etməklə onların emosional və sosial rifahını gücləndirir.

2. *Təhsilin demokratikləşdirilməsi prinsipi.* Bu prinsip məktəbəqədər təhsil müəssisələrində təhsil alan uşaqların fərdi təhsil ehtiyaclarının nəzərə alınmasını, onların təhsil prosesində fəal iştirakını və bərabər imkanlara malik olmalarını təmin edir. Bu prinsip həmçinin tərbiyəçi-müəllimlərdən məktəbəqədər təhsil müəssisələrində *"inklüziv, çevik və dəstəkləyici təhsil mühiti*" [12] yaratmağı tələb edir ki, bu da uşaqların fərdi ehtiyac və xüsusiyyətlərinin diqqətlə nəzərə alınmasını zəruri edir. Təhsilin demokratikləşdirilməsi prinsipi tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında əsas rol oynayır və onların peşəkar fəaliyyətinin keyfiyyətini artırır.

3. *Elmilik prinsipi.* Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında mühüm rol oynayır. Elmilik prinsipi həmçinin tərbiyəçi-müəllimlərin fərdi təhsil ehtiyaclarını dəqiq müəyyənləşdirməyə, tədris prosesində yenilikçi təlim texnologiyalarını tətbiq etməyə və inklüziv təhsil mühitinin keyfiyyətini yüksəltməyə imkan verir. Bu yanaşma tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında nəzəri biliklərin praktik tətbiqini təmin edir, onların peşə bacarıqlarının və sosial-şəxsi keyfiyyətlərinin inkişafına təsir edə biləcək metodlardan istifadə olunmasını tələb edir. Elmilik prinsipi gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı "elmi əsaslarla qurmaqla" [12, s.134] onlarda inklüziv bacarıqların səmərəli formalaşmasına zəmin yaradır və inklüziv təhsilin keyfiyyətinin artırılmasına xidmət edir.

4. *Sistemlilik prinsipi.* Sistemlilik prinsipi gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığını bir-biri ilə əlaqəli olan psixoloji və pedaqoji komponentlərin sistemi kimi nəzərdən keçirir. Bu sistemin komponentləri (koqnitiv, emosional, konativ, kommunikativ və refleksiv) tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında əhəmiyyətli rol oynayır.

5. *Məzmun və struktur tamlığı prinsipi*. Bu prinsip pedaqoji təhsil müəssisələrində gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının səmərəli təşkilində rəhbər tutulan əsas prinsiplərdən biridir. Bu prinsip, bir tərəfdən, inklüziv fəaliyyət üçün zəruri olan nəzəri biliklərin, praktiki bacarıq və peşə kompetensiyalarının məzmun baxımından ardıcıl, sistemli və mərhələli şəkildə mənimsənilməsini təmin edir, digər tərəfdən, *"inklüziv hazırlıq modelinin tərkib komponentləri ilə onun tətbiq mərhələləri arasında funksional uyğunluğu və qarşılıqlı əlaqəni*" [16, s.66] təmin edir.

Məzmun və struktur tamlığı prinsipi tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığını təmin edən elə bir təhsil mühitinin yaradılmasını təmin edir ki, burada diqqət yalnız peşə-ixtisas

biliklərinə deyil, eyni zamanda inklüziv mədəniyyət, sosial məsuliyyət və humanist dəyərlərin formalaşdırılmasına yönəlir.

6. *Multidissiplinarlıq prinsipi.* Bu prinsip tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı proqramında müxtəlif fənlərin məzmununun inteqrasiyasını nəzərdə tutur. Bu da inklüziv təhsilin çoxşaxəli və fərqli aspektlərdən dəyərləndirilməsini, inklüziv təhsil dəyərlərinin tədrisə daxil edilməsini, inklüzivliklə bağlı əldə olunan bilik və bacarıqların inklüziv qruplarda tətbiq olunmasını nəzərdə tutur.

Qeyd etmək yerinə düşər ki, yuxarıda sadalanan prinsiplərin tədqiqi və tətbiqi ilə bağlı

Gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının ümumi prinsipləri ilə yanaşı, spesifik, yəni *xüsusi prinsipləri* də mövcuddur. Həmin prinsiplərin mahiyyətinə diqqət yetirək.

1. *Peşə şəraitinə uyğunluq prinsipi.* Bəzi elmi ədəbiyyatda bu prinsip situativ və proqnozlaşdırıla bilən adekvatlıq prinsip kimi izah edilir. *Situativlik* – gələcək tərbiyəçi-müəllimin inklüziv mühitdə qarşılaşacağı konkret pedaqoji situasiyaların (məsələn, fərqli təhsil ehtiyacları olan uşaqlarla ünsiyyət, valideynlərlə əməkdaşlıq və s.) təlim prosesində modelləşdirilməsi və praktiki olaraq tətbiqinin təmin olunmasını, *proqnozlaşdırma* təhsilin məzmununun və metodlarının inklüziv təhsilin inkişaf tendensiyalarına uyğun şəkildə qurulmasını, *adekvatlıq* tədris proqramının gələcək tərbiyəçi-müəllimlərin inklüziv qruplarda işləmək üçün sosial-pedaqoji, psixoloji və metodiki tələblərə uyğunlaşdırılmasını nəzərdə tutur. Bu prinsip inklüziv təlim mühitində onların qarşılaşacağı real və potensial situasiyalara uyğun bilik, bacarıq və münasibətlərin formalaşdırılmasını təmin edir. Bu prinsipin reallaşdırılması aşağıdakı istiqamətlər üzrə həyata keçirilə bilər: 1) *inklüziv mühitin modelləşdirilməsi* (gələcək tərbiyəçi-müəllimlərin real iş şəraitinə bənzər tədris şəraitinin yaradılmasını, onların müxtəlif ehtiyaclı uşaqlarla işləmə bacarığının formalaşdırılmasını nəzərdə tutur); 2) *peşəkar qarşılıqlı fəaliyyətin formalaşdırılması (*gələcək-tərbiyəçi müəllimlərə inklüziv mühitdə müəllim, valideyn və digər mütəxəssislərlə əməkdaşlıq etmənin yolları öyrədilir, inklüziv komanda da işləmək bacarığının formalaşdırılır); 3) *könüllü fəaliyyətə cəlb edilmə* (gələcək tərbiyəçi-müəllimlərin xüsusi təhsil ehtiyacları olan uşaqlarla könüllü fəaliyyətə cəlb edilməsi onların inklüziv təhsil mühitinə daha erkən adaptasiyasını və praktik bacarıqlarını inkişaf etdirir, bu sahədə ilkin təcrübə toplamalarına və emosional uyğunlaşmalarına kömək edir); 4) *təcrübə və praktiki tapşırıqlar* (müxtəlif pedaqoji situasiyaların təhlili və real praktiki tapşırıqların yerinə yetirilməsi gələcək tərbiyəçi-müəllimlərdə qərarvermə, adaptasiya və refleksiya bacarıqlarının inkişafına, yeni iş şəraitinə uyğunlaşmağa, öz fəaliyyətlərini dəyərləndirməyə kömək edir).

2. *Diaqnostika prinsipi.* Bu prinsipin nəzərə alınması akademik, peşəkar və sosial-şəxsi kompetensiyaların formalaşma səviyyəsini müəyyən etməyə imkan verən müxtəlif diaqnostik vasitələrin hazırlanmasını və tətbiqini nəzərdə tutur. İnklüziv fəaliyyətə hazırlanan gələcək tərbiyəçi-müəllimlərin fərdi inkişafı, inklüzivliklə bağlı bilik, bacarıq və münasibətlər sisteminin səviyyəsi mütəmadi olaraq diaqnostik metodlarla qiymətləndirilir. Bu prinsip tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında əhəmiyyətli rol oynayan empatiya, əməkdaşlıq, ünsiyyət və diferensial yanaşma kimi vacib komponentlərin səviyyəsinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Diaqnostika prinsipi gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığını davamlı şəkildə izləməyə, zəif və güclü tərəflərini müəyyənləşdirməyə, zəruri korreksiya işlərinin vaxtında aparılmasını təmin edir. Bəzi tədqiqatlarda diaqnostika və

korreksiya vəhdət halında verilir. D.B.Elkonin tərəfindən *"diaqnostika və korreksiyanın vəhdəti"* kimi irəli sürülən bu prinsip İ.V.Dubrovina [15, s.14] tərəfindən inkişaf etdirilmişdir. Burada əsas məqsəd ilkin diaqnostik nəticələr əsasında fərdi inkişaf planı hazırlamaq və zəruri düzəlişlərin edilməsidir.

*3. Əlilliyin sosial modelinin prioritet qəbul edilməsi prinsipi.* Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında mühüm əhəmiyyət kəsb edir, çünki onların sosial model əsasında formalaşmış baxış tərzi, uşaqlara fərdi yanaşmanı və onların ehtiyaclarına uyğun dəstəyi təmin etməyə imkan verir. Nəticədə gələcək tərbiyəçi-müəllimlər inklüzivliklə bağlı nəzəri fikirləri praktikada tətbiq etməyi bacarır, hər bir uşağın fərdi xüsusiyyətlərinə hörmətlə yanaşmağı bacarırlar.

4. *Dəyər-məzmun kompetensiyasına əsaslanan inklüziv təhsil prinsipi.* Bu prinsipin əsas mahiyyəti gələcək tərbiyəçi-müəllimləri hazırlayanların özlərinin təlim prosesində dəyər-məzmun kompetensiyası prinsipinə əməl etməsidir. Təlim prosesində bu prinsipə əməl edən professor-müəllimlər gələcək tərbiyəçi-müəllimlərin inklüzivliklə bağlı nəzəri və praktik bilikləri mənimsəməsinə münbit şərait yaradır, onların inklüziv fəaliyyətə hazırlanmasını məqsədyönlü və sistemli şəkildə təmin edirlər. Bunlar da tərbiyəçi-müəllimlərin müxtəlif ehtiyacları olan uşaqlarla işləmək üçün lazımi dəyər və biliklərə malik olmalarını təmin edir.

5. *Preventiv[1] adaptasiya prinsipi.* Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə psixoloji və pedaqoji cəhətdən əvvəlcədən hazırlanmasını nəzərdə tutur. Bu prinsip ali pedaqoji təhsil müəssisələrində təlim prosesində gələcək tərbiyəçi-müəllimlərin sistemli nəzəri biliklər mənimsəməsini, modelləşdirilmiş situasiyalar əsasında inklüzivliklə bağlı praktik bacarıqlar əldə etməsini, inklüziv qruplarda qarşılaşa biləcəkləri müxtəlif pedaqoji vəziyyətlərə çevik və adaptiv yanaşmaların formalaşdırılmasını, eləcə də fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlarla işləmək bacarığının inkişaf etdirilməsini nəzərdə tutur. Bununla da gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə kompleks və sistemli şəkildə hazırlığı təmin olunur.

6. *İnklüziv yanaşmada çətinliklərin identifikasiyası və kompensasiya prinsipi.* Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığında müşahidə olunan çatışmazlıqların (bilik, bacarıq və münasibət səviyyəsindəki nöqsanların) vaxtında müəyyən edilməsini və onların aradan qaldırılması üçün məqsədyönlü işlərin görülməsini nəzərdə tutur. İnklüziv fəaliyyətə hazırlıq prosesində bu prinsipin tətbiq edilməsi tərbiyəçi-müəllimlərin gələcək fəaliyyətlərində qarşılaşacağı çətinliklərin ali təhsil illərində aşkara çıxarılmasını, onların obyektiv və subyektiv səbəblərinin müəyyənləşdirilməsini, təhlil edilməsini və qabaqlayıcı tədbirlər görülməsini nəzərdə tutur. Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətdə daha dayanıqlı və adekvat fəaliyyət göstərməsinə kömək edir.

7. *Komandada peşəkar-pedaqoji əməkdaşlıq prinsipi.* Bu prinsip xüsusi təhsil ehtiyacları olan uşaqların problemlərinin müəllim-defektoloq, pedaqoq-psixoloq, sosial pedaqoq və digər mütəxəssislərlə qarşılıqlı əməkdaşlıq şəraitində müzakirə edilməsini, uyğun yanaşmanın müəyyənləşdirilməsini nəzərdə tutur. Bu prinsip gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı zamanı onlarda maraqlı tərəflər arasında əməkdaşlığın və inteqrativ yanaşmanın əhə-

[1] "Preventiv" sözü latın mənşəli olub, Azərbaycan dilində "qabaqlayıcı", "önləyici", "əvvəlcədən qarşısını alan" mənalarını verir.

miyyətini başa düşür, onlarda əməkdaşlıq vərdişləri inkişaf edir. Bu prinsip inklüziv təhsil mühitində kompleks yanaşmanın həyata keçirilməsində tərbiyəçi-müəllimin funksional rolunu gücləndirir.

8. *Peşəkar pedaqoji təcrübə prinsipi.* Peşəkar pedaqoji təcrübə prinsipi gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlanmasında praktik pedaqoji bacarıqların qazanılması üçün şəraitin yaradılmasını, gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlanmasında praktik bacarıqların formalaşması üçün şəraitin yaradılmasını, həmçinin praktik fəaliyyətin müxtəlif formalarda əldə edilməsini nəzərdə tutur. Bu prinsip gələcək tərbiyəçi-müəllimlərdə inklüziv mühitdə effektiv fəaliyyət göstərmək üçün vacib təcrübə və bacarıqları formalaşdırmağa şərait yaradır.

Beləliklə, gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı prosesində müəyyən olunan qanunauyğunluqlar pedaqoji prosesin əsas mahiyyəti ilə uyğunluq təşkil edir. Bu qanunauyğunluqlar "*təlim prosesində təkrarlanan, sabit və mühüm əlaqələri əks etdirir*" [17, s.42]. Onlara əsaslanan prinsiplər isə inklüziv fəaliyyətə hazırlığın məqsədyönlü və sistemli şəkildə təşkilini təmin edən ümumi strateji istiqamətləri müəyyən edir. Gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlanmasının qanunauyğunluqları və prinsipləri onların peşə keyfiyyətlərinin sistemli və məqsədyönlü şəkildə formalaşmasını təmin edir. Bu prinsiplərin tətbiqi, gələcək tərbiyəçi-müəllimlərin inklüziv mühitdə səmərəli fəaliyyət göstərməsi üçün zəruri bilik, bacarıq və münasibətlərin formalaşdırılmasına, həmçinin onların fərdi xüsusiyyətlərini nəzərə alan kompleks hazırlıq prosesinin qurulmasına şərait yaradır.

**Problemin aktuallığı.** Müasir dövrdə inklüziv təhsilin qlobal miqyasda prioritet istiqamətə çevrilməsi tərbiyəçi-müəllimlərin bu sahəyə sistemli və məqsədyönlü hazırlanmasını zəruri edir. Məktəbəqədər təhsil mərhələsi uşaqların sosiallaşmasının və inkişafının əsasını təşkil etdiyindən, bu mərhələdə çalışan tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazır olması xüsusi əhəmiyyət kəsb edir. Mövcud təcrübə göstərir ki, bir çox hallarda müəllimlərin inklüzivliklə bağlı bilik, bacarıq və münasibətləri fragmentar xarakter daşıyır və sistemli hazırlıq konsepsiyasına əsaslanmır. Bu isə inklüziv təhsil mühitinin keyfiyyətinə və uşaqların sosial inteqrasiyasına mənfi təsir göstərir. Digər tərəfdən, beynəlxalq və milli tədqiqatlarda inklüziv hazırlığın qanunauyğunluqları və prinsiplərinin vahid sistem şəklində təqdim olunmasına ehtiyac qalmaqdadır. Bu baxımdan tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının qanunauyğunluqlar və prinsiplər əsasında əsaslandırılması aktual elmi-pedaqoji problem kimi çıxış edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatda tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığı konsepsiyası sistemlərin mövcudluğu və fəaliyyəti, sosial münasibətlərin formalaşması və pedaqoji prosesin əsas qanunauyğunluqları kontekstində kompleks şəkildə əsaslandırılır. İlk dəfə olaraq inklüziv fəaliyyətə hazırlığın ümumi və xüsusi prinsipləri qarşılıqlı əlaqədə təqdim edilir və onların funksional məzmunu açıqlanır. Avropa, Rusiya və Amerika modellərinin nəzəri ideyalarının müqayisəli təhlili əsasında inklüziv hazırlığın multidissiplinar və inteqrativ xarakteri elmi baxımdan əsaslandırılır. Tədqiqatda inklüziv hazırlığın struktur komponentləri ilə pedaqoji qanunauyğunluqlar arasında əlaqə müəyyənləşdirilir. Eyni zamanda, preventiv adaptasiya, diaqnostika, çətinliklərin identifikasiyası və kompensasiyası kimi prinsiplərin inklüziv hazırlıq sistemində rolu elmi şəkildə izah olunur. Bu yanaşma gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının nəzəri modelinin zənginləşdirilməsinə xidmət edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri ali pedaqoji təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin hazırlanması proqramlarının təkmilləşdirilməsində istifadə oluna bilər. Təklif olunan qanunauyğunluqlar və prinsiplər əsasında inklüziv fəaliyyətə hazırlıq üzrə xüsusi kursların və modul proqramların hazırlanması mümkündür. Tədqiqat materialları gələcək tərbiyəçi-müəllimlərin inklüziv kompetensiyalarının diaqnostikası və inkişafı üçün metodik vəsaitlərin tərtibində tətbiq oluna bilər. Eyni zamanda, bu yanaşmalar məktəbəqədər təhsil müəssisələrində inklüziv mühitin formalaşdırılmasına praktik dəstək verir. Müəllimlərin peşəkar inkişaf proqramlarında bu nəticələrdən istifadə onların inklüziv fəaliyyətə psixoloji və metodiki hazırlığını gücləndirə bilər. Nəticə etibarilə, tədqiqat inklüziv təhsilin keyfiyyətinin yüksəldilməsinə və uşaqların sosial inteqrasiyasının təmin olunmasına real töhfə verir.

## Ədəbiyyat


1. Bertalanffy, L. vo). General System Theory: Foundations, Development, Applications. New York: George Braziller. 289 s. 1968.
2. Luhmann, N. Social Systems. Stanford: Stanford University Press. 528 s. 1995.
3. Katz, D., & Hass, R. L. Social Psychology and Social Change. In J. J. Mansbridge (Ed.), Beyond Self-Interest (pp. 115–136). Chicago: University of Chicago Press. 1988.
4. Allport, G. W. Attitudes. In C. Murchison (Ed.), Handbook of Social Psychology (pp. 798–844). Worcester, MA: Clark University Press. 1935.
5. Ajzen, I., & Fishbein, M. Understanding Attitudes and Predicting Social Behavior. Englewood Cliffs, NJ: Prentice-Hall. 1980.
6. Vıqotskiy L.S. Mind in Society: The Development of Higher Psychological Processes. – Cambridge, MA: Harvard University Press, 1978. – 159 s.
7. Dewey J. Experience and Education: 60th Anniversary Edition. – West Lafayette, IN: Kappa Delta Pi, 1998. – 181 s.
8. Freire, P. Pedagogy of the Oppressed: 50th Anniversary Edition. – New York: Bloomsbury Academic, 2018. – 232 s.
9. Bertalanffy, L. von General System Theory: Foundations, Development, Applications. New York: George Braziller. 1968.
10. UNESCO.The Salamanca Statement and Framework for Action on Special Needs Education.https://unesdoc.unesco.org/ark:/48223/pf0000098427. 1994.
11. European Agency for Special Needs and Inclusive Education. Inclusive Education in Europe: Putting theory into practice. Odense, Denmark: European Agency for Special Needs and Inclusive Education. https://www.european-agency.org/resources/publications/inclusive-education-europe-putting-theory-practice. 2018.
12. European Agency for Special Needs and Inclusive Education. Inclusive Education in Europe: Putting theory into practice. https://www.european-agency.org/resources/publications/inclusive-education-europe-putting-theory-practice. 2018.
13. Иванова, Е.В. Инновационные технологии в подготовке педагогов к инклюзивному образованию // Педагогическое образование в России. 2019, №2, 45–52.
14. Rose, D.H., Universal Design for Learning. Journal of Special Education Technology. 2001, №2, p. 66-67

15. Психокоррекционная и развивающая работа с детьми: Учеб. пособие для студ. сред. пед. учеб. заведений / И.В.Дубровина, А. Д. Андреева, Е.Е.Данилова, Т. В. Вохмянина; Под ред. И.В.Дубровиной. – М.: Издательский центр «Академия», 1998. -160 с.

16. Florian, L., & Pantić, N. Supporting all educators to take part in teacher professional learning for inclusion. Education Sciences, .2023,№5, p.529. https:// www.researchgate. net/ publication/ 370198022_Supporting_All_Educators_to_Take_Part_in_Teacher_Professional_Learning_fo r_Inclus on

17. Əhmədov B.A.Pedaqogikanın qanunları və prinsipləri. Bakı, maarif, 1993. 260 s.

18. Christine Grové, Stella Laletas, Christine Grove, Umesh Sharma: "Five principles of inclusive education". Monash University. 2019. https: //www. monash. edu/ education/ teachspace/articles/five-principles-of-inclusive-education

**N.A.Qəhrəmanova**

**Gələcək tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının qanunauyğunluqları və prinsipləri**

**Xülasə**

Tədqiqatda tərbiyəçi-müəllimlərin inklüziv fəaliyyətə hazırlığının elmi-pedaqoji qanunauyğunluqlar və prinsiplər əsasında formalaşdırılmasının nəzəri əsasları araşdırılmışdır. Müəllim hazırlığı prosesinin sistemli, məqsədyönlü və dinamik xarakter daşıdığı, pedaqoji, psixoloji və sosial faktorların qarşılıqlı vəhdətinə əsaslandığı əsaslandırılmışdır. Avropa, Rusiya və Amerika modellərinin müqayisəli təhlili inklüziv hazırlığın multidissiplinar mahiyyətini ortaya qoymuşdur. Müəyyən edilmiş qanunauyğunluqlar müəllimlərin bilik, bacarıq, münasibət və dəyər sisteminin kompleks inkişafını şərtləndirir. Ümumi və xüsusi prinsiplər gələcək tərbiyəçi-müəllimlərin peşəkar kompetensiyalarının məqsədyönlü formalaşdırılmasına xidmət edir. Tədqiqat nəticələri inklüziv təhsil mühitində səmərəli fəaliyyət göstərə bilən müəllimlərin hazırlanması üçün elmi-metodik baza yaradır.

**Н.А.Гахраманова**

**Закономерности и принципы подготовки будущих педагогов к инклюзивной деятельности**

**Резюме**

В исследовании раскрываются теоретические основы формирования готовности воспитателей-педагогов к инклюзивной деятельности на основе научно-педагогических закономерностей и принципов. Обосновано, что процесс подготовки носит системный, целенаправленный и динамический характер и опирается на интеграцию педагогических, психологических и социальных факторов. Сравнительный анализ европейской, российской и американской моделей показал междисциплинарную природу инклюзивной подготовки. Выявленные закономерности определяют комплексное развитие знаний,

умений, установок и ценностей будущих педагогов. Общие и специальные принципы направлены на целенаправленное формирование их профессиональных компетенций. Результаты исследования создают научно-методическую основу для подготовки педагогов, способных эффективно работать в инклюзивной среде.

**N.A.Gahramanova**

**Regularities and principles of preparing future educators for inclusive activities**
**Summary**

The study examines the theoretical foundations of forming preschool teachers' readiness for inclusive practice based on scientific-pedagogical regularities and principles. It is substantiated that the training process is systematic, purposeful, and dynamic, relying on the integration of pedagogical, psychological, and social factors. A comparative analysis of European, Russian, and American models reveals the multidisciplinary nature of inclusive teacher preparation. Identified regularities determine the comprehensive development of teachers' knowledge, skills, attitudes, and values. General and specific principles ensure the purposeful formation of professional competencies. The findings provide a scientific and methodological basis for preparing teachers capable of effective work in inclusive educational environments.

**Redaksiyaya daxil olub:** 06.02.2026

*UOT 37.01*

# ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ И ЭТАПЫ РАЗВИТИЯ ИССЛЕДОВАТЕЛЬСКИХ УМЕНИЙ У БУДУЩИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ

**Гюнель Мухаммед гызы Мамедова**
*преподаватель кафедры педагогики начального образования Азербайджанского Государственного Педагогического Университета*
**ORCİD:** 0000-0002-6248-9265
**E-mail:** gunelmemmedova2806@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.32

***Ключевые слова:*** *учитель начальных классов, исследовательские, Умения, профессиональная компетентность, педагогические условия, подготовка учителей*

***Açar sözlər:*** *ibtidai sinif müəllimi, tədqiqatçılıq bacarığı, peşə səriştəsi, pedaqoji şərtlər, müəllim hazırlığı*

***Key words:*** *primary school teacher, research skills, professional competence, pedagogical conditions, teacher education*

Введение. Изучение возможностей и путей формирования профессиональных компетенций будущих учителей начальных классов, а также определение педагогических условий данного процесса остаются актуальной проблемой педагогической теории и практики. Однако данная проблема не является новой, поскольку ряд исследователей — В. И. Андреев [1], Д. В. Вилькеев [3], Т. М. Талманова [12], Т. Э. Мамедов [5], М. Р. Дадашова [4] — проводили исследования, связанные с уровнями развития исследовательских умений и творческой деятельности студентов, стремясь выявить особенности педагогического, логического, критического и творческого мышления личности. В работах Р. Вахида, С. Халима и Т. Халима «Развитие исследовательских навыков у студентов бакалавриата с использованием студентоцентрированных активных подходов обучения» [13], Сары Янины Медины Горди́льон «Развитие исследовательских умений у студентов университета» [11], а также в статье «Развитие исследовательских навыков» [14] представлен новый подход к рассмотрению данной проблемы.

Л.Ш.Абдуова, рассматривая проблему с синергетических позиций, считает необходимым при определении уровней развития исследовательских умений опираться на три критерия:

1. потребность (включающая цели, интересы, мотивы и потребности, побуждающие будущих учителей к исследовательской деятельности);
2. личностное стремление (включающее знания, составляющие индикативную основу исследовательской деятельности);
3. деятельность (включающая индивидуальные умения, необходимые для реализации исследовательских задач) [2, с. 14].

На наш взгляд, второй критерий в данной классификации сформулирован некорректно, поскольку между содержанием и формой наблюдается противоречие: если в со-

держании речь идёт о знаниях как основе индуктивной деятельности, то более целесообразно было бы обозначить критерий не как «личностное стремление», а как «знание». Л.Ш. Абдуова рассматривает формирование исследовательских умений у студентов как часть необходимых компетенций (умений), которыми они должны овладеть. На основе данного подхода автор выделяет три уровня развития исследовательских умений студентов:

1. пассивно-подражательный;
2. активно-поисковый;
3. интенсивно-творческий.

Обращает на себя внимание использование двойных наименований уровней. По нашему мнению, более корректно обозначать их как пассивное подражание, активный поиск и интенсивное творчество. Кроме того, вызывает сомнение характеристика первого уровня (пассивно-подражательного), поскольку деятельность студента, осуществляющего поиск информации в учебниках, учебных пособиях, лекционных материалах и научной литературе, не может рассматриваться как пассивная.

Следует отметить, что среди исследователей отсутствует единая точка зрения относительно количества уровней развития исследовательской компетентности студентов: одни выделяют три уровня, другие — пять. Наибольшую трудность представляет определение критериев и показателей, соответствующих каждому уровню. Установление чётких и общепринятых критериев имеет особую значимость. В сфере образования существуют критерии, утверждённые на государственном уровне. Так, 29 июля 2020 года Кабинетом Министров Азербайджанской Республики были утверждены «Критерии по видам общеобразовательных учреждений».

В словаре понятие «критерий» определяется как «основной признак, служащий для оценки или классификации какого-либо явления, деятельности или поведения» [10]. А.А. Габайдуллин под критерием понимает «совокупность качеств, свойств и признаков, позволяющих оценить состояние и уровень развития исследуемого объекта» [6, с. 12]. Показатель же представляет собой специфическую количественную или качественную характеристику, позволяющую объективно оценить объект, процесс или явление. Показатели формируют представление о ходе процесса посредством числовых данных, диаграмм и таблиц.

Исследовательские умения предполагают способность будущих учителей эффективно заниматься научными исследованиями и применять данные умения в ходе академической деятельности. Развитие исследовательских умений студентов имеет особое значение в системе высшего педагогического образования. Способность студентов критически анализировать различные виды информации (научную, педагогическую, политическую, экономическую и др.), проводить самостоятельные исследования, обогащать научную эрудицию и педагогическое мышление напрямую зависит от уровня сформированности их исследовательских умений. Уровень развития исследовательских умений формируется под воздействием различных факторов, таких как образовательная среда, дисциплина и личностные качества.

Как отмечалось выше, в научных исследованиях предложены различные классификации, модели и уровни развития исследовательских умений. Обратимся к наиболее

часто упоминаемым в научно-педагогической литературе уровням.

Начальный уровень (первичный этап).

На данном уровне студент знакомится с технологией педагогического исследования (цель, задачи, принципы, методы и др.), овладевает первоначальными знаниями и умениями в области исследования. В ряде исследований данный этап обозначается как уровень базовой информированности. Студенты знакомятся с концепцией и методологией психолого-педагогических исследований, усваивают этические нормы исследовательской деятельности (обязательное указание источников, соблюдение этики при формулировании критических суждений, недопущение плагиата и др.), учатся обобщать педагогический опыт. В процессе лекционных и семинарских занятий по отдельным дисциплинам студенты начинают исследовательскую деятельность путём сбора информации по теме из различных источников, включая научную литературу и интернет-ресурсы. Под руководством преподавателей они вовлекаются в простейшие исследования, что способствует формированию первоначальных представлений о научно-исследовательской деятельности.

Продвинутый уровень (второй уровень).

На данном этапе студенты уже овладевают базовыми исследовательскими умениями. Они учатся проводить самостоятельные исследования, формулировать исследовательские вопросы, собирать и обобщать данные, анализировать их и интерпретировать полученные результаты. Развиваются академические навыки чтения и письма, критическое мышление, информационные и цифровые компетенции. В отличие от начального уровня, студенты способны осуществлять сравнительный анализ и делать выводы на основе актуальных данных. Оценка самостоятельных работ, выполненных по отдельным дисциплинам в течение первого семестра, показывает, что за 3–4 месяца студенты приобретают определённые исследовательские умения. Наши наблюдения свидетельствуют о том, что развитие данных умений происходит неравномерно: из группы в 30 студентов лишь 3–4 человека демонстрируют творческий подход к заданиям, используя лекционные материалы, учебники, учебные пособия и результаты научных исследований для подготовки содержательных и интересных презентаций.

Уровень применения (третий этап).

На этом уровне студенты не только применяют полученные знания и умения по своей специальности на практике, но и участвуют в исследовательских проектах, проводят самостоятельные исследования, анализируют данные и формулируют значимые выводы. Под руководством преподавателей они представляют результаты своих исследований на заседаниях студенческих научных кружков, факультетских и университетских конференциях, а также публикуют их в научных сборниках. Уровень применения исследовательских умений в различной степени проявляется у студентов II–IV курсов. Начиная со второго курса, развитие данного уровня в значительной степени зависит от профессионализма преподавателя.

Высокий уровень (четвёртый уровень)

Студенты, достигшие данного уровня, обладают высоким уровнем знаний и умений по изучаемой специальности. Они принимают участие в разработке сложных исследовательских проектов, анализируют данные и формулируют значимые обобщения. Данный

этап представляет собой наивысший уровень развития исследовательских умений студентов. Они способны самостоятельно проводить исследования, вносить вклад в развитие своей области, а также критически оценивать существующие исследования и учебники.

Так, например, со студентами IV курса специальности «Педагогика начального образования» было организовано обсуждение учебников «Жизненные знания» (Həyat bilgisi), предназначенных для I–IV классов. К обсуждению были приглашены автор учебников Гюляр Мехдиева, старший преподаватель Т. Тагиева и доктор философии по педагогике Г. Ализаде. Анализ учебников был распределён между четырьмя группами (каждой группе был поручен учебник для I класса). Студенты высказали свои мнения относительно структуры учебников, иллюстративного оформления, последовательности размещения текстов, объёма информации для младших школьников и других аспектов, озвучив значительное количество критических замечаний. В частности, было предложено исключить задание, связанное с температурой воды, учитывая отсутствие у учащихся представлений о шкале Цельсия. Автор учебников отметил, что обоснованные замечания студентов будут учтены в последующих изданиях.

Студенты, достигшие высокого (четвёртого) уровня, в дальнейшем выбирают путь активной научно-исследовательской деятельности и с энтузиазмом участвуют в различных проектах. Так, в ходе участия студентов в II–III этапах конкурса АГПУ «Будущие образовательные лидеры Педагогического университета», завершившегося успешными результатами, удалось наблюдать проявление трёх высших уровней исследовательских умений. Конкурс, состоявший из четырёх этапов, наглядно продемонстрировал высокий уровень исследовательской компетентности значительной части студентов.

Несмотря на то что на первом этапе конкурса зарегистрировалось большое количество студентов, лишь 239 человек, набрав проходной балл, получили право участия в следующем туре. Участие студентов АГПУ в конкурсе по факультетам распределилось следующим образом:

1. математический факультет — 20 %;
2. факультет истории и географии — 16 %;
3. факультет химии и биологии — 14 %;
4. филологический факультет — 12 %;
5. факультет дошкольного образования — 11 %;
6. факультет начального образования — 9 %;
7. факультет искусства и физического воспитания — 3 %;
8. физический факультет — 3 %;
9. магистратура — 12 %.

Анализ результатов показывает, что по 100-балльной шкале наивысший результат продемонстрировал магистрант I курса Нурлан Гулиев (78 баллов), а наименьший результат — Азиза Йолчиева Надир кызы (40 баллов). При этом 4 студента набрали 70–78 баллов, 36 студентов — 60–70 баллов, 74 студента — 50–60 баллов, 125 студентов — 40–50 баллов. Лишь 1,7 % студентов показали высокий уровень, 15 % — средний, 31 % — низкий и 52,3 % — очень низкий уровень. Если считать показатели в диапазоне 80–100 баллов высшими, то ни один участник не достиг данного уровня на первом этапе

конкурса.

В ходе исследования были проанализированы причины, по которым более половины участников продемонстрировали низкий уровень. Выяснилось, что все студенты с высоким уровнем, 1 % студентов со средним уровнем, 25 % студентов с низким уровнем и 50 % студентов с очень низким уровнем не являлись членами студенческих научных обществ или научных кружков.

Во втором этапе конкурса приняли участие 224 студента, из которых лишь 119 смогли набрать необходимое количество баллов и пройти в следующий этап. Во втором туре 86 студентов набрали 100–134 балла, а 33 студента — 90–99 баллов. Одной из основных причин более высоких результатов на данном этапе стало то, что студенты самостоятельно проводили исследования, занимались научно-исследовательской деятельностью и работали в автономном режиме.

В ходе интервью с 10 победителями финального этапа конкурса и 10 обладателями специальных призов было установлено, что уровень их исследовательских умений является достаточно высоким. Выяснилось, что 7 из них ещё в период получения полного среднего образования являлись членами школьных «Малых академий». После поступления в АГПУ победители конкурса, начиная со второго полугодия первого курса, систематически привлекались к научно-исследовательской деятельности и овладели рядом исследовательских умений. Реализуемая в АГПУ инициатива направлена на выявление одарённых студентов, поддержку их профессионального развития и формирование кадрового потенциала будущего.

Следует отметить, что развитие исследовательских умений студентов представляет собой непрерывный процесс, в рамках которого они могут продвигаться по уровням в различной степени. Кроме того, необходимые специальные компетенции и умения могут варьироваться в зависимости от образовательной среды, личностных качеств и образовательных программ.

В ряде исследований к уровням развития исследовательских умений добавляется также ведущий уровень. Данный уровень относится не к будущим учителям, а к лицам, профессионально занимающимся научно-исследовательской деятельностью. На этом уровне исследователь является признанным лидером в своей области, участвует в крупных исследовательских проектах в качестве исполнителя или руководителя, оказывает влияние на развитие педагогической, психологической и методической мысли и вносит вклад в развитие своей сферы посредством инновационных подходов.

Если на начальном этапе у студентов формируются первичные исследовательские умения, то на последующих этапах они развиваются, совершенствуются и переходят на более высокий уровень. Каждый уровень способствует переходу к следующему, поскольку между ними существует преемственность. Каждый последующий этап качественно отличается от предыдущего и формируется в результате трансформации интегративных свойств предыдущего уровня в более совершенные. Это, в свою очередь, приводит к возрастанию роли внутренней мотивации в общей системе мотивов и формированию нового компонента в структуре исследовательской деятельности — творческого компонента.

Особого внимания требуют два аспекта:

1.формирование исследовательских умений у будущих учителей начальных классов представляет собой целостный процесс, основанный на единстве ценностно-мотивационного и операционального аспектов;

2.высокий уровень осведомлённости будущих учителей начальных классов о взаимозависимости мотивационного и операционального аспектов исследовательской деятельности оказывает существенное влияние на уровень развития исследовательских умений. Иными словами, чем выше уровень осведомлённости, тем выше уровень развития исследовательских умений.

Для определения уровней развития исследовательских умений у будущих учителей начальных классов в исследовании использовался комплекс методов. Так, с целью изучения направляющего (индикативного) компонента осуществлялось наблюдение за деятельностью студентов в учебном процессе и внеаудиторной деятельности, проводились анкетные опросы преподавателей и студентов. Кроме того, в процессе обучения и выполнения исследовательских работ посредством специальных заданий теоретического и практического характера студенты были ориентированы на изучение творческого и трансформативного компонентов исследовательских умений. Для получения общего представления о преобразующем и контрольном компонентах исследовательских умений результаты выполнения студентами экспериментальных заданий сопоставлялись с данными, полученными в ходе интервью.

Заключение

Таким образом, в последние годы в высших педагогических учебных заведениях появились новые исследования, направленные на изучение уровней развития профессиональных, когнитивных, мотивационных и исследовательских умений будущих учителей начальных классов. По результатам проведённого исследования можно сделать вывод о том, что при определении уровней развития исследовательских умений будущих учителей начальных классов наряду с общими критериями следует учитывать и более конкретные показатели. В связи с этим были выделены следующие критерии:

1.степень соответствия уровня исследовательских умений целям общества;

2.степень сформированности основных компонентов исследовательских умений (направляющего, творческого, трансформативного и контрольного);

3.степень самостоятельности будущих учителей начальных классов в учебном процессе и при выполнении исследовательских работ.

**Актуальность проблемы.** Актуальность статьи обусловлена научно-теоретическим анализом формирования исследовательских умений будущих учителей начальных классов, этапов их развития и основных характеристик. Кроме того, в статье определяются педагогические условия формирования профессиональных компетенций будущих учителей начальных классов.

**Научная новизна проблемы.** Научная новизна исследования заключается в комплексном использовании методов исследования для определения уровней развития исследовательских умений будущих учителей начальных классов, а также в применении совокупности методов и проведении обобщений в ходе анализа проблемы.

**Практическая значимость и применение.** Результаты исследования могут быть

использованы в системе высшего педагогического образования для формирования профессиональной подготовки будущих учителей начальных классов и разработки практических механизмов её реализации.

**Литература**

1. Андреев, В. И. Педагогика творческого саморазвития. Инновационный курс. Кн. 2. / В. И. Андреев. - Казань: Изд-во КГУ, - 1998. - 318 с.

2. Абдулова Л.Ш. Формирование исследовательской компетентности студентов колледжа на основе синергетического подхода. / Автореф. дисс. канд. пед. Наук / - Астрахань, 2009. - 18 с.

3. Вилькеев, Д.В. Противоречия познания в школьном обучении // - Москва: Советская педагогика. - 1970. №9. - с. 24-29.

4. Dadaşova, M. Pedaqoji fakültə tələbələrində yaradıcı təxəyyülün inkişafı / pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasının avtoreferatı. / - Bakı. 1989, - 25 s

5. Гирфанова, Е. Ю. Стимулирование исследовательской деятельности студентов / Е. Ю. Гирфанова, П. Н.Осипов. Казань: Школа, - 2006. - 156 с.

6. Губайдуллин А. А. Формирование исследовательской компетентности студентов в условиях проектного обучения. / Автореф. дис. ... к.п.н. / - Казань, 2011. - 23 с.

7. Гребенюк, О. С., Основы педагогики индивидуальности / О. С. Гребенюк, Т.Б. Гребенюк - Калининград, 2000. - 572 с.

8. Губайдуллин, А.А. Формирование исследовательской компетентности студентов в условиях проектного обучения. / Автореф. дис. ... к.п.н. / - Казань, 2011. - 23 с.

9. Məmmədov, T.Ə. Ali pedaqoji təhsil sistemində tələbələrin tədris,elmi və ictimai fəaliyyətinin qarşılıqlı əlaqəsi. / pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasının avtereferatı / - Bakı. 1989, - 26 s.

10. Meyar sözünün mənası nədir. URL:https://www.azleks.az/az/online-dictionary/meyar

11. Medina Gordillo, S. Y. Development of research skills in new university students. In CEUR Workshop Proceedings (Vol. 2555, Paper 32). Retrieved from https://ceur-ws.org/Vol-2555/paper32.pdf

12. Талманова, Т.М. Формирование исследовательской компетенции учителя начальных классов в системе непрерывного образования. / Автореф. дис.. к. п. н. / Москва, 2003. - 19 с.

13. Wahid, R., Halim, S., Halim, T. King Khalid University Developing Research Skills among Undergraduate Students by Student-centered Active Learning URL:https://www.researchgate.net/publication/377158561_Developing_Research_Skills_among_Undergraduate_Students_by_Student-centered_Active_Learning_Approaches

14. University of Oregon. Research skills development. Office of the Vice President for Research and Innovation. Retrieved from https:// research.uoregon.edu/plan/undergraduate-research/resources/research-skills-developme

**Г.М.Мамедова**

**Основные характеристики и этапы развития исследовательских умений у будущих учителей начальных классов**

**Резюме**

В статье системно анализируются теоретические и практические аспекты формирования исследовательских умений у будущих учителей начальных классов, сопоставляются различные научные подходы и уровневые модели. Обосновывается необходимость уточнения критериев и показателей для определения уровней развития исследовательских умений. Раскрывается содержание начального, продвинутого, прикладного и высокого уровней, проводится эмпирический анализ на основе результатов конкурса, проведённого в АГПУ. В результате делается вывод о том, что развитие данных умений осуществляется поэтапно и на основе принципа преемственности, в единстве мотивационного и операционального компонентов, при этом значительную роль в данном процессе играют образовательная среда и вовлечение в научную деятельность

**G.M.Məmmədova**

**Gələcək ibtidai sinif müəllimlərində tədqiqatçılıq bacarığının əsas xüsusiyyətləri və inkişaf mərhələləri**

**Xülasə**

Məqalədə gələcək ibtidai sinif müəllimlərində tədqiqatçılıq bacarığının formalaşdırılmasının nəzəri və praktik aspektləri sistemli şəkildə təhlil olunur, müxtəlif elmi yanaşmalar və səviyyə modelləri müqayisə edilir. Tədqiqatçılıq bacarığının inkişaf səviyyələrinin müəyyənləşdirilməsi üçün meyar və göstəricilərin dəqiqləşdirilməsinin zəruriliyi əsaslandırılır. Başlanğıc, üstün, tətbiqetmə və yüksək səviyyələrin məzmunu açıqlanır, ADPU-da keçirilən müsabiqənin nəticələri əsasında empirik təhlil aparılır. Nəticədə bu bacarığın motivasiya və əməliyyat komponentlərinin vəhdəti əsasında, mərhələli və varislik prinsipi ilə inkişaf etdiyi, prosesdə təhsil mühiti və elmi fəaliyyətə cəlbetmənin mühüm rol oynadığı qənaətinə gəlinir.

**G.M.Mammadova**

**Core Characteristics and Development Stages of Research Skills in Future Primary School Teachers**

**Summary**

The article provides a systematic analysis of the theoretical and practical aspects of developing research skills in future primary school teachers, comparing various scientific approaches and level-based models. The necessity of clarifying criteria and indicators for identifying the levels of research skill development is substantiated. The content of the initial,

advanced, applied, and high levels is described, and an empirical analysis is conducted based on the results of a competition held at ASPU. The findings indicate that research skills develop progressively and in accordance with the principle of continuity, through the integration of motivational and operational components, with the educational environment and engagement in scientific activity playing a crucial role in this process.

**Redaksiyaya daxil olub:** 13.02.2026

*UOT 37.01*

# TƏLİM PROSESİNDƏ DİFFERENSİALLAŞMANI HƏYATA KEÇİRİLMƏSİNDƏ MÜƏLLİMİN ROLU

**Gülnarə Həzi qızı Paşayeva**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCID:** 0009-0005-7095-6395
**E-mail:** gmh.pashayeva@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.33

***Açar sözlər:*** *diferensiallaşdırılmış təlim, müəllimin rolu, şagirdyönümlü yanaşma, təlim prosesi, inklüziv təhsil*

***Ключевые слова:*** *дифференцированное обучение, роль учителя, учебный процесс, индивидуальный подход, инклюзивное образование*

***Key words:*** *differentiated instruction, teacher's role, teaching process, student-centered learning, inclusive education*

Təlim prosesində diferensiallaşmanın həyata keçirilməsi müasir təhsil sisteminin əsas tələblərindən biri kimi çıxış edir və şagirdlərin fərdi xüsusiyyətlərinin, bilik səviyyələrinin, öyrənmə tempinin və maraqlarının nəzərə alınmasını zəruri edir. Bu yanaşmanın uğurla tətbiqi isə birbaşa müəllimin peşəkar fəaliyyətindən, pedaqoji yanaşmasından və təlim prosesini çevik şəkildə idarə etmək bacarığından asılıdır. Müəllim diferensiallaşdırılmış təlimdə yalnız bilik ötürən deyil, eyni zamanda öyrənmə prosesini planlaşdıran, təşkil edən, istiqamətləndirən və dəstəkləyən əsas subyekt kimi çıxış edir. Bu baxımdan, təlim prosesində diferensiallaşmanın effektiv şəkildə həyata keçirilməsində müəllimin rolu həm təlim keyfiyyətinin yüksəldilməsi, həm də bütün şagirdlər üçün bərabər öyrənmə imkanlarının yaradılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Diferensiallaşmanın təlim prosesində zəruriliyi beynəlxalq miqyasda aparılmış genişmiqyaslı tədqiqatlarla təsdiqlənmişdir. OECD tərəfindən aparılan PISA əsaslı analizlər göstərir ki, eyni sinif daxilində şagirdlər arasında akademik fərqlər bəzi hallarda 3–4 illik öyrənmə fərqinə bərabər olur. Bu nəticə vahid təlim modelinin bütün şagirdlərin ehtiyaclarını qarşılamaq gücündə olmadığını sübut edir [1].

OECD-nin "Education at a Glance 2019" hesabatına əsasən, diferensiallaşdırılmış və fərdi ehtiyaclara uyğunlaşdırılmış təlim strategiyalarının tətbiq edildiyi siniflərdə şagird nailiyyətləri ənənəvi təlim modelləri ilə müqayisədə 10–20% daha yüksək olmuşdur. Hesabatda xüsusilə aşağı nəticə göstərən və sosial baxımdan həssas qruplara aid olan şagirdlərin akademik irəliləyişinin daha sürətli baş verdiyi vurğulanır [2].

Şagirdyönlü və diferensiallaşdırılmış təlimin təlimə cəlbetmə səviyyəsinə təsiri də empirik olaraq sübut edilmişdir. Avropa Komissiyasının "Supporting Student-Centred Learning" adlı hesabatına görə, bu yanaşmaların tətbiq edildiyi məktəblərdə dərsdə fəal iştirak 30–40%, dərsə davamiyyət isə orta hesabla 12–15% artmışdır [5]. Bu fakt diferensiallaşmanın yalnız akademik nəticələrə deyil, həm də şagird davranışına müsbət təsir göstərdiyini göstərir.

İnklüziv təhsil kontekstində diferensiallaşmanın rolu UNESCO tərəfindən aparılmış tədqiqatlarda xüsusi vurğulanır. UNESCO-nun "Global Education Monitoring Report 2021" hesabatına əsasən, diferensial yanaşmalar tətbiq edilən inklüziv siniflərdə xüsusi təhsil ehtiyacları olan şagirdlərin akademik göstəriciləri 25–35% artmış, məktəbdən yayınma halları isə 20%-ə qədər azalmışdır [4].

Səriştə əsaslı yanaşma çərçivəsində diferensiallaşmanın təsiri OECD-nin Future of Education and Skills 2030 layihəsi çərçivəsində aparılmış tədqiqatlarla sübut edilmişdir. Bu tədqiqatlara görə, diferensiallaşdırılmış səriştə əsaslı təlim tətbiq edilən məktəblərdə problem həll etmə və tənqidi düşünmə bacarıqları üzrə nəticələr 15–22% daha yüksək olmuşdur [3].

Rəqəmsal təlim mühitlərində diferensiallaşmanın effektivliyi Avropa İttifaqının "Digital Education Action Plan 2021–2027" sənədində statistik göstəricilərlə təsdiqlənmişdir. Hesabata əsasən, adaptiv rəqəmsal platformalardan istifadə edilən dərslərdə şagirdlərin fərdi irəliləyiş tempi orta hesabla 1,3 dəfə sürətlənmişdir [6].

Müəllimin təlim prosesində diaqnostik rolu diferensiallaşmanın əsas başlanğıc nöqtəsi hesab olunur. Diaqnostik fəaliyyətlər vasitəsilə müəllim şagirdlərin mövzuya dair ilkin bilik səviyyəsini, əvvəlki öyrənmə təcrübəsini və mövcud bilik boşluqlarını müəyyən edir. Bu mərhələ olmadan diferensiallaşdırılmış təlimin planlaşdırılması mümkün deyil, çünki müəllim şagirdlərin real ehtiyaclarını bilmədən onlara uyğun təlim strategiyası seçə bilməz. Elmi araşdırmalar göstərir ki, diaqnostik qiymətləndirmə aparılmayan siniflərdə təlim əsasən orta səviyyəyə yönəlir və zəif və ya yüksək potensiallı şagirdlərin ehtiyacları nəzərə alınmır.

Diaqnostik rol çərçivəsində müəllim yalnız test nəticələrinə deyil, şagirdlərin davranışlarına, sualvermə bacarıqlarına, tapşırıqları yerinə yetirmə sürətinə və düşünmə tərzinə də diqqət yetirir. Bu proses müəllimə şagirdləri şərti olaraq zəif, orta və güclü öyrənənlər qruplarına ayırmağa imkan verir. OECD tərəfindən aparılmış tədqiqatlara əsasən, eyni sinif daxilində şagirdlərin akademik səviyyələri arasında fərq bəzi hallarda 3 illik öyrənmə fərqinə qədər çata bilir [2]. Bu fakt müəllimin diaqnostik fəaliyyətinin əhəmiyyətini daha da artırır.

Formativ qiymətləndirmə diaqnostik rolun əsas vasitələrindən biri kimi çıxış edir. Müəllim dərs prosesində müşahidə, şifahi suallar, qısa tapşırıqlar, refleksiya vərəqləri və geribildirimlər vasitəsilə şagirdlərin mövzunu hansı səviyyədə mənimsədiyini müəyyən edir. Black və Wiliam tərəfindən aparılmış genişmiqyaslı meta-təhlilə görə, formativ və diaqnostik qiymətləndirmənin sistemli tətbiqi şagird nailiyyətlərini orta hesabla 30–40% artırır. Bu artım xüsusilə zəif nəticə göstərən şagirdlərdə daha aydın müşahidə olunur.

Diaqnostik qiymətləndirmənin diferensiallaşmaya verdiyi əsas töhfələrdən biri fərdi planlaşdırmanın səmərəliliyini yüksəlməsidir. Müəllim əldə etdiyi diaqnostik məlumatlar əsasında dərsin məzmununu, tapşırıqların səviyyəsini və tədris üsullarını şagirdlərin real ehtiyaclarına uyğunlaşdırır. UNESCO-nun inklüziv təhsil üzrə hesabatlarında qeyd olunur ki, diaqnostik qiymətləndirməyə əsaslanan fərdi təlim planları tətbiq edilən siniflərdə təlimin effektivliyi 30–40%, şagirdlərin dərsə adaptasiyası isə 25%-ə qədər yüksəlmişdir [4].

Müəllimin diaqnostik rolu təlim prosesində bərabər imkanların yaradılmasına xidmət edir. Diaqnostik məlumatlar əsasında müəllim zəif şagirdlər üçün əlavə dəstək, güclü şagirdlər üçün isə genişləndirici tapşırıqlar təqdim edir. Bu yanaşma həm akademik uğursuzluğun qarşısını alır, həm də yüksək potensiallı şagirdlərin inkişafını sürətləndirir. Nəticə etibarilə, müəllimin diaqnostik rolu diferensiallaşdırılmış təlimin səmərəli həyata keçirilməsinin əsas şərti kimi çıxış

edir və təlim keyfiyyətinə birbaşa təsir göstərir.

Müəllimin planlaşdırıcı rolu diferensiallaşdırılmış təlimin praktik müstəvidə reallaşmasını təmin edən əsas funksional istiqamətlərdən biridir. Planlaşdırma mərhələsində müəllim təlim məqsədlərini, məzmunu, metod və vasitələri şagirdlərin fərdi ehtiyaclarına uyğun şəkildə sistemləşdirir. Diferensiallaşdırılmış planlaşdırma zamanı dərs əvvəlcədən yalnız bir səviyyəyə deyil, müxtəlif öyrənmə səviyyələrinə istiqamətlənir ki, bu da bütün şagirdlərin təlim prosesinə cəlb olunmasına imkan yaradır.

Beynəlxalq tədqiqatlar göstərir ki, fərqli səviyyəli tapşırıqlarla planlaşdırılmış dərslər akademik nəticələrə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. OECD məlumatlarına əsasən, çevik və diferensial planlaşdırma tətbiq edilən siniflərdə şagird nailiyyətləri ənənəvi planlaşdırma ilə müqayisədə 15–25%, zəif nəticə göstərən şagirdlərdə isə 30%-ə qədər artım nümayiş etdirmişdir. Bu fakt planlaşdırma mərhələsinin diferensiallaşmanın uğurunda həlledici rol oynadığını sübut edir.

Planlaşdırıcı rol çərçivəsində müəllim eyni mövzunu müxtəlif təqdimat formalarında şagirdlərə çatdırır. Məsələn, mövzu mətn formasında izah edilərkən oxu bacarıqları inkişaf etdirilir, vizual materiallardan istifadə edildikdə qavrama və yadda saxlama səviyyəsi yüksəlir, praktiki fəaliyyətlər isə tətbiq və problem həll etmə bacarıqlarını gücləndirir. Təhsil psixologiyası üzrə aparılmış tədqiqatlara görə, çoxkanallı təqdimat formalarından istifadə edilən dərslərdə mövzunun mənimsənilməsi 20–35% daha yüksək olur [4].

Müəllimin planlaşdırıcı rolu diferensial tapşırıqların səviyyələndirilməsi ilə də xarakterizə olunur. Əsas səviyyəli tapşırıqlar minimum nəticələrin əldə edilməsinə yönəlir və bütün şagirdlər üçün baza biliklərin formalaşmasını təmin edir. Orta səviyyəli tapşırıqlar əldə edilmiş biliklərin tətbiqini və real situasiyalarda istifadəni nəzərdə tutur. Yüksək səviyyəli tapşırıqlar isə analiz, sintez və yaradıcılıq bacarıqlarının inkişafına xidmət edir. OECD-nin səriştə əsaslı təhsil üzrə hesabatlarında qeyd olunur ki, səviyyələndirilmiş tapşırıqlardan istifadə edilən siniflərdə yüksək səviyyəli düşünmə bacarıqları 18–22% daha sürətli inkişaf edir.

Çevik dərs planları müəllimə təlim prosesini real vaxtda tənzimləmək imkanı verir. Şagirdlərin dərsdəki reaksiyalarına, cavablarına və çətinliklərinə əsaslanaraq planlaşdırmada operativ dəyişikliklərin edilməsi təlimin effektivliyini artırır. Avropa Komissiyasının 2020-ci il hesabatına əsasən, çevik planlaşdırma tətbiq edilən dərslərdə dərsdə fəal iştirak səviyyəsi 25–30%, şagird məmnunluğu isə 20%-dən çox artmışdır.

Müəllimin planlaşdırıcı rolu diferensiallaşdırılmış təlimin struktur əsasını təşkil edir. Fərqli səviyyəli tapşırıqlar, çoxşaxəli təqdimat üsulları və çevik dərs planları şagirdlərin potensial imkanlarını nəzərə almağa, təlim keyfiyyətini yüksəltməyə və səriştə əsaslı nəticələrin əldə edilməsinə imkan yaradır. Real statistik göstəricilər sübut edir ki, səmərəli planlaşdırma diferensiallaşmanın ən güclü alətlərindən biridir.

Müəllimin təlim prosesində təşkilatçı rolu diferensiallaşdırılmış təlimin sinif mühitində real və davamlı şəkildə həyata keçirilməsində həlledici əhəmiyyətə malikdir. Bu rol müəllimin yalnız dərsi aparan şəxs deyil, eyni zamanda təlim fəaliyyətlərini strukturlaşdıran, koordinasiya edən və şagirdlər arasında qarşılıqlı əlaqəni tənzimləyən əsas amil olduğunu göstərir. Təşkilatçı rol vasitəsilə müəllim sinifdə öyrənmə üçün əlverişli sosial və pedaqoji mühit formalaşdırır ki, bu da diferensiallaşmanın səmərəliliyini birbaşa artırır [10].

Fərdi, cüt və qrup işlərinin balanslaşdırılmış şəkildə təşkili təlim prosesinin əsas təşkilati

mexanizmlərindən biri hesab olunur. Fərdi işlər şagirdlərin müstəqil öyrənmə, özünüidarə və məsuliyyət bacarıqlarını inkişaf etdirir, cüt işlər qarşılıqlı öyrənmə və peer-learning imkanları yaradır, qrup işləri isə əməkdaşlıq, ünsiyyət və sosial inteqrasiya bacarıqlarının formalaşmasına xidmət edir. OECD məlumatlarına görə, bu fəaliyyət formalarının sistemli və balanslı tətbiqi siniflərdə ümumi akademik nailiyyətləri 15–20%, zəif nəticə göstərən şagirdlərdə isə 25%-ə qədər artırır.

Müəllimin təşkilatçı rolu diferensial tapşırıqların paylanması prosesində daha qabarıq şəkildə üzə çıxır. Diferensial tapşırıqlar şagirdlərin bilik səviyyəsi, öyrənmə tempi və maraqları nəzərə alınaraq təqdim edildikdə, təlim prosesində passivlik və motivasiya itkisi əhəmiyyətli dərəcədə azalır. Tomlinsonun tədqiqatlarına əsasən, diferensial tapşırıqlar tətbiq edilən siniflərdə şagirdlərin dərsdə fəal iştirakı 30%-dən çox, tapşırıqları tamamlama faizi isə 20–25% yüksəlir [10].

Qrup əsaslı diferensial fəaliyyətlər təşkilatçı rolun sosial ölçüsünü daha da gücləndirir. Müxtəlif akademik səviyyəyə malik şagirdlərin birgə fəaliyyət göstərməsi sosial öyrənmə mexanizmlərini aktivləşdirir və qarşılıqlı dəstək mühiti yaradır. Johnson və Johnsonun sosial qarşılıqlı asılılıq nəzəriyyəsinə əsasən, əməkdaşlığa əsaslanan qrup işləri şagirdlərin ünsiyyət bacarıqlarını, empati və məsuliyyət hissini əhəmiyyətli dərəcədə artırır. Bu nəticələr UNESCO-nun inklüziv təhsil üzrə hesabatlarında da təsdiqlənir: qrup əsaslı diferensial təlim tətbiq edilən siniflərdə şagirdlərin sosial bacarıqları orta hesabla 25%, əməkdaşlıq və komanda işi bacarıqları isə 35% yüksəlmişdir.

Zəif şagirdlərin təlim prosesindən kənarda qalmamasının təmin edilməsi müəllimin təşkilatçı rolunun əsas humanist aspektlərindən biridir. Müəllim qrup işləri zamanı rolları məqsədyönlü şəkildə bölüşdürərək hər bir şagirdin prosesdə aktiv iştirakını təmin edir. Bu yanaşma zəif şagirdlərin özünəinamını artırır, akademik və sosial təcridin qarşısını alır. Araşdırmalar göstərir ki, təşkilatlanmış və dəstəkləyici təlim mühitində zəif şagirdlərin irəliləyiş tempi 20–30% daha sürətli olur [3].

Təşkilatçı rol müəllimə sinifdə nizam-intizamı qorumaqla yanaşı, demokratik və əməkdaşlığa əsaslanan təlim mühiti yaratmağa imkan verir. Şagirdlərin birgə qərarvermə prosesinə cəlb edilməsi onların məsuliyyət hissini və öyrənməyə müsbət münasibətini gücləndirir. Avropa təhsil tədqiqatlarında qeyd olunur ki, bu cür təşkilati yanaşma tətbiq edilən siniflərdə dərsdə iştirak səviyyəsi 25–30%, şagird məmnunluğu isə 20%-dən çox artmışdır [5].

Müəllimin təlimin təşkilatçısı rolu diferensiallaşdırılmış təlimin effektivliyinin əsas təminatçılarından biri kimi çıxış edir. Fərdi, cüt və qrup işlərinin məqsədyönlü təşkili, diferensial tapşırıqların düzgün paylanması və bütün şagirdlərin prosesə cəlb edilməsi təlim keyfiyyətini yüksəldir, sosial bacarıqları gücləndirir və inklüziv təhsil mühitinin formalaşmasına güclü elmi əsaslarla töhfə verir.

Müəllimin motivator və psixoloji dəstək rolu diferensiallaşdırılmış təlimin emosional-psixoloji əsasını təşkil edir və şagirdlərin təlim prosesinə davamlı şəkildə cəlb olunmasında həlledici rol oynayır. Müasir pedaqogikada sübut olunmuşdur ki, şagirdlərin akademik nailiyyətləri təkcə bilik və bacarıqlardan deyil, eyni zamanda onların özünəinamı, motivasiya səviyyəsi və emosional rifahı ilə birbaşa bağlıdır. Bu baxımdan müəllim şagirdlər üçün təhlükəsiz, dəstəkləyici və stimullaşdırıcı öyrənmə mühiti yaratmaqla diferensiallaşmanın səmərəliliyini əhəmiyyətli dərəcədə artırır [8].

Motivator rol çərçivəsində müəllim hər bir şagirdin uğur hissini yaşamasına şərait yaradır. Uğurun yalnız yüksək nəticə ilə deyil, fərdi irəliləyişlə ölçülməsi şagirdlərin öyrənməyə münasibətini müsbət istiqamətdə dəyişir. Hattie-nin meta-təhlillərinə əsasən, müsbət geribildirim və uğur hissi yaradılan siniflərdə şagirdlərin təlimə cəlb olunma səviyyəsi orta hesabla 35–40% artır. Bu göstərici motivasiyayönlü diferensial yanaşmanın səmərəliliyini elmi əsaslarla təsdiqləyir.

Müqayisə yox, fərdi inkişaf prinsipinin tətbiqi müəllimin psixoloji dəstək rolunun əsas komponentlərindən biridir. Şagirdlərin bir-biri ilə müqayisə edilməsi əksər hallarda zəif nəticə göstərən şagirdlərdə stress, narahatlıq və motivasiya itkisinə səbəb olur. Əvəzində, fərdi inkişaf trayektoriyasına əsaslanan qiymətləndirmə şagirdlərin öz potensiallarına fokuslanmasına imkan yaradır. OECD hesabatında qeyd olunur ki, fərdi inkişafyönlü yanaşmalar tətbiq edilən siniflərdə şagirdlərin dərsə müsbət münasibəti 30%-dən çox yüksəlmişdir.

Zəif nəticə göstərən şagirdlərdə özünəinamın formalaşdırılması müəllimin motivator rolunun ən həssas və eyni zamanda ən vacib aspektlərindən biridir. Psixoloji tədqiqatlar göstərir ki, özünəinamı zəif olan şagirdlər akademik potensiallarının yalnız 50–60%-ni reallaşdıra bilirlər [9]. Müəllimin verdiyi dəstək, təşviqedici sözlər və fərdi uğurların vurğulanması isə bu şagirdlərin öyrənmə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Banduranın özünəinam (self-efficacy) nəzəriyyəsinə əsasən, yüksək özünəinam akademik davamlılığı və tapşırıqları yerinə yetirmə səviyyəsini 20–30% artırır.

Motivasiyayönlü diferensial yanaşmanın dərsdə iştirak səviyyəsinə təsiri də empirik olaraq sübut edilmişdir. UNESCO-nun inklüziv təhsil üzrə hesabatlarında göstərilir ki, motivasiya və psixoloji dəstəyə əsaslanan diferensial təlim tətbiq edilən siniflərdə şagirdlərin dərsdə fəal iştirakı 40%-ə qədər yüksəlmişdir. Bu artım xüsusilə sosial baxımdan həssas və akademik cəhətdən zəif şagird qruplarında daha aydın müşahidə olunur.

Psixoloji dəstək rolu eyni zamanda sinifdə müsbət emosional iqlimin formalaşmasına xidmət edir. Müəllim tərəfindən yaradılan hörmətə və etimada əsaslanan münasibətlər şagirdlərdə səhv etmək qorxusunu azaldır və öyrənməyə açıq mövqe formalaşdırır. Avropa Komissiyasının təhsil üzrə tədqiqatlarında qeyd olunur ki, psixoloji baxımdan təhlükəsiz sinif mühiti olan məktəblərdə akademik irəliləyiş 20–25%, məktəbdən yayınma halları isə əhəmiyyətli dərəcədə azalır [5].

Müəllimin motivator və psixoloji dəstək rolu diferensiallaşdırılmış təlimin emosional dayağını təşkil edir. Hər şagirdin uğur hissini yaşaması, fərdi inkişaf prinsipinin tətbiqi və zəif şagirdlərdə özünəinamın formalaşdırılması təlim prosesinin keyfiyyətini yüksəldir, dərsdə iştirak səviyyəsini artırır və davamlı öyrənməni təmin edir. Elmi tədqiqatlar sübut edir ki, motivasiyayönlü diferensial yanaşma müasir təhsildə alternativ deyil, zəruri pedaqoji strategiyadır.

Müəllimin qiymətləndirici rolu diferensiallaşdırılmış təlimin keyfiyyətini və davamlılığını təmin edən əsas funksional istiqamətlərdən biridir. Müasir təhsil yanaşmalarında qiymətləndirmə yalnız yekun nəticələrin ölçülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdin öyrənmə prosesinin izlənməsi, inkişaf trayektoriyasının müəyyənləşdirilməsi və vaxtında pedaqoji müdaxilənin həyata keçirilməsi vasitəsi kimi çıxış edir. Bu baxımdan müəllim qiymətləndirməni nəzarət mexanizmi deyil, təlimi dəstəkləyən inkişaf aləti kimi istifadə edir [7].

Prosesyönlü qiymətləndirmə müəllimə şagirdlərin mövzunu necə mənimsədiyini, hansı

mərhələdə çətinlik yaşadığını və hansı bacarıqların formalaşmaqda olduğunu müəyyən etməyə imkan verir. Nəticəyönlü qiymətləndirmədən fərqli olaraq, bu yanaşma şagirdin səhvlərini cəza predmeti deyil, öyrənmə üçün imkan kimi dəyərləndirir. Black və Wiliamın (1998) formativ qiymətləndirmə üzrə aparılmış fundamental tədqiqatına əsasən, prosesyönlü qiymətləndirmənin sistemli tətbiqi şagird nailiyyətlərini orta hesabla 20–30% artırır və öyrənmə itkilərinin erkən mərhələdə aşkar edilməsinə şərait yaradır.

Qiymətləndirici rol çərçivəsində müəllimin müxtəlif qiymətləndirmə vasitələrindən istifadə etməsi diferensiallaşmanın effektivliyini daha da gücləndirir. Portfolio metodu şagirdin uzunmüddətli inkişafını izləməyə, layihə işləri tətbiq və yaradıcılıq bacarıqlarını qiymətləndirməyə, müşahidə şagird davranışlarını və öyrənmə strategiyalarını təhlil etməyə, şifahi rəy isə dərhal geribildirim vasitəsilə motivasiyanı artırmağa imkan verir. OECD hesabatında qeyd olunur ki, müxtəlif qiymətləndirmə alətlərinin kombinasiyalı şəkildə tətbiqi şagirdlərin təlimə cəlb olunma səviyyəsini 25–30% yüksəldir.

Formativ qiymətləndirmə müəllimin qiymətləndirici rolunun mərkəzi komponenti kimi çıxış edir. Bu yanaşma müəllimə təlim prosesində davamlı məlumat toplamağa və əldə olunan nəticələrə əsasən dərsin məzmununu və metodlarını operativ şəkildə tənzimləməyə imkan verir. Hattie-nin meta-təhlillərinə görə, formativ geribildirim öyrənməyə təsir edən ən güclü amillərdən biridir və onun səmərəli ölçüsü çoxsaylı digər pedaqoji müdaxilələrdən daha yüksəkdir. Bu isə formativ qiymətləndirmənin öyrənmə itkilərinin vaxtında aradan qaldırılmasında əsas mexanizm olduğunu göstərir.

Qiymətləndirici rolun diferensiallaşdırılmış təlim baxımından ən mühüm üstünlüklərindən biri zəif şagirdlərin vaxtında müəyyən edilməsi və onlara fərdi dəstəyin göstərilməsidir. Formativ qiymətləndirmə nəticəsində müəllim şagirdlərin geri qalma səbəblərini erkən mərhələdə aşkar edir və əlavə izah, alternativ tapşırıqlar və fərdi geribildirim vasitəsilə bu boşluqları aradan qaldırır. UNESCO-nun inklüziv təhsil üzrə hesabatlarında göstərilir ki, formativ qiymətləndirməyə əsaslanan təlim mühitlərində öyrənmə itkiləri 20–25%, məktəbdən yayınma halları isə əhəmiyyətli dərəcədə azalır.

Prosesyönlü qiymətləndirmə şagirdlərin özünüqiymətləndirmə və refleksiya bacarıqlarının inkişafına şərait yaradır. Şagirdlər öz inkişaflarını izlədikdə və geribildirim aldıqda öyrənməyə daha məsuliyyətli yanaşır, məqsədlərini daha real şəkildə müəyyən edirlər. Avropa Komissiyasının təhsil tədqiqatlarına əsasən, reflektiv qiymətləndirmə tətbiq edilən siniflərdə öyrənmənin davamlılığı və akademik özünüidarə bacarıqları 20%-dən çox artmışdır [5].

Müəllimin qiymətləndirici rolu diferensiallaşdırılmış təlimin səmərəliliyini təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Nəticə ilə yanaşı prosesin qiymətləndirilməsi, müxtəlif qiymətləndirmə alətlərindən istifadə və formativ yanaşmanın tətbiqi öyrənmə itkilərinin vaxtında aradan qaldırılmasına, şagird inkişafının dəstəklənməsinə və təlim keyfiyyətinin yüksəldilməsinə güclü elmi əsaslarla töhfə verir.

**Problemin aktuallığı.** Diferensiallaşdırılmış təlimin effektivliyi bilavasitə müəllimin peşəkar fəaliyyəti və təlim prosesini məqsədyönlü şəkildə təşkil etmək bacarığı ilə əlaqəlidir. Diferensiallaşma yalnız metodlar toplusu deyil, müəllimin pedaqoji düşüncə tərzini, qərarvermə mexanizmlərini və şagirdə yanaşma modelini əhatə edən sistemli yanaşmadır. Bu baxımdan diferensiallaşdırılmış təlimin uğuru müəllimin təlim prosesində oynadığı çoxşaxəli rolların

harmonik şəkildə icrasından asılıdır.

**Problemin elmi yeniliyi.** Müasir təhsil mühitində müəllimin rolu yalnız bilik ötürülməsi ilə məhdudlaşmır. Müəllim eyni zamanda təlim prosesini dizayn edən, şagirdlərin öyrənmə ehtiyaclarını təhlil edən və təlim fəaliyyətlərini fasilitasiya edən əsas subyekt kimi çıxış edir. Bu yanaşma şagirdlərin fərdi inkişaf trayektoriyalarının formalaşmasına şərait yaradır və öyrənmə prosesini daha məqsədyönlü və nəticəyönlü edir. Gələcək təhsil modellərində müəllimin bu funksional rollarının daha da güclənəcəyi gözlənilir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Effektiv diferensiallaşdırılmış təlim bərabər imkanların yaradılmasına mühüm töhfə verir. Şagirdlərin bilik səviyyəsi, öyrənmə tempi və psixoloji xüsusiyyətlərindəki fərqlərin nəzərə alınması təlim prosesində ədalət prinsipinin təmin olunmasına imkan yaradır. Bu yanaşma gələcəkdə inklüziv təhsilin genişlənməsinə, təhsil sistemində sosial bərabərsizliyin azalmasına və bütün şagirdlərin potensial imkanlarının reallaşdırılmasına xidmət edə bilər.

Diferensiallaşma təlim keyfiyyətinin yüksəldilməsi baxımından da strateji əhəmiyyət daşıyır. Prosesyönlü qiymətləndirmə, fərqli səviyyəli tapşırıqlar və çevik planlaşdırma vasitəsilə təlimin səmərəliliyi artırılır və öyrənmə itkilərinin dərinləşməsinin qarşısı alınır. Gələcək perspektivdə bu yanaşmanın daha sistemli şəkildə tətbiqi akademik uğursuzluğun azaldılmasına və davamlı öyrənmə mühitinin formalaşmasına imkan verə bilər.

Diferensiallaşdırılmış təlim müasir təhsil üçün alternativ deyil, gələcəyə yönəlmiş zəruri pedaqoji yanaşma kimi qiymətləndirilməlidir. Müəllimin peşəkar hazırlığının gücləndirilməsi, diferensial yanaşmaların institusional səviyyədə dəstəklənməsi və bu sahədə davamlı inkişaf mexanizmlərinin yaradılması gələcəkdə təhsil sisteminin keyfiyyət göstəricilərinin yüksəldilməsində həlledici rol oynaya bilər.

## Ədəbiyyat

1. OECD. PISA 2018 nəticələri (Cild I): Tələbələrin bilik və bacarıqları. – Paris: OECD Publishing, – 354 s. – 2018.

2. OECD. Education at a Glance 2019: OECD indikatorları. – Paris: OECD Publishing, – 2019.

3. OECD. Future of Education and Skills 2030. – Paris: OECD Publishing, 2019 – 497 s.

4. UNESCO. Global Education Monitoring Report: Inclusion and Education. – Paris: UNESCO Publishing, 2021 – 128 s.

5. European Commission. Supporting Student-CentredLearning in European Schools. – Brussels: European Union, 2020 – 72 s.

6. European Commission. Digital Education Action Plan 2021–2027. – Brussels: European Union, 2021 – 18 s.

7. Black, P., & Wiliam, D. Assessment and Classroom Learning. – Assessment in Education: Principles, Policy & Practice, 1998 5(1), 7–74,

8. Hattie, J. Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement. – London: Routledge, 2009, – 392 s.

9. Bandura, A. Self-Efficacy: The Exercise of Control. – New York: W. H. Freeman, – 1997.

10. Tomlinson, C. A. The Differentiated Classroom: Responding to the Needs of All

Learners. – Alexandria, VA: ASCD, 2014. – 640 s

11. Johnson, D. W., & Johnson, R. T. An Educational Psychology Success Story: Social Interdependence Theory and Cooperative Learning. – Educational Researcher, 2009. 38(5), 264 p.

**G.H.Paşayeva**

**Təlim prosesində diferensiallaşmanı həyata keçirilməsində müəllimin rolu**
**Xülasə**

Müasir təhsil sistemində diferensiallaşdırılmış təlim şagirdlərin fərdi xüsusiyyətlərini, bilik səviyyələrini və öyrənmə ehtiyaclarını nəzərə alan əsas pedaqoji yanaşmalardan biri hesab olunur. Bu yanaşmanın effektiv şəkildə həyata keçirilməsi isə bilavasitə müəllimin peşəkar fəaliyyəti ilə bağlıdır. Məqalədə təlim prosesində diferensiallaşmanın tətbiqində müəllimin diaqnostik, planlaşdırıcı, təşkilatçı, motivator və qiymətləndirici rolları təhlil olunur. Müəllimin bu rolları məqsədyönlü şəkildə icra etməsi şagirdlərin dərsdə fəal iştirakını artırır, öyrənmə itkilərinin qarşısını alır və bərabər təhsil imkanlarının yaradılmasına şərait yaradır. Araşdırma nəticələri göstərir ki, diferensiallaşdırılmış təlimin uğuru müəllimin pedaqoji bacarıqları və çevik yanaşmaları ilə sıx bağlıdır.

**Г.Г.Пашаева**

**Роль учителя в реализации дифференциации в учебном процессе**
**Резюме**

В современной системе образования дифференцированное обучение рассматривается как эффективный педагогический подход, учитывающий индивидуальные особенности, уровень знаний и потребности учащихся. Успешная реализация данного подхода напрямую зависит от профессиональной деятельности учителя. В статье анализируется роль учителя в процессе дифференциации обучения, включая диагностическую, планирующую, организационную, мотивационную и оценочную функции. Эффективное выполнение этих ролей способствует повышению учебной активности учащихся, предупреждению учебных потерь и созданию равных образовательных возможностей. Результаты анализа показывают, что качество дифференцированного обучения в значительной степени определяется педагогической компетентностью и гибкостью учителя в организации учебного процесса.

**G.H.Pashayeva**

**The role of the teacher in implementing differentiation in the teaching process**
**Summary**

In modern education systems, differentiated instruction is considered an effective pedagogical approach that takes into account students' individual characteristics, learning

abilities, and educational needs. The successful implementation of this approach largely depends on the professional role of the teacher. This article examines the teacher's role in implementing differentiation in the teaching process, focusing on diagnostic, planning, organizational, motivational, and assessment functions. Effective performance of these roles increases student engagement, prevents learning gaps, and promotes equal learning opportunities. The findings indicate that the effectiveness of differentiated instruction is closely linked to the teacher's pedagogical competence, flexibility, and ability to adapt teaching strategies to diverse learners within the classroom environment.

**Redaksiyaya daxil olub:** 06.02.2026

*UOT 376.1*

# MÜƏLLİM KADRLARININ HAZIRLANMASI TƏHSİL İSLAHATLARININ STRATEJİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Elnurə Sədulla qızı Ağazadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0004-2001-7974
**E-mail:** elnureagazade00@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.34

***Açar sözlər:*** *müəllim hazırlığı, pedaqoji kadrlar, təhsil islahatları, əlavə təhsil, peşəkar inkişaf, müasir müəllim modeli, təhsil keyfiyyəti.*

***Ключевые слова:*** *подготовка учителей, педагогические кадры, реформы образования, дополнительное образование, профессиональное развитие, современная модель учителя, качество образования.*

***Key words:*** *teacher training, pedagogical staff, educational reforms, continuing education, professional development, modern teacher model, quality of education.*

Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi keyfiyyətli insan kapitalının formalaşdırılmasıdır. Bu məqsədə nail olmaq üçün strateji istiqamətlərdən biri də pedaqoji kadr hazırlığıdır. Müəllimlərin peşəkarlıq səviyyəsi birbaşa olaraq ümumtəhsil müəssisələrinin uğurunu və cəmiyyətin inkişafını şərtləndirir. Beləliklə, müəllim hazırlığı və onların davamlı inkişafı dövlətin və cəmiyyətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Müəllim fəaliyyətinin əsas istiqamətləri:

1.Tədris fəaliyyəti: Müəllim təlim prosesinin mərkəzi fiquru olaraq, təhsil standartlarına uyğun tədris proqramlarını həyata keçirməklə şagirdlərin bilik və bacarıqlarını formalaşdırır. Yeni pedaqoji texnologiyalar və aktiv təlim üsullarından istifadə bu fəaliyyətin effektivliyini artırır.

2.Sinifdənxaric və məktəbdənkənar fəaliyyət: Müəllim şagirdlərin əqli, əxlaqi, estetik və fiziki inkişafını təmin edən müxtəlif fəaliyyətləri təşəbbüs etməli və təşkil etməlidir. Bu fəaliyyətlər psixoloji mühiti yaxşılaşdırır, şagirdlər arasında əməkdaşlığı gücləndirir və onların peşə yönümünə töhfə verir.

3.Valideynlərlə iş: Valideyn-müəllim əməkdaşlığı şagirdlərin nizam-intizamı, davamiyyəti və ümumi inkişafı baxımından mühüm rol oynayır. Müasir məktəblərdə valideynlərlə əlaqələr həm üzbəüz, həm də elektron formada aparılır.

4.Təhsil müəssisəsinin aidiyyəti təşkilatlarla əlaqəsi: Müəllim cəmiyyətin müxtəlif strukturları ilə əməkdaşlıq etməklə məktəbin sosial mühitini formalaşdırır, hüquqi və sosial məsələlərin həllinə dəstək olur.

5.Müəllimin ixtisas və peşəkarlıq səviyyəsinin yüksəldilməsi: İxtisasartırma və əlavə təhsil müəllimlərin qloballaşan dünyanın çağırışlarına cavab verə bilməsi üçün zəruridir. Yeni biliklər, texnologiyalar və pedaqoji yanaşmalarla tanışlıq müəllimin professional inkişafını təmin edir. Vətən hər bir kəsin gözünü açdığı evdən başlayır. Daha sonra yaşayıb inkişaf etdikcə, həyatı anladıqca vətən kəlməsi daha dolğun mənalar kəsb edir. Hər bir vətəndaşın göz açdığı

doğma kəndi, vətəni əvəzolunmaz və bənzərsizdir.

Əlavə təhsil sistemi müəllimlərin yenidən hazırlanması və ixtisasartırması üçün mühüm vasitədir. Bu sahədə aparılan islahatlar, Təhsil Nazirliyinin təşəbbüsləri və müasir mexanizmlər, xüsusilə də İKT imkanlarından istifadə etməklə, təhsilin keyfiyyətinə mühüm töhfə verir. Beləliklə, müəllimlərin metodik və elmi-nəzəri bilik səviyyəsi davamlı olaraq artır. Müasir müəllim artıq "bilik ötürücüsü" deyil, öyrənməni yönləndirən bir bələdçidir. O, tədqiqatçı və yaradıcı düşüncəli şagirdlər yetişdirməyə yönəlmiş fasilitator rolunu oynayır. UNESCO tərəfindən XXI əsrin təhsil əsri elan edilməsi bu sahəyə verilən qlobal əhəmiyyəti bir daha təsdiqləyir. Müasir müəllim milli dəyərləri yaşadan, dünya mədəniyyətini mənimsəyən və təhsilin bütün iştirakçıları ilə əməkdaşlıq yaradan şəxsiyyət olmalıdır. Azərbaycan Respublikasında müəllim hazırlığı dövlət səviyyəsində strateji yanaşma ilə tənzimlənir. Nazirlər Kabinetinin 102 saylı qərarı (25 iyun 2007) pedaqoji təhsilin konsepsiya və strategiyasını müəyyən edir. Bu strategiyalar Bolonya Bəyanaməsi və Təhsil Qanunu ilə uyğunlaşdırılıb. Bu kontekstdə "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində beş prioritet istiqamət müəyyən edilmişdir:

1. Təhsilin məzmununun yenilənməsi – təhsil proqramlarının inkişaf etdirilməsi.
2. Səriştəli müəllim kadrlarının hazırlanması.
3. Şəffaf və səmərəli idarəetmə mexanizminin yaradılması.
4. Müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən infrastrukturun yaradılması (İKT-nın tətbiqi).
5. Maliyyələşdirmə modelinin qurulması.

Son illərdə cəmiyyətimizdə təhsildə gedən islahatlara, yeniliklərə böyük maraq yaranmışdır. Artıq yeni təlim texnologiyalarından istifadə etmək, şagirdlərin təhsilin subyektinə çevrilməsi real prosesə çevrilmişdir. Fəal, interaktiv təlim metodları nəticəsində müəllim-şagird əməkdaşlığının yaradılması ilə tədris prosesində yeni münasibətlər formalaşmışdır. Bütün bunların nəticəsində isə müəllimlərin ümumi pedaqoji-psixoloji bilik, bacarıq və müasir düşüncə tərzi inkişaf etməlidir. Müəllim ixtisaslar üzrə bilik, bacarıq və müasir təlim strategiyaları ilə təmin olunmalıdır. Müəllimin ümumi mədəni səviyyəsi inkişaf etdirilməlidir. Ümumiyyətlə, ixtisasartırma təhslində məzmun əsas amildir. Bu məzmunu təmin etmək üçün isə ixtisasartırma təhsilinin yeni mexanizmini bilmək vacibdir. Bunlar isə qloballaşan dünyada-kı yeniliklər, elmi-texniki tərəqqidəki nailiyyətlər, təhsil prosesində gedən yeniliklər haqqında müəllim kadrlarının məlumatlandırılmasını təmin edə bilər.

**Problemin aktuallığı.** XXI əsr müəllimi yalnız bilik ötürən deyil, həm də yaradıcı düşüncəni təşviq edən, şagirdləri istiqamətləndirən və cəmiyyətin mənəvi dəyərlərini formalaşdıran şəxsiyyət kimi çıxış edir. Müasir təhsil sistemi müəllimdən innovativ metodlardan istifadə etməyi, tənqidi düşüncə və sosial bacarıqları inkişaf etdirməyi tələb edir. Azərbaycanda təhsilin modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar bu sahədə yüksək səriştəli pedaqoqlara ehtiyacı artırır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqat müəllim hazırlığının yalnız ənənəvi aspektlərini deyil, həm də müasir çağırışlara cavab verən yeni rollarını və funksiyalarını nəzərdən keçirir. Müəllimin "öyrədən" rolundan "fasilitator" və "yaradıcılıqyönlü lider" roluna keçidi kontekstində aparılan elmi yanaşmalar mövzunun aktuallığını və yeniliyini artırır. Eyni zamanda, əlavə təhsil və fasiləsiz inkişaf mexanizmlərinin tətbiqi ilə pedaqoji kadrların peşəkar inkişafına dair yeni

modellər təklif olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Müəllim kadrlarının hazırlanmasının təhsil islahatlarının strateji istiqamətlərinə daxil olmasında özünü göstərir. Bu yanaşma həm də şagirdlərdə tənqidi və yaradıcı düşüncənin, əxlaqi dəyərlərin formalaşmasına imkan yaradır. Təcrübədə bu strategiya məktəb, ali məktəb və peşə təhsili müəssisələrində müəllimlərin peşəkar inkişafı və təlim keyfiyyətinin yüksəldilməsi üçün tətbiq olunur. Məqalədən ali məktəb pedaqoqları, magistrant və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyev, H. Müasir dövrdə müəllim hazırlığı problemləri. Bakı: Təhsil Nəşriyyatı. 2020.

2. Hacıyev, T. Təhsildə innovasiyalar və müəllim fəaliyyətinin yenilənməsi. Bakı: Elm və Təhsil. 2018.

3. Quliyev, R. Kurikulum islahatları və müəllim hazırlığı. Bakı: Adiloğlu. 2017.

4. UNESCO (2021). Teachers of the 21st Century: Professional Development and Innovation. Paris: UNESCO Publishing. 2021.

5. OECD. Future of Education and Skills 2030: OECD Learning Compass. Paris: OECD. 2019.

**E.S.Ağazadə**

## Müəllim kadrlarının hazırlanması təhsil islahatlarının strateji istiqamətlərindən biri kimi

### Xülasə

XXI əsr müəlliminin funksional rolu təhsil islahatları kontekstində elmi baxımdan araşdırılır. Müasir pedaqoji yanaşmada müəllim bilik ötürən subyekt deyil, təhsilalanların intellektual və yaradıcı potensialını inkişaf etdirən istiqamətləndirici kimi dəyərləndirilir. Pedaqoji kadrların hazırlanması təhsil keyfiyyətinin yüksəldilməsində strateji amil kimi müəyyən edilir. Müəllim fəaliyyətinin əsas komponentləri tədris prosesi, sosial-pedaqoji əməkdaşlıq və davamlı peşəkar inkişaf kontekstində təhlil olunur. İxtisasartırma və əlavə təhsil mexanizmləri müasir təhsil mühitinə uyğunlaşmanı təmin edən mühüm vasitə kimi çıxış edir. Elmi yenilik müəllimin ənənəvi rol modelinin müasir fasilitator yanaşması ilə əvəz olunmasında ifadə olunur

**Э.С. Агазаде**

## Подготовка педагогических кадров как одно из стратегических направлений образовательных реформ

### Резюме

Профессиональная роль учителя XXI века анализируется в условиях системных образовательных преобразований. Современный педагог рассматривается как активный субъект образовательного процесса, обеспечивающий развитие аналитического и

творческого мышления обучающихся. Подготовка педагогических кадров определяется как ключевой стратегический ресурс модернизации образования. Особое внимание уделяется направлениям педагогической деятельности, включая учебный процесс, социальное взаимодействие и профессиональное самосовершенствование. Система повышения квалификации выступает важным фактором адаптации учителей к изменяющимся требованиям образовательной среды. Научная новизна исследования заключается в концептуальном переосмыслении роли учителя как фасилитатора обучения.

**E.S. Agazade**

**Teacher training as one of the strategic directions of educational reforms. Summary**

The professional role of the 21st-century teacher is examined in the context of ongoing educational reforms. The teacher is conceptualized as an active facilitator who supports the development of learners' critical and creative thinking skills. Teacher training is identified as a strategic component in improving the overall quality of education. Key dimensions of pedagogical activity include instructional practice, social collaboration, and continuous professional growth. Lifelong learning and in-service training are emphasized as essential mechanisms for meeting contemporary educational demands. The scientific novelty lies in redefining the teacher's role from a traditional instructor to a facilitator of learning.

**Redaksiyaya daxil olub:** 03.03.2026

## *PSİXOLOGİYA*
## *ПСИХОЛОГИЯ*
## *PSYCHOLOGY*

***ÜMUMİ PSİXOLOGİYA***
***ОБЩАЯ ПСИХОЛОГИЯ***
***GENERAL PSYCHOLOGY***

**UOT 159.9**

# YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ NARSİZMİN PSİXOLOGİYAYA ZƏRƏRLƏRİ

**Mətanət Fariz qızı Həsənova**
*Azərbaycan Dillər Universitetinin*
*psixologiya və pedaqogika kafedrasının baş müəllimi*
**E-mail:** metaneth2@gmail.com
**ORCİD:** 0000-0003-4998-6598
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.35

***Açar sözlər:*** *yeniyetmə, valideyn, tərbiyə, hörmət, tənqid, şəxsiyyət*
***Ключевые слова:*** *подросток, родитель, воспитание, уважение, критика, личность*
***Key words:*** *teenager, parent, upbringing, respect, criticism, personality*

Narsizm insanın özünü unikal bir fərd kimi qəbul etdiyi, özünü başqalarından üstün hesab etdiyi psixi vəziyyətdir. Narsistlik əlamətləri müşahidə edilən insan minimal tənqidə dözmür, iradları şəxsi təhqir kimi qəbul edir. Ümumiyyətlə, narsizm özünə hörmət, həddindən artıq özünü sevmə və eqosentrizm kimi tərifləri ehtiva edir və psixologiyada patoloji narsizm və normal narsizm kimi iki şəkildə qiymətləndirilir.

Bəzi araşdırmalara görə, narsizm sadəcə bir şəxsiyyət növü deyil, hər kəsdə müxtəlif dərəcələrdə ifadə olunan bir xarakter xüsusiyyətidir. İlk dəfə bu hadisənin elmi tədqiqinə başlayan Ziqmund Freyd insanların əlverişsiz şəraitin təsiri altında nevrozun daha mürəkkəb formalarına və psixikanın digər patoloji vəziyyətlərinə çevrilən ilkin narsizm əlamətləri olduğunu qeyd etmişdir [2].

Ziqmund Freyd ilk dəfə narsizmi bir şəxsiyyət növü kimi nəzərdən keçirmişdir. Freydə görə, narsistik şəxsiyyət tipi cinsi enerjilərinin özlərinə yönəlməsidir. Sonrakı illərdə narsizmin yaranması və xüsusiyyətləri ilə bağlı çoxlu araşdırmalar aparılmışdır. Otto Kernberg və Heinz Kohut narsistik şəxsiyyət pozulması üçün mühüm nəzəriyyələr irəli sürdülər [3].

Freydin dinamikası ilə irəliləyən Kernberqin nəzəriyyəsinə görə narsizm, fərdlərin valideynlərinin onları tərk edəcəyi və ya üç yaşına qədər həyatlarında itirəcəyi ilə bağlı narahatlığını aradan qaldırmaq üçün uşaqlıqda formalaşan müdafiə mexanizmidir [3].

Amerika psixiatrlarının "Psixi pozulmaların diaqnostik və statistik təlimatı" kitabına görə, narsistik şəxsiyyət pozulmasının beş əlaməti var. Aşağıda qeyd edilən bu əlamətlərdən ən azı 3-ü şəxsiyyətdə müşahidə edilərsə o narsist olaraq qiymətləndirilir [5].

— Belə insanlar şişirdilmiş formada özünə qarşı kənardan yüksək əhəmiyyət hissi istəyirlər. Əsasən də, tez-tez nailiyyətlərini və istedadlarını şişirdilmiş təqdim edirlər. İnsanların az da olsa, onların hərəkətlərinə heyran olmasını gözləyirlər.

— Narsistlər sərhədsiz güc, uğur, gözəllik və ya ideal sevgi fantaziyaları ilə məşğuldur. Hətta narsist hər yeni tərəfdaşa həyatının sevgisi olduğunu söyləyərək aşiq ola bilər.

— İşdə narsist, ona görə, hamıdan ağıllı, hətta dahidir. Onlar kollektivdə başqaları kimi olmadığına inandıqları üçün iş mühitinin ona uyğun olmasını tələb edirlər.

— Bir çox hallarda öz məqsədlərinə çatmaq üçün başqa insanlardan istifadə edirlər. Amma xidmətlərinə görə təşəkkür etmək istəmirlər və bunu yalnız qəbul edilmiş etik norma çərçivəsində edirlər.

— Narsist insanlar başqalarına qarşı empatiya qurmaqda çətinlik çəkir. Belə insanlar öz hissləri ilə başqalarının hissləri arasında müqayisə apara bilmirlər [3].

İntensiv cinsi yetkinləşmə və inkişaf, orqanizmin yenidən qurulması ilə xarakterizə olunan yeniyetməlik yaş dövrü 10-11 və 14-15 yaş mərhələlərini əhatə edir. Bu dövrdə əsas psixi yeni törəmə olaraq məntiqi şüur, qeyri-sabit emosional sfera: emosiya və əhvalın idarə olunmaması, müstəqillilik və fərdiyyətin özünü təsdiqi - böyüklərlə münaqişəli münasibətlərin meydana gələ bilməsi kimi psixoloji xüsusiyyətlər formalaşır.

Yeniyetməlik dövründə istər fiziki, istərsə də psixi inkişaf həm sürətlə, həm də bütün sahələrdə həyata keçirilməyə başlayır. Bu dövrdə uşaq şəxsiyyətinin inkişafında bir çox yeniliklər baş verir ki, onların timsalında şagirdin təlim və tərbiyəsində, hərəkət və davranışında kobudluq, inadkarlıq, insanlardan qaçmaq və s. xüsusiyyətlər meydana gəlir. Belə aqresiv davranışlar yeniyetmələri əhatə edən mikro mühitdə əsas tərbiyəedici qüvvələr olan valideynləri və müəllimləri narahat edir. Uşaq tədricən valideynlərindən uzaqlaşır, öz qapalı həyatını yaşamağa başlayır.

Yeniyetməlik yaş dövründə aparıcı fəaliyyət növü tədqiqatçılar tərəfindən müxtəlif formada qeyd edilir. Elkoninə görə, aparıcı fəaliyyət növü yaşıdları ilə ünsiyyət, yaşlılıq hissi, Feldşteyn isə sübut edirdi ki, yeniyetmələrin aparıcı fəaliyyəti - ictimai faydalı fəaliyyətdir. Bunların hər ikisi Elkonin və Feldşteyn razılığa gəlirlər ki, yeniyetməlik yaşı dövründə aparıcı fəaliyyət ictimai fəaliyyət prosesində həmyaşıdları ilə ünsiyyət fəaliyyətidir. Psixo-pedaqoqu Sxomlinski bu dövrü məhz şəxsiyyət anlayışının meydana gəlməsi ilə bağlı "vətəndaşın doğulması" dövrü adlandırır [7].

Şəxsiyyət elementlərinin formalaşdığı yeniyetməlik yaş dövründə müşahidə edilə biləcək şəxsiyyət pozulmalarından biri də narsistik şəxsiyyət pozulmasıdır. Yeniyetmələrin psxioloji sferasının qeyri-adekvatlığı və həmçinin emosional sahədə olan dəyişkənliklər bu pozulmanın daha çox müşahidə edilməsinə əsas verir.

Psixoloji və psixiatrik praktikada narsizmin həddindən artıq inkişafı şəxsiyyət sferasında kənaraçıxmalar və xarakter vurğuları baxımından nəzərdən keçirilir. Eyni zamanda, bir çox elm adamları hər bir şəxsiyyətdə narsistik hisslərin olduğunu, lakin əsas məsələnin bu xüsusiyyətin inkişaf səviyyəsi və insan həyatının ümumi keyfiyyətinə necə təsiri olduğunu qeyd edirlər. Narsizmin özünü ifadə etmək xüsusiyyətlərinə görə onu dağıdıcı və konstruktiv, patoloji və normativ növlərə bölmək olar.

Qazanılmış narsizm tərbiyənin nəticəsidir. Narsist valideynlik üçün iki model var. Narsist uşaq heç bir şəkildə ana və atanı sevindirə bilməyən uşaqdır. Onlar üçün nə etsə, pisdir.

Valideynləri onu danlayır, utandırır, biabır edir, ona məhəl qoymur. Bəzən yaxşı bir iş görübsə, onu tərifləyəcəklər və uşaq yenidən özünə qarşı tərif və sevgi qazanmaq üçün hər şeyə hazırdır. Narsizm özünü bir müdafiə mexanizmi kimi göstərir, yəni körpə sevilmədiyini, rədd edildiyini unutmalı, ideal uşaq obrazını yaratmalıdır ki, valideynləri ona diqqət yetirsinlər.

Narsist başqa bir modelə görə tərbiyə oluna bilər: valideynlər övladının uğur qazandığını görmək istəyirlər, bunun üçün çox səy göstərirlər və uşaq istədikləri ideal obrazdan kənara çıxanda o, valideynləri incitməyə başlayır, tərifləməyi dayandırır və hətta onu təhqir etməyə başlayırlar. Sonra uşaqda valideyn gözləntilərinə cavab verməli olduğu anlayışı yaranır, yalnız bundan sonra o, valideynləri tərəfindən seviləcək, buna görə də ona görə öz arzularını və istəklərini unutmalıdır.

Əvvəllər narsizmin yalnız kişi şəxsiyyət xüsusiyyəti olduğu düşünülürdü, lakin son tədqiqatlar göstərdi ki, həm kişilər, həm də qadınlar arasında eyni dərəcədə yayılmışdır. Narsistik əlamətlər adətən anadangəlmə keyfiyyət deyil, yalnız müəyyən inkişaf şəraitində patoloji formalar əldə edir, bununla belə, sinir sistemi səviyyəsində irsi ilkin şərtlər ola bilər, məsələn, diqqət defisitliyi və hiperaktivlik sindromu bu tip şəxsiyyət pozulması üçün əsas ola bilər. Uşaqlıqda demək olar ki, heç vaxt baş vermir. İlk əlamətlər yeniyetməlikdən, ən çox isə yetkinlik dövründə görünməyə başlaya bilər. Bu, psixoloji travmanın alınması, refleksiyanın inkişafı, sosial mühit və tərbiyə ilə bağlıdır.

Əksər yeniyetmələr öz inkişafının və şəxsi tərəqqinin təbii və sağlam komponenti kimi narsistik xüsusiyyətlər nümayiş etdirirlər. Hər kəsin müəyyən dərəcədə narsistik xüsusiyyətləri var. Sağlam bir narsizm dərəcəsi insanlara öz nailiyyətlərindən həzz almağa və şəxsi həyatlarında məmnunluq tapmağa kömək edir. Narsizm əlamətləri digər psixi xəstəliklərlə birlikdə mövcud ola bilər, bu da diaqnoz qoymağı çətinləşdirir. Ən çox görülən arasında antisosial şəxsiyyət pozulması, sərhəd şəxsiyyət pozulması, isterik şəxsiyyət pozulması və şizoid şəxsiyyət pozulması ilə birlikdə olanlar daxildir [5].

Narsizmin müalicə prosesi çox mürəkkəb və ya mümkünsüzdür. Çox vaxt narsistlər nəyisə səhv etdiklərindən heç vaxt şübhələnmirlər, çünki nəyəsə görə özlərini günahlandırmağa meylli deyillər. Beləliklə, əgər belə insanlar bir mütəxəssis tərəfindən görülmüşsə, bunun səbəbi əlaqəli problemlər ola bilər: depressiya, bipolyar pozulma, alkoqolizm və s. Psixoterapiya belə xəstələrə müsbət təsir göstərir. Düzgün qurulmuş seanslar insana yaxınları ilə münasibət qurmağa, tənqidləri qəbul etməyi öyrənməyə, qarşısına real hədəflər qoyub onlara nail olmağa kömək edə bilər.

Narsist şəxsiyyət pozulması olan insanlar tez-tez psixoterapevtik köməyə müraciət edir, meditasiya, yoqa və ekstremal idman növləri ilə məşğul olurlar. Belə insanlar meditasiya vasitəsi ilə müxtəlif mənəvi təcrübələri özlərindən keçirərək, hiss vasitəsilə öz "mən"ini tapmaq istəyirlər.

**Problemin aktuallığı.** Müasir psixologiyada narsistik şəxsiyyət tipi olaraq fərqləndirilir. Lakin müasir dövrümüzdə daha çox narsizmi xarakterdə olan psixoloji xüsusiyyət olaraq görürük. Tədqiqatımızın aktuallığı məhz bu anlayışın daha çox yeniyetməlik yaş dövründə müşahidə edilməsi ilə bağlıdır. Çünki yüngül narsizm xüsusiyyətləri yeniyetməlik yaş dövrünün əlaməti olaraq qəbul edilə bilər. Narsistik şəxsiyyət pozulması empatiya hissinin olmaması, hər şeyin ən yaxşısına layiq olduqlarına inanan, lakin arxa planda ciddi şəkildə gizli zəifliyi olan

insanları təsvir etmək üçün istifadə edilən termindir.

**Problemin elmi yeniliyi.** Narsistik əlamətləri yeniyetməlik yaş dövrünün təzahür xüsusiyyəti kimi təhlil edərək yeniyetmənin psixologiyasına olan təsirini araşdırmaq.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Problemin mahiyyəti və işlənmə vəziyyətini təhlil edərək narsizmin psixoloji xüsusiyyət və şəxsiyyət pozulması tipi olaraq qiymətləndirmək. Yeniyetməlik yaşı dövründə psixologiyanın əsas xüsusiyyətlərini araşdırmaq və müşahidə edilən narsizm əlamətlərinin tədqiq etmək.

## Ədəbiyyat


1. Əlixanova, G.H., Baxşəliyev, Ə.T. Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması. Metodik vəsait // - Bakı: ADPU-nun nəşriyyatı, -2019, - 398 s.
2. Əzimli, Q.M. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. // - Bakı: 2006. 234 s.
3. Zamanov, A.D., Əliyeva, H.İ., Əlixanova, G.H. // Psixoloji xidmətin diadası. Metodik vəsait. Bakı: - Azərnəşr, - 2012. 79 s.
4. Freud S, On Narcissism: An Introduction, Standard Edition, Cild 14
5. Cooper, M. A. Narcissism. Essential Papers On Narcissism, New York
6. Балцевич В.А. Семья и молодежь: профилактика отклоняющегося поведения. - СПб.: Университетское, 2005.
7. Седикидес, С., Рудич, Е.А., Грегг, А.П., Кумасиро, М., Русбалт С. (сентябрь 2004). "Нормальные ли нарциссы психологически здоровы?: имеет значение самооценка" Журнал личности и социальной психологии. 400-416 с.
8. Страхов И.В. Психологические основы педагогичес¬кого такта. Саратов: 2011.
9. https://psixologiyainstitutu.az/2022/10/20/yeniyetm%C9%99l%C9%99rin-s%C9%99xsiyy%C9%99tin%C9%99-psixoanalitik-yanasmalar/


**M.F. Həsənova**

### Yeniyetməlik yaş dövründə narsizmin psixologiyaya zərərləri
### Xülasə


Narsisistik simptomları olan bir insan, şərhləri şəxsi təhqir kimi qəbul edərək, ən kiçik bir tənqidə belə dözə bilmir. Bu fenomeni ilk dəfə elmi şəkildə araşdıran Ziqmund Freyd qeyd etmişdir ki, insanlarda narsizmin ilkin əlamətləri özünü göstərir və bu əlamətlər mənfi halların təsiri altında daha mürəkkəb nevroz və digər patoloji ruhi vəziyyətlərə çevrilir. Freydin dinamikasına əsaslanan Kernberqin nəzəriyyəsinə görə, narsisizm, uşaqlıqda inkişaf edən və fərdin valideynləri tərəfindən tərk edilmək və ya itirilmək narahatlığını üç yaşına qədər aradan qaldırmaq üçün inkişaf edən bir müdafiə mexanizmidir. Yeniyetməlik dövründə həm fiziki, həm də zehni inkişaf bütün sahələrdə sürətlə başlayır. Yeniyetmələrin əksəriyyəti inkişaflarının və şəxsi böyümələrinin təbii və sağlam bir komponenti kimi narsisistik xüsusiyyətlər nümayiş etdirirlər. Narsisistik şəxsiyyət pozğunluğu olan insanlar tez-tez psixoterapiyaya müraciət edir, meditasiya, yoqa və ekstremal idman növləri ilə məşğul olurlar. Belə insanlar hisslər vasitəsilə "mən"i tapmağa çalışır, meditasiya vasitəsilə müxtəlif mənəvi təcrübələr yaşayırlar.

**M.F. Hasanova**

**Психологический вред нарциссизма в подростковом возрасте**
**Резюме**

Человек с нарциссическими симптомами не терпит даже минимальной критики, воспринимает замечания как личное оскорбление. Зигмунд Фрейд, первым начавший научное изучение этого явления, отмечал, что у людей есть первичные признаки нарциссизма, которые под влиянием неблагоприятных обстоятельств перерастают в более сложные формы невроза и другие патологические состояния психики. Согласно теории Кернберга, которая опирается на динамику Фрейда, нарциссизм — это защитный механизм, формирующийся в детстве для преодоления тревоги индивида по поводу того, что родители бросят его или потеряют в своей жизни к трем годам. В подростковом возрасте начинается как физическое, так и умственное развитие, причем быстро и во всех областях. Большинство подростков проявляют нарциссические черты как естественный и здоровый компонент своего развития и личностного роста. Люди с нарциссическим расстройством личности часто обращаются к психотерапии, занимаются медитацией, йогой и экстремальными видами спорта. Такие люди стремятся обрести «я» через чувства, переживая различные духовные опыты посредством медитации.

**M.F. Hasanova**

**The psychological harms of narcissism during adolescence**
**Summary**

A person with narcissistic symptoms does not tolerate minimal criticism, perceives remarks as a personal insult. . Sigmund Freud, who first began the scientific study of this phenomenon, noted that people have primary signs of narcissism, which, under the influence of unfavorable circumstances, develop into more complex forms of neurosis and other pathological states of the psyche. According to Kernberg's theory, which proceeds with Freud's dynamics, narcissism is a defense mechanism formed in childhood to overcome the anxiety of individuals that their parents will abandon them or lose them in their lives by the age of three. During adolescence, both physical and mental development begins to take place both rapidly and in all areas. Most adolescents demonstrate narcissistic traits as a natural and healthy component of their development and personal progress. People with narcissistic personality disorder often seek psychotherapy, engage in meditation, yoga, and extreme sports. Such people seek to find their "self" through feeling, experiencing various spiritual experiences through meditation.

**Redaksiyaya daxil olub:** 03.03.2026

*UOT 159.9*

# EKSTREMAL ŞƏRAİTDƏ RUHİ VƏZİYYƏT VƏ DAVRANIŞLARIN TƏHLİLİ

**Aysel Rahil qızı Zərbəliyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009 0006 3293 6948
**E-mail:** azerbaliyeva73@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.36

***Açar sözlər:*** *ekstremal şərait, ruhi vəziyyət, davranış, psixi travma*
***Ключевые слова:*** *экстремальные условия, психическое состояние, поведение, психологическая травма*
***Key words:*** *extreme conditions, mental state, behavior, psychological trauma*

Ekstremal şəraitlərdə insanların davranışı özünəməxsus çalarlara malik olmaqla, müxtəlif formalarda təzahür edir. Bəzən bu davranış formaları bizə qeyri-adi görünsə belə, fərdi-psixoloji xüsusiyyətlərdən çıxış etməklə əmin ola bilərik ki, bu davranış formalarından hər biri normal və təbiidir.

İnsanın davranışı aşağıdakı ekstremal formalarda ola bilər:

1. Adekvat - özünümüdafiə üçün vacib olan psixoloji və fizioloji gərginliyin ani səfərbərliyi baş verir. Ən vacibi müəyyən vaxt ərzində özünü itirmənin qarşısının alınması, rasional qərarların qəbul edilməsi və onların həyata keçirilməsidir.
2. Hiperdinamiya - hərəkətlər burulğanı, mənasız, xaotik davranışlar toplusu, məzmunsuz nitq və s. Hiperdinamiya insanın toxtamasına, özünün şüursuz, avtomatik hərəkətlərindən qorunmasına imkan vermir.
3. Stupor - şok, daşa dönmə, tərpənməyin və danışmağın mümkün olmaması. İnsanlar adətən embrional bir forma alırlar, başlarını əlləri ilə örtürlər, döşəməyə uzanırlar, gözlərini yumurlar və ya əksinə.
4. Tutqun şüur, psixi funksiyaların məhdudlaşması. İnsan pis dərk edir, olanları və hətta öz hərəkətlərini də pis xatırlayır, hadisəyə aid olanları pis görür və ya pis eşidir, onu əhatə edənləri tanımır. Nitq mənasız danışıqlardan ibarət olur.
5. Şaiyə - zəlzələ zamanı yaranan adi reaksiyadır. Onun əsasında idarə edilməyən qorxu hissi dayanır [1,23-24].

Təbii fəlakətlər dövründə təhlükəsizliyin qızıl qaydasını tətbiq etmək üçün məlumatlılıq əsas şərtdir. Hər kəs yaşadığı yerdə mövcud ola biləcək mümkün təhlükəli və böhran situasiyalarda özünü necə aparmaq haqqında bilməlidir. Ekstremal şəraitlərə insanın hazırlığı nə qədər yüksək olarsa, təbiətin ona bəxş etdiyi çətinlikləri bir o qədər də asanlıqla dəf edər və sağ qalmaq ehtimalı da bir o qədər çox olar, özünə və başqalarına daha yaxşı kömək edə bilər. İnsanların vahiməyə düşdüyü qəza situasiyalarında tez qərar qəbul etmək olduqca çətindir. Əgər insan bu fövqəladə halların baş verə biləcəyi haqqında qabaqcadan düşünübsə və belə hallarda lazım olan təchizatın harada yerləşdiyini bilirsə, onda böhran anında özünü itirməyəcək.

Mütəxəssislərin fikrincə, müxtəlif xarakterli ekstremal şəraitlərə psixoloji hazırlıq iki mühüm amillə müəyyən olunur:

1) Məlumatlılıq - müxtəlif xarakterli fəlakətlər haqqında informasiyaya malik olmaq. Bu amil psixoloji hazırlığın 80%-ini təşkil edir. Adamlar zəlzələ, daşqın, yaxud da müxtəlif tipli fəlakətlər, onların hər birinin təbiəti, baş vermə səbəbləri, əsas xarakterik xüsusiyyətləri, eləcə də hər bir fəlakət zamanı sağ qalmaq və mümkün qədər zədə almamaq üçün necə davranmaq, hansı hərəkətləri etmək haqqında lazımi biliklərə malik olsalar, istənilən ekstremal vəziyyətlərdən daha asan çıxa bilərlər.

2) Şəxsi amil - insanın fərdi xüsusiyyətləri, iradi keyfiyyətləri, emosional və intellektual cəhətdən yetkinliyi, professional xüsusiyyətləri. Psixoloji hazırlığın 20%-i bu amillə şərtlənir. Psixoloqların tədqiqatları insanların sinir sisteminin tipi ilə onların stressə dözümlülüyü arasında əlaqə olduğunu göstərir. Sinir sistemi güclü olan şəxslər stressi daha yaxşı keçirirlər. Zəif sinir sisteminə malik olan şəxslərin fəaliyyəti mənfi qiymətləndirildikdə onların bəzi psixoloji funksiyaları zəifləyir. Sinir proseslərinin müvaziliyi stressə qarşı müqavimətdə əks olunur. Bu keyfiyyət konflikt situasiyalarda xüsusi əhəmiyyət kəsb edir. Müvazinətli şəxslər belə situasiyalara adekvat davranış reaksiyaları göstərməyə daha çox qabildirlər. Zəif tipdən olan adam stress doğuran situasiyaya həddən artıq güclü reaksiya verir. Onda dərhal emosional gərginlik halı inkişaf edir ki, bu da bütövlükdə davranışa mənfi təsir göstərir. İnsanların emosional və intellektual cəhətdən yetkin olması da mühüm rol oynayır. Emosional yetkinlik adamlara öz emosiyalarını anlamağa, onlara mümkün qədər nəzarət etməyə, öz hisslərini cilovlamağa imkan verir. Intellektual cəhətdən yetkin olmayan adam isə düşdüyü situasiyanı adekvat qiymətləndirməkdə çətinlik çəkir. Buna görə də mürəkkəb şəraitdə düzgün davranış tərzini, düzgün hərəkətləri seçmək onlar üçün çətin olur [2,131].

Məhz bu iki amil gözlənilməz və təhlükəli vəziyyətlərdə insana öz davranışına nəzarət etməyə imkan verir. Təbii fəlakətlərdən sonra əhalinin 10%-indən 25%-ə qədərində psixi pozğunluqların miqdarı 35%-ə qədər artır. Fəlakətin təkrarlanacağının gözlənilməsi sonrakı psixi pozğunluqların yaranmasına da səbəb olur. Sivil ölkələrdə hər iki göstəricinin nəzərə alınması təbii fəlakətlər, yanğınlar, partlayışlar və digər qəzalarda insan tələfatını və maddi ziyanı xeyli azaldır.

Ekstremal şəraitlərin ilk vaxtlarda insanda doğurduğu emosional halların əsas səciyyəvi əlamətləri kimi aşağıdakıları qeyd etmək olar: təşviş, müxtəlif qorxular, güclü ağrılar, ümumi hərəkət oyanıqlığın artması, sinir sisteminin və bütün orqanların funksiyalarının həddən artıq gərginləşməsi. Sonra ləngimə baş verir, orqanizmin bütün sistemlərinin (qan dövranı, tənəffüs və s.) funksiyaları pozulur, hipoksiya, hipotoniya və ya hipertenziya inkişaf edir, bu isə tromboz, emboliya, insult və başqa xəstəliklərə gətirib çıxarır [3,141].

İnsanların çoxu ekstremal şəraitlərlə üzləşdikdə onu düzgün qiymətləndirməyə və təcili qərar çıxarmağa qabil olmur. Buna səbəb əsasən psixoloji amillər – qorxu, həyəcan, şok və ümidsizlikdir.

Ekstremal şərait zamanı insanın davranışına mane olan daha bir neçə amil var. Onlardan biri – ağrıdır. Travmalar və ya müxtəlif səbəblər nəticəsində əmələ gələn ağrı insanın normal müdafiə reaksiyasıdır. Bu hiss insanı öz həyatını xilas etmək fikrindən ayırır, ona mane olur. Lakin iradəli insan öz məqsədinə çatmaq üçün bir müddət ağrını unuda bilər.

Ekstremal şəraitlər çox vaxt frustrasiya vəziyyəti yaradır. Frustrasiya latın sözü olub, aldanma, nahaq gözləmə, əhval pozğunluğu mənasını verir. Frustrasiyanın daha geniş yayılmış iki tərifindən istifadə olunur:

Birincisi, frustrasiya – hansısa maneə səbəbindən artıq aktivləşmiş tələbatın ödənilməsinin qeyri-mümkünlüyü kimi;

İkincisi, tələbatın ödənilməsini blokadaya alan əks amillər nəticəsində meydana gələn psixi vəziyyət kimi müəyyən olunur.

**Problemin aktuallığı.** Hazırda dünya miqyasında mühüm sosial problemlər kontekstində ekstremal şəraitlərin problematikasını dərk etməyə cəhd edilir. Ekstremal şəraitlərdə insanların davranışı özünəməxsus çalarlara malik olmaqla, müxtəlif formalarda təzahür edir. Bu baxımdan ekstremal şəraitdə ruhi vəziyyət və davranışların təhlili ilə bağlı araşdırılması dövrümüz üçün çox aktual məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Məqalədə ekstremal şəraitdə ruhi vəziyyət və davranışların təhlili ilə bağlı məsələlər qeyd edilir. Digər tərəfdən ekstremal şəraitdə davranışın müxtəlif formaları ilə bağlı fikirlər diqqət mərkəzinə çatdırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar geniş ictimaiyyət üçün aktual və əhəmiyyətlidir. Həmçinin məqalə mühazirə materiallarında istifadə etmək üçün uyğundur.

## Ədəbiyyat

1. Cavadov, R.Ə., Tağıyeva, G.B. Ekstremal şəraitdə psixoloji xidmət: ali məktəblər üçün dərslik – Bakı: ADPU, -2006. -260 s.

2. Колодзин Бенджамин. Как жить после психической тавмы. М., 2000.

3. Травма и психосоциальная помощь. Практическое руководство. Норвежский Совет по беженцам. Тбилиси-Баку, 2001.

**A.R. Zərbəliyeva**

**Ekstremal şəraitdə ruhi vəziyyət və davranışların təhlili**
**Xülasə**

Məqalədə ekstremal şəraitdə ruhi vəziyyət və davranışların təhlili ilə bağlı məsələlər araşdırılır. Məqalədə qeyd olunur ki, müxtəlif xarakterli ekstremal şəraitlərə psixoloji hazırlıq mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan məqalədə irəli sürülən müddəalar geniş ictimaiyyət üçün aktual və əhəmiyyətlidir.

**А.Р.Зарбалиева**

**Анализ психического состояния и поведения в экстремальных условиях**
**Резюме**

В статье рассматриваются вопросы, связанные с анализом психического состояния и поведения в экстремальных условиях. В статье отмечается, что психологическая подготовка к экстремальным условиям различного характера имеет большое значение. В этой

связи изложенные в статье положения актуальны и важны для широкого применения.

**A.R. Zarbaliyeva**

**Analysis of mental state and behavior in extreme conditions**

**Summary**

This article examines issues related to the analysis of mental state and behavior in extreme conditions. It notes that psychological preparation for various types of extreme conditions is of great importance. Therefore, the principles outlined in the article are relevant and important for widespread application.

**Redaksiyaya daxil olub:** 27.02.2026

***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

*UOT 159.9.07*

# MÜASİR ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASININ PEDAQOJİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Elnarə Mübariz qızı Zülfüqarova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0000 0003 3375 2498
**E-mail:** Elnara17002@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.37

***Açar sözlər:*** *təlim-tərbiyə prosesi, şəxsiyyətin formalaşması, sosial mühitin təsiri, pedaqoji fəaliyyət, fərdin fəallığı, mənəvi və əxlaqi inkişaf, psixoloji amillər*

***Ключевые слова:*** *процесс обучения и воспитания, формирование личности, влияние социальной среды, педагогическая деятельность, активность индивида, моральное и этическое развитие, психологические факторы*

***Key words:*** *educational process, personality formation, influence of social environment, pedagogical activity, individual activity, moral and ethical development, psychological factors*

Müasir təhsil sistemində şagird şəxsiyyətinin formalaşması yalnız bilik və bacarıqların mənimsənilməsi ilə məhdudlaşmır, həm də onun sosial, emosional və davranış xüsusiyyətlərinin dinamik və mürəkkəb şəkildə inkişaf etdiyi multidimensional proses kimi qiymətləndirilir. Bu baxımdan, şəxsiyyətin formalaşması müasir pedaqoji və psixoloji nəzəriyyələrdə həm ümumi təlim-tərbiyə prinsipləri, həm də fərdin daxili psixoloji resursları ilə birgə öyrənilir.

Ən son tədqiqatlar göstərir ki, müasir şagirdin şəxsiyyətinin formalaşmasında innovativ pedaqoji yanaşmaların tətbiqi vacibdir; məsələn, fərdiləşdirilmiş tədris modelləri və klaster strategiyalarının qəbul edilməsi şəxsiyyətin akademik, sosial və emosional inkişafını stimullaşdırır (Gayupova, 2024). Bu yanaşmalar klas-sik pedaqogika ilə müqayisədə daha çox şagirdin özünüdərkini, həyati bacarıqların inkişafını və müstəqil fəaliyyətini dəstəkləyir, beləliklə şəxsiyyətin kompleks şəkildə formalaşmasına imkan yaradır.

Müasir elmi tədqiqatlar həmçinin məktəb mühitinin psixoloji klimatının şəxsiyyətin inkişafı üçün önəmli faktor olduğunu təsdiqləyir. Təhsil mühiti sosial-emosional dəstək, inkluziv və təşviqedici atmosfer təmin edərkən, şagirdlərin ictimai münasibət, empatiya və stresslə mübarizə bacarıqları kimi fərdi xüsusiyyətləri inkişaf edir (Farajova, 2024). Belə mühitlərdə şagird yalnız akademik bacarıqları deyil, həm də şəxsiyyətin sosial tərəflərini inkişaf etdirir.

Tarix boyu cəmiyyətin inkişafında müəllimin rolu əvəzsiz olmuşdur. Müəllim yalnız bilik daşıyıcısı deyil, həm də ictimai və mənəvi dəyərlərin qoruyucusu, gələcək nəsillərin istiqamətləndiricisidir. Müasir dövrdə müəllimlik anlayışı əvvəlki dövrlərlə müqayisədə daha da zənginləşmiş, onun peşə fəaliyyətində nəzəri biliklər, mədəniyyət, mərifət və pedaqoji etik prinsiplər daha geniş yer tutmuşdur. Müasir müəllim yalnız ixtisas üzrə bilik sahibi deyil, həm də sosial məsuliyyət, tərbiyəçilik və liderlik keyfiyyətlərinə malik, həm valideynlər, həm də cəmiyyət

tərəfindən etibar edilən yetkin bir şəxsiyyətdir. Valideynlər övladlarının tərbiyəsini və təhsilini müəllimlərin əlinə etibar edərkən, onların həm peşəkar, həm də mənəvi kamilliyinə güvənirlər.

Müəllim keçmiş nəsillərin ən yaxşı təcrübəsini elmi biliklər və müasir tədqiqatlar ilə birləşdirərək gənc nəslə ötürür. Bu, yalnız akademik biliklərin paylaşılması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin şəxsiyyətinin formalaşmasına, dünyagörüşünün inkişafına və əxlaqi dəyərlərinin formalaşmasına xidmət edir. Müəllim şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların bilik, bacarıq və sosial kompetensiyalarını inkişaf etdirmək üçün pedaqoji strategiyalar tətbiq edir. Beləliklə, müəllim həm təlimçi, həm tərbiyəçi, həm də mentor rolunu daşıyır və onun fəaliyyəti şagirdlərin hərtərəfli inkişafına birbaşa təsir göstərir.

Pedaqoji fəaliyyət müəllimin təlim, tərbiyə və inkişaf fəaliyyətlərini, həmçinin şagirdlərin təşkili və yönləndirilməsini əhatə edir. Bu fəaliyyət cəmiyyətin tələblərinə cavab olaraq, məktəblilərdə şəxsiyyət keyfiyyətlərinin formalaşmasına yönəldilmiş peşəkar və məqsədyönlü bir prosesdir. Pedaqoji fəaliyyət yalnız metodik bacarıqlardan ibarət olmayıb, eyni zamanda müəllimin elmi nailiyyətləri, psixoloji bilikləri və etik prinsipləri ilə sıx bağlıdır. Müəllim öz fəaliyyəti zamanı konkret şəraitə uyğun olaraq metod, forma və vəzifələri seçir, onların aktuallığını və effektivliyini dəyərləndirir, bu zaman isə psixoloji qanunauyğunluqlar əsas rol oynayır. Pedaqoji fəaliyyətin psixologiyası müəllim əməyinin xüsusiyyətlərini öyrənir. Bu sahə müəllimin cəmiyyətin tələblərini necə qavradığını, pedaqoji fəaliyyət sistemini necə həyata keçirdiyini, konkret təhsil şəraitində öz fəaliyyətinin vəzifə və metodlarını necə seçdiyini araşdırır.

Müəllim fəaliyyətinin psixoloji əsasları həmçinin onun şagirdlərlə qarşılıqlı əlaqəsini, motivasiya mexanizmlərini və pedaqoji qərarvermə proseslərini əhatə edir. Bu biliklər müəllimin həm peşəkar, həm də sosial cəhətdən səmərəli fəaliyyətini təmin edir, nəticədə şagirdlərin intellektual, emosional və sosial inkişafına müsbət təsir göstərir. (3)

Beləliklə, müasir pedaqoji prosesdə müəllimin rolu yalnız bilik ötürməkdən ibarət olmayıb, onun şəxsiyyətin formalaşmasında strateji və çoxşaxəli təsirini ehtiva edir. Müəllimin fəaliyyəti şagirdin təkcə akademik göstəricilərinə deyil, həm də mənəvi, sosial və psixoloji inkişafına xidmət edir və bu səbəbdən cəmiyyətin inkişafında müəllim əvəzsiz bir amil kimi çıxış edir.

Beynəlxalq təhsil tədqiqatları göstərir ki, fərdin məşhur şəxsiyyət xüsusiyyətləri — məsələn, ekstraversiya, açıqlıq və şəxsiyyətin digər beş əsas parametrləri — təhsil prosesində müəllim, öyrənmə texnologiyaları və qiymətləndirmə metodları ilə qarşılıqlı əlaqədə olur və bu da təhsil keyfiyyətinə birbaşa təsir edir (Personality and the education process, 2025). Bu münasibət təlim-tərbiyə fəaliyyəti ilə şəxsiyyət strukturlarının inteqrasiyasını təşkil edir, yəni şagirdlərin öz təhsil təcrübələrinə fərdi yanaşmasını və özünü ifadə etməsini stimullaşdırır.

Psixoloji perspektivdən yanaşdıqda, şəxsiyyətin formalaşması həmçinin fərdin daxili motivasiya sisteminin inkişafına bağlıdır. Müasir psixoloji tədqiqatlar vurğulayır ki, şagirdin özünü motivasiya etmə bacarığı, yüksək öyrənmə ehtiyacı və şəxsi məqsədlərə yönəlmiş davranışlar onun akademik və sosial fəaliyyətə daha aktiv cəlb olunmasına təkan verir. Bu isə şəxsiyyətin daha kompleks və bütünlüklü inkişafına şərait yaradır. (1)

Bütün bu müasir yanaşmalar göstərir ki, şəxsiyyətin formalaşması prosesində pedaqoji və psixoloji faktorlar bir-biri ilə sıx bağlıdır və qarşılıqlı təsirdə işləyirlər. Təlim-tərbiyə sistemi yalnız biliklərin ötürülməsi üçün vasitə deyil, şagirdin sosial-emosional inkişafı, davranış nümunələrinin formalaşdırılması və fərdi bacarıqların inkişafı üçün əhatəli sistem kimi fəaliyyət göstərir.

Bu baxımdan, müasir pedaqoji yanaşma, ənənəvi pedaqogikadan fərqli olaraq, daha çox fərdiləşdirmə, sosial-emosional dəstək, texnologiyanın tətbiqi və fərdin daxili psixoloji resurslarının inkişafı prinsiplərinə əsaslanır ki, bu da müasir şəxsiyyətin formalaşmasına daha adaptiv və effektiv təsir göstərir.

**Problemin aktuallığı.** Problemin aktuallığı ondan ibarətdir ki, müasir dövrdə təhsil yalnız biliklərin ötürülməsi ilə kifayətlənmir, şagirdin şəxsiyyətinin hərtərəfli inkişafına yönəlir. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və sosial-mədəni dəyişikliklər şagirdin psixoloji və sosial adaptasiyasını aktuallaşdırır. Şəxsiyyətin formalaşması məktəbdəki biliklərlə yanaşı, sosial mühit, müəllim təsiri və həmyaşıdların rolu ilə birgə inkişaf edir. Psixoloji və pedaqoji yanaşmaların birgə tətbiqi şagirdin mənəvi, əxlaqi və sosial bacarıqlarını gücləndirir. Bu səbəbdən müasir şagird şəxsiyyətinin formalaşması problemi pedaqoji elmlərdə prioritet və aktuallığını qoruyur.

**Problemin elmi yeniliyi.** Müasir tədqiqatlar şagird şəxsiyyətinin formalaşmasını pedaqoji və psixoloji aspektlərdən birgə öyrənir. Bu yanaşma sosial mühit, müəllim təsiri və fərdin fəaliyyətinin rolunu sistemli şəkildə nəzərə alır. İnteraktiv metodlar və texnologiyaların şəxsiyyətin inkişafına təsiri elmi olaraq araşdırılır. Mövzu həmçinin emosional, sosial və mənəvi keyfiyyətlərin qarşılıqlı təsirini təhlil edir. Beləliklə, tədqiqat şəxsiyyətin formalaşması prosesinə yeni konseptual baxış təqdim edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatın nəticələri müəllimlərə təlim-tərbiyə prosesini şagirdin sosial, emosional və mənəvi inkişafını nəzərə alaraq təşkil etməyə imkan verir. Müasir pedaqoji metodların tətbiqi ilə fərdi və kollektiv fəaliyyət planları hazırlanaraq şagirdlərin fəallığı artırıla bilər. Şəxsiyyətin formalaşması ilə bağlı əldə edilən biliklər məktəb proqramlarının və dərs planlarının optimallaşdırılmasına xidmət edir. Məktəb və ailə mühitində uşaqların davranış və sosial bacarıqlarının inkişafı üçün praktik tövsiyələr təqdim olunur. Nəticədə, tədqiqat təhsil prosesinin effektivliyini yüksəldərək şagirdin hərtərəfli inkişafına birbaşa töhfə verir.

## Ədəbiyyat

1. Əhmədov, A. Pedaqogika: nəzəriyyə və təcrübə. Bakı: Təhsil Nəşriyyatı, 432 s. 2019.
2. Вербицкий А.А., Ларионова О.Г. «Личностный и компетентностный подходы в образовании: проблемы интеграции». М.: Логос, 2012.
3. Смирнов С.Д. «Педагогика и психология высшего образования». М.: Академия, 2001

**E.M. Zülfüqarova**

## Müasir tələbə şəxsiyyətinin formalaşmasının pedaqoji və psixoloji xüsusiyyətləri

### Xülasə

Müasir şəxsiyyətinin formalaşması çoxşaxəli və kompleks bir prosesdir, hansı ki, həm fərdi, həm sosial, həm də psixoloji amillərin təsiri ilə yaranır. Bu prosesdə fərdi olaraq, özünü tanımağa meyli və öz bacarıqlarını aşkar etmək mühüm rol oynayır. Eyni zamanda, müasir təhsildə müstəqil düşünmə, problem həll etmə və qərarvermə qabiliyyətini inkişaf etdirir.

Sosial mühitlə, əlaqə və əməkdaşlıq ilə onların şəxsiyyətinin sosial yönünü forma görə. Emosional tənzimləmə, motivasiya və uğur qazanmağa meyl etmək psixoloji inkişafın əsas komponentlərindəndir. Bundan əlavə, yaradıcılıq və idraki fəaliyyətin düşüncə düşüncəsi, analitik bacarıq və innovativ yanaşmalarını gücləndirir. buna görə, peqoji və psixoloji maliyyə dəstəyinin balanslı inkişafını təmin edir və onun müasir dövrünə tələblərə uyğun şəxsiyyət kimi formada.

**Э.М. Зульфугарова**

**Педагогико-психологические особенности формирования личности современного студента**
**Резюме**

Müasir şagird şəxsiyyətinin formalaşması çoxşaxəli və kompleks bir prosesdir, hansı ki, həm fərdi, həm sosial, həm də psixoloji amillərin qarşılıqlı təsiri ilə həyata keçir. Bu prosesdə şagirdlərin fərdiliyi, özünütanıma meyli və öz bacarıqlarını kəşf etməsi mühüm rol oynayır. Eyni zamanda, müasir təhsil şagirdlərdə müstəqil düşünmə, problem həll etmə və qərarvermə bacarıqlarını inkişaf etdirir.

Sosial mühitlə əlaqələr, ünsiyyət və əməkdaşlıq qabiliyyəti onların şəxsiyyətinin sosial yönünü formalaşdırır. Emosional tənzimləmə, motivasiya və uğur əldə etməyə meyl isə psixoloji inkişafın əsas komponentlərindəndir. Bundan əlavə, yaradıcılıq və idraki fəallıq şagirdlərin tənqidi düşüncə, analitik bacarıq və innovativ yanaşmalarını gücləndirir. Beləliklə, pedaqoji və psixoloji dəstək şagirdin balanslı inkişafını təmin edir və onu müasir dövrün tələblərinə uyğun şəxsiyyət kimi formalaşdırır.

**E.M. Zulfuqarova**

**Pedagogical and psychological features of the formation of the personality of a modern student**
**Summary**

The formation of the modern student's personality is a multifaceted and complex process, which occurs through the interaction of individual, social, and psychological factors. In this process, students' individuality, self-awareness, and the exploration of their own abilities play a crucial role. At the same time, modern education develops students' skills in independent thinking, problem-solving, and decision-making. Interactions with the social environment, communication, and collaboration abilities shape the social dimension of their personality.

Emotional regulation, motivation, and the drive to achieve success are key components of psychological development. Furthermore, creativity and cognitive activity strengthen students' critical thinking, analytical skills, and innovative approaches. Thus, pedagogical and psychological support ensures the balanced development of the student and contributes to the formation of a personality that meets the demands of the modern era.

**Redaksiyaya daxil olub:** 27.02.20026

*UOT 159.9.07*

# MÜƏLLİM – ŞAGİRD MÜNASİBƏTLƏRİNDƏ EMPATİYANIN ROLU

**Sevər Araz qızı Abdullayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0008-0334-7057
**E-mail:** a.sever03@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.39

***Açar sözlər:*** *empatiya, müəllim-şagird münasibətləri, motivasiya, təlim prosesi, sinif mühiti.*
***Ключевые слова:*** *эмпатия, отношения между учителем и учеником, мотивация, учебный процесс, классная среда.*
***Key words:*** *empathy, teacher–student relationships, motivation, learning process, classroom environment.*

Müasir təhsil sisteminin qarşısında duran vəzifə təkcə biliklərin ötürülmə prosesi deyil, eyni zamanda şagirdin şəxsiyyət kimi formalaşması, sosial bacarıqların və emosional yetkinliyinin təmini də öz əksini tapır. Buna görə də müəllim-şagird münasibətləri təlim-tərbiyə prosesində vacib rol oynayır. Münasibətlərinin effektivliyinə bir sıra amillər təsir göstərir. Empatiya, qarşı tərəfin hiss və düşüncələrini anlamaq, emosional vəziyyətini başa düşmək və buna uyğun davranmaq bacarığının formalaşmasıdır. Müəllimin şagirdə münasibəti, ona emosional olaraq yanaşması, fərdi xüsusiyyətlərini nəzərə alması uğurlu pedaqoji fəaliyyətin əsas şərtlərindəndir. Müəllimin empatik yanaşması sinifdə sağlam psixoloji iqlimin yaranmasına, şagirdlərin motivasiyasının artmasına, eyni zamanda münaqişələrin azalmasına gətirib çıxarır. Buna əsasən empatiya müəllim-şagird münasibətlərində həlledici rol oynayır.

Psixologiyada empatiya anlayışı iki əsas amildən ibarətdir; koqnitiv empatiya və emosional empatiya. Koqnitiv empatiya qarşı tərəfin düşüncələrini başa düşmək, emosional empatiya isə qarşı tərəfin hisslərini, duyğularını anlamaq və paylaşmaq bacarığıdır. Təhsil prosesində hər iki amil müəllimin fəaliyyətinə müsbət təsir göstərir. Empatiya anlayışı psixoloji nəzəriyyələrdə də müxtəlif şəkildə izah olunur. Humanist psixologiyada empatiya anlayışı insanın qarşılıqlı münasibətlərində əsas amil kimi qeyd olunur.

Pedaqoji fəaliyyətdə empatiya müəllimin şagirdin davranışlarının səbəblərini dərk etməsinə təsir göstərir. Hər bir şagirdin öz şəxsi xüsusiyyətləri, ailə mühitləri, psixoloji xüsusiyyətləri vardır. Empatiya sayəsində müəllim bu fərqlilikləri qəbul edir və təlim prosesinin gedişatını təyin edir. Empatik münasibət zamanı şagird özünü təhlükəsiz hiss edir. Şagird öz müəllimi tərəfindən başa düşüldüyünü, anlaşıldığını hiss etdikdə onun da dərsə münasibəti dəyişir, özünəinamı və aktivliyi artır. Empatiyanın olmadığı mühitdə isə şagirdlərdə laqeydlik, narahatlıq və özünəinamsızlıq yarana bilər. Empatiya müəllimin avtoritar üslubdan, demokrarik üsluba keçməsinə şərait yaradır. Belə olduqda sinifdə şagirdlər özlərini daha rahat hiss edirlər. Eyni zamanda fikirlərini və düşüncələrini deməkdən çəkinmirlər.

Empatik müəllim şagirdin çətinliklərini, daxili aləmində baş verən prosesləri vaxtında aşkar edir və problemə uyğun olaraq həll yolları tətbiq edir. Bu da şagirdin akademik həyatına müsbət təsir edir. Araşdırmalara görə empatik münasibət göstərilən şagirdlər daha az davranış problemi göstərirlər və qarşılıqlı münasibətlərdə uğurlu olurlar. Empatiya vasitəsilə müəllim dərsi məlumatverici xarakterlə yanaşı, emosional baxımdan zəngin formada da təqdim edə bilir. Belə olduqda şagirdlərdə öz fikirlərini rahat şəkildə ifadə edə bilirlər. Empatiya yaş xüsusiyyətlərinə görə müxtəlif şəkildə özünü göstərir. Məsələn, ibtidai siniflərdə empatiya çox vaxt emosional xarakter daşıyır. Müəllimin şagirdə qayğısı şəklində özünü göstərir. Yuxarı siniflərdə isə müəllim şagirdlərlə qarşılıqlı ünsiyyət, dialoq şəklində əks olunur. Müəllim şagirdi "səni başa düşürəm, səni anlayıram" tipli ifadələrdən istifadə edərək ünsiyyət qurmağı tövsiyə edilir.

Məktəb mühitində müəllim-şagird münasibətlərində bir sıra münaqişələr yarana bilər. Bu münaqişələrin başlıca səbəblərindən biri də qarşılıqlı anlaşılmazlıqların olmasıdır. Müəllimdə empatiya bacarığı formalaşdıqda problemi cəza vasitəsi ilə deyil, problemin səbəbini araşdırıb, öyrənməklə həll etməyə çalışır. Əvvəlcə şagirdi dinləyir və onu anlamağa çalışır. Bu yanaşma vasitəsilə qarşılıqlı hörmət qorunur və problemin böyüməsinin qarşısı alınır. Empatiya sayəsində yaranan münaqişələrin, qarşıdurmaların qarşısının almaqda kömək olur. Empatiyanın köməyilə şagirdin yanlış davranışının səbəblərini anlamağa, problemin həllinə nail olmağa kömək edir.

Müəllimlərdə empatik bacarıqların inkişaf etməsi üçün müəllim özünüinkişafla məşğul olmalıdır. Müəllim öz üzərində işləməyi bacarmalıdır. Müəllim bu zaman dinləmə bacarığını inkişaf etdirərək, şagirdlərin fikirlərinə hörmətlə yanaşmağı, emosiyalarından yerində və idarə etməyi öyrənmək, qeyri-verbal ünsiyyət vasitələrindən istifadə etmək bacarığının formalaşması əsas şərtlərdəndir. Empatik davranış eyni zamanda şagirdlərə də öz təsirini göstərir. Müəllim şagird üçün nümunə rolunu oynayır. Belə olduqda müəllimdə gördüyü empatik yanaşmanı şagird də mənimsəmiş olur. Empatiya nəticəsində şagirdlər bir-birini anlamaqda çətinlik çəkmirlər, aqressiya azalır, dinləmə bacarığı formalaşmış olur, sosial adaptasiya güclənmiş olur.

Tədqiqatlara görə, empatik müəllimlərin dərs dediyi siniflərdə şagirdlərin motivasiyası yüksəlir və dərsə olan maraqları, müvəffəqiyyətləri yüksəlir. Şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına təsir göstərir və belə olduqda sinifdə sağlam mühit yaranır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində müəllim-şagird münasibətlərinin, təlim-tərbiyə prosesinin effektivliyini şərtləndirən amillərdən biri kimi empatiya probleminin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Qloballaşma, rəqəmsallaşma və sosial dəyişikliklər şagirdlərin psixoloji vəziyyətini, emosional və sosial aləmini əvvəlki illərə müqayisədə daha mürəkkəbləşdirmişdir. Empatik yanaşma şagirdlərin şəxsi keyfiyyətlərini öyrənməyə, gərginliklərin azalmasına və təlimə münasibətin müsbət dəyişməsinə şərait yaradır. Məktəb mühitindəki davranış problemləri, motivasiyasızlıq, ünsiyyət çətinlikləri empatik yanaşmanın əhəmiyyətini ön plana çıxarır. Empatiya müəllim və şagird arasında inamın formalaşmasına kömək edir. Müəllim-şagird münasibətlərində empatiyanın öyrənilməsi müasir pedaqogikanın aktual problemlərindən biri kimi çıxış edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, müəllim-şagird münasibətlərində empatiya təkcə psixoloji proses kimi deyil, eyni zamanda pedaqoji proses kimi də

təhlil edilir. Empatik davranış müəllimin peşəkar fəaliyyətinin tərkib hissəsi kimi qiymətləndirilməsi və praktik tətbiqinin müəyyənləşdirilməsi mövzunun elmi baxımdan yeniliyini təşkil edir. Bu yanaşma empatiyanı təkcə nəzəri anlayış kimi deyil eyni zamanda müəllim hazırlığı proqramlarında inkişaf etdirilməsinin önəmini və əhəmiyyətini əsaslandırır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb pedaqoqları, magistrant və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əhmədova, R. Pedaqoji empatiyanın müəllim fəaliyyətində rolu. Azərbaycan Müəllimi jurnalı, №3, 2018.

2. Əliyev, R. İ. Pedaqoji psixologiya. Bakı: Təhsil nəşriyyatı, 2012.

3. Hüseynov, Ə. M. Müasir təlim metodları və pedaqoji ünsiyyət. Bakı: Elm və Təhsil, 2015.

4. Quliyev, Ə. Müəllim–şagird münasibətlərində psixoloji iqlimin rolu. Azərbaycan Məktəbi jurnalı, №3, 45–52, 2018.

5. Quliyeva, S. Müasir təhsil prosesində empatik yanaşmalar. Azərbaycan Məktəbi, №2, 2021.

**S.A.Abdullayeva**

## Müəllim-şagird münasibətlərində empatiyanın rolu
## Xülasə

Müəllim-şagird münasibətlərində empatiyanın rolu həm pedaqoji, həm də psixoloji tərəfdən təhlil edir və empatik yanaşmanın təlim prosesinin səmərəliliyinə, şagirdlərin hərtərəfli inkişafına və sinifdəki psixoloji iqlimə təsiri öyrənilir. Müəllimin şagirdin daxili aləmini anlamağa, qarşılıqlı inam və hörmətin yaranmasında əhəmiyyətli rola malikdir. Bununla yanaşı empatiya şagirdlərdə motivasiyanın yüksəlməsinə, dərs prosesinin maraqlı keçirilməsinə, sinifdəki davranış problemlərinin azalmasına təsir göstərir. Tədqiqatın yekununda empatiyanın müəllimin peşəkar fəaliyyətinin ayrılmaz bir hissəsi olduğu, onun sistemli şəkildə inkişaf etdirilməsinin müasir təhsil sistemində vacib vəzifəsi olduğunun nəticəsinə gəlinir. Nəticələr göstərir ki, empatiya müəllim-şagird münasibətlərinin demokratik və humanist şəkildə qurulmasını təmin edən amillərdən biridir və təlim-tərbiyə prosesini səmərəliliyinin artırılmasına təkan verir.

**С.А.Абдуллаева**

## Роль эмпатии в отношениях между учителем и учеником
## Резюме

Эмпатия в отношениях между учителем и учеником анализируется как с педагогической, так и с психологической точки зрения, изучается влияние эмпатического подхода на эффективность учебного процесса, всестороннее развитие учащихся и психологический климат в классе. Учитель играет важную роль в понимании внутреннего мира

ученика и формировании взаимного доверия и уважения. Кроме того, эмпатия способствует повышению мотивации учащихся, делает учебный процесс более интересным и снижает количество поведенческих проблем в классе. В заключение исследования делается вывод о том, что эмпатия является неотъемлемой частью профессиональной деятельности учителя, а её системное развитие представляет собой важную задачу современной системы образования. Результаты показывают, что эмпатия является одним из факторов, обеспечивающих демократичное и гуманистическое построение отношений между учителем и учеником, и способствует повышению эффективности учебно-воспитательного процесса.

**S.A.Abdullayeva**

**The role of empathy in teacher–student relationships**
**Summary**

Empathy in teacher–student relationships is analyzed from both pedagogical and psychological perspectives, examining the impact of an empathetic approach on the effectiveness of the learning process, the holistic development of students, and the psychological climate in the classroom. The teacher plays a crucial role in understanding the student's inner world and fostering mutual trust and respect. Additionally, empathy contributes to increased student motivation, makes the learning process more engaging, and reduces behavioral problems in the classroom. The study concludes that empathy is an integral part of a teacher's professional activity, and its systematic development is a vital task in the modern education system. The findings indicate that empathy is one of the key factors ensuring the democratic and humanistic nature of teacher–student relationships and promotes the overall effectiveness of the educational process.

**Redaksiyaya daxil olub:** 26.02.2026

***SOSİAL PSİXOLOGİYA***
***СОЦИАЛЬНАЯ ПСИХОЛОГИЯ***
***SOCIAL PSYCHOLOGY***

*UOT 159.923:316.6*

# AİLƏ MÜHİTİNİN UŞAQ PSİXOLOGİYASINA VƏ MƏNƏVİ DƏYƏRLƏRİNİN FORMALAŞMASINA TƏSİRİ

**Cəmilə Cavanşir qızı Məmmədova**
Mingəçevir Dövlət Universitetinin magistrantı
**ORCID:** 0009-0001-0250-7433
**E-mail:** Cmilmmmdov55@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.38

***Açar sözlər:*** *ailə mühiti, uşaq psixologiyası, mənəvi dəyərlər, sosiallaşma prosesi, tərbiyə, şəxsiyyətin formalaşması*

***Ключевые слова:*** *семейная среда, детская психология, моральные ценности, процесс социализации, воспитание, формирование личности.*

***Key words:*** *family environment, child psychology, moral values, socialization process, upbringing, personality formation*

Uşağın psixoloji inkişafı və mənəvi dəyərlərinin formalaşması çoxşaxəli sosial-psixoloji prosesdir və bu prosesdə ailə mühiti əsas rol oynayır. Ailə uşağın ilk sosiallaşma mühiti kimi onun emosional sabitliyinin, davranış modellərinin və dəyərlər sisteminin formalaşmasına birbaşa təsir göstərir. Ailə daxilində formalaşan münasibətlər, ünsiyyət tərzi və emosional iqlim uşağın şəxsiyyətinin istiqamətini müəyyən edir.

Şəxsiyyətin inkişafı ailə daxilində qurulan münasibətlərin keyfiyyəti ilə birbaşa əlaqəlidir. Valideynlərin uşağa münasibəti, ünsiyyət forması, emosional dəstək səviyyəsi və tərbiyə prinsipləri uşağın psixoloji sabitliyinə və sosial davranışına təsir edən əsas amillər kimi qiymətləndirilir **[ 1, s.214-218]**. Bu baxımdan ailə yalnız sosial institut deyil, həm də psixoloji inkişafın formalaşdırıcı mühitidir.

Beynəlxalq psixoloji tədqiqatlar da ailə mühitinin uşağın inkişafına təsirini fundamental amil kimi qiymətləndirir. Müasir inkişaf psixologiyası ailə münasibətlərinin erkən yaşlardan beynin sosial-emosional inkişafına təsir etdiyini və bu təsirin uzunmüddətli xarakter daşıdığını göstərir. **[2, s. 1-22]**.

**Ailə mühitinin psixoloji inkişafda rolu.** Uşağın psixoloji inkişafı həyatın ilk illərindən başlayaraq ailə daxilində formalaşır. Erkən yaşlarda valideynlərlə qurulan emosional bağlılıq uşağın təhlükəsizlik hissinin yaranmasına, özünə inamının formalaşmasına və sosial münasibətlərə uyğunlaşmasına zəmin yaradır. Eyni zamanda ailə özü də uşaq üçün nümunə rolunu oynayır, uşaq ailədə gördüyü davranış qaydalarını, istifadə olunan söz və ifadələri öz gündəlik həyatında da istifadə edir. Bu isə ailənin uşağa psixoloji cəhətdən şüuraltı təsirinin göstəricisidir. Müsbət emosional mühitdə böyüyən uşaqlar adətən daha stabil davranış nümayiş etdirir, sosial münasibətlərdə daha aktiv olur və stress vəziyyətlərinə daha davamlı yanaşırlar. Bu, ailə mühitinin uşağın emosional özünütənzimləmə mexanizmlərinin formalaşmasında mühüm rol

oynadığını göstərir **[1, s.324-330]**. Əksinə, ailədaxili konfliktlərin, emosional soyuqluğun və qeyri-sabit münasibətlərin üstünlük təşkil etdiyi mühit uşağın psixoloji inkişafına mənfi təsir göstərir. Belə şəraitdə uşaqlarda narahatlıq, aqressiya, özünə inamsızlıq və sosial uyğunlaşma çətinlikləri daha tez müşahidə olunur **[3, s.85-92]**.

Ailə mühiti yalnız emosional vəziyyətə təsir etmir; o, uşağın idrakı, diqqəti və ümumi psixoloji sağlamlığını formalaşdırır. Sabit və dəstəkləyici ailə uşağın öyrənməsini asanlaşdırır, sosial bacarıqlarını və empatiya qabiliyyətini gücləndirir, erkən emosional təcrübələr isə beynin inkişafına təsir göstərir.

**Valideyn tərbiyə üslublarının uşağın davranışına təsiri.** Valideynlərin tərbiyə üslubu uşağın sosial davranış modelinin formalaşmasının əsas amillərindən biridir. Uşaq sosial normaları və dəyərləri yalnız izah yolu ilə deyil, həm də müşahidə yolu ilə mənimsəyir. Bu səbəbdən valideyn davranışı uşağın sosial öyrənmə prosesində modelləşdirici funksiya daşıyır. Ailə pedaqogikasında qeyd edilir ki, valideyn nümunəsi tərbiyənin ən təsirli vasitəsidir. Uşaqlar valideynlərin davranışını təqlid edərək sosial münasibətlərin qaydalarını və mənəvi normaları mənimsəyirlər **[4, s.112-118]**.

Tərbiyə üslublarının fərqliliyi uşağın psixoloji inkişafına müxtəlif istiqamətlərdə təsir göstərir. Demokratik və dəstəkləyici tərbiyə uşaqlarda müstəqillik, məsuliyyət və özünə nəzarət bacarıqlarını gücləndirir. Bu cür mühitdə uşaq öz fikrini ifadə etməyi və sosial məsuliyyət hissini inkişaf etdirir.

Avtoritar və ya emosional baxımdan laqeyd münasibətlər isə uşaqlarda qorxu, passivlik və ya əksinə, aqressiv davranış formalaşdıra bilər. Belə hallarda uşaq ya sosial münasibətlərdən uzaqlaşır, ya da sosial normalara qarşı müqavimət göstərir **[3, s.201-210]**.

Demokratik və dəstəkləyici tərbiyə mühiti uşaqlarda müstəqillik, sosial məsuliyyət və özünə nəzarət bacarıqlarını inkişaf etdirir. Müasir tədqiqatlar göstərir ki, valideynlərin emosional dəstəyi və konstruktiv intizam strategiyaları uşaqlarda sosial kompetensiyanın formalaşmasını gücləndirir.

**Ailə ünsiyyəti və mənəvi dəyərlərin formalaşması.** Mənəvi dəyərlərin əsasları ailədə qoyulur. Uşağın yaxşı və pis, ədalətli və ədalətsiz, doğru və yanlış haqqında ilkin təsəvvürləri ailə mühitində formalaşır. Bu proses əsasən ailədaxili ünsiyyət vasitəsilə həyata keçirilir. Valideynlərlə səmimi və açıq ünsiyyət uşaqlarda empatiya, dürüstlük, məsuliyyət və hörmət kimi keyfiyyətlərin inkişafına səbəb olur. Uşaq yalnız davranış qaydalarını öyrənmir, həm də bu davranışların mənəvi əsaslarını dərk etməyə başlayır **[1, s. 401-410]**.

Ailədə qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri mövcud olduqda uşağın daxili mənəvi nəzarət sistemi formalaşır. Bu sistem insanın davranışını xarici nəzarət olmadan tənzimləməyə imkan verir. Beləliklə, ailə mənəvi tərbiyənin ilkin və ən təsirli mühiti kimi çıxış edir **[4, s. 172-180]**.

Müasir beynəlxalq araşdırmalar da göstərir ki, ailə dəyərləri və valideyn davranışları uşaqlarda prosocial davranışın və empatiyanın inkişafında əsas rol oynayır.

**Ailə sosial və hüquqi institut kimi.** Ailə yalnız psixoloji deyil, həm də sosial və hüquqi institutdur. Cəmiyyət ailə vasitəsilə öz sosial və mənəvi dəyərlərini qoruyur və yeni nəsillərə ötürür. Valideynlərin uşağın fiziki, psixoloji və mənəvi inkişafına görə məsuliyyəti qanunvericiliklə müəyyən edilir. Bu, ailənin cəmiyyətin sabitliyində və sosial davamlılığında mühüm rol oynadığını göstərir **[5, maddə 29, 49]**.

Ailənin sosial funksiyaları tərbiyə ilə məhdudlaşmır; o, uşağın sosial rolları və davranış normalarını mənimsəyərək cəmiyyətə inteqrasiyası üçün əsas mühitdir. Beynəlxalq səviyyədə ailə uşağın rifahının başlıca təminatçısı kimi qəbul olunur və təhlükəsiz, qayğıkeş ailə mühitinin yaradılması sosial siyasətin prioritet istiqamətlərindəndir.

**Erkən ailə təcrübəsinin uzunmüddətli təsiri.** Psixoloji tədqiqatlar göstərir ki, erkən uşaqlıq dövründə formalaşan ailə münasibətləri insanın bütün həyatına təsir göstərir. Uşaqlıqda yaranan emosional bağlılıq, davranış vərdişləri və dəyərlər sistemi şəxsiyyətin sabit psixoloji strukturlarına çevrilir **[3, s. 250-258]**.

İnkişaf psixologiyasına görə, erkən sosiallaşma mərhələsində əldə olunan təcrübə sonrakı sosial münasibətlərin qurulmasında əsas rol oynayır. Bu dövrdə formalaşan özünə münasibət və sosial gözləntilər insanın gələcək davranış strategiyalarını müəyyən edir **[1, s. 356-362]** .

Müasir inkişaf psixologiyası erkən ailə mühitinin həyat boyu psixoloji rifah, sosial münasibətlər və hətta akademik nailiyyətlərlə əlaqəli olduğunu göstərir **[2, s. 1-22]**. Nəzəri təhlil göstərir ki, ailə mühiti uşağın psixoloji və mənəvi inkişafının əsas determinantıdır. Ailədaxili münasibətlərin keyfiyyəti, valideyn tərbiyəsi və emosional dəstək uşağın şəxsiyyətinə kompleks təsir göstərir. Sağlam və sabit ailə uşağın emosional rifahı, sosial uyğunlaşması və mənəvi yetkinliyi üçün əsas şərtdir.

**Problemin aktuallığı**. Uşağın psixoloji inkişafı və mənəvi dəyərlərinin formalaşması onun gələcək sosial davranışı, emosional sabitliyi və şəxsiyyətinin inkişafını müəyyən edir. Ailə ilk sosial mühit kimi uşağın davranış vərdişlərinin və dəyərlər sisteminin əsasını qoyur. Müasir sosial və texnoloji dəyişikliklər ailə münasibətlərinə təsir göstərdiyindən bu məsələnin araşdırılması xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi**. Mövzunun elmi yeniliyi ailə mühitinin uşağın psixoloji və mənəvi inkişafına təsirinin müasir, sistemli və çoxölçülü yanaşma ilə araşdırılmasında ifadə olunur. Erkən emosional təcrübələrin uzunmüddətli təsiri və valideyn tərbiyə üslublarının müqayisəli təhlili məsələyə yeni elmi baxış təqdim edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi**. Ailə mühitinin uşağın psixoloji və mənəvi inkişafına təsirinin öyrənilməsi valideyn, müəllim və psixoloqlar üçün effektiv tərbiyə strategiyalarının hazırlanmasına imkan yaradır. Əldə olunan nəticələr uşağın sosial uyğunlaşmasının və emosional sabitliyinin gücləndirilməsi, həmçinin sağlam ailə mühitinin formalaşdırılmasında tətbiq oluna bilər.

## Ədəbiyyat

1. Bayramov, Ə.S. Psixologiya. / Bayramov Ə.S., Əlizadə Ə.Ə. - Bakı: Çinar-çap, - 2002, - 620 s.
2. Bornstein, M. H. Cultural approaches to parenting. Parenting: Science and Practice, 22(1), 1–22. 2022.
3. Çələbiyev, N. Z. Ailə psixologiyası: Ali pedaqoji məktəblər üçün dərs vəsaiti. / Çələbiyev, N.Z. – Bakı: Mütərcim, - 2015, - 424 s. 2015.
4. Abbasov, A. N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik. /A. N. Abbasov, -Bakı: Mütərcim, - 2019, -272 s.
5. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 2006.

**C.C.Məmmədova**

**Ailə mühitinin uşaq psixologiyasına və mənəvi dəyərlərinin formalaşmasına təsiri**
**Xülasə**

Ailə mühiti uşağın psixoloji inkişafı və mənəvi dəyərlərinin formalaşmasında həlledici amildir. Valideyn davranışı və ailədaxili ünsiyyət onun emosional sabitliyi və sosial uyğunlaşmasına birbaşa təsir göstərir. Müasir sosial dəyişikliklər bu prosesə yeni təsirlər yaratdığından mövzu elmi və praktik baxımdan xüsusi əhəmiyyət daşıyır.

**Дж. Дж.Маммадова**

**Влияние семейной среды на детскую психологию и формирование моральных ценностей**
**Резюме**

Семейная среда является решающим фактором в психологическом развитии и формировании нравственных ценностей ребенка. Поведение родителей и общение внутри семьи напрямую влияют на его эмоциональную устойчивость и социальную адаптацию. Поскольку современные социальные изменения оказывают новое влияние на этот процесс, данная тема приобретает особое значение с научной и практической точки зрения.

**J.J.Mammadova**

**The influence of the family environment on child psychology and the formation of moral values**
**Summary**

The family environment is a decisive factor in the psychological development and formation of moral values of the child. Parental behavior and communication within the family directly affect his emotional stability and social adaptation. Since modern social changes create new influences on this process, the topic is of particular importance from a scientific and practical point of view.

**Redaksiyaya daxil olub:** 26.02.2026

*UOT 159.923:316.6*

# AİLƏDAXİLİ MÜNAQİŞƏLƏR VƏ ÜNSİYYƏT PROBLEMİ: NƏZƏRİ-METODOLOJİ TƏHLİL VƏ EMPİRİK YANAŞMALAR

**Röya Cavanşir qızı Əhmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0008-8767-1048
**E-mail:** royaahmedova24@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.40

***Açar sözlər:*** *ailə sistemi, ailədaxili münasibətlər, konflikt, bağlanma, ünsiyyət*
***Ключевые слова:*** *семейная система, внутрисемейные отношения, конфликт, привязанность, общение*
***Key words:*** *family system, intra-family relationships, conflict, attachment, communication.*

Ailə cəmiyyətin kiçik modelidir. Ailədaxili münasibətlər cəmiyyətin sosial və psixoloji strukturunun əsas dayaqlarından biri kimi insanın şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Ailə ilk sosial institut olmaqla fərdin emosional, əxlaqi, intellektual və davranış modelinin əsasını qoyur. Bu baxımdan ailədaxili münasibətlərin elmi təhlili həm psixologiya, həm pedaqogika, həm də sosial elmlər üçün prioritet istiqamətlərdən biridir.

Azərbaycan ailəsinin xüsusiyyətlərini təhlil edərkən milli-mənəvi dəyərlər, ənənəvi ailə modeli və qloballaşmanın təsiri paralel şəkildə nəzərə alınmalıdır. Ailə sistemləri nəzəriyyəsi Murray Bowen tərəfindən konseptuallaşdırılmışdır. Bu nəzəriyyəyə görə, ailə üzvləri emosional baxımdan bir-biri ilə sıx bağlıdır və sistem daxilində baş verən hər hansı dəyişiklik digər üzvlərə təsir göstərir (Bowen, 1978). Ailədaxili münasibətlərin nəzəri əsaslarına nəzər salsaq, burda bir neçə əsaslı yanaşmanı görə bilərik:

***1.Sistemli yanaşma*** - Sistemli yanaşmaya görə ailə açıq sosial sistemdir və daxili struktur, rollar, sərhədlər və iyerarxiya ilə xarakterizə olunur. Bu yanaşmada ailə qarşılıqlı əlaqədə olan alt-sistemlərdən – ər-arvad, valideyn-övlad, bacı-qardaş münasibətlərindən ibarətdir. Emosional diferensiasiya anlayışı ailə üzvlərinin fərdi identikliyini qorumaq qabiliyyətini ifadə edir (Bowen, 1978).

***2.Psixoanalitik yanaşma*** - S.Freud ailə münasibətlərini erkən uşaqlıq təcrübələri kontekstində izah etmişdir. Valideynlərlə ilkin emosional əlaqələr sonrakı interpersonal münasibətlərin əsasını təşkil edir (Freud, 1923). Ailə daxilində həll olunmamış emosional ziddiyyət fərdin gələcək ailə həyatında təkrarlana bilər.

***3.Bağlanma nəzəriyyəsi*** - Bu nəzəriyyə John Bowlby tərəfindən işlənmişdir. Bu nəzəriyyəyə əsasən, uşağın valideynlərlə təhlükəsiz emosional bağlılığı onun gələcək münasibətlərində etimad və emosional sabitlik formalaşdırır. Təhlükəsiz bağlanma ailədaxili ziddiyyətlərin konstruktiv həllinə müsbət təsir göstərir.

***4.Sosial öyrənmə modeli*** - A.Bandura tərəfindən irəli sürülmüş bu nəzəriyyəyə görə uşaqlar davranış modellərini müşahidə yolu ilə mənimsəyirlər. Valideynlər arasında münasibət uşaqlarda analoji davranışın formalaşmasına səbəb ola bilər.

Ailə münaqişələrinin səbəbini təhlil edərkən mikro və makro amilləri nəzərə almaq vacibdir. Urie Bronfenbrenner ailəni mikrosistem kimi dəyərləndirərək göstərir ki, ailədaxili münasibətlər uşağın inkişafına birbaşa təsir edir. Ailədaxili münasibətlərin tənzimlənilməsində ünsiyyət xüsusi rol oynayır. Kommunikasiya problemləri ailə daxilində emosional uzaqlaşmaya səbəb olur. Ailədə ünsiyyətin vacibliyini bir neçə əsas istiqamətdə nəzərdən keçirmək olar:

**Birincisi,** *emosional bağlılıq baxımından*. Valideynin uşağı dinləməsi, onun hisslərini qəbul etməsi və anlayışla yanaşması uşağın mənlik dəyərinin formalaşmasında mühüm rol oynayır.

**İkincisi,** *tərbiyəvi aspektdən*. Uşaqlar daha çox deyiləni yox, gördüklərini mənimsəyirlər. Valideynlər bir-biri ilə hörmət ,anlayış çərçivəsində danışdıqda, uşaq da sosial münasibətlərdə eyni modeli tətbiq etməyə meyilli olur.

**Üçüncüsü,** münaqişələrin idarə olunması baxımından. Mübahisə hər ailədə olsa da əsas onun necə həll edilməsidir. Səmərəli ünsiyyət zamanı tərəflər bir-birini ittiham etmək əvəzinə qarşı tərəfin mövqeyini anlamağa çalışır.

**Dördüncüsü,** psixoloji sağlamlıq baxımından. Ailədə açıq və səmimi ünsiyyət mühiti olduqda, ailə üzvləri öz problemlərini paylaşmaqdan çəkinmirlər.

Ailədaxili münasibətlərin düzgün tənzimlənməsi ailənin davamlılığını, psixoloji sağlamlığını təmin edən əsas şərtlərdən biridir. İnsanın gələcək sosial davranışları belə onun ailədaxili münasibətlərindən asılıdır. Bu səbəbdən ailə münasibətlərinin təsadüfi deyil, şüurlu və mənəvi dəyərlərə əsaslanan şəkildə tənzimlənməsi zəruridir. Qarşılıqlı münasibətlərin düzgün tənzimlənməməsi zamanı ailədaxili ziddiyyət qaçınılmazdır. Ziddiyyət ailə həyatının təbii hissəsi olsa da, onların idarə olunma üsulu münasibətlərin keyfiyyətini müəyyənləşdirir. Ailədaxili ziddiyyətlər aşağıdakı formalarda təzahür edə bilər:

***1. Destruktiv ziddiyyət*** – aqressiya, təhqir, emosional təzyiq.

***2. Konstruktiv ziddiyyət*** – güzəşt vasitəsilə həll olunan fikir ayrılıqları.

***3. Latent ziddiyyət*** – açıq ifadə olunmayan gərginlik yaradan vəziyyətlər.

***4. Xroniki ziddiyyət*** – davamlı və sistematik xarakter daşıyan qarşıdurmalar.

Ailədaxili ziddiyyət ünsiyyət problemi geniş yayılmış səbəblərdən biri hesab olunur. Ailə münasibətlərində konfliktlərin böyük hissəsi faktiki problemdən deyil, həmin problemin necə ifadə olunmasından və qarşı tərəf tərəfindən necə qəbul edilməsindən qaynaqlanır. Ünsiyyətin düzgün qurulmaması emosional uzaqlaşmağa səbəb olur. J. Gottman ailə ziddiyyət tədqiq edərək göstərmişdir ki, münasibətləri dağıdan əsas kommunikasiya səhvləri tənqid, hörmətsizlik (alçaltma), müdafiəçilik və emosional divar qurmadır. Ünsiyyət problemlərinin yaranmasının əsas bir neçə səbəbinə nəzər salaq:

***1. Aktiv dinləmənin olmaması.*** Qarşı tərəfi dinləmədən cavab vermək, sözünü kəsmək və ya diqqətsizlik konfliktləri dərinləşdirir.

**2. *“Sən-mesajları”ndan istifadə.*** “Sən həmişə belə edirsən” kimi ümumiləşdirici ifadələr müdafiə reaksiyası yaradır.

***3. Emosional impulsivlik.*** Qəzəb zamanı deyilən sözlər daha çox zərər verir və problemin mahiyyətini kölgədə qoyur.

***4. Gizli gözləntilər.*** İstəklərin açıq ifadə edilmədən anlaşılmasını gözləmək.

***5. Qeyri-verbal siqnalların uyğunsuzluğu.*** Səs tonu, mimika və jestlər verbal mesajı inkar etdikdə qarşı tərəfdə çaşqınlıq yaranır.

Ailədaxili münaqişələrinin düzgün tənzimlənilməsi ər-arvad münasibətlərindən asılıdır.

Sağlam nikah münasibətləri qarşılıqlı hörmət, empatiya və açıq ünsiyyət üzərində qurulur. Emosional yaxınlıq ailə sabitliyinin əsas şərtlərindən biridir.

Ailə münaqişələri, xüsusilə ər-arvad münaqişəsi təhlil edilərkən, ailənin inkişafında böhranlı dövrlərin nəzərə alınması vacibdir; **I dövr** ailə həyatının birinci ilində müşahidə edilir (nikahların ümumi sayının 30%-ini boşanma ehtimalı daşıyır), **II dövr** uşaqların anadan olması ilə bağlıdır, uşağın anadan olması bir çox ailələr üçün ciddi sınaqdır. **III dövr** ər-arvadın orta yaş dövrünə təsadüf edir ki, bu dövr hisslərin məhdudluğu ilə xarakterizə edilir; **IV dövr** ər-arvadın birgə yaşayışının 18-24-ci illərindən sonra yaranır.

Valideyn-övlad münasibətlərinin düzgün tənzimlənməməsi bir çox ailədaxili konfliktlərin yaranmasına gətirib çıxarır. Valideynlərin övladladları ilə qurduğu emosional, kommunikativ münasibət onun gələcək həyatını şərtləndirir. Beləliklə, ailədaxili münasibətlər çoxsəviyyəli psixoloji prosesdir və onun sağlam inkişafı fərdin psixoloji rifahının əsas şərtidir. Ailə daxilində formalaşan münasibət modeli cəmiyyətin sosial sabitliyinə birbaşa təsir göstərir.

**Problemin aktuallığı**. Müasir dövrdə ailə institutu sosial-iqtisadi dəyişikliklər, qloballaşma və gender rollarının transformasiyası səbəbiylə yenidən formalaşır. Fərdin şəxsiyyət kimi formalaşmasında və psixoloji sağlamlığında ailədaxili münasibətlər həlledici rol oynayır. Qarşıdurma destruktiv idarə olunması ailə sabitliyini zəiflədir. Bu baxımdan ailədaxili münasibətlərin elmi təhlili aktual sosial-psixoloji məsələdir.

**Problemin elmi yeniliyi.** Tədqiqat ailədaxili münasibətləri sistemli, bağlanma və sosial öyrənmə yanaşmaları kontekstində kompleks şəkildə birləşdirir. Qarşıdurmaların yalnız səbəbləri deyil, onların kommunikativ mexanizmləri də təhlil edilir. Bu inteqrativ yanaşma problemin elmi yeniliyini müəyyənləşdirir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali məktəb pedaqoqları, magistrant və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Bandura, A.*Social Learning Theory*. Englewood Cliffs, NJ: Prentice Hall, 1977.
2. Bowlby, J. *Attachment and Loss: Vol. 1. Attachment*. New York: Basic Books, 1969.
3. Bowen, M. *Family Therapy in Clinical Practice*. New York: Jason Aronson, 1978.
4. Freud, S. *The Ego and the Id*. London: Hogarth Press, 1923.
5. Gottman, J. M. *The Seven Principles for Making Marriage Work*. New York: Crown Publishers, 1999.


**R.C.Əhmədova**

## Ailədaxili qarşıdurmalar və ünsiyyət problemi: nəzəri-metodoloji təhlil və empirik yanaşmalar

## Xülasə

Bu məqalədə ailədaxili münasibətlərin sosial-psixoloji mahiyyəti, ailə sistemində qarşıdurmaların yaranma mexanizmləri, onların ailə üzvlərinin psixoloji rifahına və uşaqların inkişafına

təsiri geniş nəzəri çərçivədə təhlil edilir. Tədqiqat sistemli yanaşma, psixoanalitik nəzəriyyə, bağlanma nəzəriyyəsi və sosial öyrənmə modeli kontekstində aparılmışdır. Məqalədə ailədaxili qarşıdurmalar destruktiv və konstruktiv formaları müqayisəli şəkildə araşdırılır, onların idarə olunması üçün praktik mexanizmlər təqdim edilir. Elmi nəticələr göstərir ki, ailədaxili münasibətlərin keyfiyyəti fərdin emosional sabitliyi və sosial adaptasiyası üçün əsas determinantlardan biridir.

**Р.Дж.Ахмедова**

**Внутрисемейные конфликты и проблема коммуникации: теоретико-методологический анализ и эмпирические подходы**

**Резюме**

В статье в широком теоретическом контексте анализируются социально-психологическая сущность внутрисемейных отношений, механизмы возникновения конфликтов и их влияние на психологическое благополучие членов семьи и развитие детей. Исследование основано на системном подходе, психоаналитической теории, теории привязанности и модели социального научения. Рассматриваются деструктивные и конструктивные формы конфликтов, а также практические механизмы их регулирования. Результаты показывают, что качество внутрисемейных отношений является ключевым фактором эмоциональной стабильности личности и её социальной адаптации.

**R.DJ. Ahmedova**

**Intra-family conflicts and communication problems: theoretical-methodological analysis and empirical approaches**

**Summary**

This article examines the socio-psychological essence of intra-family relationships, the mechanisms of conflict within the family system, and their impact on the psychological well-being of family members and children's development. The study is based on the systemic approach, psychoanalytic theory, attachment theory, and the social learning model. It analyzes destructive and constructive forms of intra-family conflict and outlines practical regulation strategies. The findings show that the quality of intra-family relationships is a key determinant of emotional stability and social adaptation.

**Redaksiyaya daxil olub:** 06.03.2026

# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

***DİLÇİLİK***
***ЛИНГВИСТИКА***
***LİNGUİSTİCS***

*UOT 81.*

## ОСНОВНЫЕ ТЕОРЕТИЧЕСКИЕ ПОНЯТИЯ КРИТИЧЕСКОГО ДИСКУРСИВНОГО АНАЛИЗА И КРИТИЧЕСКИХ ДИСКУРСИВНЫХ ИССЛЕДОВАНИЙ: СХОДСТВА И РАЗЛИЧИЯ

**Рамиля Фарман кызы Гусейнова**
*Азербайджанский Университет Языков*
*доктор философии по филологии, доцент*
**ORCID:** 0009-0007-8599-3409
**E-mail:** huseynova_ramila@adu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.41

***Ключевые слова:*** *критический дискурсивный анализ, критические дискурсивные исследования, власть, идеология, познание*
***Açar sözlər:*** *tənqidi diskurs təhlili, tənqidi diskurs tədqiqatları, güc, ideologiya, idrak*
***Key words:*** *critical discourse analysis, critical discourse studies, power, ideology, cognition*

Критический дискурсивный анализ и критические дискурсивные исследования представляют собой междисциплинарные подходы к анализу языка и дискурса в их взаимосвязи с властью, идеологией и социальными процессами. В статье рассматриваются ключевые теоретические понятия, лежащие в основе критического дискурсивного анализа (CDA) и критических дискурсивных исследований (CDS), включая дискурс, власть, идеологию, гегемонию, социальную практику и контекст. Особое внимание уделяется эволюции критического дискурсивного анализа в направлении более широких критических дискурсивных исследований и расширению междисциплинарного поля анализа. Проведённое сопоставление позволяет уточнить соотношение критического дискурсивного анализа и критических дискурсивных исследований, а также определить их значение для современных дискурсивных исследований.

**Введение.** Изучение дискурса стало одной из центральных проблем современной лингвистики и социальных наук. Среди различных дискурсивно ориентированных подходов критический дискурс-анализ (Critical Discourse Analysis, CDA) занимает особое место благодаря своему явному фокусу на социальной неравенстве, доминировании и идеологическом контроле. С момента своего становления в конце XX века CDA стремится показать, каким образом язык функционирует как форма социальной практики, которая одновременно отражает и воспроизводит властные отношения.

В последние годы термин критического дискурсивного анализа всё чаще используется для обозначения более широкого и междисциплинарного исследовательского поля. Этот терминологический сдвиг отражает не только теоретическую диверсификацию, но

и возрастающую интеграцию когнитивных, культурных и социо-политических перспектив в анализ дискурса [3,124]. Такие исследователи, как Т. ван Дейк и Р. Водак, подчёркивают, что критический дискурсивный анализ представляет собой не единый метод, а область критического исследования, объединённую общими этическими и эпистемологическими установками [7, с.90].

Цель данной статьи — проанализировать основные теоретические понятия критического дискурсивного анализа и критических дискурсивных исследований, выявив их сходства и различия. Критический дискурс-анализ сформировался на стыке лингвистики, критической теории и социальной философии. Испытав влияние марксистской мысли, Франкфуртской школы и концепции дискурса М. Фуко [1,с.158], критический анализ отвергает представление о языке как о нейтральном инструменте коммуникации. Напротив, язык рассматривается как форма социальной практики, укоренённая в исторических, политических и институциональных контекстах.

Одной из наиболее влиятельных теоретических моделей в рамках критического дискурсивного анализа является модель Нормана Фэрклоу. Он предлагает трёхмерную концепцию дискурса, включающую текст, дискурсивную практику и социальную практику [5, с.265]. Данная модель позволяет исследователям соотносить микро лингвистические характеристики текста с макросоциальными структурами. В этом понимании дискурс одновременно формируется обществом и активно участвует в формировании социальной реальности.

Критический дискурс-анализ носит нормативный характер. Его цель заключается не только в описании дискурса, но и в критике социальной несправедливости, а также в содействии социальным изменениям. Именно эта критическая направленность отличает критический дискурсивный анализ от более описательных форм дискурс-анализа.

Критическое дискурсивное исследование (CDS) представляет собой теоретическое расширение, а не отрицание критического дискурс-анализа (CDA). Т. ван Дейк отмечает, что термин analysis («анализ») может вводить в заблуждение, создавая впечатление исключительно методологической направленности, тогда как критическое дискурсивное исследование подчёркивает более широкий, междисциплинарный характер критических дискурсивных исследований [2, с. 60].

Критическое дискурсивное исследование интегрирует идеи и методы социологии, политологии, психологии и когнитивной лингвистики. В частности, социокогнитивный подход, разработанный Т. ван Дейком, акцентирует роль ментальных моделей, разделяемого знания и идеологий в процессах производства и интерпретации дискурса [4, с. 198]. Данная перспектива позволяет объяснить, каким образом дискурс воздействует не только на социальные структуры, но и на индивидуальное сознание.

В рамках критического дискурсивного исследования дискурс понимается как сложное взаимодействие языка, когниции и общества. Такое расширенное понимание делает критическое дискурсивное исследование особенно продуктивным для анализа современных явлений, включая медиа дискурс, политическую коммуникацию и процессы идеологической поляризации. В рамках критического дискурсивного анализа (CDA) дискурс в первую очередь определяется как использование языка в социальном контексте. Однако

данное определение выходит за пределы собственно текстовых характеристик и включает условия производства, распространения и интерпретации текстов. Дискурс конструирует социальные идентичности, отношения и системы знания. Критическое дискурсивное исследование расширяет это понимание, акцентируя когнитивное измерение дискурса. Согласно Т. ван Дейку, дискурс опосредуется контекстными моделями — ментальными репрезентациями, которые участники коммуникации формируют в процессе общения [4, с.289]. Эти модели определяют то, что считается релевантным, уместным или легитимным в конкретной коммуникативной ситуации.

Азад Мамедов развивает данную перспективу, рассматривая дискурс как когнитивно-культурный механизм конструирования смысла. Он утверждает, что дискурс функционирует на пересечении языковой структуры, культурного знания и идеологической оценки [6. с.117]. С этой точки зрения дискурс не только отражает социальную реальность, но и активно организует культурные концепты и ценностные системы.

Власть является одной из ключевых аналитических категорий как в критическом дискурсивном анализе, так и в критических дискурсивных исследованиях. В рамках критического дискурс-анализа основное внимание уделяется тому, каким образом дискурс способствует воспроизводству доминирования, легитимируя неравные социальные отношения. Лингвистические стратегии, такие как пассивизация, пресуппозиция и метафора, анализируются как инструменты идеологического контроля [5, с.259] .

Т. ван Дейк концептуализирует власть как контроль над дискурсом и, опосредованно, над сознанием других. Доминирующие группы осуществляют власть, формируя общественное знание, убеждения и установки посредством дискурса [2, с.119] . Данный подход подчёркивает роль дискурса в поддержании идеологической гегемонии.

Азад Мамедов дополняет эти модели, акцентируя внимание на идеологической репрезентации через когнитивные и культурные фреймы. Он показывает, как метафоры, дейксис и оценочная лексика функционируют в качестве механизмов идеологического позиционирования в политическом и медиа дискурсе [6. с, 120]. Его исследования демонстрируют, каким образом идеология закрепляется в дискурсе через коллективно разделяемые концептуальные структуры.

Контекст играет ключевую роль в исследованиях критического дискурса. В критическом дискурсивном анализе контекст понимается как динамическая конфигурация социальных, исторических и институциональных факторов. Дискурсивно-исторический подход Р. Водака (Discourse-Historical Approach, DHA) уделяет особое внимание диахроническому измерению дискурса, показывая, как значения формируются историческими траекториями [7. С.48].

Критические дискурсивные исследования расширяют понятие контекста, включая когнитивные аспекты. Контекст рассматривается не только как внешняя социальная структура, но и как субъективная ментальная репрезентация, создаваемая участниками дискурса [3, с.75].

Азад Мамедов объединяет эти перспективы, утверждая, что контекст одновременно социальный, когнитивный и культурный. Он подчеркивает, что эффективный дискурс-анализ должен учитывать культурно-специфические концептуальные системы, формирующие интерпретацию и оценку [6, с.125]. Такой интегративный подход укрепляет

критические дискурсивные исследования, создавая мост между социальной теорией и когнитивной лингвистикой.

Критический дискурсивный анализ не предписывает единственный метод анализа, но обычно опирается на качественный текстовый анализ, основанный на социальных теориях. Методологическая гибкость критического дискурсивного анализа определяется критической повесткой, а не формальными процедурами.

Критические дискурсивные исследования открыто поддерживает методологический плюрализм. В исследования критического дискурса всё чаще включаются количественные методы, корпусная лингвистика, этнография и экспериментальные исследования.

Профессор А. Мамедов [6, с.125] выступает за гибридный методологический подход, сочетающий лингвистический анализ с когнитивной и культурной интерпретацией. Эта позиция согласуется с критическим дискурсивным исследованием и одновременно сохраняет критическую направленность критического дискурсивного анализа.

Критический дискурсивный анализ и критические дискурсивные исследования представляют собой взаимодополняющие подходы к изучению дискурса в обществе и обладают рядом общих характеристик. Основные сходства включают: Критическое отношение к власти и неравенству – как критический дискурсивный анализ, так и критические дискурсивные исследования рассматривают дискурс не только на уровне языка и текста, но и как инструмент формирования и поддержания социальных отношений власти, легитимизации доминирующих структур.

Понимание дискурса как социально обусловленного – оба подхода рассматривают дискурс как продукт общества, через который конструируются социальные идентичности, отношения и системы знания.

Междисциплинарная ориентация критического дискурсивного анализа – и критических дискурсивных исследований привлекают методы и теории из социологии, политологии, психологии и других дисциплин, расширяя рамки анализа за пределы лингвистики.

Основные различия связаны с масштабом исследования, акцентами и методологией. Критический дискурсивный анализ чаще сосредоточен на структурированных аналитических моделях, детально изучая тексты, дискурсивные практики и социальные процессы. Этот подход особенно проявляется в работах таких исследователей, как Фэрклоу и Водак [5, с.280]. Критическое дискурсивное исследование, напротив, представляет более широкую исследовательскую область, где дискурс анализируется не только через социальный контекст, но и через когнитивные и культурные измерения. Критическое дискурсивное исследование позволяет исследователям учитывать, как дискурс воздействует на индивидуальное познание, культурные представления и идеологические установки, создавая более динамичную и междисциплинарную картину.

Работы профессора А. Мамедова демонстрируют, как эти подходы могут быть продуктивно интегрированы. Он показывает, что критический дискурсивный анализ с его структурированной критической рамкой может быть объединён с когнитивно-культурными перспективами критического дискурсивного исследования. Такое интегративное соединение позволяет исследовать дискурс на социальном, индивидуальном и культурном уровнях одновременно, усиливая понимание механизмов власти и идеологии. В

этом контексте следует рассматривать критическое дискурсивное исследование не как конкурирующую парадигму, а как естественное расширение и развитие критического дискурсивного анализа.

**Заключение**

Критический дискурс-анализ (CDA) и критические дискурсивные исследования (CDS) представляют собой взаимосвязанные подходы к изучению дискурса в обществе. В то время как критический дискурсивный анализ обеспечивает базовую критическую рамку анализа, критическое дискурсивное исследование расширяет её, включая когнитивные, культурные и междисциплинарные перспективы. Интеграция теоретических разработок профессора А, Мамедова подчёркивает значимость когнитивно-культурного анализа в современных дискурсивных исследованиях. Понимание сходств и различий между критическим дискурсивным анализом и критическим дискурсивным исследованием позволяет исследователям более эффективно применять критические дискурсивные рамки к анализу сложных социальных явлений.

**Актуальность исследования.** Изучение дискурса является ключевым аспектом современной лингвистики и социальных наук, так как язык не только отражает, но и активно формирует социальные отношения, власть и идеологические структуры. В условиях глобализации, медиа среды и идеологической поляризации становится особенно важным понимание механизмов, с помощью которых дискурс конструирует социальную реальность. Критический дискурсивный анализ (CDA) и критические дискурсивные исследования (CDS) предоставляют теоретические и методологические инструменты для исследования этих процессов, однако необходимость интеграции когнитивно-культурного измерения дискурса, предложенного профессором А. Мамедовым, делает тему исследования особенно актуальной для анализа современной медиасреды и межкультурных коммуникаций.

**Научная новизна.** В работе систематически сопоставлены ключевые теоретические концепции критического дискурсивного анализа и критических дискурсивных исследованиях, выявлены их сходства и различия, что позволяет уточнить статус критических дискурсивных исследований как расширения критического дискурсивного анализа, а не отдельной конкурирующей парадигмы. Впервые комплексно интегрирована когнитивно-культурная перспектива А. Мамедова в анализ CDA и CDS, что обеспечивает более глубокое понимание взаимосвязи дискурса, культуры, познания и идеологии. Предложена концептуальная модель дискурса как социальной, когнитивной и культурной практики, которая объединяет текстовые, институциональные и ментальные аспекты дискурса, позволяя анализировать его на нескольких уровнях одновременно.

**Практическая значимость и применение.** Результаты исследования могут быть использованы при разработке методик анализа медиа дискурса, политической коммуникации и образовательных текстов, с акцентом на выявление идеологического влияния и скрытых механизмов власти. Подход, основанный на интеграции критического дискурсивного анализа, критических дискурсивных исследований и когнитивно-культурной перспективы, может применяться в межкультурных исследованиях для оценки культурных различий в восприятии и интерпретации дискурса. Выводы работы могут быть

полезны для специалистов в области лингвистики, социологии, политологии, медиаисследований и психологии, предоставляя инструменты для комплексного анализа дискурсивных практик. Анализ медиа-дискурса и политических текстов, включая выявление скрытых идеологий и манипулятивных стратегий. Исследования в области межкультурной коммуникации и сравнительной лингвистики. Разработка образовательных программ и тренингов по критическому мышлению и анализу дискурса. Создание методологических подходов для интеграции когнитивного и культурного анализа в исследования социальных и политических процессов.

## Литература

1. Фуко М. Археология Знания, СПБ: Гуманитарная Академия с. 417.
2. Dijk Teun A.van Discourse and context. A Sociocognitive ApproachCambridge: Cambridge University 2008. Press p.283.
3. Dijk Teun A.van Society and discourse. How social contexts influence text and talk. Cambridge: Cambridge University 2009. Press p.299.
4. Dijk Teun A.van Discourse and knowledge.A Socio-Cognitive Approach Cambridge: Cambridge University 2014. Press p.409.
5. Fairclough N.L., Wodak R. Critical discourse analysis. In: van Dijk Teun A. (ed.) Discourse studies. A multidisciplinary introduction. Vol. 2. Discourse as social interaction. London: Sage Publications, 1997. pp.258-284.
6. Mammadov A. and Mammadov M. The role of figurative language in political discourse. M. Kuzniak, A. Libura, M. Szawerna (eds.) Studies in Language, Culture and Society.Vol. 3 Frankfurt am Main: Peter Lang Edition, 2014. pp.113-127.
7. Wodak R. The Discourse of Politics in Action. Politics as Usual. London: Palgrave Macmillan 2009. p.252.

**Р.Ф.Гусейнова**

## Основные теоретические понятия критического дискурсивного анализа и критических дискурсивных исследований: сходства и различия

### Резюме

Критический дискурс-анализ (CDA) и исследования критического дискурса (CDS) являются влиятельными междисциплинарными подходами, которые исследуют взаимосвязь между языком, властью, идеологией и обществом. Хотя эти два термина часто используются как синонимы, они представляют разные этапы теоретического и методологического развития исследований критического дискурса. В этой статье представлен всесторонний обзор основных теоретических концепций критического дискурсивного анализа и критических дискурсивных исследований, с акцентом на дискурс, власть, идеологию, социальную практику и контекст. В статье утверждается, что критический дискурсивный анализ следует понимать не как замену критического дискурсивного исследования, а как его теоретическое расширение, включающее когнитивные, культурные и междисциплинарные аспекты дискурс-анализа.

**R.F.Hüseynova**

**Tənqidi diskurs təhlili və tənqidi diskurs tədqiqatlarının əsas nəzəri anlayışları: oxşarlıqlar və fərqlər**

**Xülasə**

Tənqidi diskurs təhlili və tənqidi diskurs tədqiqatları dil, hakimiyyət, ideologiya və cəmiyyət arasındakı əlaqələri araşdıran nüfuzlu beynəlxalq fənlərarası yanaşmalardır. Bu iki termin tez-tez sinonim kimi istifadə olunmasına baxmayaraq, onlar tənqidi diskurs tədqiqatlarının nəzəri və metodoloji inkişafının müxtəlif mərhələlərini təmsil edir. Məqalədə Tənqidi diskurs təhlili və tənqidi diskurs tədqiqatlarının əsas nəzəri konsepsiyalarına dair əhatəli icmal təqdim olunur, diskurs, hakimiyyət, ideologiya, sosial praktika və kontekstə xüsusi diqqət yetirilir. Məqalədə qeyd olunur ki, tənqidi diskurs təhlili tənqidi diskurs tədqiqatlarının əvəzedicisi kimi deyil, onun nəzəri genişlənməsi kimi başa düşülməlidir və diskurs təhlilinin koqnitiv, mədəni və disiplinlərarası aspektlərini əhatə edir.

**R.F.Huseynova**

**Basic concepts of critical discourse analysis and critical discourse studies: similarities and differences**

**Summary**

Critical Discourse Analysis (CDA) and Critical Discourse Studies (CDS) are influential interdisciplinary approaches that examine the relationship between language, power, ideology, and society. Although these two terms are often used interchangeably, they represent different stages in the theoretical and methodological development of critical discourse research. This article provides a comprehensive overview of the key theoretical concepts of CDA and CDS, with a focus on discourse, power, ideology, social practice, and context. The article argues that CDS should be understood not as a replacement for CDA, but as its theoretical expansion, incorporating cognitive, cultural, and interdisciplinary aspects of discourse analysis.

**Redaksiyaya daxil olub:** 29.01.2026

*UOT 81.*

# THE STUDY OF PHRASEOLOGY THROUGH THE PRISM OF LANGUAGE AND CULTURE RELATIONS

**Kəmalə Rafiq qızı Əliyeva**
*Gəncə Dövlət Universitetinin dosenti*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0001-7092-7547
**E-mail:** Ekrq1991@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.42

***Key words****: language, culture, phraseology, linguoculturology, national mentality*
***Açar sözlər****: dil, mədəniyyət, frazeologiya, linqvokulturologiya, milli mentalitet*
***Ключевые слова****: язык, культура, фразеология, лингвокультурология, национальный менталитет*

Language and culture are closely interconnected socio-cultural phenomena that mutually influence each other. While language functions as a primary means of preserving and transmitting culture, culture, in turn, shapes the semantic and functional development of language. One of the most explicit manifestations of this interaction is observed in phraseology. Phraseological units represent stable linguistic expressions that embody historical experience, national mentality, worldview, and cultural values of a people. This article examines phraseology within the framework of language and culture relations, focusing on its linguocultural and ethnolinguistic characteristics. The role of phraseology in the formation and transmission of national-cultural semantics is theoretically substantiated

Phraseology occupies a central position in modern linguistics due to its close connection with both language structure and cultural meaning. The study of phraseological units through the prism of language and cultural relations allows researchers to reveal the interaction between linguistic form and collective cultural experience. Phraseological units are not simply fixed word combinations; they function as culturally marked expressions that reflect national mentality, historical memory, traditions, and values shared by a particular speech community.

From a linguocultural perspective, phraseological units serve as carriers of cultural information. Their meanings are often shaped by cultural context, social norms, and traditional patterns of thought. As a result, many phraseological expressions cannot be fully understood without knowledge of the cultural background in which they were formed. This cultural specificity makes phraseology a valuable source for studying the worldview and value system of a nation. (1, p. 56)

The relationship between language and culture is particularly evident in the semantic structure of phraseological units. Metaphor, symbolism, and imagery commonly used in phraseology are closely linked to cultural experience and collective memory. These elements contribute to the stability of phraseological meaning and ensure the preservation of cultural concepts over time. Through repeated use in discourse, phraseological units help transmit cultural knowledge from one generation to another. (5, p. 501-538)

Linguocultural analysis plays a crucial role in uncovering the deeper semantic layers of phraseology. By examining phraseological units in their cultural context, scholars can identify national stereotypes, social attitudes, and cultural models embedded in language. The study of phraseology through the prism of language and cultural relations provides significant insights into the interdependence of linguistic and cultural systems. Phraseological units represent a unique intersection of language and culture, making them an essential object of research in understanding how cultural identity is preserved, expressed, and transmitted through language. (3, p. 228)

In modern linguistics, the study of language as not only a communicative tool but also a cultural phenomenon has gained significant relevance. Language serves as a repository of collective experience and ensures the continuity of cultural traditions across generations. Within this context, phraseology occupies a special place, as phraseological units reflect the cognitive, emotional, and cultural characteristics of a speech community (6, p.314). They encode cultural meanings in a condensed and figurative form, making them a valuable object of linguistic and cultural analysis. (2, p. 256)

The relationship between language and culture has been extensively explored within anthropological linguistics, ethnolinguistics, and linguoculturology. According to these approaches, language is inseparable from culture and functions as a system of cultural symbols. The theories of linguistic relativity proposed by E. Sapir and B. Whorf emphasize that language influences perception, cognition, and cultural interpretation of reality. (8, p. 258)

Phraseological units, in particular, serve as linguistic markers of cultural experience. Their meanings often transcend literal interpretation and are rooted in historical, social, and cultural contexts. Therefore, the study of phraseology provides insights into the cultural worldview of a linguistic community.

The semantic structure of phraseological units is predominantly metaphorical, and this metaphorical nature is closely connected with cultural symbolism. Expressions related to parts of the body, nature, social relations, and everyday life frequently carry culturally specific meanings. For instance, body-related phraseological units often reflect emotional states, moral values, and social norms.

Such expressions function as cultural codes, preserving traditional knowledge and value orientations. The cultural semantics of phraseology can be fully understood only through the analysis of its historical origin, imagery, and usage contexts.

Phraseological systems reflect national mentality at the linguistic level. The way a nation conceptualizes reality — its attitudes toward work, family, morality, and social relations—is vividly manifested in phraseological expressions. In many languages, including Azerbaijani, phraseology demonstrates a strong connection with agrarian life, hospitality, honor, and communal values. (7, p. 242)

The study of phraseology through the prism of language and culture relations demonstrates that phraseological units constitute one of the most concentrated forms of cultural representation in language. They reflect historical experience, national mentality, and cultural values in a stable and expressive manner. Therefore, phraseology plays a crucial role in understanding not only linguistic structure but also the cultural identity of a speech community. The integration of linguistic and cultural approaches in phraseological research contributes

significantly to the development of modern linguistics. (6, p. 314)

**Relevance of the research problem.** In modern linguistics, the study of the relationship between language and culture has gained particular significance, as language serves as the primary carrier of collective memory and national values. Phraseological units reflect cultural experience and national mentality in stable linguistic forms, which makes their investigation from a linguocultural perspective an актуal scientific direction.

**Scientific novelty of the research.** The scientific novelty of the study lies in the comprehensive analysis of phraseological units not only from a structural-semantic perspective but also within a cultural-conceptual framework. The article substantiates phraseology as a linguistic code of national consciousness, cultural stereotypes, and collective experience.

**Practical significance and application.** The results of the research can be applied in teaching courses on phraseology, linguoculturology, and language–culture relations in higher education institutions. Moreover, the explanation of the cultural semantics of phraseological units ensures accurate interpretation in translation and intercultural communication.

## Bibliography

1. Bally, Ch. Traité de stylistique française. – Heidelberg: Carl Winter, 1961. – 2 vols.
2. Cowie, A.P. (ed.). Phraseology: Theory, Analysis, and Applications. – Oxford: Oxford University Press, 1998. – 256 p.
3. Crystal, D. Language and Culture. – Cambridge: Cambridge University Press, 2003. – 228 p.
4. Dobrovol'skij, D., Piirainen, E. Figurative Language: Cross-Cultural and Cross-Linguistic Perspectives. – Amsterdam: Elsevier, 2005. – 448 p.
5. Fillmore, C.J., Kay, P., O'Connor, M.C. Regularity and idiomaticity in grammatical constructions: The case of let alone // Language. – 1988. – Vol. 64, No. 3. – P. 501–538.
6. Kövecses, Z. Metaphor and Culture. – Cambridge: Cambridge University Press, 2010. – 314 p.
7. Lakoff, G., Johnson, M. Metaphors We Live By. – Chicago: University of Chicago Press, 1980. – 242 p.
8. Sapir, E. Language: An Introduction to the Study of Speech. – New York: Harcourt, Brace & Company, 1921. – 258 p.

**T.A. Zeynalova**

## The study of phraseology through the prism of language and culture relations
## Summary

This article explores phraseology as a key linguistic domain that reflects the interaction between language and culture. Phraseological units are examined as culturally marked expressions that convey national mentality, worldview, and collective experience. The study highlights the importance of linguocultural analysis in revealing the semantic depth and cultural specificity of phraseology, emphasizing its role in preserving and transmitting cultural values

**T.Ə. Zeynalova**

**Dil və mədəniyyət münasibətləri prizmasından frazeologiyanın tədqiqi**
**Nəticə**

Bu məqalədə frazeologiya dil və mədəniyyət münasibətləri prizmasından tədqiq olunur. Frazeoloji vahidlər milli-mədəni informasiyanın daşıyıcısı kimi qiymətləndirilir və onların linqvokulturoloji, etnolinqvistik xüsusiyyətləri araşdırılır. Məqalədə frazeologiyanın xalqın dünyagörüşünü, tarixi təcrübəsini və mentalitetini əks etdirdiyi elmi-nəzəri baxımdan əsaslandırılır. Aparılan təhlil frazeoloji tədqiqatların dilçilikdə mədəniyyət yönümlü yanaşmalar üçün mühüm əhəmiyyət daşıdığını göstərir.

**Т.А. Зейналова**

**Исследование фразеологии сквозь призму взаимоотношений языка и культуры**
**Резюме**

В статье рассматривается фразеология в контексте взаимоотношений языка и культуры. Фразеологические единицы анализируются как носители национально-культурной информации, отражающие мировоззрение, исторический опыт и менталитет народа. Обосновывается значение лингвокультурологического и этнолингвистического подходов в изучении фразеологии и подчеркивается ее роль в сохранении культурной идентичности.

**Redaksiyaya daxil olub:** 21.02.2026

*UOT 378*

# QƏDİM TÜRK MİRASINDA “SAVÇI” KİMDİR?

**Günəş Novruz qızı Mustafayeva**
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun*
*fəlsəfə doktoru üzrə doktorantı*
**ORCİD:** 0000-0002-3729-0932
**E-mail:** *iltifatly@gmail.com*
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.43

***Açar sözlər:*** *qədim türk yazılı abidələri, savçı, konsept, tanrı konsepti, koqnitiv dilçilik*
***Ключевые слова:*** *древнетюркские письменные памятники, савчи, концепция, концепция бога, когнитивная лингвистика*
***Key words:*** *ancient Turkic written monuments, savçı, concept, god concept, cognitive linguistics*

Dünya dilçiliyi geniş və mürəkkəb bir sahədir. Bu sahə insanların dil və yazı dilləri ilə bağlı öyrənmələrinin inkişafı nəticəsində yaranmışdır. Dilçilik qədim dövrlərdən bu günə qədər sosial və koqnitiv aspektlərdə müxtəlif nəzəriyyə və yanaşmaların meydana gəlməsinə səbəb olmuşdur. Müasir dilçilikdə dil insanın şüuru, ətraf mühitin qavranılması və fəaliyyətləri ilə sıx əlaqədə tədqiq edilir. Dil və düşüncə arasındakı əlaqə müasir dilçiliyin koqnitiv yanaşmasında əsas yer tutur. Koqnitiv dilçilikdə əsas vahid konseptdir. İnsanlar dünyanı və obyektiv reallığı konseptlər vasitəsilə dərk edir və bu konseptlər şüurun inkişafı ilə zamanla dəyişir, zənginləşir.

Tanrı konsepti türklərin zəngin tarixi və mədəniyyətini əks etdirən, həm qədim yazılı abidələrində, həm də müasir dillərində müxtəlif səviyyələrdə ifadə olunan çoxcəhətli bir mövzudur. Bu konsept birbaşa türklərin dini inanc sistemləri ilə bağlıdır və türklər geniş coğrafi ərazilərdə müxtəlif mədəniyyətlərlə tanış olsa da, orijinal inanc sistemlərini qorumağı bacarmışlar. Türklərin ən qədim dini ənənəsi olan Göy tanrı inancı təbiət ruhlarına olan inancla sıx bağlıdır. Türk xalqı təbiətdəki müxtəlif elementlərə, məsələn, günəşə, aya, ulduzlara, suya, dağlara və digər təbiət hadisələrinə inam göstərmiş, şamanizm də zamanla türklər arasında yayılmışdır.

Konsept dildə (nitqdə) müxtəlif səviyyəli vahidlər vasitəsilə obyektivləşir. Bu vahidlər leksemlər də ola bilər, frazeologizmlər də. Belə ki, tanrı konseptini ifadə edən sözlərdən biri “savçı”dır. Bu söz Tanrı konsepti ilə əlaqələndirilərək, “peyğəmbər” və “elçi” kimi məna çalarları qazanmışdır. “Savçı” sözü sav/sab və -çı şəkilçisinin birləşməsindən meydana gəlmişdir. Dilçi alim Rəsəninə görə, “sab” sözü qədim türk dilində “söz”, “danışıq” mənalarını ifadə edir. Vaxtilə türk dillərində təkhecalı köklərdə həm samit əvəzlənməsi, həm də sait əvəzlənməsi söz yaradıcılığı ilə nəticələnmişdir. Bəzi alimlərə görə, *b* səsinin *v* səsinə keçməsi qədim uyğur dili dönəminə təsadüf etmiş və “sab” sözü *sav* formasında işlənmişdir. Cerard Klausona görə, “sav” sözü “hekayə”, “mesaj”, “söz” mənalarını ifadə etmişdir. Vilhelm Tomson isə, “sab” sözünün Kül Tigin abidəsinin cənub üzündə tez-tez işləndiyini və bu sözün heç bir zaman “şöhrət”, “nüfuz”, “məşhurluq” mənalarını ifadə etmədiyini, “mesaj”, “çağrı”, “dəvət” kimi mənalarını özündə ifadə etdiyini bildirmişdir.

*Sav/sab* sözü Kültigin, Bilgə Xaqan abidələrində «söz» mənasında işlənmişdir. -çı şəkilçisi isə Məhərrəm Erginə görə, türk dilində qədim zamanlardan bəri istifadə olunan və öz işləkliyini itirməyən isimdən isim düzəldən şəkilçidir.

X və XI əsrlərdə yaşamış uyğurların dilində “sabçı” formasında işlənən söz “xəbərçi” mənasında işlənmişdir. Qədim uyğur dilində yazılmış və “Falnamə” kimi də tanınan Irk Bitig abidəsində “sabçı” sözü “natiq”, “xəbər gətirən”, “xəbərçi” və “çapar” mənalarını ifadə etmişdir:

1. Alp er oglı süke barmış. Sü yirinte erklig sabçı törütmiştir/ İgid ər oldu, qoşuna getmiş, qoşun yerində olan natiqlər toplanmış. [3, s. 79]

2. Sarığ atlığ sabçı, yağız atlığ yabalaç edgü söz sab elti gəlir, -tir/ Sarı atlı çapar, qonur atlı elçi yaxşı söz, xəbər gətirərək gəlir, -deyir. [3, s. 31]

Xəqaniyyə türkcəsində yazılmış abidələrdə “savçı” sözü “peyğəmbər” və “elçi” mənalarında işlənmişdir. Mahmud Kaşğarinin “Divani lüğət-it türk” əsərində “savçı” sözü “peyğəmbər” və “elçi” mənasında işlənmişdir:

1. Sawçı: ulu tanrının göndərdiyi peyğəmbər. Bu sözün əsli xəbər mənasında olan “saw”dır. “Saw” burada “söz”, “atalar sözü” mənasındadır, peyğəmbərlər də bunları çatdırır. [2, s. 379]

2. Sawçı: elçi. Bu, qohumlar, qudalar, düngürlər arasında yazı ilə gedib-gələn adamdır. [2, s. 379]

Qutadqu Bilik əsərində bu söz, həmçinin “elçi” və “peyğəmbər” mənalarında işlənmişdir:

1. Bular ehl-I beyt ol habibka kadaş, Habib savçı hakkı üçün sev adaş/ Bunlar əhli-beytdir, Peyğəmbərin soyudur, ey qardaş, sən də onları, sevgili Peyğəmbər haqqı üçün sev. [5, s. 227]

2. Öküş minn selamım sevüg savçıka Ol edge kılavuz köni yolçıka/ Sevgili rəsula, o doğru rəhbər və yaxşı yol göstərənə minlərcə salam. [5, s. 195]

3. Ulug savçısı muhammed-i mustafa öze Bolsun takı ma anın işleri aziz agırlıg sahabeler öze/ Böyük rəsulu Məhəmməd Mustafa ilə onun dostları olan əziz və möhtərəm səhabələrinə salam və səna olsun. [5, s. 227]

4. Sevüg savçı ıdtı bağırsak idi, Budunda talusı kişide kedi/ Əsirgəyən rəbbim xalqın ən seçkini və insanların ən yaxşısı olan sevgili peyğəmbəri göndərdi. [5, s. 5]

Quranın türk dilində ilk tərcüməsi hesab olunan bir nüsxədə “sawçı” sözü “peyğəmbər” mənasında işlənmişdir: kirtgünüŋler Tanrıḳa, yalavaçıŋa, anasından tuġa bitig bilmegli sawçıḳa. [1, s. 65]

Xarəzm türkcəsində yazılmış əsərlərdə bu söz “sawçı” və ya “savçı” şəklində “peyğəmbər”, “kitabı olmayan peyğəmbər”, “elçi” mənalarını ifadə etmişdir:

1. Savcı ıdtı anıng tapa. [1, s. 96]

2. Erkligimiz sen-sen, savçımız sen, nusret bergüçimiz sen. [1, s. 788]

Çağatay türkcəsində yazılmış lüğətdə isə “sawçı” sözü “peyğəmbər”, “elçi”, “bələdçi”, “rəhbər” mənalarında işlənmişdir. [1, s. 788]

Qıpçaq türkcəsində yazımış lüğətdə isə bu söz “peyğəmbər”, “hakim”, “iddiaçı” mənalarını ifadə etmişdir. [1, s. 788]

“Savçı” sözü müasir türk dillərindən özbək dilində “savçi” formasında, türkmən dilində isə “savçı” formasında “görücü” və “dünürcü” (elçi) mənalarını ifadə edir. Bu söz həmçinin, qazax və Türkiyə türkcəsində “hakim” mənasını ifadə edir.

Aparılan araşdırma göstərir ki, “Tanrı” konsepti türk mədəniyyətində və dilində çoxşaxəli və zəngin semantik məzmun daşıyır. Bu konseptin ifadə vasitələrindən biri olan “savçı” sözü, qədim dövrlərdən bu günə qədər semantik və funksional baxımdan inkişaf edərək bir sıra mühüm anlayışları özündə ehtiva etmişdir. Qədim türk abidələrində “sav” və ya “sab” kimi

“söz”, “danışıq”, “hekayə”, “çağırış” mənalarını ifadə edən bu söz, zamanla elçi, peyğəmbər, natiq, xəbərçi, rəhbər kimi dərin dini və sosial anlamlar qazanmışdır. Koqnitiv dilçilik baxımından yanaşdıqda, “savçı” sözü tanrı konsepti ilə bağlı bir konseptual şəbəkənin əsas vahidlərindən birinə çevrilmiş, tanrı ilə insan arasında vasitəçi olan, ilahi mesajı ötürən bir fiquru ifadə etmişdir. Bu, türklərin dini dünyagörüşündə tanrı-insan ünsiyyəti, ilahi hikmətin çatdırılması və sözün müqəddəsliyi kimi dəyərlərin nə qədər önəmli olduğunu göstərir.

**Problemin aktuallığı.** Qədim türk yazılı abidələrinin dilinin sistemli şəkildə araşdırılması türk dillərinin tarixi inkişaf mərhələlərinin müəyyənləşdirilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Xüsusilə, Orxon-Yenisey abidələri kimi ilkin yazılı mənbələrdə qeydə alınmış leksik vahidlərin (və ya onların kökünün) semantik təhlili qədim türk cəmiyyətinin ictimai-siyasi, hüquqi və mədəni həyatının dil müstəvisində bərpasına imkan yaradır. Bu baxımdan “savçı” sözünün tarixi inkişaf yolunun izlənilməsi aktual elmi problemlərdən biridir. “Savçı” lekseminin müxtəlif dövrlərdə və fərqli mətnlərdə qazandığı məna çalarlarının araşdırılması semantik dəyişmə proseslərinin–məna genişlənməsi, daralması və funksional transformasiyanın–konkret fakt əsasında öyrənilməsinə şərait yaradır. Sözün həm erkən yazılı abidələrdə, həm də sonrakı mərhələlərdə, o cümlədən “Divani lüğət-it türk” kimi fundamental mənbədə işlənməsi onun ümumtürk leksik qatına aid olduğunu göstərir və müqayisəli-tarixi tədqiqatlar üçün zəngin material verir. Bundan əlavə, “savçı” sözünün müəyyən dövrlərdə ictimai-siyasi və hüquqi məzmun daşıması qədim türk dövlətçilik ənənələrinin və idarəçilik sisteminin dil faktları əsasında öyrənilməsi baxımından da aktuallıq kəsb edir. Dil vahidinin semantik inkişafı yalnız linqvistik deyil, eyni zamanda tarixi-sosioloji aspektdə də mühüm məlumat mənbəyi kimi çıxış edir. Müasir türkoloji tədqiqatlarda ortaq türk leksik fondunun sistemli şəkildə yenidən nəzərdən keçirilməsi, qədim sözlərin etimoloji və semantik xüsusiyyətlərinin dəqiqləşdirilməsi zərurəti nəzərə alındıqda, “savçı” sözünün tarixi-semantik təhlili həm nəzəri, həm də praktik baxımdan aktualdır. Bu istiqamətdə aparılan araşdırmalar türk dillərinin tarixi leksikologiyası və semasiologiyası sahəsində mövcud boşluqların doldurulmasına xidmət edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi “savçı” sözünün tarixi-semantik inkişafının sistemli və müqayisəli şəkildə araşdırılmasında ifadə olunur. İşdə leksemin qədim türk yazılı abidələrində, xüsusilə Orxon-Yenisey abidələrindəki işlənməsi ilə sonrakı mərhələlərdə, o cümlədən “Divani lüğət-it türk”dəki məna xüsusiyyətləri vahid kontekstdə təhlil edilir. Araşdırmada sözün yalnız leksik deyil, həm də ictimai-siyasi və hüquqi termin kimi funksional yükü müəyyənləşdirilir və onun semantik transformasiyası mərhələli şəkildə izlənilir. Bu isə “savçı” lekseminin inkişaf istiqamətlərini daha dəqiq şəkildə müəyyən etməyə imkan verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri türk dillərinin tarixi leksikologiyası və semasiologiyası sahəsində aparılan araşdırmalarda, eləcə də qədim türk yazılı abidələrinin, xüsusilə Orxon-Yenisey abidələrinin dilinin tədrisində istifadə oluna bilər. Eyni zamanda, əldə edilən nəticələr tarixi lüğətlərin tərtibi, etimoloji araşdırmalar və müqayisəli-tarixi dilçilik istiqamətində aparılan elmi işlər üçün praktik material kimi əhəmiyyət kəsb edir. Tədqiqat ali məktəblərdə “Türk dillərinin tarixi”, “Türkoloji dilçilik” və “Tarixi leksikologiya” fənlərinin tədrisində də tətbiq oluna bilər.

**Ədəbiyyat**

1. Deniz S. Karahanlı, Harezm ve Kıpçak türkçesi eserlerinde dini terimler, Elazığ, 2019, 1017 s.
2. Əskər R. Mahmut Kaşğari. “Divanü lüğat-it-türk”. 4 cilddə. IV cild. Bakı: Ozan, 2006, 752 s.
3. Göybəy Uluç, Aygün Hüseynli, Dilbər Mehdiyeva, Özcan Qır, İrana İbrahimova, Ceyran Sərxanbəyova. Irk Bitig. Qədim uyğur dilində yazılmış fal kitabı. Bakı, 2013, 120 s.
4. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə. III cild. Qədim uyğur yazısı abidələri, I hissə. Bakı: Elm və təhsil, 2010, 664 s.
5. https://www.pdfdrive.com/kutadgu-bilig-dizini-e61054553.html

**G.N.Mustafayeva**

**Qədim türk mirasinda “Savçı” kimdir?**
**Xülasə**

Məqalədə “savçı” sözünün mənşəyi, tarixi və müxtəlif türk dillərində qazandığı məna çalarları araşdırılır. Sözün əsası olan sav/sab qədim türk dilində “söz”, “xəbər”, “çağırış” mənasını verir, -çı şəkilçisi isə həmin işi icra edən şəxsi bildirir. Bu söz tarixən “xəbərçi”, “elçi”, “peyğəmbər”, “rəhbər” kimi anlamlarda işlənmişdir. Ən qədim yazılı mənbələrdə–Orxon-Yenisey abidələri, Irk Bitig, Divani Lüğət-it Türk və Qutadqu Bilikdə “savçı” həm Tanrının sözünü çatdıran peyğəmbər, həm də elçi və natiq kimi təqdim olunur. Müxtəlif türk dillərində bu sözə “hakim”, “iddiaçı”, “görücü”, “dünürcü” kimi mənalar da verilib.

**Г.Н.Мустафаева**

**Кто такой «Savçı» в древнем тюркском наследии?**
**Резюме**

В статье рассматриваются происхождение, история и оттенки значения слова «савчи» в различных тюркских языках. Корень слова сав/саб в древнетюркском языке означает «слово», «новость», «зов», а суффикс -чи указывает на человека, выполняющего эту задачу. Исторически это слово использовалось в значениях «рассказчик», «вестник», «пророк», «лидер». В древнейших письменных источниках — памятниках Орхон-Енисей, Ирк Битиг, Дивани Лугат-ит Тюрк и Гутадгу Билык — «савчи» представлен как пророк, передающий слово Божье, а также как вестник и оратор. В различных тюркских языках этому слову также придавались значения «судья», «претендент», «провидец», «провидец».

**G.N.Mustafayeva**

## Who is the "Savçı" in ancient Turkic heritage?

**Summary**

The article examines the origin, history and shades of meaning of the word "savçı" in various Turkic languages. The roots of the word sav/sab mean "word", "news", "call" in ancient Turkic, and the suffix -çı indicates the person who performs the task. This word has historically been used in the meanings of "newscaster", "messenger", "prophet", "leader". In the oldest written monuments-Orkhon-Yenisei monuments, Irk Bitig, Diwan Lughat al-Turk and Kutadgu Bilig, "savçı" is presented as both a prophet who delivers the word of God, as well as a messenger and orator. In various Turkic languages, this word has also been given meanings such as "judge", "claimant", "visionary", "seer".

**Redaksiyaya daxil olub:** 17.02.2026

*UOT 81.*

# MULTİKULTURAL CƏMİYYƏTLƏRDƏ DİL DAVRANIŞI VƏ ÇOXDİLLİLİK MODELLƏRİ

**Pərvanə Əlövsət qızı Bağırova**
*Azərbaycan Dillər Universitetinin doktorantı*
**ORCID:** 0009-0005-2353-3154
**E-mail:** parvana13baghirova@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.44

**Açar sözlər:** *dil davranışı, çoxdillilik, sosiolinqvistika, dil seçimi, identiklik, sosial inteqrasiya*
**Ключевые слова:** *языковое поведение, многоязычие, социолингвистика, языковой выбор, идентичность, социальная интеграция*
**Key words:** *language behavior, multilingualism, sociolinguistics, language choice, identity, social integration*

**Giriş.** Müasir dünyada qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq miqrasiyanın artması və informasiya-kommunikasiya texnologiyalarının inkişafı müxtəlif mədəniyyətlərin və dillərin qarşılıqlı təsirini daha da intensivləşdirmişdir. Multikultural cəmiyyət müxtəlif dil, din və mədəniyyətlərin bir arada mövcud olduğu, fərqli identikliklərin qarşılıqlı əlaqəyə girdiyi dinamik sosial məkanı ifadə edir. Belə cəmiyyətlərdə harmonik birgəyaşayışın təmin olunması üçün əsas vasitələrdən biri dildir.

Ünsiyyət prosesinin effektiv təşkili bu baxımdan dil amilini ön plana çıxarır. Dil yalnız informasiya ötürən mexanizm deyil, o, eyni zamanda sosial münasibətləri tənzimləyən, fərdin cəmiyyətdəki mövqeyini müəyyənləşdirən və mədəni yaddaşı qoruyan fundamental sistemdir. İnsanlar dil vasitəsilə öz dünyagörüşlərini formalaşdırır, dəyərlərini ifadə edir və müəyyən sosial qrupa mənsub olduqlarını nümayiş etdirirlər. Buna görə də dil seçimi çox vaxt sadəcə kommunikativ qərar deyil, həm də sosial və psixoloji məna daşıyan davranış aktıdır.

Multikultural cəmiyyətlərdə dil, həm inteqrasiyaedici, həm də fərqləndirici funksiya yerinə yetirir. Bir tərəfdən ortaq ünsiyyət dili müxtəlif qruplar arasında anlaşmanı asanlaşdırır, digər tərəfdən ana dilinin qorunması mədəni müxtəlifliyin davamlılığını təmin edir. Bu balansın qorunması isə müasir cəmiyyətlərin qarşısında duran əsas vəzifələrdən biri hesab olunur.

Çoxdillilik bu kontekstdə həm fərdi bacarıq, həm də mürəkkəb ictimai fenomen kimi dəyərləndirilir. Bir neçə dili bilən fərdlər fərqli sosial və mədəni mühitlərə daha asan uyğunlaşır, kommunikativ çeviklik nümayiş etdirir və geniş sosial şəbəkələr qurmaq imkanı əldə edirlər. Tədqiqatlar göstərir ki, çoxdillilik yalnız ünsiyyət imkanlarını artırmır, həm də koqnitiv elastikliyi gücləndirir, analitik düşünmə qabiliyyətini inkişaf etdirir və fərdlərin mədəniyyətlərarası kompetensiyalarını formalaşdırır.

Çoxdillilik cəmiyyət daxilində tolerantlığın və qarşılıqlı hörmətin möhkəmlənməsinə xidmət edir. Fərqli dillərlə təmas insanlarda digər mədəniyyətlərə qarşı daha açıq münasibət yaradır, stereotiplərin zəifləməsinə və sosial inteqrasiyanın güclənməsinə şərait yaradır [0, s. 3]. Bu baxımdan çoxdillilik yalnız dil bilikləri toplusu deyil, həm də sosial kapital kimi çıxış edir.

Multikultural mühitdə dil münasibətləri həmişə birmənalı olmur. Bəzi dillərin daha nüfuzlu hesab edilməsi, digərlərinin isə məhdud funksional sahədə istifadə olunması dil bərabərsizliyi kimi problemlərə gətirib çıxara bilər. Bu səbəbdən dil siyasəti, təhsil strategiyaları və

mədəniyyətlərarası dialoqu təşviq edən mexanizmlər çoxdilli cəmiyyətlərin sabit inkişafında mühüm rol oynayır.

Multikultural mühitdə dil davranışının və çoxdilliliyin öyrənilməsi yalnız linqvistik deyil, həm də sosial, psixoloji və kulturoloji baxımdan aktual elmi istiqamət kimi çıxış edir. Bu sahənin tədqiqi dillərarası qarşılıqlı təsirin mahiyyətini anlamağa, cəmiyyət daxilində kommunikativ harmoniyanı gücləndirməyə və mədəni müxtəlifliyin qorunmasına xidmət edir.

Dil davranışı fərdin konkret kommunikativ şəraitdə hansı dili seçməsi, bu dili necə və hansı məqsədlə istifadə etməsi, eləcə də bu seçimə təsir göstərən sosial və mədəni amillərin məcmusu kimi xarakterizə olunur. Belə cəmiyyətlərdə dil seçimi çox vaxt situativ xarakter daşıyır. Yəni fərd ünsiyyətin baş verdiyi məkan, həmsöhbətin sosial mövqeyi, ünsiyyətin rəsmi və ya qeyri-rəsmi xarakteri kimi faktorları nəzərə alaraq dil strategiyasını müəyyənləşdirir. Məsələn, iş mühitində və ya rəsmi tədbirlərdə daha nüfuzlu və geniş yayılmış dilə üstünlük verildiyi halda, ailə və dost çevrəsində ana dilindən istifadə daha çox müşahidə olunur. Bu isə dil davranışının çevik və adaptiv mahiyyətini göstərir.

Dil davranışını formalaşdıran əsas amillərdən biri sosial status və nüfuz faktorudur. Tarixi və siyasi proseslər nəticəsində bəzi dillər daha nüfuzlu mövqe qazanır və iqtisadi imkanlarla əlaqələndirilir. Belə dilləri bilmək fərdin peşəkar inkişafına, sosial mobilliyinə və daha geniş kommunikativ mühitə çıxışına şərait yaradır. Nəticədə fərdlər cəmiyyətdə daha güclü mövqe əldə etmək məqsədilə bu dillərdən istifadəyə meyil göstərirlər. Lakin bu proses bəzən kiçik etnik qrupların dillərinin funksional sahəsinin daralmasına səbəb ola bilər ki, bu da dil müxtəlifliyinin qorunması məsələsini aktuallaşdırır.

Mədəni identiklik də dil davranışına təsir edən mühüm amillər sırasındadır. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi yaddaşını, ənənələrini və kollektiv dəyərlərini özündə əks etdirən mədəni simvoldur [0, s. 121]. Buna görə də fərdlər ana dilindən istifadə etməklə öz etnik mənsubiyyətlərini qorumağa və gələcək nəsillərə ötürməyə çalışırlar. Multikultural mühitdə tez-tez rast gəlinən hallardan biri dominant dillə ana dili arasında funksional bölgünün yaranmasıdır yəni, dominant dil rəsmi və ictimai sahədə istifadə olunur, ana dili isə daha çox məişət və mədəni ünsiyyət müstəvisində qorunub saxlanılır.

Dil seçimini müəyyən edən digər vacib amil kommunikativ məqsəddir. Ünsiyyətin əsas məqsədi qarşılıqlı anlaşmanı təmin etmək olduğundan danışanlar adətən həmsöhbətlərin hamısı üçün anlaşılan dili seçirlər. Bu xüsusilə beynəlxalq kollektivlərdə, akademik mühitdə və biznes sahəsində özünü daha qabarıq göstərir. Ortaq ünsiyyət dilinin seçilməsi kommunikativ maneələri aradan qaldırır, əməkdaşlığı asanlaşdırır və sosial əlaqələrin daha səmərəli qurulmasına imkan verir. Bu yanaşma dilin praqmatik funksiyasını ön plana çıxarır.

Dil davranışının formalaşmasında təhsil və institusional mühit də mühüm rol oynayır. Təhsil sistemi fərdlərin erkən yaşlardan hansı dillərlə təmasda olacağını müəyyən edir və onların dil kompetensiyalarının inkişafına istiqamət verir. Xarici dillərin tədrisi, çoxdilli təhsil proqramlarının tətbiqi və akademik mobillik imkanları fərdlərin dil repertuarını genişləndirir. Bununla yanaşı, dövlətin həyata keçirdiyi dil siyasəti dillərin cəmiyyətdəki statusunu və istifadə sahələrini müəyyənləşdirir [0, s. 39]. Balanslaşdırılmış dil siyasəti həm rəsmi dilin mövqeyini gücləndirməyə, həm də azlıq dillərinin qorunmasına xidmət edir.

Multikultural mühit üçün səciyyəvi xüsusiyyətlərdən biri də kod dəyişməsi (code-switching) fenomenidir. Kod dəyişməsi danışanın eyni ünsiyyət aktı çərçivəsində iki və ya daha

çox dil arasında keçid etməsini ifadə edir və çox vaxt təbii kommunikativ strategiya kimi ortaya çıxır [0, s. 313]. Bu keçid bəzən müəyyən fikri daha dəqiq ifadə etmək, emosional çalarları gücləndirmək və ya mövzunun kontekstinə daha uyğun dil vahidlərindən istifadə etmək məqsədi daşıyır. Digər hallarda isə kod dəyişməsi sosial yaxınlıq yaratmaq, qrup mənsubiyyətini vurğulamaq və ya qeyri-rəsmi atmosfer formalaşdırmaq funksiyasını yerinə yetirir.

Müasir tədqiqatlar göstərir ki, kod dəyişməsi dil çatışmazlığının göstəricisi deyil, əksinə, bu fenomen danışanın yüksək kommunikativ kompetensiyasını və müxtəlif dil sistemləri arasında sərbəst hərəkət edə bilmə bacarığını nümayiş etdirir. Xüsusilə gənclər arasında bu hal daha geniş yayılmış və yeni, hibrid ünsiyyət formalarının yaranmasına zəmin yaratmışdır.

Müasir sosiolinqvistik tədqiqatlarda çoxdillilik dil və cəmiyyət münasibətlərini anlamaq üçün əsas anlayışlardan biri kimi qəbul edilir. Qloballaşma, miqrasiya prosesləri və mədəniyyətlərarası əlaqələrin genişlənməsi nəticəsində çoxdillilik həm fərdi, həm də ictimai səviyyədə geniş yayılmış sosial reallığa çevrilmişdir. Bu fenomen yalnız bir neçə dili bilmək bacarığı ilə məhdudlaşmır; o, həm də fərdlərin sosial adaptasiyasını, mədəni identikliyini və kommunikativ strategiyalarını formalaşdıran kompleks proses kimi dəyərləndirilir. Sosiolinqvistik ədəbiyyatda çoxdilliliyin bir neçə əsas modeli fərqləndirilir və bu modellər dillərin cəmiyyətdə necə funksionallaşdığını anlamağa imkan yaradır.

Çoxdillilik şəxsin iki və ya daha çox dildə sərbəst və ya müəyyən səviyyədə kommunikasiya bacarığına malik olmasıdır. Bu model müasir təhsil sisteminin və beynəlxalq əməkdaşlığın inkişafı ilə daha da aktuallaşmışdır. Tədqiqatlar göstərir ki, çoxdilli fərdlər daha yüksək koqnitiv elastikliyə malik olur, problemlərin həllinə daha yaradıcı yanaşır və analitik düşünmə qabiliyyətlərini daha effektiv şəkildə inkişaf etdirirlər. Bundan əlavə, bir neçə dili bilmək fərdin sosial mobilliyini artırır, ona müxtəlif peşə sahələrində fəaliyyət göstərmək və fərqli mədəni mühitlərə daha asan inteqrasiya olunmaq imkanı yaradır. Beləliklə, fərdi çoxdillilik təkcə dil bacarığı deyil, həm də intellektual və sosial kapital kimi çıxış edir.

Kollektiv çoxdillilik isə müəyyən cəmiyyət daxilində bir neçə dilin paralel şəkildə istifadə olunması ilə xarakterizə edilir. Bu model xüsusilə multietnik dövlətlərdə, böyük şəhərlərdə və intensiv miqrasiya axınının müşahidə olunduğu regionlarda daha qabarıq şəkildə özünü göstərir. Kollektiv çoxdillilik müxtəlif mədəni qruplar arasında qarşılıqlı anlaşmanı gücləndirir, sosial inteqrasiyanı təşviq edir və cəmiyyətin mədəni zənginliyini artırır. Lakin belə mühitdə dillər arasında status fərqlərinin yaranması ehtimalı da mövcuddur. Dominant dillərin daha geniş funksional imkanlara malik olması bəzən azlıq dillərinin istifadəsini məhdudlaşdıra bilər. Buna görə də inklüziv dil siyasəti kollektiv çoxdilliliyin balanslı şəkildə qorunması üçün mühüm əhəmiyyət daşıyır.

Funksional çoxdillilik dillərin müxtəlif sosial sahələr üzrə bölüşdürülməsini nəzərdə tutur. Bu modeldə hər bir dil müəyyən kommunikativ funksiyanı yerinə yetirir və konkret sahədə daha aktiv istifadə olunur. Məsələn, bir dil rəsmi idarəçilik və hüquq sistemində, digəri gündəlik məişət ünsiyyətində, üçüncüsü isə elm və təhsil sahəsində işlədilə bilər. Bu cür bölgü kommunikativ effektivliyi artırmaqla yanaşı, dillər arasında müəyyən sabitlik yaradır. Funksional çoxdillilik həm də cəmiyyətin struktur xüsusiyyətlərini əks etdirir və dillərin sosial rolunu daha aydın şəkildə müəyyənləşdirir. Bununla belə, funksional sərhədlərin həddindən artıq sərtləşməsi bəzi dillərin inkişaf imkanlarını məhdudlaşdıra bilər.

Çoxdilliliyin digər mühüm formaları balanslaşdırılmış və dominant çoxdillilik modelləridir. Balanslaşdırılmış çoxdillilikdə fərd dilləri təxminən eyni səviyyədə mənimsəyir və müxtəlif kommunikativ situasiyalarda onları sərbəst şəkildə istifadə edə bilir. Bu model nisbətən nadir hallarda rast gəlinir, çünki dillərdən birinin daha intensiv istifadə olunması adətən onun daha güclü inkişafına səbəb olur. Dominant çoxdillilikdə isə dillərdən biri daha yüksək kompetensiya səviyyəsi ilə seçilir və əsas ünsiyyət vasitəsinə çevrilir. Digər dillər isə daha məhdud funksional sahədə istifadə olunur.

Dominant dil çox vaxt təhsil, peşə fəaliyyəti və ya sosial mühitin təsiri ilə formalaşır. Məsələn, uşaq ailədə ana dilində danışsa da, təhsilini başqa dildə alarsa, zamanla həmin dil dominant mövqe qazana bilər. Bu hal multikultural cəmiyyətlər üçün xarakterikdir və dil repertuarının dinamik təbiətini göstərir. Eyni zamanda balanslaşdırılmış çoxdilliliyə nail olmaq üçün erkən yaşlardan sistemli dil tədrisi və zəngin dil mühitinin yaradılması vacib hesab olunur.

Ümumilikdə, çoxdillilik modelləri dillərin fərdi və ictimai səviyyədə necə qarşılıqlı əlaqəyə girdiyini, hansı sosial funksiyaları yerinə yetirdiyini və cəmiyyətin inkişafına necə təsir göstərdiyini anlamağa imkan verir. Çoxdillilik yalnız kommunikativ imkanları genişləndirmir, həm də mədəniyyətlərarası dialoqu gücləndirir, tolerantlığın formalaşmasına töhfə verir və fərqli identikliklərin harmonik şəkildə birgə mövcudluğunu dəstəkləyir.

Dil insanın sosial və mədəni kimliyinin formalaşmasında mühüm rol oynayan əsas amillərdən biridir. O, yalnız ünsiyyət vasitəsi deyil, həm də fərdin dünyagörüşünü, dəyərlər sistemini və mənsubiyyət hissini ifadə edən simvolik mexanizmdir. İnsanlar dil vasitəsilə özlərini müəyyən sosial qrupa aid edir, kollektiv yaddaşla əlaqə yaradır və mədəni davamlılığı qoruyurlar [0, s. 51]. Bu baxımdan dil davranışı sosial identikliyin həm formalaşmasında, həm də nümayiş etdirilməsində aparıcı funksiyaya malikdir.

Multikultural mühitdə identiklik anlayışı daha mürəkkəb xarakter daşıyır. Belə cəmiyyətlərdə insanlar tez-tez "çoxqatlı identiklik" nümayiş etdirirlər, yəni onlar eyni zamanda həm etnik köklərinə bağlı olduqlarını hiss edir, həm milli kimliklərini qoruyur, həm də qlobal mədəniyyətin bir parçası kimi çıxış edirlər. Bu çoxqatlılıq fərdin müxtəlif sosial mühitlərdə fərqli dil strategiyalarından istifadə etməsinə səbəb olur. Məsələn, bir şəxs ailə daxilində ana dilində danışaraq etnik kimliyini ön plana çıxara bilər, rəsmi mühitdə dövlət dilinə üstünlük verərək vətəndaşlıq mənsubiyyətini ifadə edər, beynəlxalq kontekstdə isə qlobal dillərdən istifadə etməklə daha geniş kommunikativ məkana daxil olar.

Ana dili sosial identikliyin ən güclü daşıyıcılarından biri hesab olunur. O, xalqın tarixini, ənənələrini, mədəni dəyərlərini və kollektiv təcrübəsini özündə əks etdirir. Ana dilinin qorunması yalnız fərdi səviyyədə deyil, bütövlükdə cəmiyyət üçün mədəni irsin davamlılığını təmin edən vacib şərtdir. Xüsusilə multikultural mühitdə ana dilindən istifadə fərddə aidiyyət hissini gücləndirir, nəsillərarası əlaqəni möhkəmləndirir və mədəni müxtəlifliyin qorunmasına xidmət edir.

Bununla yanaşı, beynəlxalq dillərin öyrənilməsi müasir dünyada sosial və peşəkar uğurun vacib komponentlərindən birinə çevrilmişdir. Qlobal dillər fərdlərə beynəlxalq təhsil imkanlarından yararlanmaq, fərqli mədəniyyətlərlə qarşılıqlı əlaqə qurmaq və qlobal əmək bazarında rəqabət qabiliyyətlərini artırmaq imkanı verir. Bu proses fərdin sosial üfüqlərini genişləndirir və onun mədəniyyətlərarası kommunikasiya bacarıqlarını inkişaf etdirir.

Lakin ana dilinin qorunması ilə qlobal dillərin mənimsənilməsi arasında balansın saxlanılması multikultural cəmiyyətlərin qarşısında duran əsas çağırışlardan biridir. Dominant dillərin təsiri altında bəzi hallarda kiçik dillərin istifadəsi zəifləyə və ya məhdudlaşa bilər. Bu isə dil assimilyasiyası riskini artırır və mədəni müxtəlifliyin azalmasına gətirib çıxara bilər. Buna görə də həm fərdi, həm də institusional səviyyədə dillər arasında tarazlığın qorunması vacib hesab olunur.

Dil davranışı bu balansın qorunmasında mühüm rol oynayır. Fərdlərin müxtəlif situasiyalarda dillərdən şüurlu və məqsədyönlü şəkildə istifadə etməsi həm identikliyin qorunmasına, həm də sosial inteqrasiyaya şərait yaradır. Multikultural cəmiyyətlərdə uğurlu inteqrasiya modeli fərdlərin öz mədəni köklərini itirmədən daha geniş sosial məkana daxil ola bilməsini nəzərdə tutur.

Dil davranışı ilə sosial identiklik arasında qarşılıqlı və dinamik əlaqə mövcuddur. Dil həm fərdi özünüifadə vasitəsi, həm də kollektiv mənsubiyyətin göstəricisi kimi çıxış edərək multikultural cəmiyyətlərdə sosial harmoniyanın formalaşmasına töhfə verir. Ana dilinin qorunması ilə qlobal dillərin öyrənilməsi arasında balansın yaradılması isə mədəni müxtəlifliyin davamlılığını təmin edən əsas şərtlərdən biri kimi qiymətləndirilir.

Multikultural cəmiyyətlərdə sosial inteqrasiyanın təmin olunması birbaşa dil siyasətinin səmərəliliyindən asılıdır. Dil siyasəti cəmiyyətdə mövcud olan dillərin statusunu, onların istifadə sahələrini və qarşılıqlı münasibətlərini tənzimləyən strateji mexanizm kimi çıxış edir. Bu siyasətin əsas məqsədi müxtəlif dil qrupları arasında balans yaratmaq, sosial bərabərliyi qorumaq və vahid kommunikativ məkan formalaşdırmaqdır. Uğurlu dil siyasəti multikultural harmoniyanın başlıca şərtlərindən biri hesab olunur, çünki dil amili sosial münasibətlərin qurulmasında və cəmiyyət daxilində qarşılıqlı anlaşmanın təmin edilməsində həlledici rol oynayır.

Dövlət tərəfindən həm rəsmi dilin mövqeyinin gücləndirilməsi, həm də azlıq dillərinin qorunması sosial sabitliyin formalaşmasına müsbət təsir göstərir. Rəsmi dil adətən ictimai idarəçilik, hüquq sistemi, təhsil və kütləvi informasiya vasitələrində vahid ünsiyyət platforması yaradır və bu da vətəndaşların cəmiyyət həyatında fəal iştirakını asanlaşdırır. Eyni zamanda azlıq dillərinin qorunması və inkişafı mədəni müxtəlifliyin davamlılığını təmin edir, etnik qrupların öz kimliklərini sərbəst şəkildə ifadə etməsinə imkan yaradır. Dillər arasında bu cür tarazlığın yaradılması sosial gərginliyin qarşısını alır və cəmiyyət daxilində qarşılıqlı hörməti gücləndirir.

Sosial inteqrasiyanın gücləndirilməsində təhsil sistemi xüsusi əhəmiyyət kəsb edir. Təhsil mühiti fərdlərin dil repertuarının formalaşdığı və mədəniyyətlərarası bacarıqlar qazandığı əsas platformadır. Çoxdilli təhsil proqramlarının tətbiqi şagird və tələbələrə bir neçə dildə ünsiyyət qurmaq imkanı yaradır, onların koqnitiv inkişafını stimullaşdırır və fərqli mədəniyyətlərə qarşı daha açıq mövqe formalaşdırır. Erkən yaşlardan dil öyrənilməsinin təşviqi isə fonetik və kommunikativ bacarıqların daha təbii şəkildə mənimsənilməsinə şərait yaradır.

Bununla yanaşı, mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişafı multikultural cəmiyyətlərdə qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. Fərqli mədəni kodları anlamaq, tolerant davranış sərgiləmək və kommunikativ çeviklik nümayiş etdirmək sosial inteqrasiyanın vacib komponentləri hesab olunur. Bu bacarıqlar yalnız dil öyrənməklə deyil, həm də müxtəlif mədəniyyətlərlə aktiv təmas vasitəsilə formalaşır.

Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində dil siyasəti daha çevik və adaptiv xarakter daşımalıdır. Müasir cəmiyyətlərdə həm milli kimliyin qorunması, həm də qlobal kommunikasiya tələblərinə cavab verilməsi paralel şəkildə həyata keçirilməlidir. Bu isə rəsmi dilin mövqeyini zəiflətmədən beynəlxalq dillərin öyrənilməsini təşviq edən balanslaşdırılmış strategiyanın formalaşdırılmasını tələb edir.

**Problemin aktuallığı** qloballaşma, miqrasiya və qloballaşan informasiya-kommunikasiya mühitinin təsiri ilə əlaqədardır. Multikultural cəmiyyətlərin sayının artması, dillərarası qarşılıqlı təsirin genişlənməsi və sosial inteqrasiyanın təmin olunması sahəsində praktik ehtiyac bu tədqiqatı müasir lingvistik və sosial elmlər üçün aktual edir. Nəticələr həm fərdi, həm də institusional səviyyədə effektiv dil siyasəti və inklüziv təhsil strategiyalarının formalaşdırılmasına töhfə verə bilər.

**Problemin elmi yeniliyi** multikultural mühitdə dil davranışı və çoxdillilik modellərinin sosial, psixoloji və kulturoloji aspektlərini inteqrativ şəkildə təhlil etməsindədir. Tədqiqat fərdi və kollektiv çoxdilliliyin formalaşmasına təsir edən sosial-mədəni faktorları, kod dəyişməsi fenomenini və dil seçiminin identiklik, nüfuz və inteqrasiya ilə bağlı rolunu bir arada araşdırır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi** multikultural mühitdə dil davranışının və çoxdillilik modellərinin daha səmərəli tətbiqi üçün praktik baza yaradır. Tədqiqat materiallarından dil siyasətinin formalaşdırılmasında, çoxdilli təhsil proqramlarının hazırlanmasında və mədəniyyətlərarası ünsiyyətin təşkili prosesində istifadə oluna bilər. Araşdırma həmçinin sosial inteqrasiyanın gücləndirilməsinə, tolerantlığın artırılmasına və dil müxtəlifliyinin qorunmasına töhfə verir.

**Nəticə.** Multikultural mühitdə dil davranışı və çoxdillilik modelləri cəmiyyətin sosial strukturunu və mədəni dinamikasını əks etdirən mühüm göstəricilərdir. Dil seçimi yalnız kommunikativ ehtiyaclarla deyil, həm də identiklik, nüfuz və sosial inteqrasiya kimi faktorlarla şərtlənir.

Çoxdillilik fərdlər və cəmiyyətlər üçün yeni imkanlar yaratmaqla yanaşı, dillər arasında balansın qorunmasını da tələb edir. Buna görə də səmərəli dil siyasəti, inklüziv təhsil və mədəni müxtəlifliyə hörmət multikultural cəmiyyətlərin davamlı inkişafının əsas şərtləri kimi çıxış edir.

## Ədəbiyyat

1. Rəcəbli, Ə. Ə. Sosiolinqvistika, Bakı: Nurlan, 520 s. 2004.

2. Buschfeld, S., Ronan, P., & Vida-Mannl, M. Multilingualism: A Sociolinguistic and Acquisitional Approach. Palgrave Macmillan, 343 pp.https://link.springer.com/book/10.1007/978-3-031-28405-2. 2023.

3. Karpava, S. (Ed.). Multilingualism and Multiculturalism in Language Education. Springer Cham, 304 pp. 2025.
https://link.springer.com/book/10.1007/978-3-031-76043-3

4. Mekt, G., Aspects of multilingualism. Journal of Language, Literature, Social, and Cultural Studies, Volume 1 Number 2(Jul. 2023), pp. 95-103, e-ISSN2986-4461 https://ympn.co.id/index.php/JLLSCS

5. Pérez Fernández, L. M. Translanguaging in Multicultural Societies: Beyond Borders Springer Cham, 180 pp. 2024.
https://link.springer.com/book/10.1007/978-3-031-74145-6

**P.Ə.Bağırova**

**Multikultural cəmiyyətlərdə dil davranışı və çoxdillilik modelləri**
**Xülasə**

Müasir dövrdə qloballaşma, miqrasiya proseslərinin sürətlənməsi və informasiya texnologiyalarının inkişafı multikultural cəmiyyətlərin sayını artırmış və dillərarası qarşılıqlı əlaqəni əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bu kontekstdə dil davranışı və çoxdillilik modelləri yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də sosial identikliyin formalaşması, mədəni inteqrasiya və sosial münasibətlərin qurulmasında mühüm amillər kimi çıxış edir. Bu məqalədə multikultural mühitdə dil davranışının xüsusiyyətləri, fərdi və ictimai çoxdillilik modelləri, eləcə də bu proseslərə təsir edən sosial-mədəni amillər təhlil olunur.

**П.А.Багирова**

**Языковое поведение и модели многоязычия в мультикультурных обществах**
**Резюме**

В современную эпоху ускоренные процессы глобализации, миграции и стремительное развитие информационных технологий привели к увеличению числа мультикультурных обществ и значительно усилили межъязыковое взаимодействие. В этих условиях языковое поведение и модели многоязычия выступают не только как средство коммуникации, но и как важные факторы формирования социальной идентичности, культурной интеграции и общественных отношений. В статье анализируются особенности языкового поведения в мультикультурной среде, модели индивидуального и общественного многоязычия, а также социально-культурные факторы, влияющие на данные процессы.

**P.A.Baghirova**

**Language behavior and models of multilingualism in multicultural societies**
**Summary**

In the modern era, the rapid processes of globalization, migration, and the development of information technologies have increased the number of multicultural societies and significantly strengthened interlingual interaction. In this context, language behavior and models of multilingualism function not only as tools of communication but also as important factors in shaping social identity, cultural integration, and social relations. This article analyzes the characteristics of language behavior in a multicultural environment, the models of individual and societal multilingualism, and the socio-cultural factors influencing these processes.

**Redaksiyaya daxil olub:** 10.02.2026

***ƏDƏBİYYATŞÜNASLIQ***
***ЛИТЕРАТУРВЕДЕНИЕ***
***LİTERARY CRİTİCİSM***

*UOT 82.*

# TEODOR DRAYZERİN ƏSƏRLƏRİNDƏ QADIN TALELƏRİNİN FACİƏVİ ÇALARLARI

**Samirə Arif qızı Məmmədova**
*Azərbaycan Dillər Universitetinin dosent əvəzi*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0009-0001-3876-8045
**E-mail:** samiramammadova23@gmail.com
smammadova@adu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.45

***Açar sözlər:*** *qadın personajlar, cəmiyyət, psixoloji, faciəvi talelər, sosial təzyiq*
***Ключевые слова:*** *женские персонажи, общество, психологический, трагические судьбы социальное давление*
***Key words:*** *female characters, society, psychological, tragic destinies, social pressure*

Amerika naturalizminin görkəmli nümayəndələrindən olan Teodor Drayzer, öz əsərlərində həyatın sərt reallıqlarını, xüsusilə də materializm və sərt ictimai normalarla idarə olunan cəmiyyətdə qadınların mübarizəsini təsvir edir. Onun romanları tez-tez qadın personajların faciəvi talelərini araşdırır, onların arzuları, hissləri və mənəvi qarşıdurmaları amansız dünya ilə toqquşur. T. Drayzer XX əsrin birinci yarısında yazdığı əsərlərində insanın mövcudluq mübarizəsini, fərdi və ictimai təlatümləri dərin psixoloji təhlillərlə oxucuya çatdırmağı bacaran yazıçılardan biridir. Onun "Cenni Herhardt", "Kerri bacı" və "Amerika faciəsi" kimi əsərlərində qadın personajların həyat hekayələri, həm cəmiyyətin qadına münasibətində, həm də fərdi talelərin məğrur və bəzən faciəvi tərəflərini ortaya qoyur.

Əsərlərin konteksti və qadın personajların təsvirinə başlamazdan əvvəl deyə bilərik ki, Drayzerin romanlarında qadın obrazları, zamanın sosial və mədəni tələbləri ilə formalaşan dərin simvolik xarakter daşıyır. Həm "Cenni Herhardt"da, həm "Amerika faciəsi"ndə, həm də "Kerri bacı"da, qadınların həyatı yalnız şəxsi faciələrlə məhdudlaşmır, həm də cəmiyyətin qadına qoyduğu məhdudiyyətlər, qarşıdurmalar və gözlənilməz qəzəb vasitəsilə əks olunur. Deyə bilərik ki, Drayzerin qadın personajları, öz daxili dünyalarında böyük psixoloji ziddiyyətlər, itirilmişlik və kədər duyğuları ilə doludur. Bu obrazlarda, həm şəxsi travmalar, həm də sosial ədalətsizliklərdən qaynaqlanan daxili konfliktlər ön plana çıxır. Qadınların psixoloji portreti, oxucuya onların qəlbinin dərinliyinə enmək imkanı yaradır və bu da əsərlərin təsir gücünü artırır.

Bu əsərlərin sosial təhlilində qadınların cəmiyyətdə tutduğu yer və onlara qarşı olan münasibətlər mühüm yer tutur. Drayzer, qadınların yalnız fərdi həyatlarındakı çətinliklərə deyil, həm də cəmiyyətin onlara baxış bucağındakı stereotiplərə və məhdudiyyətlərə işıq tutur. Qadın obrazları, ictimai normaların və ənənələrin təzyiqində qalmış, zaman-zaman faciəvi talelərlə üzləşərək həm öz həyatlarını, həm də ətrafdakı insanların həyatını dəyişir.

"Kerri bacı" əsərində Kerri Miber Çikaqoda daha yaxşı həyat axtaran gənc bir qızın yolunu

təcəssüm etdirir. Əvvəlcə sadəlövh və ümid dolu olan Kerri yoxsulluqdan mənəvi güzəştlərə qədər bir sıra çətinliklərlə üzləşir. Nəhayət, aktrisa kimi maddi uğur qazansa da, Drayzer onun uğurunu boş və mənasız kimi təqdim edir, onun emosional tənhalığını və daxili boşluğunu vurğulayır. Kerri obrazı cəmiyyətin təzyiqlərinin və iqtisadi məhdudiyyətlərin qadınları çətin, çox vaxt insanlıqlarını əlindən alan seçimlərə məcbur etdiyini göstərir. [2, s. 89]

"Cenni Herhardt" romanında isə Cenni obrazı Drayzerin daha dərin faciəvi qadın portretlərindən biridir. Cenni yoxsul ailədə böyüyən, saf qəlbli və fədakar bir gənc qızdır. O, senator Brender ilə münasibət quraraq ailəsinə kömək etməyə çalışır. Lakin bu münasibət onun həyatında silinməz izlər buraxır. Daha sonra Lester Keyn ilə olan sevgisi də eyni faciəvi sona aparır. Lester onu sevsə də, cəmiyyətin təzyiqləri, ailə və təbəqə fərqləri onların birlikdə olmasına imkan vermir. Cenni hər dəfə başqalarının rifahını öz xoşbəxtliyindən üstün tutaraq, özünü qurban verir. Drayzer onun bu fədakarlığını təsvir edərək cəmiyyətin qadınlara qarşı amansız münasibətini tənqid edir. [1]

Eyni şəkildə, "Amerika Faciəsi" romanında Drayzer, Roberta Oldeni təsvir edir — işçi sinifdən olan bir qadın, onun həssaslığı və Klayd Qriffitsə olan sevgisi onun məhvinə səbəb olur. Roberta, sadiqliklərinə və səmimi məhəbbətlərinə baxmayaraq, xəyanətə və tərk edilməyə məruz qalan saysız-hesabsız qadınları təmsil edir. Onun faciəvi sonu — həm Klaydın ambisiyalarının, həm də cəmiyyətin ikiüzlülüyünün qurbanı kimi — Drayzerin qadınların etibar və emosional asılılığına görə cəzalandırıldığı sistemi tənqid etdiyini göstərir. [3]

Drayzerin qadın personajlarının təsviri naturalizmin geniş mövzusunu əks etdirir: fərdlər nəzarətlərindən kənar olan xarici qüvvələr tərəfindən formalaşır və çox vaxt məhvə sürüklənirlər. Onun qadın qəhrəmanları şəxsi qüsurlarına görə deyil, onlara imkan tanımayan, onları yalnız istək və ya rahatlıq obyekti kimi görən sərt ictimai quruluş səbəbindən əziyyət çəkirlər. Nəticə etibarilə, Drayzerin əsərləri 20-ci əsrin əvvəllərində qadınların acınacaqlı vəziyyətini güclü şəkildə şərh edir, onların dözümünü və cəmiyyətin onlara az səlahiyyət və mərhəmət təklif etməsinin faciəvi nəticələrini vurğulayır. Drayzerin, qadınların mübarizələrinin və bədbəxtliklərinin təsviri oxucuları bu cür ədalətsizlikləri davam etdirən mənəvi və iqtisadi sistemləri sorğulamağa dəvət edir.

Yazıçının "Amerika faciəsi" romanı Amerikanın sosial-iqtisadi reallıqlarını və fərdi arzuların faciəvi nəticələrini əks etdirən mühüm əsərlərdən biridir. Romanın əsas mövzularından biri sosial bərabərsizlik və onun insan talelərinə təsiridir. Bu çərçivədə Roberta Oldenin faciəsi diqqətçəkən hadisələrdən biridir. Biz bu romanda sosial bərabərsizliyin sərt nəticəsini Robertanın faciəsində açıq şəkildə görürük.

Roberta Olden sadə kənd qızı olaraq təsvir edilir. O, böyük arzuları və məsum sevgisi ilə baş qəhrəman Klayd Qrifitsə aşiq olur. Roberta Klaydın sevgisinə səmimi surətdə inanır və ona bütün həyatını həsr etməyə hazırdır. Lakin Klayd sosial statusunu yüksəltmək və daha varlı bir həyat qurmaq arzusundadır. O, yüksək cəmiyyətin bir üzvü olan Sondra Finçli ilə münasibət qurmağa çalışır və bu, Roberta ilə olan münasibətini arxa plana atmasına səbəb olur. [7, s.18] Roberta və Klayd arasındakı münasibət daha da mürəkkəbləşir, çünki Roberta Klayddan hamilə qalır. Bu, gənc qadının vəziyyətini çətinləşdirir və onu çıxılmaz bir duruma salır. O, Klayddan evlənməyi tələb edir, lakin Klayd bu məsuliyyətdən qaçmağa çalışır. Nəticədə, o, Roberta ilə səyahətə çıxır və onun faciəli ölümü baş verir. Roberta Oldenin faciəsi həm fərdi bir insanın, həm də cəmiyyətin məhsulu olan bir hadisədir. O, Klaydın sosial yüksəliş ehtirasının qurbanı

olur. Drayzer bu hadisə vasitəsilə Amerikanın sinfi fərqliliyini və cəmiyyətin fərdi arzular üzərində yaratdığı təzyiqləri vurğulayır. Roberta, patriarxal və iqtisadi cəhətdən bərabərsiz bir cəmiyyətin içində seçim haqqı olmayan bir qadın olaraq təsvir edilir. Onun hekayəsi, qadınların sosial vəziyyətinin nə qədər asılı və güvənsiz olduğunu göstərir. [6]

Beləliklə, Roberta Oldenin faciəsi yalnız bir fərdin həyatının məhvi deyil, həm də cəmiyyətin daha geniş problemlərinin əksidir. Drayzerin bu əsəri, oxucunu sosial ədalətsizlik və fərdi məsuliyyət mövzusunda dərin düşünməyə vadar edən təsirli bir əsərdir.

Drayzerin yazı üslubu, sadəcə hadisələri təsvir etməkdən ibarət deyil, həm də simvolizm və metaforlardan istifadə edərək, qadın talelərinin incə və zərif toxunuşlarını da oxucuya ötürür. Bu da öz növbəsində oxucuya qadın personajların yalnız ətraf hadisələrdən deyil, həm də daxili sarsıntılardan necə təsirləndiyini anlamağa imkan verir. Mətnlərdəki simvolik təsvirlər qadın personajların yaşadıqları faciəvi hekayələri daha da dərinləşdirir. Məsələn, "Cenni Herhardt"dakı obrazda tənhalıq və qırılmış ümid simvolik elementlər vasitəsilə ifadə olunur; " Kerri bacı"da isə dini və ruh halını təsvir edən metaforlar qadının mənəvi sarsıntısını və qurtuluş axtarışını simvollaşdırır.

Drayzer, yalnız qadınların həyat sınaqlarını təsvir etməklə kifayətlənmir, o, həm də bu sınaqların insan varlığı, azadlıq və ədalət kimi daha geniş fəlsəfi mövzularla əlaqəsini ortaya qoyur. Beləliklə, onun əsərləri yalnız ədəbiyyatın deyil, eyni zamanda insan təcrübəsinin də, dərindən təhlilinə çevrilir.

"Cenni Herhardt", "Kerri bacı" və "Amerika faciəsi" əsərlərində qadın talelərinin faciəvi çalarları, cəmiyyətin qadına olan baxışını, qadınların daxili dünyasında baş verən mürəkkəb psixoloji prosesləri və onların mübarizəsini göz önünə sərir. Bu baxımdan Drayzer, yalnız dövrünün ictimai-siyasi və mədəni məsələlərini işıqlandırmır, həm də insan ruhunun qaranlıq və işıqlı tərəflərini ustalıqla əks etdirir. Drayzerin əsərlərində qadın hüquqsuzluğu yalnız huquqi və ya sosial məsələlərlə bitmir , bu daha çox o qadınların psixoloji, mənəvi aləmində özünü büruzə verir. Ədib oxucunu yalnız faciəvi bir hekayəyə daxil etmir, həm də insan təcrübəsinin zənginliyi, ümid və itki, sevinc və kədərin iç-içə keçdiyi mürəkkəb bir dünya ilə tanış edir. Bu baxımdan, onun qadın personajlarının həyatı, təkcə bir cəmiyyətin deyil, bütün insanlığın ortaq sınaqları və ümidlərini əks etdirir.

Drayzerin yaradıcılığı, realizm və psixoloji dərinliyə vurğu vuran ədəbi cərəyanların təsiri altında formalaşmışdır. Realist yanaşma, oxucunu hadisələrin və obrazların gündəlik həyatdakı reallığı ilə üz-üzə qoyur və qadınların həyat təcrübələrini daha canlı və inandırıcı şəkildə əks etdirir. Bu yanaşma vasitəsilə qadın talelərinin faciəvi çalarları yalnız şəxsi problemlər deyil, həm də ictimai ədalətsizlik və stereotiplərlə bağlı məsələlər kimi göz önünə çıxır. Qadın obrazlarını psixoloji təhlil etsək burada personajların daxili konfliktləri və emosional dünyaları ilə tanış olacağıq. Drayzerin qadın qəhrəmanları daxili dünyalarında dərin konfliktlər, itkilər və kədər hissləri ilə doludur. Bu obrazlarda aşağıdakı aspektlər ön plana çıxır :

*Fərdi itkilər*: Hər üç əsərdə qadın personajlar, şəxsi seçimlər və həyatın gətirdiyi gözlənilməz hadisələr nəticəsində öz varlıqlarında itkilər və sarsıntılar yaşamaqdadırlar. Bu itkilər bəzən ailə, sevgi və ya şəxsi məqsədlərin həyata keçməməsi ilə əlaqələndirilir. *Emosional sarsıntılar*: Qadınların iç dünyasında yaranan boşluq və daxili narahatlıq, onların cəmiyyət qarşısındakı mövqeləri ilə sıx bağlıdır. Drayzer, qadın personajların ruhi və emosional vəziyyətini, onların özünə inamsızlığı və ətrafdakı dünyanın bəzən haqsız görünən təzyiqləri vasitəsilə

təsvir edir.

*Qadın həyatının simvolik ifadəsi* - Drayzer, qadın obrazlarını yalnız psixoloji portretlərlə məhdudlaşdırmayıb, həm də simvol və metaforalar vasitəsilə daha geniş mənəvi və mədəni təhlillər aparır. Məsələn: *Tənhalıq və ümidin simvolu*: "Cenni Gerhardt"dakı qadın obrazlarında tənhalıq, qırılmış ümid və yenidən doğuş axtarışı kimi simvolik elementlər yer alır. Bu simvollar, qadınların şəxsi talelərinin kədərini, lakin eyni zamanda gələcəkdə mümkün olan dəyişiklik və ümid işığını da göstərir.

Yazıçının əsərlərində qadınların taleləri, cəmiyyətin onlara qarşı olan stereotipləri və gözləntiləri vasitəsilə də formalaşır. Əsərlərdə qadınlar tez-tez aşağıdakı sosial məhdudiyyətlərlə üzləşirlər: Məsələn deyə bilərik ki , qadınlar, ənənəvi rolların və cəmiyyətin qoyduğu sərhədlərin içində hərəkət etməyə məcbur olurlar. Bu, onların şəxsiyyət inkişafını və azad qərar vermə imkanlarını məhdudlaşdırır. Bundan əlavə qəhrəmanlar ictimai nəzarət və tənqidlə daim üzləşirlər. Cəmiyyətin qadınlara qarşı sərt tənqidi, onların şəxsi seçimlərinə və həyat yoluna ciddi maneələr yaradır. Drayzer, bu mövzunu təsvir edərkən qadınların yaşadıqları daxili sarsıntı və kədəri də vurğulayır. Əsərlərdə qadınların qarşılaşdıqları sosial ədalətsizlik, onların şəxsi və ictimai həyatda yaşadıqları mübarizələr vasitəsilə oxucuya təqdim edilir:

*Mübarizə və qəhrəmanlıq:* Qadın personajların bəzi hallarda öz talelərinə qarşı mübarizə aparmaları, onların içindəki gücü və qəhrəmanlıq potensialını da işıqlandırır. Lakin bu mübarizə çox zaman faciəvi nəticələrlə nəticələnir və obrazların kədər dolu hekayələri ilə sona çatır.

Drayzerin əsərlərində qadın taleləri həm də, mədəniyyətlərarası dialoqun bir hissəsi kimi qiymətləndirilə bilər. Qadın obrazları, cəmiyyətin qadına qarşı olan baxışını və qadınların yaşadıqları daxili və xarici təzyiqləri geniş kontekstdə ələ alır.

*Qərb və Şərq ədəbiyyatında qadın obrazı:* Drayzerin əsərləri, yalnız öz cəmiyyətinin deyil, həm də ümumi insan təcrübəsinin bir aynası kimi xidmət edir. Qadın personajların hekayələri, fərqli mədəniyyətlərdə qadına baxışın ortaq problemlərini və ümidlərini ortaya qoyur. [4] Bu əsərlərin təhlili göstərir ki, qadınların taleləri, cəmiyyətin ənənəvi dəyərləri və stereotipləri ilə mübarizənin, həmçinin insan ruhunun varlıq mübarizəsinin bir təzahürüdür. Drayzer, qadınların həyat sınaqlarını və ruhlarının axtarışlarını təkcə fərdi faciə kimi deyil, həm də ümumi insan təcrübəsinin, mövcudluğun və ədalətin simvolu olaraq təqdim edir.

Problemin aktuallığı - XX əsrin əvvəllərində Amerika cəmiyyətindəki sosial-iqtisadi dəyişikliklərin qadınların psixoloji və mənəvi taleyinə təsiri ilə bağlıdır. Teodor Drayzerin *"Cenni Gerhardt"*, *"Kerri bacı"* və *"Amerika faciəsi"* əsərlərində qadın obrazları sosial məğlubiyyətlə yanaşı dərin psixoloji faciə kimi təqdim olunur. Drayzer yaradıcılığında qadın personajların daxili inkişafının və mərhələli psixoloji faciəsinin yetərincə sistemli araşdırılmaması mövzunu aktuallaşdırır və gender, qadın psixologiyası və sosial determinasiya problemləri baxımından tədqiqatın elmi əhəmiyyətini artırır.

Problemin elmi yeniliyi – T. Drayzerin "Cenni Gerhardt", "Kerri bacı" və "Amerika faciəsi" romanlarında qadın obrazlarının psixoloji faciəsinin mərhələli və müqayisəli şəkildə təhlil edilməsidir. Tədqiqat qadın taleyini sosial amillərlə yanaşı daxili psixoloji proseslər kontekstində araşdıraraq Drayzer yaradıcılığında qadın obrazlarının psixoloji dərinliyinə yeni interpretativ yanaşma təqdim edir.

Problemin praktiki əhəmiyyəti və tətbiqi ondan ibarətdir ki, tədqiqat nəticələri ali təhsil

müəssisələrində dünya və Amerika ədəbiyyatı, gender tədqiqatları və psixoloji realizm mövzularının tədrisində, həmçinin mühazirə və seminarlar üçün analitik material kimi istifadə oluna bilər. Təklif olunan psixoloji model qadın obrazlarının sosial-mənəvi kontekstdə təhlili üçün praktik yanaşma təqdim edir və gələcək elmi araşdırmalar üçün metodoloji baza rolunu oynayır.

**Ədəbiyyat**

1. Drayzer, T. Cenni Herhardt. Şərq-Qərb ədəbiyyat nəşriyyatı. Bakı: -2006.
2. Drayzer, T.  Kerri bacı. Avrasiya Press. Bakı: -2006.
3. Lingeman, R. Theodore Dreiser: An American Journey. John Wiley & Sons, 1990.
4. Gerber, P. Theodore Dreiser Reconsidered. G. K. Hall, 1981.
5. Cassuto, L. The Inhuman Race: Theories of Race in the Theodore Dreiser's Novels. Columbia University Press, 1997.
6.https://mir.az/kitab/1109-teodor-drayzer-amerika-faciesi-pdf.html
7.https://www.aliceandbooks.com/book/an-american-tragedy/theodore-dreiser/185
8.https://archive.org/details/jenniegerhardtno0000theo
9.https://www.aliceandbooks.com/book/sister-carrie/theodore-dreiser/577

**S.A. Məmmədova**

**Teodor Drayzerin əsərlərində qadın talelərinin faciəvi çalarları**
**Xülasə**

Amerika naturalizminin görkəmli nümayəndəsi Teodor Drayzer əsərlərində qadın talelərinin faciəsini sosial-iqtisadi təzyiqin nəticəsi kimi təqdim edir. Onun qəhrəmanları şəxsi səhvlərin deyil, amansız ictimai sistemin qurbanına çevrilirlər. “Kerri bacı”, “Amerika faciəsi” və “Cenni Gerhardt” romanlarında qadın obrazları uğurun illüziyasını, fədakar sevginin faciəsini və sosial qərəzlər ilə bərabərsizliyin dağıdıcı təsirini üzə çıxarır. Bu obrazlar şəxsiyyətin xarici qüvvələrdən asılılığını ifadə edir və XX əsrin əvvəlləri cəmiyyətində qadının azadlıq və ləyaqətinin məhdudlaşdırılmasını tənqid edir. Yazıçının əsərləri, yalnız ədəbiyyatın sərhədlərini genişləndirməklə kifayətlənmir, həm də cəmiyyətin qadına münasibətindəki dərin paradoksları və sarsıntıları açıq şəkildə ortaya qoyur.

**С.А. Мамедова**

**Трагические краски женских судеб в произведениях Теодора Дрейзера**
**Резюме**

Теодор Драйзер, представитель американского натурализма, в своих произведениях показывает трагедию женских судеб, обусловленную социально-экономическим давлением. Его героини становятся жертвами не личных ошибок, а жестокой общественной системы. В романах «Сестра Кэрри», «Американская трагедия» и «Дженни Герхардт»

женские образы раскрывают иллюзорность успеха, трагедию жертвенной любви и разрушительное влияние социальных предрассудков и неравенства. Эти образы выражают натуралистическую идею зависимости личности от внешних сил и критикуют общество начала XX века, ограничивающее свободу и достоинство женщины.

**S.A. Mammadova**

**The tragic colors of women's destinies in the works of Theodor Dreiser**

**Summary**

Theodore Dreiser, a major figure of American naturalism, depicts the tragic fates of women shaped by harsh social and economic forces rather than personal failure. His female characters are constrained by an unforgiving system that limits their agency and moral freedom. In *Sister Carrie*, Carrie Meeber's material success is accompanied by emotional emptiness, exposing the illusion of social achievement. In *An American Tragedy,* Roberta Alden embodies the vulnerable working-class woman destroyed by betrayed love, while *Jennie Gerhardt* represents moral purity and self-sacrifice undermined by social prejudice and economic injustice. Through these portrayals, Dreiser highlights the naturalistic idea that women's lives are determined by external pressures, offering a critique of early twentieth-century society.

**Redaksiyaya daxil olub:** 11.02.2026

*UOT 82.*

# RAMİZ RÖVŞƏN NƏSRİNDƏ ARZU VƏ QORXU DİALEKTİKASI: XƏYANƏTİN BƏDİİ TƏCƏSSÜMÜ

**Məlakə Ağasəf qızı Rəcəbova**
*Bakı Slavyan Universitetinin müəllimi*
**ORCID:** 0000-0002-4841-3950
**E-mail:** melake_elyasova@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.46

***Açar sözlər:*** *Ramiz Rövşən, xəyanət motivi, arzu və qorxu, müasir nəsr, müharibə psixologiyası.*
***Ключевые слова:*** *Рамиз Ровшан, мотив измены, желание и страх, современная проза, психология войны.*
***Key words:*** *Ramiz Rovshan, motif of betrayal, desire and fear, modern prose, psychology of war.*

Azərbaycan ədəbiyyatında müharibə mövzusu yalnız ön cəbhədə baş verən hadisələrin təsviri ilə məhdudlaşmır; o, eyni zamanda insanın daxili aləmində, ailə münasibətlərində, sosial mühitdə və mənəvi dəyərlər sistemində baş verən sarsıntıları da əhatə edir. Bu baxımdan Ramiz Rövşənin nəsr əsərləri xüsusi diqqətəlayiqdir. Yazıçının "Xəyanət" (2007) kinopovestində və "Ölü kimdi, diri kim?!" (1994) kino-pritçasında xəyanət motivi təkcə fərdi münasibətlər çərçivəsində deyil, daha geniş – ictimai, mənəvi və hətta milli kontekstdə təqdim olunur. Bədii əsərin məzmunundan irəli gələrək "arzulardan yaranan xəyanəti" və "xəyanətin yaratdığı qorxuları" tədqiqata cəlb etmək, məsələnin mahiyyətinə varmaq maraqlı məqamlara gətirib çıxarır. Bu baxımdan Ramiz Rövşənin hekayə və povestlərində müharibənin yalnız ön cəbhəsində deyil, arxa cəbhəsində də baş verən hadisələrin təsvirinin hər iki kontekstdə yeni məqamlarını görmək mümkündür. "Xəyanət" (2007) (4) kinopovestində yazıçı əsər boyu deyil, sadəcə əsərin sonunda lakonik şəkildə müharibənin ön cəbhəsindəki acı gerçəkləri bütün xırdalıqları ilə qələmə almışdır.

Əslində bu povest hərtərəfli xəyanət üzərində qurulub, az qala hamı bir-birinə xəyanət edir. Yazıçı xəyanət mövzusunu kişi-qadın münasibətləri zəminində verərək həmin dövrdə cəmiyyətdə baş verən proseslərlə əlaqəli davam etdirir. Əsərin əsas obrazlarından biri olan İsmayıl müəllim öz həyat yoldaşına xəyanət etməklə bir növ onun öz arzusuna çatmasına şərait yaratmışdı. İsmayıl müəllim oğlu Ceyhunla dialoqunda ona amansızca anası haqqında deyir: *"Elə bilirsən sənin anan bu evdən Suğraya görə gedib? Yooxx!.. Kişinin qızı artiskaydı axı. Ürəyindən yazıçı arvadı yox, rejissor arvadı olmaq keçirdi. Getdi, arzusuna da çatdı. Beşcə ilin içində əməkdar artiska oldu? Oldu! Kukla Teatrında dovşan oynamaq hara, "Azdrama" da Dezdemonanı oynamaq hara!.. Nədi? Düz demirəm?!.. Ceyhun susurdu"* (4, s. 221). Ceyhunun susması tək atasının haqlı olmasına deyil, eyni zamanda onun bu sözlərdən doğan təzadlı psixoloji durumuna dəlalət edir. Ceyhun üçün ağırdır ki, anası bu durumda həyatından razıdır, öz arzusuna çatıb. Müəllifin Dezdemona obrazına müraciət etməsi təsadüfi deyil, çünki o klassik xəyanət qurbanı obrazlarından biridir, bəlkə də ən məşhurudur: Dezdemona ərinə xəyanətdə günahlandırılaraq əri Otello tərəfindən öldürülür (5, s. 446- 447).

Evli İsmayıl və evli Suğranın münasibəti təkcə Teymurun (Suğranın həyat yoldaşı) deyil, Ceyhunun (İsmayıl müəllimin oğlu) da həyatını məhv etdi. Onlar öz arzu istəkləri uğruna başqalarının həyatını heçə sayaraq puç edirlər. Suğra ona görə həbsxanaya düşən həyat yoldaşı Teymura xəyanət edir. Həyat yoldaşının azadlığa çıxmasından sonra Suğranın İsmayıldan ayrılma səbəbi ölüm qorxusu idi. Çünki o, dərk edirdi ki, söyüş üstündə birini öldürən insan (ona görə həbsə düşmüşdü), xəyanətə görə nələr etməz... Suğra Teymuru sevməkdən çox ondan qorxurdu, düşünürdü ki, Teymur onların münasibətini öyrənəndə onları öldürəcək. Doğrudur ki, Teymur Suğranın işlədiyi bağçaya hücum etdi, amma oxucu üçün bu sual altındadır ki, o, Suğranı öldürə bilərdimi? Teymur Suğranı çox sevir və onu itirməkdən qorxur, nəticədə özünü öldürür. Çünki *"Teymur üçün xəyanət hər şeyin sonu deməkdir, arvadının xəyanətini dəqiqləşdirəndən sonra onun daha bu dünyada dayanacağı bir söykək, söykənəcəyi bir dayaq qalmır. Qisas almağın da mənası yoxdur, onun üçün heç nə dəyişməyəcək. Xəyanətin qurbanı olan Teymur intihar edir..."* (2).

Bu münasibətin qurbanlarından biri də Ceyhundur. Bəlkə də Ceyhunun cəbhəyə yazılmasına səbəb də Teymurun ölümü oldu. O, bilirdi ki, Suğra həyat yoldaşı yaşadığı müddətcə onun atasına qovuşa bilməyəcək. Lakin Teymur daha həyatda yox idi və onların arasındakı maneə ortadan qalxmışdı.

Daha bir xəyanət Ceyhunu sarsıdır. Belə ki, anasının yeni evində Kamilənin (ögey atasının birinci həyat yoldaşından olan qızı) nişanlısı ola-ola qeyri-etik hərəkəti ona başqa bir yol buraxmırdı. *"- Sən niyə mənim qeyrətimi çəkirsən?! - dedi. - Sən mənim nəyimsən? Qardaşımsan?! Anamız ayrı, atamız ayrı...Birdən gözləri bic-bic güldü, əlini Ceyhunun çiyninə qoyub: - Bura bax, - dedi, - bəlkə özün mənə aşiq ol musan?..Kamilənin sinəsi onun sinəsinə dirənmişdi, Kamilənin ətri-qoxusu onun nəfəsinə qarışırdı. Ceyhun birdən iki əliylə də Kamiləni itələdi, cumub paltar şkafından öz plaşını götürdü və qapını çırpıb anasıgildən çıxdı..."* (4, s. 248). Beləliklə, Ceyhunun gedəcəyi bir yer də qalmır, ata evi də, ana evi də onun üçün qapalıdır.

Əsərin əsas qəhrəmanları və baş verən faciələrin səbəbkarları olan İsmayıl kişi və Suğra sonda öz arzularının qurbanına çevrildilər. Suğra həyat yoldaşının, İsmayıl kişi isə öz oğlunun ölümünə səbəb oldu. Teymur və Ceyhun sanki öz ölümləri ilə onları cəzalandırdılar. Bəlkə də onlar qovuşacaqdılar, amma xoşbəxt olmaları sual doğururdu. Öz arzusuna görə kimlərisə qurban vermək nə qədər düzgün idi... Suğranın İsmayıl kişinin özünü ya şan-şöhrətini, imkanını sevməsi məsələsi də müəmmalı və mübahisəlidir.

Əsərdə xəyanətə uğrayan obrazlardan biri də Mahmud kişi idi ki, bir zamanlar yoldaşı ilə dillərə dastan olan "Mahmud və Mariya" indi ayrı düşmüşdülər. Həyat yoldaşı onu qoyub oğlunun yanına Moskvaya köçmüşdü: *"keçən il o yanvar qırğınlarından sonra dedi, gedirəm. Mən də saxlamadım"* (4, s. 224). Həyatı üçün təhlükə qorxusu Mariyanı evini tərk etməyə məcbur edir.

Başqa bir epizodda Mahmud kişinin qapı qonşularının arzu naminə mənəvi xəyanəti ilə qarşılaşırıq. Çünki onlar da Mahmud kişinin evini boşaltmasını gözləyirdilər, onlar üçün fərqi nə idi, başqa ölkəyə və ya o biri dünyaya köçsün. Onlara nəticə maraqlı idi. *"Tabutu çiynində aparanlardan biri də İsmayıl müəllimə tanış gəldi. Kafedəki o cavan oğlan idi. Mahmud kişinin qapıbir qonşusu. Üzündə qəribə bir kədər qarışıq sevinc vardı"* (4, s. 252).

Sonda yazıçı "Şuşa. Daşaltı. Yanvar. 1992-ci il" başlıqlı epiloqu ilə xəyanət mövzusuna yekun vurur. Bu xəyanət artıq ailə zəmnindən çıxmışdı... Burada öz dövlətini satan xainlərlə

rastlaşır və onların qurbanlarının ölümünün şahidi oluruq. Xəyanət mikro mühitdən makro mühitə keçir. Hər şeyin fəlsəfi əsasında bu dayanır. Yazıçı bu xəyanətin acı nəticəsini bədii boyalarla oxucusuna çatdırmağa çalışmışdır. *"Döyüşçülər qışqıra-qışqıra, söyə-söyə, canlarına güllə dəyə-dəyə, qan içində çabalayıb ölə-ölə dörd tərəfdəki boşluğa güllə atırdılar"* (4, s. 256). Vətən uğrunda döyüşən, canlarından keçən əsgərlərimiz arzularına çatmaq yolunda xəyanətə uğrayaraq Şəhidlik zirvəsinə yüksəlirlər.

Əsərin əvvəlindən sonuna qədər insanların xəyanətləri ilə rastlaşırıq. Bu xəyanətlər müxtəlif aspektlərdə verilmişdir. Belə ki İsmayıl kişi və Suğranın xəyanətini sevgi ilə əsaslandırsaq da; Mahmud kişinin qonşusunun xəyanəti maddi cəhətlə; bilet satan qadının, Göyüş kişinin, Kamilənin xəyanəti isə insan xisləti ilə bağlı idi. *"Maraqlıdır ki, povestdə xəyanətin bir neçə növünü müşahidə edirik. İnsan xislətinin ən çirkin təzahür formalarından olan xəyanət, burada, məhdud çərçivə ilə kifayətlənmir. O, qadın-kişi münasibətləri kontekstindən çıxıb şəxsi mənafe naminə vətənə, millətə, torpağa xəyanət kontekstində davam etdirilir"* (1, s. 22-23). Beləliklə, əsərdə hansı faktın xəyanət, hansının xəyanət olmayan faciə olması birmənalı deyil. Xainlərin xəyanəti nəticəsində ön cəbhədə həlak olan əsgərlərin acınacaqlı ölümü birmənalı olaraq xəyanət nəticəsidir. Şəxsi zəmində xəyanət motivi sevgi situasiyası çərçivəsində təsvir olunur. Evli İsmayıl və evli Suğranın eşq macərasının qurbanı olan Ceyhun və Teymur xəyanət qurbanları hesab edilə bilər.

Digər süjet xəttində Mariya qorxunun qurbanı olaraq isti yuvasını tərk edərək oğlunun yanına Moskvaya gedir. Əslində Mariya ilə birlikdə Mahmud kişi də öz oğlunun yanına gedə bilər, Mariyanı da tək qoymazdı. Bu epizodda xəyanət yox, faciədən söhbət gedir. Tənha qalan Mahmudun öz evini boşaltmasını gözləyən qonşularına da xəyanətdə ittiham etmək doğru olmazdı. Lakin özlüyündə yaşlı və tənha qalan adam üçün bu ağırdır.

Ramiz Rövşənin 90-cı illərdə yazdığı "Ölü kimdi, diri kim?!" (1994) kino-pritçası özündə bir çox problemləri əks etdirir. Əsərin aparıcı süjet xətti "xəyanət" motivi və onun doğurduğu situasiyadır, təsvir olunan məsələlər isə bu motivin nəticəsi olaraq ortaya çıxır. Əsərin başlanğıcında Həsən ağa ilə Qaçaqbaşı arasında baş verən münaqişənin şahidi oluruq. Biz burada Qaçaqbaşını kəndlilərin müdafiəçisi obrazında görürük. Məhz onların aralarındakı münaqişənin səbəbi Həsən ağanın camaata zülm etməsi idi.

Bu hadisə iyirmi beş il əvvəl, bəlkə də daha əvvəl baş vermişdi. Bir zamanlar jandarmalar tərəfindən yaralanan iki dost qaçıb dəyirmana sığınmışdılar. Onlardan biri sinəsindən (qaçaqbaşının rəhmətlik atası), digəri (qaçaqbaşının qoca keşikçisi) isə ayağından yaralanmışdı. Qaçaqbaşının rəhmətlik atasını dəyirmançının qızı sağaltmışdı. İlk baxışdan bu iki dost onun gözlərinin görmədiyini başa düşməmişdilər. Məhz dostların birindən (qaçaqbaşının rəhmətlik atası) dəyirmançının qızı hamilə qalmış, amma qaçaqbaşının rəhmətlik atasının bu uşaqların əkiz olmasından xəbəri olmamışdı. Biz burada qaçaqbaşının qoca keşikçisinin xəyanəti ilə rastlaşırıq ki, bir zamanlar o uşaqlardan birini qaçırdaraq dostuna aparır və digər oğlu haqqında ona heç bir məlumat vermir. Bəlkə də fiziki cəhətdən aydınlığa həsrət qalan ananı, mənəvi cəhətdən övlad həsrəti çəkməsini istəməmişdi. *"-Yaxşı ki, bilmədi,- dedi. - Yoxsa bunu da o biri balam kimi oğurladıb aparacaqdı... – Elə mən də buna görə demədim. Ona demədim ki, bir oğlun da var... - Mənə yazığın gəldi?.. Qoca dinmədi"* (3, s. 250). O yazıq qadın hardan bilərdi ki, ona xəyanət edən, arzularını ürəyində qoyub övladına həsrət buraxan məhz qoca keşikçi imiş...

Doğma qardaşını tapmaq, anasına qovuşdurmaq üçün yola çıxan qaçaqbaşının əkiz qardaşı

da xəyanətin qurbanı olur. Hansı arzularla yola çıxmışdı, başına nələr gəldi... Bəlkə də Həsən ağa ondan qisasını alıb, camaat arasında rüsvay etdikdən sonra buraxacaqdı... Amma belə olmadı, hamının lal kimi tanıdığı Xristofor onu ələ verdi. Sən demə o, polisin 21 nömrəli agenti imiş. Fikrimizcə, Xristofor sadəcə agent olduğu üçün deyil, Marqonu sevdiyi və qaçaqbaşından qısqandığı üçün onu ölümə məhkum edir. Çünki sonda ona vəzifə təklif olunanda, o rütbəni deyil, Marqonu seçdi... Məhz o öz arzusuna görə kimisə qurban verməkdən çəkinməyən bir insan idi...

Əsərin əvvəlində biz Həsən ağanın nökərlərinin xəyanəti ilə rastlaşırıq ki, onlar öz canlarının qorxusundan qaçaqbaşının onu döydüyü vaxt yaxına gəlməkdən çəkinirlər, sonda isə qorxularının əsiri olan kəndlilərin Qaçaqbaşının çətin anında ona kömək etməmələrinin şahidi oluruq.

Önəmli olan sonda qaçaqbaşının qorxuya məğlub olması, öz qardaşını xilas edə bilmədiyini görürük. O qardaş ki, hansı arzularla öz qardaşını axtarıb tapmışdı və o, özünü qardaşı yolunda qurban verərək xəyanət etmədi. Qardaş yolunda ölümü gözə aldı... *"O təbəssümdə sevgi də vardı, həsrət də... Amma qorxu və nifrət yox idi..."* (3, s. 275). Fikrimizcə, qaçaqbaşının bu hərəkəti xəyanət idi, bəlkə də o qardaşının əsl qaçaqbaşı olmamasını etiraf etsəydi, hər şey başqa şəkildə davam edə bilərdi. Sonda öz yolunda qardaşını qurban verməsi əsərin əvvəlindəki qaçaqbaşı surətinin xarakteri ilə sondakı qaçaqbaşı arasında böyük ziddiyyət yaradır.

Aparılan təhlil göstərir ki, Ramiz Rövşənin adı çəkilən əsərlərində xəyanət motivi çoxqatlı və fəlsəfi məna daşıyır. "Xəyanət" kinopovestində ailə-məişət zəminində başlayan xəyanət tədricən sosial və milli müstəviyə keçir. İsmayıl və Suğranın arzularının doğurduğu xəyanət Teymur və Ceyhunun faciəsi ilə nəticələnir; fərdi ehtiras və şəxsi xoşbəxtlik istəyi başqalarının həyatının dağılmasına səbəb olur. Əsərin epiloqunda isə xəyanət artıq dövlət və vətən kontekstində təqdim olunur və bunun nəticəsi şəhidliklə tamamlanan ümummilli faciə kimi verilir. "Ölü kimdi, diri kim?!" kino-pritçasında isə xəyanət daha çox qorxu və şəxsi maraq zəminində meydana çıxır. Qoca keşikçinin həqiqəti gizlətməsi, Xristoforun agent kimi çıxış etməsi, kəndlilərin qorxu qarşısında susqunluğu – bütün bunlar insanın daxili zəifliyinin təzahürüdür. Ən dramatik məqam isə qaçaqbaşının sonda qorxu qarşısında geri çəkilməsi və bununla da öz ideallarına zidd mövqe tutmasıdır. Bu isə obrazın başlanğıcdakı qəhrəmanlıq xarakteri ilə sonrakı davranışı arasında dərin ziddiyyət yaradır. Nəticə etibarilə, yazıçının təqdim etdiyi bədii gerçəklikdə xəyanət yalnız fərdi mənəvi qüsur deyil; o, arzuların kor ehtirasa çevrildiyi, qorxunun iradəni sarsıtdığı məqamda ortaya çıxan faciəvi seçimdir. Arzulara çatmaq naminə edilən xəyanətlər və qorxu səbəbilə baş verən susqunluqlar həm fərdi taleləri, həm də ictimai-milli bütövlüyü sarsıdır.

**Problemin aktuallığı.** Ramiz Rövşən nəsrində müharibə və xəyanət mövzularının tədqiqi, cəmiyyətin mənəvi sarsıntılarını və daxili aşınma proseslərini anlamaq baxımından böyük əhəmiyyət kəsb edir. Tədqiqatın aktuallığı, xəyanət motivinin fərdi münasibətlərdən çıxaraq milli və dövlət kontekstində araşdırılması zərurəti ilə şərtlənir.

**Problemin elmi yeniliyi.** Məqalədə Ramiz Rövşən qəhrəmanlarının xəyanətə sürüklənmə mexanizmləri "arzu" və "qorxu" dialektikası çərçivəsində sistemli şəkildə təhlil olunur. Tədqiqat xəyanətin ailə mühitindən (mikro) vətən xəyanətinə (makro) qədər uzanan fəlsəfi təkamülünü bədii mətnlər əsasında yeni baxış bucağından təqdim edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəticələri ali məktəblərin filologiya fakültələrində müasir Azərbaycan ədəbiyyatının tədrisi və yazıçının yaradıcılıq yolunun öyrənilməsi üçün etibarlı mənbə rolunu oynayır. Eyni zamanda, bu araşdırma bədii mətndə psixoloji portretlərin yaradılması və kino-dramaturgiya analizi ilə məşğul olan tədqiqatçılar üçün praktik vəsaitdir.

**Ədəbiyyat**

1. Xəlilova, A. Şuşa. Daşaltı. Yanvar. 1992-ci il: Ramiz Rövşənin “Azərbaycan” jurnalında çap olunan “Xəyanət” kinopovesti barədə // Ədəbiyyat. – 2020, 25 yanvar. – s. 22- 23.

2. Osmanoğlu, M. “Xəyanət”in üzü və astarı: Ramiz Rövşənin yaradıcılığında müharibə və insan // 525-ci qəzeti. – 2017, 28 fevral. – s. 7.

3. Rövşən, R. Köhnə qorxular (şeirlər və pritçalar) / R.Rövşən. – Bakı: “TEAS” Press Nəşriyyat evi, – 2021. – 280 s.

4. Rövşən, R. Sevgi açarı (şeirlər və povest) / R.Rövşən. – Bakı: “TEAS” Press Nəşriyyat evi, – 2019. – 256 s.

5. Şekspir, V. Seçilmiş əsərləri: [2 clddə] / V.Şekspir. – Bakı: Öndər nəşriyyatı, – c.1. – 2004. – 736 s.

**M.A.Rəcəbova**

**Ramiz Rövşən nəsrində arzu və qorxu dialektikası: xəyanətin bədii təcəssümü**
**Xülasə**

Tədqiqatda Ramiz Rövşən nəsrində xəyanət fenomeninin ontoloji və psixoloji aspektləri “Xəyanət” və “Ölü kimdi, diri kim?!” əsərləri kontekstində araşdırılır. Müəllif xəyanəti arzu və qorxu dialektikası müstəvisində təhlil edərək, fərdi ehtirasların sosial-milli faciəyə transformasiya mexanizmlərini bədii faktlarla əsaslandırır. Məqalədə mənəvi aşınmanın mikro və makro mühitlərdəki təzahürləri interpretasiya olunur, xəyanətin insanın daxili zəifliyi və ekzistensial böhranı kimi mahiyyəti elmi-nəzəri baxımdan dəyərləndirilir.

**М.А.Раджабова**

**Диалектика желания и страха в прозе Рамиза Ровшана: художественное воплощение предательства**
**Резюме**

В исследовании анализируются онтологические и психологические аспекты феномена предательства в прозе Рамиза Ровшана в контексте произведений «Предательство» и «Кто мертв, кто жив?!». Анализируя предательство в плоскости диалектики желания и страха, автор на художественных фактах обосновывает механизмы трансформации индивидуальных страстей в социально-национальную трагедию. В статье интерпретируются проявления моральной деградации в микро- и макросреде, а сущность предательства как внутренней слабости и экзистенциального кризиса человека оценивается с научно-теоретической точки зрения.

**M.A.Rajabova**

**The dialectics of desire and fear in Ramiz Rovshan's prose: the artistic embodiment of betrayal**

**Summary**

The study examines the ontological and psychological aspects of the phenomenon of betrayal in Ramiz Rovshan's prose within the context of the works "Betrayal" and "Who is Dead, Who is Alive?!". By analyzing betrayal through the lens of the dialectics of desire and fear, the author uses artistic evidence to substantiate the mechanisms by which individual passions transform into socio-national tragedies. The article interprets the manifestations of moral erosion in micro and macro environments, while evaluating the essence of betrayal as a form of internal weakness and existential crisis from a theoretical perspective.

**Redaksiyaya daxil olub:** 25.02.2026

*UOT 82.*

# AİLƏ DƏYƏRLƏRİNİN RÜFƏT ƏHMƏDZADƏ POEZİYASINDA TƏQDİMATI

**Aytac Nəzər qızı Həmidova**
*Nizami Gəncəvi adına Milli Azərbaycan*
*Ədəbiyyat Muzeyinin dissertantı*
**ORCID:** 0009-0005-1419-9465
**E-mail:** aytac.hamidova92@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.47

***Açar sözlər:*** *Rüfət Əhmədzadə, Azərbaycan poeziyası, ailə dəyərləri, milli-mənəvi dəyərlər, satira və lirika.*

***Ключевые слова:*** *Руфат Ахмадзаде, азербайджанская поэзия, семейные ценности, национально-духовные ценности, сатира и лирика.*

***Key words:*** *Rufat Ahmadzadeh, Azerbaijani poetry, family values, national-spiritual values, satire and lyrics.*

Ailə institutu insan cəmiyyətinin formalaşmasında və mənəvi dəyərlər sisteminin ötürülməsində əsas rol oynayan sosial-mədəni strukturlardan biridir. Tarixin bütün mərhələlərində ailə əxlaqi normaların, milli-mənəvi dəyərlərin, mədəni davranış modellərinin və sosial münasibətlərin ötürüldüyü əsas mühit kimi çıxış etmişdir. Bu baxımdan ailə anlayışı mədəni yaddaşın daşıyıcısı kimi ədəbiyyatda xüsusi bədii-estetik yük qazanmışdır.

Şahnaz Abdullayeva yazır ki: "Ailə kiçik dövlətdir, eyni zamanda, aid olduğu dövlətin milli dəyərlərini əks etdirən kiçik cəmiyyətdir" [1, s. 1122]

Bu mövqe ailə institutunun ədəbiyyatda niyə tez-tez milli identiklik simvolu kimi təqdim edildiyini anlamağa imkan verir. Belə ki, Azərbaycan ədəbiyyatında ailə dəyərləri mövzusu klassik dövrdən başlayaraq müasir mərhələyədək davamlı şəkildə işlənmiş, müxtəlif tarixi və ictimai-siyasi kontekstlərdə fərqli semantik çalarlar qazanmışdır. Xalq yaradıcılığında ailə münasibətləri ata-ana hörməti, nəsil davamlılığı, ailədaxili həmrəylik və mənəvi məsuliyyət anlayışları ilə təqdim olunmuş, klassik poeziyada isə bu dəyərlər fəlsəfi və etik müstəvidə ümumiləşdirilmişdir.

Rüfət Əhmədzadə Azərbaycan poeziyasında milli-mənəvi dəyərlərə həssas münasibəti, poetik dilinin səmimiliyi və sosial mövzulara incə estetik yanaşması ilə seçilən sənətkarlardandır. Şairin yaradıcılığında ailə dəyərləri fərdin mənəvi kamilliyi, sosial məsuliyyəti və mənsub olduğu mədəni mühitlə əlaqəsi kontekstində bədii ümumiləşdirmə obyekti olur.

M.K. Raşidova və A.N. Buranovanın araşdırması göstərir ki, ailə dəyərləri ənənəvi sosial mühitdə insanın şəxsiyyətinin formalaşmasında, sosial statusunun müəyyənləşməsində və yüksək mənəvi prinsiplərin aşılanmasında həlledici rol oynayır. [7]

Mövcud ədəbiyyatşünaslıq tədqiqatlarında Rüfət Əhmədzadənin poeziyası əsasən vətənpərvərlik, milli kimlik, satirik düşüncə və sosial problemlər prizmasından araşdırılmış, ailə dəyərlərinin sistemli poetik təqdimatı isə ayrıca tədqiqat obyekti kimi yetərincə diqqət mərkəzinə

çəkilməmişdir. Halbuki şairin yaradıcılığında ailə motivləri həm mövzu, həm də semantik dərinlik baxımından xüsusi yer tutur və onun poetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayıb.

F.Ə. Köçərli yazıb ki: "Şairi-kamil və ədibifazil həqiqətdə ol ədib və şairdir ki, öz millətinin dili ilə danışa, ürəyi ilə, hissi və ağılı ilə fikir edə" [6, s. 51].

F. Köçərlinin bu yanaşması göstərir ki, milli ruhun və mənəvi dəyərlərin bədii mətndə ifadəsi emosional və intellektual bütövlük əsasında formalaşmalıdır.

Rüfət Əhmədzadə poeziyasında ailə dəyərlərinin təqdimatı məhz bu prinsiplə səsləşir. Şair ailə anlayışını milli düşüncə tərzi, mənəvi hiss və sosial məsuliyyətin vəhdəti kimi poetikləşdirir.

B. Əhmədov da XX əsr Azərbaycan ədəbiyyatı haqqında qeyd edir ki: "...poetik dərketmədə epiklik və süjetlilik bir qədər geri çəkilərək öz yerini saf, təmiz lirikaya vermişdir" [2, s. 480].

XX yüzillik Azərbaycan poeziyasında poetik ifadənin mərkəzində lirika dayanmışdır. Epiklik və süjetçilik bir qədər geri çəkilərək, şairlərin fərdi duyğu və hisslərini, milli-mənəvi dəyərləri, vətənpərvərlik ideyalarını daha saf və təsirli şəkildə çatdırmaq imkanı yaranmışdır.

Rüfət Əhmədzadənin poeziyasında ata obrazı daha çox səssiz fədakarlıq, mənəvi dayaq və həyat dərsi verən bir fiqur kimi formalaşdırılır. Ata ailədə nizam-intizamın, əmək və məsuliyyət anlayışının daşıyıcısıdır. Bu baxımdan şairin poetik mətnlərində ata obrazı klassik patriarxal modeldən çox, mənəvi lider funksiyasını yerinə yetirir.

Ana obrazı isə emosional-psixoloji baxımdan daha zəngin təqdim olunur. Ana həm ailənin birləşdirici qüvvəsi, həm də fərdin daxili dünyasının formalaşmasında əsas təsiredici amildir. Şair ana obrazı vasitəsilə sevgi, mərhəmət, sədaqət kimi ümumbəşəri dəyərləri ön plana çıxarır.

Ailə mövzusunun təqdimatında Rüfət Əhmədzadə sadə, lakin dərin semantik yüklü poetik dildən istifadə edir. Məişət detallarının – ev, ocaq, süfrə, ana laylası, ata nəsihəti kimi obrazların poetikləşdirilməsi ailə anlayışını milli-mədəni yaddaşla birləşdirir. Bu detallar şairin poeziyasında simvolik məna qazanaraq ailəni mənəvi sığınacaq kimi təqdim edir.

Rüfət Əhmədzadənin *"Ölməyə vaxt tapdı dədəm"* şeiri şairin ailə mövzusuna münasibətini ən açıq, eyni zamanda ən sarsıdıcı şəkildə ifadə edən poetik nümunələrdəndir. Bu mətn ailə dəyərlərinin qoruyucu dayağı olan ata obrazının itkisi üzərində qurularaq, fərdi faciəni ictimai-mənəvi kontekstdə ümumiləşdirir.

Şeirin ilk misralarından etibarən ata itkisi ironik-satirik ifadə forması ilə təqdim olunur:

Oturub fikir elədikcə daraşır canıma qəm,
Pah atonnan, a kişi, ölməyə vaxt tapdı dədəm.

Dədəm olsaydı, məni yəqin edərdi satirik,
Hətta haqqımda yazarlardı: "Təşəbbüsdü bu ilk".
Bir əsa da götürərdim və deyərdim hələlik.
Cəlili ötmək üçün atmalıyam bircə qədəm,
Pah atonnan, işə bax, ölməyə vaxt tapdı dədəm.

Vay o gündən ki, bu aləmdə tanındım dədəsiz,
Bilirəm heç bir işim keçməyəcəkdir hədəsiz.
Ağ cığırlar salacaqdır saça, saqqalıma iz,

Bu vücudum çəkəcəkdir hələ bundan belə nəm,
Pah atonnan, işə bax, ölməyə vaxt tapdı dədəm. [3, s.62].

Burada "pah atonnan" kimi danışıq dili üslubunda olan ifadə zahirən yumoristik təsir bağışlasa da, əslində dərin kədər və acı istehza daşıyır. Şair ölüm faktını vaxtsızlıq, yarımçıq qalmış həyat və məsuliyyət kontekstində təqdim edir.

Şeirdə ata obrazı ailə daxilində mənəvi himayəçi funksiyasını daşıyır. "Dədəm olsaydı" ifadəsi ilə başlayan misralar itkinin ölçüsünü daha da dərinləşdirir. Ata:

- övladın özünəinam mənbəyi,
- sosial müdafiə qalxanı,
- mənəvi legitimləşdirici fiqur kimi təqdim olunur.

*"Vay o gündən ki, bu aləmdə tanındım dədəsiz,"* misrası ailə dəyərlərinin poeziyada necə sosial status amilinə çevrildiyini göstərir. Atasızlıq burada cəmiyyətdə mövqesiz qalmaq, zəifləmiş identiklik deməkdir. Bu məqam Rüfət Əhmədzadənin ailəni fərdin cəmiyyətlə münasibətlərində əsas vasitə kimi dərk etdiyini göstərir.

Şeirin satirik qatında ata itkisi ilə yanaşı, cəmiyyətin münasibəti də tənqid olunur. Atanın yoxluğu ilə birlikdə övladın "işinin keçməməsi", hər addımda maneələrlə üzləşməsi ailə institutunun sosial mexanizm kimi rolunu ön plana çıxarır.

Son misralarda fiziki dəyişikliklərin – saçın, saqqalın ağarması, vücudun "nəm çəkməsi" – vurğulanması ata itkisini zamanın sürətləndirici amili kimi təqdim edir. Ata yoxluğu insanı vaxtından əvvəl qocaldan, onu həyatla təkbaşına üz-üzə qoyan bir faciə kimi bədii ümumiləşdirilir.

Rüfət Əhmədzadənin *"Ay oğul"* şeiri ailə münasibətlərinin poeziyada ənənəvi, lakin dərin mənəvi qatlarını əks etdirən mühüm nümunələrdəndir. Ata obrazı burada ailədaxili tərbiyənin, həyat fəlsəfəsinin və mənəvi məsuliyyətin daşıyıcısıdır:

Dədənin sözlərini sanma yalandır, ay oğul!
Bu sayaqla başını sən də dolandır, ay oğul!

Demirəm indi gedib elmdə mahirlik elə
Çox şeyin sirrini öyrən və ya sairlik elə
Deyirəm bir para gənclər kimi "şairlik elə"
Nə özün qan, nə də özgəni qandır, ay oğul!
Bu sayaqla başını sən də dolandır, ay oğul! [4, s.38]

Verilmiş şeir parçasında ailə dəyərləri daha çox nəsihət, həyat təcrübəsinin ötürülməsi və nəsillərarası mənəvi əlaqə kontekstində təqdim olunur. Şeirin əsas ünvanı "oğul" obrazıdır ki, bu da ailədaxili münasibətlərin, xüsusilə ata–övlad və ya böyük–kiçik münasibətlərinin poetik ifadəsi kimi çıxış edir. "Dədənin sözlərini sanma yalandır" misrası ailə daxilində formalaşmış həyat hikmətinin və təcrübənin etibarlılığını vurğulayır.

Şeirin davamında nəsihət xarakterli fikirlər ailənin tərbiyəvi funksiyasını ön plana çıxarır. Müəllif gənc nəslə yalnız zahiri uğur və ya formal bilik dalınca qaçmağı deyil, həyatın mahiyyətini düzgün anlamağı tövsiyə edir. "Demirəm indi gedib elmdə mahirlik elə" misrası bilik və elmin inkarı deyil, əksinə, onların məsuliyyətsiz və məqsədsiz şəkildə mənimsənilməsinin

tənqididir. Burada ailə dəyərləri insanın daxili dürüstlüyü, əxlaqi mövqeyi və sosial məsuliyyəti ilə əlaqələndirilir.

Şeirin strukturu birbaşa müraciət forması üzərində qurulmuşdur. "Ay oğul" xitabı həm səmimi ata-övlad münasibətini, həm də nəsillərarası davamlılığı ifadə edir.

Şeirin ilk misralarında ata öz sözünün həqiqiliyini vurğulayır. Bu ifadə ailədaxili bilik və təcrübənin həyat həqiqətləri ilə təsdiqləndiyini göstərir. Ata sözü burada hökm və ya zorakılıq deyil, yaşanmış həyatın nəticəsi kimi təqdim olunur. Bu yanaşma ailə dəyərlərinin Rüfət Əhmədzadə poeziyasında avtoritar yox, mənəvi əsaslı olduğunu nümayiş etdirir.

Şeirin satirik çaları ata sözünün təsir gücünü daha da artırır. Ata övladını tənqid etsə də, bu tənqid sevgi və məsuliyyət üzərində qurulmuşdur. Bu isə ailə münasibətlərində balanslı tərbiyə modelinin mövcudluğunu göstərir.

